**VAQİF NƏSİR**

# ÖMRÜN QÜRBƏT PAYI

**BAKI – 2011**

Redaktoru: **M.Q.Allahmanlı**
filologiya elmləri doktoru, professor

**V.NƏSİR.**ÖMRÜN QÜRBƏT PAYI.ADPU-nəşriyyatı.
BAKI- 2011, 180 səh.

© 194748121501 / 1957(ə)825227 - 2011

## "ÖMRÜN QÜRBƏT PAYI"NIN ILK NƏŞRINƏ ÖN SÖZ

İxtisasa görə fizik (fizika-riyaziyyat elmləri doktoru, professor), taleсə şair olan Vaqif Nəsirin "Ömrün qürbət payı" kitabının əlyazmasını bir neçə dəfə diqqətlə oxudum. Öncə onu bildirdim ki, müəllif hamı üçün bədii-elmi-siyasi əhəmiyyət kəsb edən əsər yaratmışdır. Bu kiçik həcmli sənədli povestin oxucuya bağışladığı təəssürat həm həzin, həm də maraqlıdır. Çünki, onda təsviri verilən hadisələr Aralıq dənizinin o tayında yerləşən ərəb ölkəsinin – Əlcəzairin həyatından götürülsə də Azərbaycanımız, eləcə də planetin digər məmləkətləri, xalqları üçün vətəndaşlıq baxımından faydalıdır.

Kitabda müəllifin bizdən xeyli uzaqlarda, dost diyarda keçirdiyi unudulmaz günlər (Qətiyyətlə deyə bilərəm ki, ömrün sanballı bir parçası) öz əksini tapıb. Şirin, aydın dildə yazılmış ayrı-ayrı bölmələrdə nələr yoxdur? Gah qədim tarixə malik xalqın keçmiş, çağdaş vəziyyəti, gah təbii-iqtisadi-coğrafi söhbətlər, müasir tədris prosesi, gah da incəsənət, mədəniyyət abidələri haqqında məlumat, nəhayət öz sevimli Odlar yurdu ilə bağlı anlar, məqamlar...hansını misal gətirəsən? Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, əsərdə oxucunu ən çox sehrləyən, ovsunlayan lövhələr onun gözləri qarşısında, qoynuna heç vaxt ayaq basmadığı, üzünü heç zaman görmədiyi bir ölkənin – Əlcəzairin qabarıq halda canlandırılmasıdır. Necə deyərlər, elə bil o ecazkar Afrika məmləkətinə səyahətdən qayıdırsan mənalı, məzmunlu səhifələri bir-bir nəzərdən keçirəndən sonra.

Yuxarıda söylədiyim tək Vaqif Nəsirin ilk nəsr əsəri bir neçə radius üzrə bilik və duyğu çələngi paylayır. Birinci növbədə nəhəng qitənin şimalında yerləşən maraqlı ərəb dövləti barədə ətraflı coğrafi təsəvvür yaranır. Ikincisi – Əlcəzair xalqının adət və ənənələri, Əlcəzairdə məskunlaşmış müxtəlif qəbilələrin, tayfaların, azsaylı etnik kütlələrin yaşayış tərzi işıqlandırılır; yəni müəllifin bu istiqamətdə göstərdiyi fəaliyyət etnoqrafik mahiyyətlidir. Daha sonra onun maarifçilik xidməti ilə də

qarşılaşırıq. Bu xüsusiyyət təbiidir. Axı Vaqif Nəsir iyirmi ildən çoxdur ki, N.Tusi adına ADPU-da müəllimdir; pedaqoji kadr hazırlığı sahəsində zəngin təcrübəyə malikdir. Qürur hissi doğuran cəhətdir ki, alim – yazıçı istiqlaliyyət qazanmış bir diyarda – Əlcəzairdə də nə az, nə çox – düz dörd il mühazirələr oxuyub, məşğələlər aparıb, fizika kafedrasına rəhbərlik edib. Azərbaycan nümayəndəsinin ərəb auditoriyalarında yüksək səviyyədə, özü də fransız dilində elm öyrətməsi baş ucalığımızın daha bir təzahürü sayılmalıdır. Təlim-tərbiyə, səciyyəli tədbirlər (poeziya axşamları, Novruz bayramının qarşılanması mərasimi, Azərbaycan musiqisinin nailiyyətləri ilə əlaqədar görüşlər) Vaqif Nəsirin həm alim-pedaqoqluğunun, həm də şairliyinin məhsulu olub. Kitabda islam dininin indiyədək bizə görə az öyrənilmiş məziyyətlərinin də izahına ayrıca diqqət yetirilir. Əlcəzair tələbələrinin saflıq, düzlük, hörmət-izzət kimi insani keyfiyyətlərə doğru yönələn davranışları, hərəkətləri hətta örnək nümunə əlamətinə bənzəyir. Müəllif oxucuya bir daha xatırladır ki, Dünya görüb-götürmək dünyasıdır. Bütün xalqların irili-xırdalı bütün millətlərin xəzinələrində bəşəriyyəti faydalandıran incilər vardır və onları aşkara çıxarıb, insanlığın ixtiyarına vermək lazımdır.

Müəllifin şairlik nəfəsi də kiçik, lirik parçalar şəklində ayrı-ayrı bölmələrdə duyulur. Əlcəzair qızına, qürbətə, xüsusilə doğma Azərbaycanımıza aid misraları oxuyanda hiss edirsən ki, alim – yazıçı – publisist həm də şairdir.

Ümumiyyətlə istedadlı qələm dostum, professor Vaqif Nəsirin "Ömrün qürbət payı" adlandırdığı sənədli nəsr əsəri çoxmilyonlu oxucular üçün qiymətli hədiyyədir.

**Oqtay Rza,**
*dosent, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureat*

## YARADICI ŞƏXSİYYƏTİ VƏ BƏDİİ KAMİLLİYİN MÜMKÜNLÜYÜ

Müasir ədəbi proses bütün dövrlərdə olduğu kimi, bu gün də coşqunluqla müşahidə olunur. Burada mühitin uğurları ilə yanaşı, problem kimi münasibət bildirilməli bir sıra məsələlər var. Ən birincisi, mühütdə hökm sürən xaosun baş alıb getməsidir. Belə ki, yaradıcı istedadı oldu-olmadı böyük bir qrup şair, yazıçı olmaq iddiasına düşür və yaxşı-pisinə baxmadan bütün yazılanlar mətbuat səhifələrinə çıxarılır. Hətta elə bir vəziyyət yaranıb ki, səlahiyyət sahibləri, xalqın bütün var-dövlətinə sahib duranlar indi də ədəbiyyatına iddialı olurlar. Adlarına qalaq-qalaq kitablar çıxır. Digər istiqamət mühitdə layiq oldu-olmadı yağdırılan təriflərdir. Elə qiymətləndirmələr, mədhiyyələr söylənir ki, az qala adamın ayağının altından yer qaçır. Düşünürsən ki, bəs onda N.Gəncəviyə, M.Füzuliyə, M.Ə.Sabirə, C.Məmmədquluzadəyə, S.Vurğuna və bu silsilədən olanlara hansı sözü tapıb deyək. Rus ədibi L.Tolstoy deyirdi ki, dünyada sözdən böyük şey yoxdur. Bu doğurdan da belədir. Azərbaycanın bugünkü siyasi mühiti kimi, ədəbi mühiti də problemlərlə, qarışıqlıqlarla doludur. Sözün çürüdülməsi, ucuzlaşması baş alıb gedir. Belə olan təqdirdə həqiqi yazarın, istedadın müəyyənləşməsi özü problem yaradır. Çünki bütünlükdə yazılanları oxumaq müşküldü. Heç insanın fiziki imkanları müqabilində də deyil. Ancaq bütün bunlara baxmayaraq ədəbi proses öz işindədi. Bizim qiymətləndirə bilmədiyimizi sabah zaman adlı əlahəzrət qiymətləndirəcək.

Yaradıcılıq istedad məsələsidir. Hər bir fərd dünyaya öz istedadı, qabiliyyəti ilə gəlir. Onun mühitdə yetişməsi isə sonrakı hadisədir. Azərbaycan ədəbiyyatı həmişə böyük-böyük istedadlarla təmsil olunub. Bunu ədəbiyyat tariximizi izlədikdə də aydınlıqla görürük. Ümumiyyətlə, türk xalqları düşüncə etibarilə bədii yaradıcılığa meylli xalqlardandır. Min illərə yol yoldaşı olan zəngin şifahi

yaradıcılığımız, eləcə də yazılı bədii nümunələrimiz bunu aydınlıqla göstərir. Bugünkü ədəbiyyatımız da məhz bu ənənələrin üzərində dayanır. Bütün giley-güzarlara, iradlara baxmayarpaq maraqlı nümunələrlə, yazı tərzləri ilə, düşüncələrlə səciyyələnir. Həmin orijinal və zəngin düşüncə sahiblərindən biri də müasirimiz Vaqif Nəsirdir. Onun yaradıcılığı ilə bağlı müxtəlif vaxtlarda söz demək ehtiyacında olmuşam. Onların bir hissəsi ayrı-ayrı kitabları haqqında yazılmış resenziyalardır. Digər bir hissəsi çapa gedəcək əsərlərə ön sözdür. Lakin bütün bunlara baxmayaraq hər yeni əsərini oxuduqda təkrarən söz demək ehtiyacı yaranır. Çünki Vaqif Nəsir həmişə söz deməyə ehtiyac doğuran sənətkarlardandır. Yeni çapa hazırladığı kitabın əlyazmasını oxuduqdan sonra da təkrarən bunu hiss etdim. Və son olaraq qənaətlərimi bölüşmək zərurəti məndə yarandı.

İlk öncə onu deyim ki, Vaqif Nəsir ensiklopedik düşüncəyə malik olan şəxsiyyətlərdəndir. Azərbaycan xalqının mədəniyyət tarixində belə şəxsiyyətlər müxtəlif vaxtlarda olub. Onlar özlərinin zəkası, elmi ilə elmin, mədəniyyətin bir sıra sahələrinə töhfələrini veriblər. Eynəlqüzzat Miyanəçi, Ömər Gənci, Xətib Təbrizi, Qətran Təbrizi, Şihabəddin Sührəverdi, Nəsirəddin Tusi, Hamidi, Mir Möhsün Nəvvab və başqaları buna nümunədir. Vaqif Nəsir də əhatəli, rəngarəng yaradıcılığı ilə adını bu ustadların, sələflərinin sırasına yazıb. Vaqif Nəsir fizika-riyaziyyat elmləri doktoru, professordur. Azərbaycanda, onun sərhədlərindən kənarda özünün elmi araşdırmaları ilə tanınıb. Bunun göstəricisi kimi o, Fransada, Əlcəzairdə çalışıb. Fransa respublikasının Renn, Marsel, Bordo, Strasburq və s. universitetlərində bir-birindən maraqlı məruzələrlə çıxış edib. Fransa Kimyavi Fizika Cəmiyyətinin üzvü olub. Əlcəzair Milli Yüngül Sənaye İnstitutunda kafedra müdiri işləyib. Orada kadrların hazırlanmasında

əlindən gələni əsirgəməyib, fizikanın ayrı-ayrı problemləri ilə bağlı maraqlı dərs vəsaitləri, proqram və kitablar yazıb.

Yeni çapa hazırladığı «Ömrün qürbət payı» kitabında mühüm bir hissəni həmin dövrlə bağlı sənədli povest tutur. İndi o illərdən xeyli vaxt keçir. Artıq V.Nəsir Azərbaycan elminə, pedaqoji fikir tarixinə, ədəbiyyatına özünün töhfələrini verib və bu gün də verməkdədir. Onun fizika sahəsində gördüyü işlər, apardığı tədqiqatlar, dərslik, dərs vəsaitləri, metodik göstərişlər elmimizin inkişafına, gənc kadrların hazırlanmasına yönəlikli işlərdir. Bu V.Nəsirin fizika-riyazhiyyat elmləri doktoru, professor kimi fəaliyyətidir. Onun digər tərəfində bədii yaradıcılığı dayanır.

Vaqif Nəsir Azərbaycan xalqının yaddaşına bir şair kimi adını yazıb. Şairliklə alimlik onda qoşalaşır, biri-digərini tamamlayan fakta çevrilir. Onu da etiraf edək ki, V.Nəsir şeiri xalqımızın müstəqillikdən sonrakı həyatının, müstəqillik sevincinin, onun gətirdliyi ağrılarının göstəricisidir. Son dövr ədəbi proseslə bağlı gileylərimizi, iradlarımızı müxtəlif vaxtlarda demişik və demək məqsədində olmuşuq. Yuxarıda da mühit kontekstində məsələyə münasibət bildirdik. Ancaq bütünlükdə V.Nəsir şeiri bu tendensiyalardan, boğazdan yuxarı söz demədən uzaqdır. O, sözün həqiqi mənasında sözə, böyük ədəbiyyata xidmət edib və etmədədir. Demək olar bütün şeirləri böyük sevgiyə, vətən, yurd, torpaq, həyat sevgisinə və müqəddəs Azərbaycanımızın ağrılarına köklənib. Bu şeirlər iyirminci əsrin sonu iyirmi birinci əsrin ilk onilliyinin bədii mənzərəsidir. Bir növ tarix, tarixi reallıqdır. Çox az yaradıcının yazıya gətirə bildiyi həqiqətlərdir. Bu özlüyündə sonsuz sevgi və cəsarətin faktıdır. Ə.Xaqani, M.Füzuli, C.Məmmədquluzadə, M.Ə.Sabir ənənəsinin yaşarlığıdır.

V.Nəsirin zəngin yaradıcılığı təkcə alimliyi, şairliyi ilə bitmir. «Ömrün qürbət payı» adlı kitabı onun yaradıcılığının digər tərəflərini də ortaya qoyur. Burada o həm də bir nasir, dramaturq, publisist kimi diqqəti cəlb

edir. Kitabda gedən «Ömrün qürbət payı» onun nasir kimi yaradıcı imkanlarını xarakterizə edir. Bu sənədli povesti bir neçə dəfə oxumuşam. Hər dəfə də məndə maraqlı təəssüratlar yaradıb. Eyni zamanda o qənaəti doğurub ki, V.Nəsirin alimliyindən, şairliyindən heç də geri qalmayan nasirliyi var. Ancaq təəssüf ki, bədii nəsr nümunələri yaratmağa çox az meyl göstərir.

Povest avtobioqrafik xarakterlidir. Daha doğrusu, V.Nəsirin səfər təəssüratlarını, onun bir neçə illik qürbətdə yaşaması ilə bağlı zamanı əhatə edir. Ən maraqlı olanı isə etnoqrafik səciyyə daşıması ilə bağlıdır. Burada bəlkə də bir institutun deyib çatdıra bilməyəcəyi etnoqrafık məlumat var. Xalqın məişətini, adət-ənənəsini, tarixini öyrənmək üçün zəngin material verir. Qətiyyətlə demək olar ki, V.Nəsir hər hansı bir əlcəzairli tədqiqatçının bacara bilməyəcəyi informasiya bolluğu ilə əsərinə rövnəqlik gətirib. Burada dil rəvanlığı ilə yaradıcı səriştəsi biri digərini tamamlayır. Son dövr ədəbi prosesdə bu xarakterli əsərə demək olar çox az-az təsadüf edilir. Burada müəllifin qarşılaşdığı ən maraqlı hadisələr, qədim tarixi yaşayış məskənləri, xalqın keçib gəldiyi inkişaf yolu, min illərdən bəri formalaşan məişəti, müstəmləkəçilikdən sonrakı dövrü, bu gün demokratiyanın məkanlarından biri kimi təqdim olunan Fransa müstəmləkəçiliyinin amansızlıqları, azadlıq hərəkatı, təhsil sistemi, müasir əlcəzairlilərin dünya, həyat haqqında təsəvvürləri və s. ayrı-ayrı bölmələrdə ümumiləşdirilir. «Əlcəzairə balaca Paris deyirlər», «Əlcəzair, yoxsa Braziliya», «Əlcəcəzairdə qəbul imtahanları», «Bumerdes gənclik şəhəridir», «Bayramlar, bayramlar», «Böyük səhra vadisi boyu səyahət», «Səhra gözəli Qardaya», «Mzabada gəzinti», «Uarqla Əlcəzair səhrasının paytaxtıdır», «Əl-ued min günbəzlər şəhəridir», «Tuqurt səhranın keçmiş paytaxtıdır», «Biskra da böyük səhranın qapısıdır» və s. kimi başlıqlarda verilən informasiyalar bir istiqamətdə Əlcəzair haqqında bütöv təsəvvür yaradırsa,

digər istiqamətdə V.Nəsirin yaradıcı imkanları haqqında düşünməni zəruriləşdirir. Çünki bu qədər faktları bədii boyalarla təqdim edə bilmək özü böyük qabiliyyət tələb edir. V.Nəsir bu təsvirlərə o qədər şirinlik qatmışdır ki, o yerlərə görməzə-bilməzə vurulursan, valeh olursan. Sanki həmin yerləri gəzib-dolaşmış kimi görünürsən. Budur yaradıcı istedadı. Müasir dövrümüzdə məhz belə bədii nümunələrə daha çox ehtiyac duyulur.

Bu kitab V.Nəsir yaradıcılığının bir başqa tərəfinə, dramaturji fəaliyyətinə də diqqət yetirməyi zəruri edir. Onun kitabda elə də irihəcmli olmayan iki pyesi («Yenə də qatarda», «Bir elmi-tədqiqat sektorunda») verilmişdir. Hər birisi özünün bütövlüyü və mükəmməlliyi ilə maraqlıdır və müəllifin tipik şəraitdə tipik xarakterlər yaratma bacarığını ortaya qoyur. Onlardan biri «Yenə də qatarda» adlanır. Pyes görkəmli yazıçımız İ.Məlikzadənin xatirəsinə həsr olunmuşdur. Elə də mürəkkəb olmayan kompozisiyada hadisələr əhatəliliyi və dəqiqliyi, məqsədi ifadə edə bilməsi ilə bütövdür. Adından göründüyü kimi qatarda baş verən bir olayın tipik təcəssümü diqqəti cəlb edir. Əsəd, Şiroğlan, Babalı, Əhmədov, Kamal və qatar bələdçisindən ibarət olan bu obrazlarla müasir həyatımızın tipik mənzərəsi canlanır. Qatarda təsadüfən Əsədə, Şiroğlana, Babalıya (kənddə təsərrüfatın məsul işçiləridir) yoldaş olan Əhmədov bunların içinə bir narahatlıq toxumu səpir. Bu onun görkəmi, rəftarı və hərəkətləri ilə olur. Əhmədovun «mən İcra hakimiyyətinin bufetində işləyirəm. Bufetçiyəm. Sizin rayonun bütün icra başçılarına xidmət etmişəm. Hamısını beş barmağım kimi tanıyıram. Qonşu rayonlardan xəbərlər, söhbətlər də ilk dəfə bizim bufetə gəlib çatır» deməsilə hər şey aydınlaşır. Şiroğlanın isə «əşi, Allah saxlasın, cənab Əhmədov! Bayaqdan ürəyimizi yemişik ki…» söyləməsi isə bir başqa mənzərəni, vəzifə sahiblərinin hansı həyatı yaşamasını gözlərimiz önündə canlandırır. Əsərin süjeti, kompozisiyası nə qədər sadədirsə, oradakı mahiyyət

psixologizm bir o qədər dərindir. Bu gün belə səhnə əsərlərinin yazılmasına və ictimaiyyətə təqdiminə daha çox ehtiyac var.

«Bir elmi tədqiqat sektorunda» pyesində isə yaşadığımız həyatın tamamilə bir başqa tərəfi, vəzifə sahiblərinin iddiaları, mənəm-mənəmlikləri, hər şeyə yuxarıdan aşağı baxmaları, həqarətləri və s. əksini tapır. Bu günümüzün reallığıdır. V.Nəsir bunları bir xülya, fantaziya kimi xəyallarında yaratmayıbdır. Əksinə, həyatımızdan götürübdür. Belə hadisələr bugünkü mühitimizdə addımbaşıdır. Acınacaqlı odur ki, bunlar elm sahəsində baş verir. Diqqət etdikdə digər sahələrdə olanların dəhşətləri yada gəlir. V.Nəsir bir yaradıcı kimi həmin problemləri qabardır. Onu ibrət dərsi kimi təqdim edir. Sektor müdiri Atazadənin şəxsində olanlar, həqiqi elm adamlarının qiymətləndirmə çətinliyi, onların haqlarının tapdanması, Natiq kimilərin elmə gətirilməsi və elmdən başqa hər şeyə qadirlikləri və s. əksini tapır. Etiraf edək ki, bu gün elmə layiqlilərin gətirilməsi çətinliyi var. Mənsəb, vəzifə sahibləri öz qohum-əqrəbəsini, yaxınlarını elmə sırımaq yolunu tutublar. İstedadların, aşağı təbəqədən olanların isə bir qarın çörək pulu qazanmağa başı qarışdırılıb. Budur cəmiyyətimizin ağrıları. Atazadələrin tutduqları yol bundan ibarətdir. V.Nəsir də bütün bunları bir sektorda baş verənlər səviyyəsində təqdim edir. Bu özlüyündə yaradıcının iç ağrılarıdır və cəmiyyət fövqündə yaşananlardı. Belə olan vəziyyətlərdə hədə-qorxular, təhdidlər, şər-böhtan, pis olan nə varsa hamısı işə düşür. Lakin bütün ağırlıqları öz çiyinlərinə götürən həqiqi elm sahibləri heç nəyə əyilmir. Son olaraq onlar yaxşı bilir ki, nəticə, qalibiyyət onlarladır. Burada da belədir. V.Nəsir bütün bunları yüksək sənətkarlıq hesabına kiçik bir səhnə əsərində verə bilir.

Kitabda mühüm bir hissəni V.Nəsirin publisistik məqalələri tutur. Son dövr publisistikanın ədəbi mühitdə aparıcılığı məlumdur. Bunun bir sıra köklü səbəbləri var.

Ən başlıcası siyasi mühitin diqtəsi ilə bağlıdır. Publisistika bir forma kimi informasiyanın çatdırılmasına, çevikliyə hesablanıb. Siyasi mühitin qarışdığı zamanlarda isə bu forma digər növləri, poeziyanı, nəsri, dramaturgiyanı üstələyir. Sovetlər imperiyasının sön dövrlərindən bu Azərbaycan mühitində də bir aydınlıqla görünür. On doqquzuncu yüzilliyin sonu iyirminci yüzilliyin əvvəllərində də belə olmuşdur. Bir növ mühitin gərginliyi bu formanı aparıcı mövqeyə çıxarır. Azərbaycan publisistikası müasir çağımıza qədər böyük inkişaf yolu keçib. Bütün zənginlikləri ilə düşüncəmizi izləyir. V.Nəsir publisistikası isə portret oçerk səviyyəsində maraq doğurur. Bu bir növ elmimizin, mədəniyyətimizin böyük ziyalılarına rəğbətin, münasibətin ifadəsidir. «Mənalı ömürdən məqamlar», «Böyük müəllim, istedadlı təhsil təşkilatçısı», «Görkəmli alim», «Nurlu insan», “Ağır itgi”, «Mənalı ömür, işıqlı insan» adlı publisistik oçerkləri Azərbaycan elmində, mədəniyyətində, təhsilində mühüm xidmətləri olan ziyalıların qiymətləndirilməsinə həsr olunub. Bu gün belə qiymətləndirmələrə bizim ehtiyacımız çoxdur. Çünki gələcəyimiz bu böyük ziyalılarla bağlıdır. Bütün ağırlıqlar həmişə ziyalıların çiyinlərində daşınıb. Bu gün də belədir. V.Nəsir də bunları nəzərə alıb qiymətləndirmələr aparmış, Azərbaycan elmində, mədəni mühitində xüsusi yeri olan prof. Y.Əsədov, prof. R.Yahyayev, prof. İ. Abdullayev, prof. İ.Cəfərov, dos.Ş.Məmmədov Masallıda Boradigah qəsəbə orta məktəbində uzun müddət direktor işləmiş dil-ədəbiyyat müəllimi Nəriman Muxtar oğlu Hüseynov haqqında portret oçerklər yazmışdır. Belə yazıların dəyəri əvəzsizdir. İllah da mühitin ağrılı, zamanın dolaşıqlıqlarla dolu olduğu vaxtda. Ancaq haqqında portret oçerklər getmiş bu işıqlı şəxsiyyətlərin, eləcə də bu silsilədən olanların hamısının yeri ucalıq olmalıdır. V.Nəsir də bir yaradıcı kimi bütün bunları görür və onların gördükləri böyük işləri xalqa təqdim etməyə çalışır. Və bu yazılar da özünün aydınlığı, dil

zənginliyi, bütövlüyü ilə əhəmiyyət kəsb edir. Bu yaradıcı mənəvi borcudur. V.Nəsir də bu borcu ləyaqətlə yerinə yetirir.

Son olaraq bir məqama da diqqət yetirim ki, V.Nəsir hansı formada düşüncələrini ifadə etməsindən asılı olmayaraq həmişə üslubuna sədaqət göstərən yaradıcılardandır. Onun istər publisistikasında, səhnə əsərlərində, istərsə də nəsrində xalqdan gələn bir sadəlik, xalq ruhunun aparıcılığı var. Bu səbəbdən də V.Nəsir yaradıcılığı təsirli və seviləndir. Belə bir sevgini qazanmaq isə hər kəsə nəsib olmur.

**Mahmud Allahmanlı**
*filologiya elmləri doktoru, professor*

MÜƏLLİFDƏN

Əziz oxucum! "Ömrün qürbət payı" sənədli povesti 1987-88-ci illərdə yazılmış və ilk dəfə 1994-cü ildə ayrıca kitab şəklində nəşr olunmuşdur. Povest kiril əlifbası ilə çap olunduğundan və sovet dövründə yazıldığından onu yenidən nəşr etdirmək qərarına gəldim. Lakin povesti yenidən nəzərdən keçirib işləyən zaman onda yeni əlavələrə əsas və yer tapmadım. Belə ki, povestə ediləcək əlavələr onun ruhunu dəyişər hadisələrə obyektiv baxışdan uzaqlaşdırardı. Ona ğörə də onu çox cüzi əlavələrlə yenidən sizin ixtiyarınızaverirəm. Nəzərə almaq lazımdır ki, povestdə verilən faktlar, xüsusilə ölkə şəhərlərinin demoqrafiyası, bölgələrin sənayesi və kənd təsərrüfatı və s, haqqında məlumatlar həmin illərin statistik məlumatları əsasında verilmişdir. Həyat yerində saymadığından təbii ki, mənim gəzdiyim, gördüyüm və yaşadığım yerlərdə də inkişaf və böyük dəyişikliklər baş vermişdir. Ona görə də povestdə verilən məlumatların keçən əsrin 80-ci illərinin son onluğuna aid olduğunu nəzərə almanızı xahiş edirəm.

Vaqif Nəsir

## ÖMRÜN QÜRBƏT PAYI
### *(sənədli povest)*

Mən hər dəfə səfərə hazırlaşanda (fərqi yoxdur, yaxın və ya uzaq olsun) kosmonavtları xatırlayır və onların əsəblərinin möhkəmliyinə qibtə edirəm. Xüsusilə dünyanın ilk kosmonavtı Y.Qaqarinin kosmosa uçuş ərəfəsində təzyiq və ürək döyüntüsünün normal olması, uçuşdan qabaqkı gecə dərin yuxuya getməsi məni sadəcə olaraq ona məftun etmişdi. Mən isə... Ən yaxın səfərə gedəndə belə həyəcan keçirir, bütün gecəni yata bilmirəm. Görünür elə ona görə də mən kosmonavt ola bilməmişəm...

Əlcəzairə yola düşmək xəbərini aldıqdan sonra ilk iki günü tələm-tələsik hazırlıq işləri ilə məşğul oldum. Moskvaya uçuş gecəsi isə əsla yata bilmədim (bir fikir verin, kosmosa yox, Moskvaya). Düşüncələr bir an məni sakit buraxmırdı. Ailəmlə birlikdə Əlcəzairə uzun müddətli ezamiyyətə yola düşürdüm.

Əlcəzair bir çox azərbaycanlı kimi mənim də xatirimdə özünün qəhrəman qızı Cəmilə ilə iz salıb. Yaxşı yadımdadır, o vaxt rayonumuzda "Cəmilə" filmini nümayiş etdirəndə kinoklubda iynə atsaydın yerə düşməzdi! Həmin film göstərildikdən sonra kəndimizdə anadan olan əksər qızların adını Cəmilə qoydular.

Qarşıdakı səfər məni Cəmilənin Vətəninə aparırdı. Mən bu qəhrəman qızın ana torpağına ayaq basacaq, mərd Əlcəzair xalqı ilə yaxından tanış olacaq, inkişaf etməkdə olan və inamla müstəqil addımlar atan bir ölkənin quruculuq işlərində (daha dəqiq desək, mütəxəssislər hazırlığı sahəsində) digər mütəxəssislərlə çiyin-çiyinə iştirak edəcəkdim.

### İLK GÖRÜŞ

"Boinq-747" Moskvanın "Şeremetyevo-2" təyyarə meydanından birbaşa Marselə uçdu. Marseldən Əlcəzairə kimi təyyarə ilə 50 dəqiqəlik yoldur. Nəhayət, yerli vaxtla saat 24-də

Əlcəzairin “Huari Bumediyən” adına təyyarə meydanına gəlib çatdıq. Bu, Moskva vaxtı ilə səhər saat 3-dür. Gözəl kondisionerlə təmin olunmuş təyyarədən çıxan kimi sanki isti təndirə düşdük. Əlcəzairlilərlə ilk tanışlığımız əlbəttə ki, kömrükxanadan başladı. Kömrükxana müvəkkili bütün şeylərin açılmasını tələb edir, yanında duran digər müvəkkillə söhbət edə-edə çemodanın içinə əl gəzdirir, sonra da təbaşirlə işarə vurur ki, bu qab yoxlandı. Özününkülərlə çox kobud şəkildə, əcnəbilərlə isə nisbətən mədəni davranırlar. Bizim növbəmiz çatanda kömrükxana müvəkkili hərəsinin əlində bir qutu olan mənim üç oğlumu görüb gülümsədi. O, əvvəlcə birinci qutunu açdı. Oradan nəhəng bir Şaxta baba çıxdı. Ikinci uşağın əlindəki qutunu açanda, içində bir metr yarımlıq yolka ağacını gördü. Üçüncü uşağın əlindəki qutunun üst hissəsini aralayıb Qarqızı görən kimi bərkdən güldü və “o key” dedi. Sonra o biri qabları yoxlamadan işarələdi. Böyük oğlumdan fransızca soruşdu: Adın nədir? Mən: - Emindir-dedim.

O isə gülə-gülə: - Aha Məhəmmədəmin, Məhəmmədəmin- deyə təkrar etdi. Sonra isə: - Siz müsəlmansınız – deyə soruşdu. Mən: - Bəli biz Bakıdanıq, Azərbaycandan – dedim. O isə: Çox yaxşı, çox yaxşı – dedi. Xoş gəlmişsiniz.

Təyyarə vağzalında demək olar ki, yükdaşıyanlar yoxdur. Bütün şeyləri özün daşımalı olursan. Gözləmə zalında bizi qarşılamağa gələn mütəxəssislərimizin nümayəndələrini gördükdə sevincimizin həddi-hüdudu yox idi. Sanki uzun illərdi ki, vətəndən ayrılmışdıq və ilk dəfə idi ki, özümüzünküləri görürdük. Üzünü ilk dəfə gördüyümüz və hətta adlarını bilmədiyimiz yerlilərimizlə qucaqlaşıb- öpüşdük.

Əlcəzair Milli Yüngül Sənaye İnstitutunun xüsusi avtobusu bizi Bumerdes şəhərinə gətirib çıxardı.

Bumerdes 1983-cü ilin sonuna kimi inzibati şəhər sayılırdı. Bu şəhərə daxil olmaq üçün xüsusi buraxılış vərəqi tələb olunurdu. Bumerdes ölkənin paytaxtı Əlcəzair şəhərinin şərqində, ondan təxminən 47-48 km məsafədə yerləşir. 1

yanvar 1984-cü ildən ƏXDR prezidentinin dekretiylə Bumerdes eyni adlı vilayətin mərkəzinə çevrilib. Həmin tarixə kimi Bumerdesdə bir neçə ali məktəb (Neft İnstitutu, Yüngül Sənaye İnstitutu, Mexanika və Sənaye İnstitutu) və bir də SONATRAK neft şirkətinin laboratoriyaları yerləşirdi.

Vaxtilə fransız müstəmləkəçilərinin hərbi bazası yerləşən və həm də onların istirahət zonası sayılan bu şəhər (Bumerdes Aralıq dənizi sahilindədir və çox gözəl çimərlikləri vardır) hazırda Əlcəzairin müasir və ən perspektivli şəhərlərindəndir. Əhalisi 5 mindən çox olan bu şəhərdə mindən artıq sovet mütəxəssisi və onların ailə üzvləri yaşayırdı.

Bumerdesin mərkəzində bir villa var. Həmin villa Yüngül Sənaye İnstitutunda işləyən sovet mütəxəssislərinin klubudur. Klubun qarşısında geniş meydan vardır. Avtobusumuz həmin meydana yaxınlaşanda "Ura" səsləri və alqışlar bizim heyrətimizə səbəb oldu. Sən demə bu bir adətdir ki, hər dəfə yeni sovet mütəxəssisləri Əlcəzairə gələndə "köhnələr" bu meydana yığışır və yeni gələnləri təntənəylə qarşılayırlar. Və sonra da köməkləşib hər ailəni öz evinə ötürürlər. Ənənəyə görə qarşılayanların içərisində hökmən hər bir mütəxəssisin işlədiyi kafedranın bir əməkdaşı da olmalıdır. Yenə də həmin ənənəyə görə qarşılayan səhəri gün yeni gələni ailəsi ilə öz evinə nahara dəvət edir və şəhəri gəzdirir. Çox gözəl qaydadır. Məhz səni qarşılayan yeni düşdüyün mühitə alışmaqda sənə böyük kömək göstərir.

Bizim ailəni qarşılayan gələcək kafedramızın əməkdaşı L.Vaselyova idi. İrkutsk Politexnik İnstitutundan gəlmiş 45-46 yaşlı bu qadın o qədər dilli (hətta mənimlə də arada fransızca danışırdı) və qıvraq idi ki, elə birinci gündən ailəliklə ona heyran qalmışdıq.

Gecə saat 3-də (yəni səhər) Bumerdesdə bizim üçün ayrılmış dörd otaqlı mənzilə gəlib çatdıq. Uşaqlar ayaq üstə yatırdılar. Mən özüm də elə yorulmuşdum ki, yatmaqdan başqa heç bir şey barədə düşünmürdüm.

Şeyləri evə daşıdıq. Veselyovadan başqa bir kişi də bizə kömək edirdi. Maşını boşaltdıqdan sonra mən Veselyovaya, sürücüyə (demə sürücü də mütəxəssis imiş) və həmin kişiyə "çox sağ olun" dedim. Və birdən həmin kişi azərbaycanca "dəyməz" dedi. Mən həyəcanla: - Qardaş, sən azərbaycanlısan? – deyə soruşdum. O isə belə dedi: - Siz yoldan gəlmişsiniz, istirahət edin, hələ çox görüşəcəyik. Sonralar yaxından tanış olduq. Bu Bakı Rabitə Texnikumunun müəllimi Fərman Hüseynov idi. Bumerdesdə Yüngül Sənaye İnstitutunda işləyirdi.

Şeylərimizi evin ortasına yığdıq və təzə mənzilimizi nəzərdən keçirib, öz-özümə düşündüm: "İlahi, yəni bu mənzildə biz dörd il yaşaya biləcəyikmi?"

## ƏLCƏZAİRDƏ TƏHSİL SİSTEMİ

Əlcəzairdə milli-azadlıq inqilabının qələbəsindən sonra, yəni 1965-ci ildə Afrika Neft və Toxuculuq mərkəzi yaradılmış və sonralar (1975-ci ildə) bu mərkəz iki müstəqil institutun – Milli Neft və Qaz, Milli Yüngül Sənaye İnstitutunun bazası olmuşdur. Milli Yüngül Sənaye İnstitutu (MYSİ) yarandığı vaxtdan indiyə kimi ölkə sənayesi üçün təxminən 4000 texnik və mühəndis hazırlamışdır. Institutda 18 ixtisas üzrə 1700-ə yaxın tələbə təhsil alır. Hər il institutu 400-ə yaxın tələbə bitirir. Institutda fəaliyyət göstərən 26 kafedra, 5 dekanlıq arasında bölüşdürülmüşdür. Bizim fizika kafedrası fundamental elmlər fakultəsinə daxildir. Ümumtəhsil kafedralarında dərslər "Tron-komən" (bu proqramı fransızlar təklif etmişlər) adlanan proqram üzrə aparılır. Bu proqram 1983-cü ildə ölkənin ali təhsil nazirliyi tərəfindən bütün ali məktəblər üçün təsdiq olunmuşdur. Əlcəzairin bütün ali məktəblərində tələbələr iki il müddətində eyni proqramla ümumtəhsil fənləri üzrə dərslər keçirlər. Əgər tələbə həmin müddətdə öz ixtiasını dəyişmək fikrinə düşsə, deməli asanlıqla bir institutdan digərinə və ya

universitetə keçə bilər (Proqramın ümumiliyi məhz bundan ötəridir).

MYSİ-də tələbələr üç bölmədə təhsil ala bilərlər. Bunlardan birincisi dövlət mühəndisləri bölməsidir. Ikinci bölmə tətbiqi mühəndislər, üçüncüsü isə texniklər bölməsi adlanır. Birinci bölmədə təhsil müddəti 5 il, ikincidə 4 il, üçüncüdə isə 2 il yarımdır. Üçüncü bölmə bəzən də texnikum adlanır.

Birinci bölməyə daxil olmaq üçün abituriyent hökmən bakalavra malik olmalıdır. Birinci iki bölmədə abituriyentlər həmişə çatışmadığından qəbul imtahanları keçirilmir. Bu bölmələrdə qəbul yalnız sənədlər əsasında aparılır. Üçüncü bölməyə daxil olmaq istəyənlər isə qəbul imtahanı verirlər (bu da abituriyentlərin sayı ilə bağlıdır). Qəbul imtahanları üç fəndən yazılı formada aparılır: fizika, riyaziyyat və kimyadan. Abituriyentlər bir gün ərzində bütün imtahanları verib evlərinə qayıdırlar. Günün birinci yarısı (3 saat müddətində) fizika və kimyadan, ikinci yarısı isə riyaziyyatdan imtahan verirlər. İmtahanın nəticəsi 20 ballı sistemlə qiymətləndirilir. Tələbələr pulsuz yataqxana, gündə üç dəfə pulsuz yeməklə və üç aydan bir təqaüdlə təmin olunurlar (üç aylıq təqaüd 1500 dinardır).

İnstitutun tədris binaları, yataqxanaları və yeməkxanası eyni ərazidə yerləşir. Həmin ərazidə dindar tələbələr üçün xüsusi məscid də vardır. Həmin məscidin üstündə qurulmuş ucadandanışanlar gündə 5 dəfə tələbələri namaz qılmağa çağırır.

MYSİ-də dərslər səhər saat 8-də başlayır. Bir qoşa saat iki 50 dəqiqədən ibarətdir. Hər 50 dəqiqədən bir 10 dəqiqə tənəffüs verilir. Saat 12-dən 13-ə kimi günorta fasiləsi elan olunur. Sonra dərslər saat 13-dən 17-ə kimi davam edir. Böyük birləşmələrdə mühazirələr bir saat yarım ərzində fasiləsiz aparılır.

Ümumiyyətlə tələbələr həmişə vaxtın azlığından şikayətlənirlər. Doğrudan da tələbələrin hər dəfə dərs cədvəlini

nəzərdən keçirdikdə onlara ürəkdən acıyırsan. Həqiqətən müstəqil iş üçün vaxt qalmır.

Tələbələrin semestr ərzində hazırlığına nəzarət xüsusi sistem üzrə aparılır. Bu "illik qiymət" sistemi adlanır. Tələbələr hər semestrdə iki kompozisiyon (bizdəki kollokviumlara bənzəyir) və iki interraqasiyon verməlidirlər. Kompozisiyon hökmən yazılı (burada hər variant bir nəzəri sualdan və bir neçə məsələdən ibarət olur), interraqasiyon isə (fransız sözüdür, sorğu deməkdir) şifahi də ola bilər. Tələbənin illik qiyməti belə hesablanır: kompozisiyon və interraqasiyonların ümumi balları toplanır və onun əlli faizi götürülür və bu öz növbəsində laboratoriya məşğələsindən alınan balın əlli faizi ilə toplanır. Həmin hesablama əməliyyatı bütün fənlər üzrə aparılır, toplanıb fənlərin sayına bölünür və ümumi orta qiymət tapılır. Əgər ümumi orta qiymət 10-dan (yəni maksimum balın yarısından) böyükdürsə, onda tələbə heç bir imtahan vermir. (Əgər tələbə bir-iki fəndən 10 baldan kiçik qiymət alsa belə). Əgər ümumi orta qiymət 10-dan kiçik olsa, onda həmin tələbə 10-dan kiçik qiymət aldığı bütün fənlərdən imtahan verməlidir. Əgər tələbənin ümumi orta qiyməti 10-dan böyük, lakin bir və ya iki fəndən qiyməti 7-dən kiçikdirsə, onda o, hökmən (baxmayaraq ki, ümumi orta 10-dan böyükdür) həmin fənlərdən imtahan verməlidir. Bu cür hallar olur. Məsələn, deyək ki, tələbə fizikadan 6, ərəb dilindən isə 16 bal almışdır. Əlbəttə orta qiymət 10-dan böyükdür. Lakin belə olan halda həmin tələbə fizikadan hökmən imtahan verməlidir. Bundan əlavə tələbənin illik orta qiyməti 10-dan böyük olarsa və həmin tələbə ayrı-ayrı fənlərdən aldığı qiymətləri yaxşılaşdırmaq istəyirsə, onda o, könüllü imtahan verə bilər. (Belələri çox az olur) Ayrı-ayrı fənlərin çətinlik dərəcəsini müəyyənləşdirmək üçün balların hesablanması zamanı əmsal daxil edilir. Məsələn ərəb dili üçün əmsal 1-dirsə, fizika və riyaziyyat üçün əmsal 2-dir. Bu o deməkdir ki, ümumi orta qiymət hesablananda ərəb

dilindən alınan qiymət 1-ə, fizika və riyaziyyatdan alınan qiymət 2-yə vurulur.

Təqaüd qazandığı müvəffəqiyyətdən asılı olmayaraq bütün tələbələrə verilir. Tələbə buraxdığı dərslərin miqdarına görə təqaüddən məhrum edilə bilər. Ümumiyyətlə MYSİ-də son illər intizama böyük diqqət yetirilir. Belə ki, tələbə üzürsüz səbəbdən 3 saat dərs buraxmışsa, o, institutdan xaric edilir. Ümumiyyətlə irəlidə qeyd etdiklərimiz təkcə MYSİ-na aid olmayıb, bütün Əlcəzair ali məktəblərinə şamil oluna bilər.

## ƏLCƏZAİRLİ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

Mən Əlcəzairə gələndə ali məktəblərdə artıq dərslər başlanmışdı. Dərslər sentyabrın 1-dən deyil, havanın temperaturundan asılı olaraq bir qədər gec də başlana bilir. Mən işlədiyim dörd il müddətində dərslər hər dəfə bir tarixdə başlanırdı və mənim tələbələrlə ilk görüşüm gəlişimdən üç gün sonra baş verdi. Adətən yeni gələn müəllim tərcüməçi müəllimin müsahibəsindən keçir, sınaq mühazirəsini oxuyur (sınaq mühazirəsində kafedranın bütün əməkdaşları, dekan, habelə tərcüməçi iştirak edir) və bu mühazirədən müvəffəq qiymət aldıqdan sonra auditoriyaya buraxılır. Onu da qeyd edim ki, sınaq mühazirəsi müəllimin biliyini deyil, dil hazırlığını yoxlamaqdan ötrüdür. Qəbul olunan qaydaya görə yeni gələn müəllimlər tərcüməçi-müəllimlərin tutduqları plan üzrə bütün il boyu fransız dilini təkmilləşdirmək üzərində işləyir və ilin sonunda imtahan verirlər.

İlk mühazirəni ikinci kurs tələbələrinə oxumalı idim. Birləşmədə 150 tələbə var idi. Müvafiq auditoriya olmadığından həmin mühazirə tələbə yeməkxanasının böyük salonuna təyin olunmuşdu. (Qeyd edim ki, bir il ərzində institutun ərazisində iki böyük mühazirə zalı – amfiteatr tikdilər). Auditoriyaya daxil olan kimi tələbələr yeni müəllimi görüb əl çalmağa başladılar. Düzü bu məni bir qədər çaşdırdı. Yazı taxtasının qarşısına keçib bir-biriylə çox sıx şəkildə

oturmuş tələbələri nəzərdən keçirib özümü təqdim etməyə başladım.

Tənəffüsdə kiçik "mətbuat konfransı" özü-özünə yarandı: Ölkənizdə çoxlu Bakı şəhəri var. Siz hansındansınız?

- Azərbaycan Özbəkistanda yerləşirmi?

- Ölkənizdə nə qədər müsəlman var?

- Siz necə oldu ki, bura işləməyə gəldiniz? Öz istəyinizlə, yoxsa sizi məcbur edib buraya göndəriblər?

- Ailəniz haqqında bizə danışın.

- Bizim ölkə barədə ilk təəssüratınız və s.

Hər suala cavab verdikcə yenisi ortaya çıxırdı. Dərsin ikinci hissəsinin başlanması canımı bu suallardan qurtardı. Dərs qurtaran kimi özümü evə yetirdim. Hiss etdim ki, həyatımda bugünkü kimi heç vaxt yorulmamışam. Beləliklə mənim həyatımın qürbətdəki fəal hissəsi başlandı.

## QÜRBƏTDƏ HƏYAT

İnsan qəribə məxluqdur. Taleyin ondan əsirgəmədiyi şeyə o, çox vaxt biganə qalır. Bəzən görürsən ki, bir əziz adamınla illərlə görüşməyir və hətta görüşməyə can atmırsan. Lakin onu həmişəlik itirdikdən sonra isə, həmin adam haqqında xatirələr toplayır, onun çəkdiyi siqaretdən tutmuş əlyazmasına qədər yığır və saxlayırsan, əzizləyirsən.

Qürbətdə həyat nələri adama xatırlatmır? Kimləri görmək istəmirsən? Elə adamları ki, vətəndə onlar bəlkə də ildə bir dəfə yadına düşmür belə. Bəli qəriblikdə, qürbət eldə Vətənlə bağlı nə varsa, hamısı sənə əziz olur; hamısı sənin xatirində özünə yer tapır. Arada bir "Mayak" radiostansiyası vasitəsilə Moskvanı dinləmək imkanına malik olanda, heç bilmirsən sevindiyindən nə edəsən. Sənə elə gəlir ki, indi eşitdiyin veriliş və yaxud musiqi sənin illərlə eşitdiklərindən deyildir.

Kosmonavtlar qeyd edirlər ki, Yer kürəsinin gözəlliyini, cazibəsini hiss etmək üçün gərək kosmosa çıxasan. Doğrudan da Vətənin cazibəsini, əzizliyini, doğmalığını və ona olan

böyük məhəbbəti hiss etmək üçün bu doğma torpaqdan azacıq uzaqlaşmaq kifayətdir. Məhz buna görə də Vətəndən ayrılan kimi bu müqəddəs torpaq üçün, el-oba üçün darıxmağa başlayırsan:

Mənzil uzaq, ayaq işdə, baş işdə,
Bax beləcə karıxmışam, ay Vətən.
Balalarım dörd yanımı tutsa da,
Mən səninçün darıxmışam, ay Vətən...

Qürbətdə Vətən həyatını yaşamaq üçün bizim mütəxəssislər xeyli iş görmüşlər. Həm Neft İnstitutu və həm də MYSİ sovet mütəxəssisləri üçün xüsusi klublar ayırmışdı. Klub deyəndə bu heç də bizim başa düşdüyümüz mənada klub deyildir. İrəlidə qeyd etdiyim kimi beş-altı otaqlı villalardır. Orada bizim kitabxanamız, bufetimiz, kiçik iclas zalımız (biz iclassız keçinə bilmərik) var idi. İşdən sonra mütəxəssislər ailə üzvləri ilə birlikdə hər iki klubun qarşısına yığılır, bir-birindən hal-əhval tuturdular. Klublardan birinin (Neft İnstitutunun) iclas salonu nisbətən böyük olduğundan orada kinoqurğu yerləşdirilmiş və həftədə iki dəfə rus dilində filmlər nümayiş etdirilirdi. Klubların nəzdində iki musiqi məktəbi vardı. Orada bizim uşaqlar təhsil alırdılar. Musiqi məktəbində dərs deyən müəllimlər mütəxəssislərin həyat yoldaşları olub, ali təhsilli musiqiçilərdirlər. Bəzi ərəb uşaqları da bizim musiqi məktəbində təhsil alırdılar. Bunlar atası ərəb, anası rus olan uşaqlar idilər. Musiqi müəllimləri demək olar ki, ictimai əsaslarla işləyirdilər.

Ayda iki dəfə məktub alır və yola salırdıq. Bizim məktublar kluba gəlir və oradan paylanırdı. Məktublar əvvəlcə institut, sonra isə kafedralar üzrə bölünürdü. Hər kafedranın öz poçtalyonu vardı. Poçtalyon-müəllim məktubları sahiblərinə çatdırırdı.

Həyatımın ən dəhşətli günləri evdən məktub almadığım günlərdir. Məktublar paylananda hansı hissləri keçirmirsən? Məktub almayanda nələri düşünmürsən?

...İndi qərib diyarda
Həsrətlə gözləyirəm
Dörd bükülü varağı –
Adi varaq deyil o,
Mənim əziz anamın
Mürəkkəbli dodağı.

Hər iki institutdakı mütəxəssislərimiz nəqliyyat kooperativi yaratmışdılar. Hər iki kooperativin bir neçə avtobus və minik maşını var idi. Ekskursiyaları bizim nəqliyyat kooperativləri təşkil edirdi. Bu yerli ekskursiya bürolarının təşkil etdiyi səyahətlərdən çox-çox ucuz başa gəlirdi. Təbiidir ki, bu kooperativin sürücüləri biz mütəxəssislər idik. Bizim kafedranın əməkdaşı, Leninqrad Elektrotexnika İnstitutunun dosenti L.Ulpe həmin kooperativin sürücülərindən idi. Əsil səyahət aşiqi olan L.Ulpe zarafatla deyirdi ki, evə qayıtdıqdan sonra beynəlxalq nəqliyyat xətlərində sürücü işləyəcək.

Klubda tez-tez nərd, şahmat və dama yarışları keçirirdik. Bundan əlavə bizim yaxşı voleybol və futbol komandalarımız var idi. Sovet mütəxəssislərindən ibarət yığma şahmat komandası hətta Əlcəzairin milli yığma komandasına qalib gəlirdi.

Bumerdesdə bir tibb məntəqəmiz var idi. Təkcə məntəqənin müdiri ştatlı idi. Yerdə qalan işçilərin hamısı ictimai əsaslarla işləyirdilər. Mənim həyat yoldaşım da həmin məntəqədə həkim-allerqoloq vəzifəsini daşıyırdı.

Sovet səfirliyinin səkkizillik məktəbi də Bumerdesdə yerləşir. Əlcəzairin müxtəlif şəhərlərində işləyən sovet mütəxəssislərinin uşaqları oxumağa bu məktəbə gəlirdilər. Paytaxtın özündə belə səkkizillik məktəb olmadığından diplomatların uşaqları da bu məktəbdə oxuyurdular (1978-ci

ildə Əlcəzair şəhərində də sovet səfirliyinin yeni səkkizillik məktəb açıldı).

## ƏLCƏZAİRƏ BALACA PARİS DEYİRLƏR

Deyirlər ki, avropalılar ƏXDR-in paytaxtı Əlcəzair şəhərini balaca Paris adlandırırlar. Mən Parisdə bir ilə yaxın yaşadığımdan bu iki şəhəri müqayisə edə bilərdim. Ona görə də Əlcəzair şəhərinə ayaq basan kimi onunla Paris arasındakı oxşar cəhətləri axtarmağa başladım. Tezliklə belə qərara gəldim ki, bu şəhər bizim Bakı ilə əkiz qardaşdır. Aralıq dənizi sahilində yerləşən Əlcəzair özünün ruhu, binalarının arxitekturası, bizim İçərişəhərə bənzər "Qasba"sı ilə Bakıya daha çox bənzəyir, nəinki Parisə.

Fransız şərqşünası Marsel Eqreto Bakını Əlcəzair şəhərinə bənzədir. Mən onun bənzətməsinə şərik olaram, bir şərtlə ki, Bakı Əlcəzairə yox, Əlcəzair Bakıya bənzəyir.

Əlcəzairlə ilk tanışlıq Lunaparkdan başlayır. Paytaxta gələn səyyahların demək olar ki, hamısının yolu buradan keçir. Buradakı attraksionları amerikalılar tikiblər. Parka ayaq basan kimi sanki yerimizdə donub qaldıq. Parkda ucadandanışanlardan Z.Xanlarovanın səsi gəlirdi. Zeynəb xanım necə də həzin-həzin oxuyurdu:

Sən Müşfiqin yanında qal, sənə qurban,
Istəsən bu canımı al, sənə qurban...

Böyük oğlum Emin sevincək:

– Ata, Zeynəbdir oxuyan – dedi.

Uşağın sevincdən gözləri par-par parıldayırdı. Onda Eminin 9 yaşı vardı. Bu baxışlarda qəribliyin, vətən həsrətinin ilk təzahürləri özünü göstərirdi. Axı biz cəmisi üç ay idi ki, vətəndən ayrılmışdıq.

Lunaparkla tanış olduqdan sonra hədiyyələr mağazasına baxdıq. Üzərində Lunaparkın emblemi olan müxtəlif əşyalar bu

mağazalarda satılır. Ticarətçilərdə qəribə psixologiya var. Hansı şey daha çox alınırsa, onun qiymətini dərhal artırırlar. Bizdən iki gün qabaq buraya gələn səyyahların 60 dinara aldıqları hədiyyə bizə 80 dinara satılırdı. Bir-iki xırda hədiyyə alıb şəhəri gəzməyə çıxdıq.

İrəlidə qeyd etdiyim kimi Əlcəzair çox gözəl şəhərdir. Onun doğrudan da Parisə oxşayan cəhətləri də vardır. O, bir əlamətə görə Parisə daha çox bənzəyir: küçələrin səliqəsizliyi ilə. Lakin şəhərə gələn qonaq bunu çox da qabarıq surətdə hiss etmir. Belə ki, süpürənlər ara vermədən işləyir, səkiləri və bəzən də lap yolları təmizləyirlər. Xüsusi keçidlərdən də yaxşı istifadə olunmur. Piyadalar istədikləri yerdən küçəni keçir və avtomobillərin hərəkətini çətinləşdirirlər. Bu cəhətdən əlcəzairlilər bizim bakılıları xatırladırlar. Bir dəfə maraqlanıb bir piyadadan soruşdum ki, niyə küçədə xüsusi ayrılmış keçiddən istifadə etmir? O dedi ki, cənab, mən azad və sərbəst adamam, haradan istəsəm, oradan da keçərəm. Biz inqilabı onunçün etməmişik ki, öz evimizdə də hərəkətlərimizə sərhəd qoyulsun. Əlbəttə, bu cənabla mübahisə etmək olardı. Ələlxüsus azadlıq barədə, insan hüquqları barədə. Lakin buna ehtiyac yox idi. Mən sonralar da, dəfələrlə əmin oldum ki, bəzi əlcəzairlilər bizdə olduğu kimi azadlıq ilə anarxiyanı çalpaşıq salırlar.

Əlcəzairli sürücülər həddən artıq xeyirxahdırlar. (Bəlkə də nəzakətlidirlər desəm daha çox yerinə düşər.) Onlar həmişə yolu keçən piyadaya üstünlük verirlər. Məsələn, deyək ki, bir piyada yolu keçir və həmin küçədən maşınlar gəlir. Maşınlar dərhal dayanır və piyadaya keçid üçün imkan verirlər. (Bəlkə də piyadaların intizamsızlığına səbəb sürücülərin nəzakətliliyidir?!)

Şəxsi avtomobillərin sürücüləri arasında qadınlar da az deyildir. Hətta çadralı və ağzı yaşmaqla örtülmüş qadınlar da öz şəxsi maşınlarını sürürlər. Sürücülər bir-birinə qarşı həddindən artıq nəzakətlidirlər. Deyək ki, bir sürücü qaydanı

pozmaqla manevr etmək istəyir. Qarşıdan gələn maşının sürücüsünə işarə edib o, bu hərəkəti icra edə bilər. Belə ki, qarşıdan gələn maşının sürücüsü çox böyük məmnuniyyətlə öz yolunu ona verir. Belə qaydanı pozmaq halları bu şəhərdə tez-tez olur. Ona görə də ümumiyyətlə maşınların hərəkətlərində ümumi nizamsızlıq vardır.

İstər şəxsi və istərsə də idarə maşını olsun, fərqi yoxdur, hökmən sığortalanmalıdır. Ölkənin ərazisində sığortalanmamış avtomobildən istifadə etmək qəti qadağandır.

Şəhərdə maşınların hərəkətinə polis nəzarət edir. Polis təkcə avtomobillərin deyil, piyadaların da hərəkətinə diqqət yetirir. Magistral yollarda isə avtomobillərin hərəkətinə jandarm tərəfindən nəzarət olunur. Jandarm idarəsi səlahiyyətcə böyük olub, polisə də nəzarət edir. İstər polis, istərsə də jandarmlar həddindən artıq nəzakətli olub bir məqsədə xidmət edirlər: hərəkətin təhlükəsizliyi təmin olunsun, heç bir qəza baş verməsin. Onlar küçə və şosselərin elə yerlərində dururlar ki, orada hərəkət mürəkkəbdir və qəza ola bilər. Onlar sözün əsil mənasında hərəkəti nizamlayır, çətin vəziyyətə düşən sürücülərəköməklik göstərirlər. Mən hər dəfə jandarm və polisin gərgin əməyini görəndə yadıma bizim bəzi avtomobil müfəttişləri düşürdü. O müfəttişlər ki, yolun müəyyən hissəsində gizlənib cərimə etmək üçün sürücülərin hərəkət qaydalarını pozmalarını səbirsizliklə gözləyirlər. Əlbəttə qəzanın qarşısını almaq üçün sürücünü cərimə etmək yox, hərəkət qaydalarının pozulmaları ehtimal olunan yerdə dayanıb həmin pozulmaların qarşısını almaq lazımdır.

Əlcəzairlilər çox mehriban və qonaqpərvərdirlər. Bir şey soruşduqda gülə-gülə, mehribancasına sənə izah edirlər. Bu cəhətdən onlar fransızlara daha çox bənzəyirlər (fransızlarda bu gülüş çox vaxt üzdə olur).

Sonralar dəfələrlə ölkənin paytaxtında oldum. Hər dəfə də əlcəzairlilərdə yeni müsbət keyfiyyətlər tapırdım.

Bir dəfə mənim maşınımın təkəri buraxdı. Təkəri yamamaq üçün təmir emalatxanasına gətirdim. Həyat yoldaşım və bir oğlum da mənimlə idilər. Hava elə isti idi ki, kölgədə belə durmaq olmurdu. Təmir emalatxanasının yanındakı su köşkündən su alıb içirdik. Su köşkünün yanında bir darvaza vardı və onun yanında bir kişi dayanmışdı. O, mənə yaxınlaşıb dedi:

- Cənab, bir bura gəlin.

Mən darvazadan içəri girdim. Qapının arxa tərəfində yekə bir çəllək var idi.

Qoca mənə:

- Sizin içdiyiniz suyu bax bu çəlləkdən götürürlər – dedi. Ola bilsin sizə bir ziyanı dəyməsin. Amma o uşağa bu sudan verməyin, yazıqdır, xəstələnər.

Sonra o mənə hasara alınmış (əlcəzairlilər hasar çəkməyi necə də sevirlər) imarətin sahibi olduğunu söylədi və bizim haralı olduğumuzu soruşdu. (Qoca sir-sifətimizdən qəribə olduğumuzu hiss etmişdi). Mən Sovet ölkəsindən gəldiyimizi və özümün müəllim olduğumu söylədim. O mənə:

- Axı siz rusa oxşamırsınız – dedi. Ruslar sarıbəniz olurlar.

Mən:

- Siz düz buyurursunuz – dedim. Biz sovet vətəndaşıyıq, lakin rus deyilik. Sovet ölkəsində yüzdən artıq millətin və xalqın nümayəndələri yaşayırlar. Biz azərbaycanlıyıq.

Kişinin gözləri sanki işıqlandı.

- Siz müsəlmansınız, eləmi? – deyə soruşdu.

Dedim:

- Bəli azərbaycanlılar müsəlmandırlar. Bəs siz bunu haradan bilirsiniz?

O, dərin köks ötürərək bizi evinə dəvət etdi. Mən tələsdiyimizi bildirib, ona təşəkkür etdim. Sonra o, evdən kimisə səslədi. Evdən cavan bir qız çıxdı. Ona ərəbcə müraciət etdi. Başa düşdüm ki, qıza deyir ki, qonaqlar üçün su gətir. Heç

iki dəqiqə keçmədi ki, həmin qız "Muzaya" adlı mineral su gətirdi. (Muzaya Əlcəzairdə şəhər adıdır. Həmin mineral su orada istehsal olunur.) Büllur stəkanlarda bizə həmin mineral sudan verdilər, içdik. Mən qocaya təşəkkür edib Azərbaycan haqqında nə bildiyi ilə maraqlandım. Kişi mənə baxdı və gözlərini bir məchul nöqtəyə zilləyərək dedi:

- Mən fransız ordusunun tərkibində İkinci Dünya müharibəsində vuruşmuş və əsir düşmüşdüm. Əsirlikdə Məhəmməd adlı bir azərbaycanlı ilə tanış oldum və dostlaşdıq. Igid, qorxmaz, kişi adam idi. Əgər sağdırsa, allah onun canını salamat eləsin, ölübsə, rəhmət eləsin. Halal olsun ona. Allahı sevən halal adam idi. O, çətin şəraitdə də ibadətindən qalmırdı.

Kişinin gözləri yaşardı.

Artıq maşınımızın təkəri hazır idi. Qocaya bir daha təşəkkürümü bildirib, ayrıldıq. Yol boyu qoca və adını ilk dəfə eşitdiyim el oğlumuz barədə düşünürdüm.

## BİZİM PİONER DÜŞƏRGƏMİZ

Heç ağlıma gəlməzdi ki, xarici ölkədə pioner düşərgəmiz olsun. Bir gün sovet mütəxəssislərinin rəhbəri məni çağırıb pioner düşərgəsində rəis işləməyi təklif etdi. Bu, 1984-cü ilin yayı idi. Əvvəlcə tərəddüd etdim. Axı biz hamımız bir illik gərgin işdən sonra Vətənə qayıtmaq, doğma el-oba ilə görüşmək arzusu ilə alışıb yanırdıq.

SSRİ-nin ƏXDR-dəki Fövqəladə və Səlahiyyətli səfiri V.N.Taratuta ilə söhbətdən sonra mən Tipaza şəhərində yerləşən pioner düşərgəsinə rəis təyin olunmuşdum.

Düşərgə ölkənin paytaxtından 75 km-lik məsafədə, dəniz kənarında yerləşir. Düşərgənin ərazisi bizim dövlət tərəfindən icarəyə götürülmüşdü. Orada yüzdən artıq uşaq, o cümlədən Sovet səfirliyi və sosialist ölkələri səfirlikləri əməkdaşlarının, habelə sovet mütəxəssislərinin uşaqları dincəlirdilər.

Düşərgənin bütün işçiləri qadınlar idilər. Bir sürücü, bir keşikçi (bu ərəb idi) və bir də mən kişi cinsinə mənsub idik. 27 qadına rəhbərlik etmək çətindən də çətin idi.

Düşərgənin açılışı mərasimi çox təntənə ilə keçdi. Başda səfir olmaqla səfirliyin bütün əməkdaşları açılışda iştirak edirdilər. Komsomolun mərkəzi komitəsinin Moskvadan gəlmiş məsul işçisi, sosialist ölkələri səfirliklərinin nümayəndələri də burada idilər.

Söz mənə verildi. Çıxışımı bitirən kimi səfirliyin məsul işçisi mənə yaxınlaşıb həyəcanla dedi:

- Bilirsinizmi, yoldaşlar ət tapa bilməyiblər.

Mən:

- Ola bilməz – dedim. Axı yaxındakı mağazada bizə söz veriblər.

- Yox, onlar verdikləri sözdən imtina edirlər. Deyirlər ki, orucluqdur, ət özümüzə lazımdır. Siz təcili gedin, görün onlarla dil tapa bilərsinizmi.

Doğrudan da əlcəzairlilər adətən az ət yeyirlər. Onlar "kus-kus" deyilən darıya bənzər bir məhsuldan daha çox istifadə edirlər, nəinki ətdən. Lakin orucluq vaxtı ət növbəsindən mağazalara yaxınlaşmaq mümkün olmur.

Düşərgə rəisi üçün ayrılmış "Folsvaqen" markalı maşına minib birbaşa mağazaya getdim. Mağaza müdirini tapıb soruşdum:

- Cənab Seyyid (müdirin adı Seyyid idi), siz bizə söz vermişsiniz. Axı uşaqları ac qoymaq olmaz.

O isə:

- Cənab, məni düz başa düşün, - dedi. İndi ramazan ayıdır. Bizim özümüzə ət lazımdır. Bu gün isə normadan iki dəfə az ət almışıq.

Mən:

- Bizə xarici ət lazımdır, - dedim. Yerli ət istəmirik.

- Nə fərqi var, ət ətdir. Ya xarici olsun, ya yerli.

Mən gülə-gülə:

- Şəriətə görə müsəlman xarici ət yeməməlidir, xüsusilə orucluqda, - dedim.

O təəccüblə:

- Nəyə görə? – soruşdu.

- Müsəlman o əti yeyə bilər ki, həmin heyvan müsəlman qaydası ilə kəsilsin. Üzü qibləyə tutulsun. Filan dua oxunsun. (həmin duanı ərəbcə oxudum)

O gülümsəyərək mənə dedi:

- Siz bunu haradan bilirsiniz?

- Axı, mən də müsəlmanam – deyə cavab verdim. Sovet müsəlmanı.

O məni buzxanaya apardı. Buzxananın içərisi kəsilib soyulmuş heyvanlarla dolu idi. Seyyid cəmdəklərin birinə yaxınlaşaraq, onun üzərinə yapışdırılmış kağızı mənə tərəf çevirdi, gülə-gülə dedi:

- Oxuyun.

Oxudum və heyrətdən donub qaldım (Buzxananın soyuğu məni dondura bilməmişdi). Kağızda bu sözlər yazılmışdı: "Mən Əhməd ibn Abdulla filan tarixdə bu heyvanı müsəlman qaydası ilə İspaniyada kəsdim". Yazının altında qəssab öz imzasını atmışdı. Mənimsə ağlım bizdə satılan xarici ətlərə getmişdi.

Seyyid üzünü mənə çevirərək dedi:

- Gördünüzmü, ət xarici olsa da təmizdir. "Təmiz" sözünü xüsusi vurğuyla dedi. Sonra sözünə davam etdi:

- Siz ki, bu qaydaları belə bilirsiniz, bundan sonra ət probleminiz olmayacaq. Sizə nə qədər ət lazımdırsa, buyurun.

Beləliklə pioner düşərgəsinin nəinki ət problemi, həm də bütün ərzaq problemi həll olundu.

Pioner düşərgəsi ilə bir sıra xatirələr yaddaşımda iz buraxıbdır. Onlardan biri heç vaxt yadımdan çıxmaz.

...Aralıq dənizində böyük təlatüm var idi. Buna baxmayaraq camaat çimərlikdən əl çəkmək istəmirdi. Biz öz uşaqlarımızı nəinki çimməyə, hətta dənizin kənarına belə

buraxmırdıq. Birdən səs-küy qalxdı. Kimsə dənizdə boğulurdu. 15-20 dəqiqə müddətində onu sudan çıxardılar. Ürəyim dözmədi, həkimimizə dedim ki, gedək, bəlkə köməyimiz dəydi. Boğulanın ətrafına toplaşmış adamlara yaxınlaşdıq və mən onlara müraciətlə: Cənablar, həkimdir, qoy baxsın, bəlkə bir kömək edə bildi – dedim.

Yaxına buraxmaq istəmədilər. Birisi dedi: Cənab, Allah verib, özü də aparır. Siz Allahın işinə müdaxiləmi etmək istəyirsiniz?

Düşərgəyə qayıtdıq. Yadıma bizimkilərdən birinin nəql etdiyi bir hadisə düşdü. O yoldaş nəql edirdi ki, bir əlcəzairli dənizdə boğulurmuş. Bizimkilərdən biri onu xilas edib. Zərərçəkən xilaskarına "çox sağ ol" demək əvəzinə onu məzəmmət edib ki, niyə məni xilas etdin. Allah məni o dünyaya aparmaq istəyirdi, sən mane oldun.

Bütün günü çimərliyə baxdım. O gün daha altı nəfər dənizdə boğuldu.

## QÜRBƏTDƏ TANIŞLIQ

Azərbaycanda doğulub, boya-başa çatsam da, sevimli müğənnimiz Rəşid Behbudovu yaxından təkcə bir dəfə görmüşəm. Özü də 1968-ci ildə. O vaxt R.Behbudovun yaratdığı Dövlət Mahnı Teatrı "Səni tərənnüm edirəm, doğma Azərbaycanım" proqramı ilə ilk dəfə olaraq M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında çıxış edirdi. "Canlı Behbudov"u ilk dəfə onda görmüşdüm. Sonrakı görüşlərim (söhbət birtərəfli görüşdən gedir) ya televiziya, ya da ki, kino ekranı vasitəsilə olmuşdu.

Bir neçə konsertdən sonra bu teatrın afişaları yenidən şəhərimizdə yoxa çıxdı. Kimi deyirdi ki, teatrın binası yoxdur və ona görə də Bakıda çıxış etmir. Kimisi də bunu teatrın qastrol səfərlərinə meyli ilə izah edirdi. Ancaq onu bilirdim ki, bakılılar bu teatrın tamaşalarını səbirsizliklə gözləyirdilər.

Tipaza pioner düşərgəsində rəis işlədiyim zaman səfirlikdən mənə dedilər ki, həmyerlimiz R.Behbudovun teatrı Əlcəzairə dostluq xətti ilə (bu valyutasız mübadilədir) qastrol səfərinə gəlmişdir. Əgər onunla dil tapa bilsən, pioner düşərgəsinə dəvət et. Yaşadığı yeri dedilər. Sidi-əl-Frec mehmanxanası. Bu mehmanxana paytaxtdan təxminən 15 km-likdə, dəniz kənarında, çimərlikdən 200-300 metr məsafədə yerləşir. Səfirliyin əməkdaşı, həyat yoldaşı – sovet vətəndaşı və özü sonradan bizim vətəndaşlığı qəbul edən, "Canlı Behbudov"u görmək arzusu ilə alışıb-yanan bolqar tərcüməçi və mən Sidi-əl-Frec mehmanxanasına yollandıq. Biz mehmanxanaya çatanda R.Behbudov və ansamblın bir qrup üzvü restoranda nahar edirdi. Görüşdük. Səfirliyin əməkdaşı üzünü R.Behbudova tutub dedi:

– Rəşid Məcidoviç, tanış olun, bizim səfirliyin pioner düşərgəsinin rəisidir.

O mənim nə adımı dedi, nə də ki, soyadımı. R.Behbudovla görüşdük. Yəqin ki, o mənim azərbaycanlı olduğumu heç zənn etmədi və üzünü öz yoldaşlarına tutub Azərbaycan dilində zarafatyana dedi: - Deyəsən işə düşmüşük.

Mən üzümü R.Behbudova tutub, öz dilimizdə - Rəşid müəllim, xoş gəlmişsiniz – dedim.

O özünü itirən kimi oldu və birdən:

- Bay, sən hardan gəldin, qardaş – dedi.

Sonra Baba Mirzəyev, Ramiz Quliyev və başqaları ilə görüşüb, bolqar dostumuzu R.Behbudova təqdim etdim. O bolqar dostumuzla təzədən görüşüb, astaca bolqar dilində bir mahnını zümzümə etdi. Bolqar dostum özünü saxlaya bilməyib onu qucaqladı və öpdü.

Mehmanxananın xollunda rahat kreslolarda oturduq və mən gəlişimin məqsədini ona söylədim. O bir qədər fikrə gedib dedi:

– Bilirsinizmi, bizim beş tonluq rekvizitimiz var. Onu Blida şəhərinə (Blida Tipazanın 40 km-liyində yerləşir) yola

salmışıq. Əgər o rekviziti düşərgənizə daşıtmaq imkanınız varsa, onda mən etiraz etmirəm, elə sabah (yəni 24 iyun 1984-cü il) əvvəlcə sizin düşərgədə, sonra isə Blida şəhərində konsert verərik.

Mən ustada dedim ki, bizim RAF markalı mikroavtobusumuz və "Folsvaqen" markalı minik maşınından başqa ayrı bir imkanımız yoxdur.

Əlini üzünə çəkərək fikrə getdi və birdən soruşdu:

– Sizin düşərgədə cəmisi neçə nəfər var?

Mən:

– Yüz əlli nəfər – dedim.

O, gülümsəyərək dedi:

– Sizə 150 bilet verirəm, pulsuz. Gətirin camaatı oraya, Blidaya!

Mən Rəşid müəllimə öz təşəkkürümü bildirərək dedim ki, bu mümkün deyil. Xarici ölkədə, gecə vaxtı 150 uşağı yaxşı tanımadığın bir şəhərə konsertə aparmaq, sonra onları bir yerə toplayıb geri qaytarmaq riskli işdir.

Mənim bikef olduğumu görüb, R.Behbudov əlini çiynimə qoyaraq dedi:

- İyulun 2-də gələrəm.

Öz-özümə fikirləşdim ki, bu da baş tutmayacaq. Çünki həmin tarixdə düşərgəmizdə işçilərdən başqa heç kim olmayacaqdı. Belə ki, birinci növbənin vaxtı qurtaracaqdı.

- Bilirsiniz, olmazmı Siz rekvizitsiz gələsiniz? – soruşdum. Mən istəyirəm uşaqlara SSRİ Ali Sovetinin deputatı, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Rəşid Behbudovu təqdim edim.

O gülə-gülə:

- Mənə kələk gəlmə, qardaş – dedi. Rəşid danışmaq bilmir, yalnız oxumaq bilir. Mənim sözüm-söhbətim mahnıdır-mahnı.

Araya bir anlıq sükut çökdü və o, birdən soruşdu:

- Siz SSRİ-dən buraya pioner düşərgəsində işləmək üçünmü gəlmişsiniz?

- Xeyir dedim. Mən burada, ali məktəblərin birində fizika fənnini tədris edirəm. Pioner düşərgəsində ictimai əsaslarla işləyirəm. Bu iş mənim məzuniyyətim hesabınadır.

- Bağışlayın, siz hansı dildə o dərsi deyirsiniz?

- Fransız dilində.

O məni özünə tərəf çəkib qucaqlayaraq dedi:

- Bu böyük işdir, qardaş, bu böyük işdir. Əsil işi siz görürsünüz. Bizimki də, yəni işdir?

Bəli, bu sözləri Rəşid Behbudov deyirdi. Dünya şöhrətli Behbudov. Öz xalqını bütün aləmə tanıtdıran Behbudov. Xalqını tanıtdıra biləcək ən kiçik addımı belə o, nəhəng adlandırırdı.

O danışırdı, mən isə öz musiqisi ilə milyonlarla insan ürəyi fəth etmiş, peşəkar Azərbaycan musiqisinin tərənnümçüsü və yaradıcılarından biri olan R.Behbudovun təvazökarlığından ovsunlanmışdım.

O, bizi maşınlarımızı saxladığımız yerə qədər ötürdü. Qucaqlaşdıq, öpüşdük. Ayrıldıq. Bir-birimizə "Vətəndə görüşənədək" dedik.

Sonradan qəzetlər vasitəsilə öyrəndim ki, Azərbaycan Dövlət Mahnı Teatrının qastrolları Əlcəzairin müxtəlif şəhərlərində çox böyük müvəffəqiyyətlə keçmişdir. Yerli qəzetlər teatrın konsert proqramını bir üzüyə, R.Behbudovun çıxışını isə həmin üzüyün brilyant qaşına bənzədirdilər.

***Haşiyə.*** Mən Əlcəzairdən qayıtmışdım. Bir gün işdən çıxıb evə gedərkən R.Behbudovu indiki və onun adını daşıyan Mahnı Teatrının qarşısında gördüm. O məni görmədi və mən onun arxa tərəfində dayandım Rəşid müəllim isə Teatrın binasının fasadına "Mahnı teatrı" sözünün hərflərini yapışdıran birisinə istiqamətləndirici göstərişlər verirdi.

Astaca irəli keçib:

- Rəşid müəllim, salam-dedim.

O mənə diqqətlə baxıb, Əlcəzairdə olduğu kimi birdən;

-Bay, sən hardan gəldin, qardaş dedi və qucaqlaşdıq. Əlcəzairdən qayıtdığımı ona söylədim. Xeyli söhbət etdik. Teatrın açılışının nə vaxt olacağını soruşdum. O isə mənə:

- Bu yaxınlarda olacaq dedi. Nə qədər istəsən sənə dəvətnamə verəcəyəm. Açılışa gələrsən.

Çox təəssüflər olsun ki, böyük sənətkarımıza illərlə zəhmət çəkib yaratdığı teatrın açılışı qismət olmadı. Ömür vəfa etmədi. Təbii ki, teatrın açılışında mən də iştirak edə bilmədim (dəvətnaməm olsa da).

## ƏLCƏZAİR, YOXSA BRAZİLİYA?

Əlcəzairlilər, böyükdən kiçiyə və yaxud kiçikdən böyüyə qədər demək olar ki, hamısı futbol azarkeşləridirlər. Hətta həyət komandalarının oyunçularında özünəməxsus ustalıq, gözəl futbol texnikası görmək olur. Xüsusilə onlar özlərini Braziliya futbolçularına bənzətməyə çalışırlar.

Əlcəzairlilərin futbola böyük məhəbbətini mən elə ilk günlərdən hiss etdim. Tələbələrin ölkəmiz haqqında ən yaxşı bildikləri bizim yığma komanda ilə bağlı idi. Onlar mənim sovet diyarından gəldiymi bilən kimi tez-tez Bloxin, Kipiani, Roqovun adını çəkməyə başladılar (Roqov bir vaxt Əlcəzair milli futbol komandasının rus baş məşqçisi olmuşdu). Onlar öz komandalarının oyununu braziliyalıların oyununa bənzədirlər. Əlcəzair azarkeşlərinin fikrincə onların futbol komandası oyun texnikasına görə braziliyalılardan üstündürlər. Onlar bu fikrin Pele tərəfindən söylənildiyini öz müsahiblərinə inandırmağa çalışırlar.

Deyilənlərə görə İspaniyada keçirilən dünya futbol çempionatında Əlcəzair yığma komandasının AFR komandası üzərindəki qələbəsi bu ölkədə əsil xalq bayramına çevrilib. Bu matçdan uzun müddət keçməsinə baxmayaraq həmin qələbə oyununu televiziya ilə tez-tez göstərirlər. Xüsusilə bu oyunun videoyazısı milli bayram günləri ölkə televiziyası ilə nümayiş etdirilir.

“Əl-Mücahid” qəzeti həftədə bir dəfə “Bizim gənclər televiziya ekranlarında nəyi görmək istəyirlər?” rubrikası altında yazı verirdi. Ölkə gənclərinin maraq dairəsini bilmək üçün bu yazını oxumaq pis deyil. Mən həmin yazıları vaxtaşırı oxuyurdum. Bu yazılardan məlum olurdu ki, nəinki oğlanlar, hətta qızlar belə Əlcəzair – AFR matçına baxmaqdan doymurlar. Bir qız yazırdı: “Mən hər dəfə bu matça baxanda gənclərimizin bacarığının, istedadının və gücünün şahidi oluram. Bu qələbə bizim xalqımızın nəyə qadir olduğunu göstərdi. Mən bu qələbə ilə fəxr edirəm”.

Meksikada keçirilən futbol üzrə Dünya çempionatına Əlcəzair komandası vəsiqə aldığı zaman da buna bənzər təntənələr keçirildi. Mexikoya dair xüsusi mahnılar bəstələnmişdi.

Demək olar ki, hər gün qəzetlərdə milli komandanın həyatından bəhs edən yazılar verilir, komandanın baş məşqçisi Saadani böyük futbol bilicisi kimi təriflənirdi.

Afrika kuboku yarışlarında zədələnmiş Bellumi demək olar ki, bütün əlcəzairlilərin sevimlisi idi. O, dizindən zədələndikdən sonra təcili surətdə Fransaya müalicəyə göndərildi. Hər gün qəzetlər Belluminin səhhəti barədə məlumat verirdilər. Dünya çempionatına az qalmış Bellumi yenə yığma komandaya qayıda bildi. Lakin Meksika çempionatında o, İspaniyadakı oyunu göstərə bilmədi. Meksikada Əlcəzair komandasında yeni ulduz parıldadı. Bu Macer idi.

Meksika çempionatı ramazan (orucluq) ayına təsadüf edirdi. Ramazan ayında həmişə iftardan (axşam yeməyi) qabaq televiziya ilə ruhani alim moizə edir. Sonra orucluq duası və qurandan bir surə oxunur. Yalnız bundan sonra iftar başlanır. Bu proseduranı heç kəs heç vaxt dəyişə bilməz. Lakin bunu futbol etdi. Ramazan ayında yeganə bir gün idi ki, mömin müsəlmanlar orucluq duasını, quranı eşitmədən iftar edirdilər.

Həmin gün Braziliyanın yığma komandası ilə Əlcəzair komandası Dünya birinciliyində görüşürdülər.

Həmin matça baxmaq üçün mən klubumuza yollandım. Elə bil şəhərdə heç kəs yaşamırdı. Küçələrdə nə bir avtomobil, nə bir adam var idi. Bütün mağazalar bağlanmışdı. Bu oyunu əlcəzairlilər uduzdular. Səhəri gün demək olar ki, heç kəsin üzü gülmürdü.

Əlcəzair televiziyası Meksika çempionatından bütün oyunları translyasiya edirdi. Hətta Əlcəzair komandası növbəti yarış mərhələsindən çıxdıqdan sonra belə translyasiya davam etdirildi. (Biz öyrəşmişik ki, komandamız uduzduqdan sonra translyasiya dayanır).

Əlcəzairlilər öz futbolçularını çox sevir, onlara xüsusi qayğı ilə yanaşırlar. Komanda dünya birinciliyindən qayıtdıqdan sonra heç kəs futbolçuları tənqid atəşinə tutmadı. Bütün idman icmalçıları öz sevimli futbolçularını ruhdan salmamağa çalışırdılar. Lakin çempionatdan əvvəl "futbol bilicisi" adlandırılan Saadani açıq-aşkar lənətlənirdi. Tənqidə dözməyən məşqçi istefa verdi. Qəzetlər yığma komandanı İspaniya çempionatına hazırlayan sovet məşqçisi A.Roqovu tərifləməyə başladılar. Sonra Roqovla yeni kontrakt bağlanmasını təklif və tələb etdilər. Danışıqdan sonra kontrakt bağlandı. Beləliklə yenidən Roqov Əlcəzair milli komandasına məşqçi təyin olundu.

Yaxşı yadımdadır, Roqov Əlcəzairə gələn kimi idman jurnalistləri ilə söhbətində dedi ki, komandanın texniki hazırlığından razıdır. Komandanın ən böyük nöqsanı intizamın zəif olmasıdır. Sonra yeni məşqçi bildirdi ki, onun əsas vəzifəsi komandada intizamı bərpa etməkdir (Deməli nə vaxtsa komandada intizam olub).

Əlcəzairlilər bizim yığma komandaya (yəni sovet) da azarkeşlik edirdilər. Bizimkilər macarlara 6:0 hesabı ilə qalib gəldikdən sonra ertəsi gün həm iş yoldaşlarımız, həm də

tələbələrimiz bizi təbrik edirdilər. Komandamız belçikalılara uduzanda hamı təəssüflənirdi.

"Əl-Mücahid" qəzeti bizim komandanın məğlubiyyətini yarış təşkilatçılarının və hakimlərin düşünülmüş, planlı bir oyunu kimi qiymətləndirirdi. Və SSRİ-nin futbol komandasının çempionatın ən güclü komandalarından biri olduğunu qeyd edirdi.

Əlcəzairdə hamı həm yaxşı futbol oynayır, hamı da yaxşı azarkeşlik edir. Ən başlıcası odur ki, futbolu başa düşür və qiymətləndirə bilirlər. Mən onların futbola həvəs və marağını görüb belə qənaətə gəldim ki, əlcəzairlilər futbolu braziliyalılar kimi oynaya bilməsələr də, onların futbola olan məhəbbəti heç də braziliyalılardan az deyildir. Bu mənada belə bir sual ətrafında düşünməyə dəyər: Əlcəzair, yoxsa Braziliya?...

## ƏLCƏZAİRDƏ QƏBUL İMTAHANLARI

Bir gün dekanımız Mövlud Şıxhi məni çağırıb bildirdi ki, qəbul imtahanları üçün suallar hazırlamaq lazımdır. Üç variant və hər variantda üç məsələ olmalıdır.

Kafedraya qayıtdıqdan sonra işlədiyim ali məktəbdə qəbul qaydaları ilə tanış olmağa başladım. Deməli, bütün ixtisaslar üzrə qəbul imtahanları yazılı şəkildə aparılır və bir gün ərzində başa çatdırılır. Abituriyentlərin hamısı (bütün ixtisaslar üzrə) yalnız üç fəndən (fizika, kimya və riyaziyyatdan) qəbul imtahanı verirlər. İmtahanlar səhər saat 8-də başlanır və axşam saat 17-də qurtarır. Qəbul məsələləri ilə yalnız qəbul komissiyası məşğul olur. Bu komissiyanın üzvləri cavan müəllimlər və aspirantlardır. Komissiyaya ümumtəhsil fənləri fakültəsinin dekanı rəhbərlik edir. Abituriyentlər səhər saat 9-dan üç saat müddətində fizika və kimyadan, günortadan sonra isə yenə həmin müddətdə riyaziyyatdan (hər variantda 6 məsələ) imtahan verirlər. Bir gün ərzində abituriyentlər imtahanları verib evlərinə qayıdırlar. Ertəsi gün abituriyentlərin yazıları kafedralara yoxlanmaq üçün verilir.

Bizim institut qəbul imtahanlarını təkcə Bumerdes şəhərində deyil, həmçinin ölkənin nisbətən ucqar şəhərlərində də təşkil edirdi. Yerlərdə bu imtahanları aparmaq üçün oraya müəllimlər ezam edilirdi. Əvvəl ezam olunanlar arasında sovet müəllimləri də olurdu. Lakin son illər bu imtahanları təşkil etmək üçün yalnız əlcəzairli müəllimlər ayrılırdı. MYSİ Konstantin, Biskra, Tlemsen və digər şəhərlərdə bu imtahanları təşkil edirdi. Hər şəhərə də bir ixtisasçı müəllim ezam olunurdu.

Bütün yazılar yoxlandıqdan sonra qiymətlər xüsusi jurnallara köçürülür və ən çox bal toplayanlar instituta qəbul olunurdular. Onu da qeyd edim ki, bütün bu əməliyyatların hamısını ümumtəhsil kafedralarının müdirləri başda olmaqla həmin kafedraların müəllimləri aparırdılar.

Yazıları yoxlayarkən tez-tez elə abituriyentlərə rast gəlirsən ki, fransızca qətiyyən bilmir. Bəla burasındadır ki, Əlcəzairdə orta təhsil ərəbcə, ali təhsil isə fransızca aparılır. Belə uşaqlar instituta daxil olduqdan sonra da çətinliklə oxuyurlar. Mühazirədən sonra dəfələrlə tələbələr mənə yaxınlaşıb fransız dilini pis bildiklərini söyləmişdilər. Lakin nə etmək olardı?...

Şübhəsiz ki, bizim oxucuları əlcəzairli valideynlərin qəbul imtahanlarına münasibəti maraqlandıracaqdır. Qəbul imtahanı vaxtı bir nəfər də olsun belə valideyn institutun nə həyətində nə də ki, ətrafında gözə dəymir. Abituriyentlər himayəçisiz qəbul imtahanlarına gəlir və gedirlər. Onlar himayəçinin olmasını özləri üçün təhqir hesab edirlər.

## BUMERDES GƏNCLİK ŞƏHƏRİDİR

Yaşadığımiz Bumerdes şəhərini gənclik şəhəri də adlandırmaq olar. Buranın əhalisi əsasən gənclərdirlər. Bunun da əsas səbəbi odur ki, Bumerdesdə bir neçə ali məktəb fəaliyyət göstərir. İrəlidə qeyd etdiyim kimi bu ali məktəblərin yalnız ikisində sovet müəllimləri çalışırdılar.

Bizim institutun tələbələri əsasən oğlanlardırlar. Hər qrupda iki və ya üç qız oxuyur. Bu qızların əksəriyyəti müasir dəbdə geyinirlər. Bir qrup qızlar isə (bunlara "müsəlman bacılar" deyirlər) mavi və ya ağ rəngdə uzun paltar geyir və həmin rəngdə də yaylıq bağlayırlar. Tələbələr arasında "müsəlman qardaşlar" da var idi. Onlar adətən saqqal saxlayır, ağ rəngdə əba geyinirdilər. Tələbələrin içərisində ən sakiti və intizamlısı həmin o "müsəlman bacı və qardaşlar" idilər. Bu tələbələr ölkədə olan xüsusi dini cəmiyyətin nümayəndələridirlər.

Əlcəzairdə qızlar ərə getdikdən sonra çarşab salır və ağızlarını yaşmaqla örtürlər (Əlbəttə bu avropalılaşmış ailələrin qızlarına aid deyildir). Gəlinlər ya ağ, ya da ki, qara çarşab salırlar. Çarşabın rəngi müxtəlif regionlarda müxtəlif olur. Qadınların yaşmağı isə ağ parçadan üç künc formada kəsilir və iplər vasitəsilə bağlanır. Bəzən çox isti havalarda çarşablı qadınlar dükan və ya mağazaların yanında öz çarşablarını qaydaya salırlar. Bu zaman çarşab altından onların müasir dəbdə geyimləri adamda təəccüb doğurur.

Tələbə qızların demək olar ki, hamısı sürücülük kurslarında təhsil alırdılar (Bumerdesdə şəxsi sürücülük məktəbi var idi). Tələbə oğlanlar da Mustafa bəyin sürücülük məktəbində oxuyurdular. Tələbələrin ən böyük arzuları avtomobil və ev almaqdan ibarətdir.

Tələbə qızların bəziləri özlərini lap fransız qızlarına bənzədirlər və demək olar ki, açıq-saçıq gəzirlər. Hətta oğlanlarla qol-boyun gəzən qızlar da vardır. Lakin belələri çox azdır. Belə qızlar haqqında bizim kafedranın laborantı deyirdi ki, onların heç vaxt ailələri olmayacaqdır (yəni ərə getməyəcəklər) .

Əlcəzairli qızların həm geyimində, həm də hərəkətlərində müəyyən təzadlar açıq hiss olunur. Bu hiss adamın beynində bir suala çevrilir:

Biriniz ağ çadrada,
ağ yaşmaqda,
Biriniz cins şalvarda,
“Adidas” başmaqda.
Birinizin görünür
bir cüt gözü,
Birinizin – bədəninin
hər üzü.
Biriniz – xəcalət yaxasında,
O biriniz – sükan arxasında.
Biriniz ərəbcə danışır,
ağzını yaşmaqla örtür,
Biriniz – fransızca
dil-dil ötür.
Adınız bir, ünvanınız bir:
Ikiniz də bu torpaqda
doğuldunuz,
Ikiniz də bir xəmirdən
yoğruldunuz.
Məəttəl qalmışam
mən burda düzü,
Hansınızsınız,
ərəb qızı?

Tələbə oğlanlar çox kasıb geyinirlər. Onların əksəriyyəti demək olar ki, dərsə ev paltarında gəlirlər. Ev paltarında dərsə gəlmək o qədər kütləvi hal almışdı ki, institut rəhbərliyi xüsusi əmrlə tələbələrin ev paltarında instituta gəlmələrini qadağan etdi.

Bir dəfə yağışlı bir gündə bir tələbəni ev başmağında görüb, danladım. O, başını aşağı salıb cavab vermədi. Sonra xəstə olduğunu bildirib, dərsdən azad olmaq üçün icazə istədi. İcazə verdim. O gedəndən sonra tələbə yoldaşları dedilər ki, onun nə ayaqqabısı var, nə də ki, ayaqqabı almağa imkanı.

Təqaüdü gözləyir ki, özünə ayaqqabı alsın. Onu da qeyd edim ki, bəzi tələbələr də harınlıqdan ev paltarlarında dərsə gəlirdilər. Düzü, mən səhv etmişdim və bunun üçün xəcalət çəkirdim.

Əlcəzairli gənclər idmanı çox sevirlər. Onların futbola olan məhəbbətindən irəlidə qeyd etmişəm. Onlar eyni dərəcədə həndbol, voleybol, şahmat və tennis oyunlarını da sevirlər. Bu gənclərin (istər oğlan və istərsə də qız olsun) karateyə də böyük maraqları vardır.

Tələbələr öz müəllimlərinə böyük hörmət və məhəbbətlə yanaşırlar. Müəllimlərə qarşı çox diqqətlidirlər.

Bir dəfə Azərbaycan Politexnik İnstitutunun dosenti Rafiq Hüseynov (o, mənimlə birlikdə MYSİ-də işləyirdi, hal–hazırda professor, AzTU-da kafedra müdiri vəzifəsində çalışır) çimərlikdə qol saatını itirdi. Bizim nəsə axtardığımız görən bir qrup tələbə bizə yaxınlaşdı və nə axtardığımızı soruşdular. Məsələ aydın olduqdan sonra onlar da bizimlə axtarmağa başladılar. Saatı tapa bilmədik. Düz 15 gündən sonra həmin tələbələr adamlarla dolu bu çimərlikdən saatı taparaq gətirib Rafiq müəllimə verdilər.

Əlcəzairli gənclər öz inqilablarından həmişə fəxrlə danışır, öz torpaqlarının əsil sahibləri olduqlarını müsahiblərinin nəzərinə tez-tez çatdırmağı xoşlayırlar. Onlarda bir az (gizli formada) xudpəsəndlik də hiss olunur. Belə ki, çalışırlar ki, özlərinin ən çox inkişaf etmiş, ən mədəni olduqlarını sübuta yetirsinlər. İnkişaf etmiş ölkələrin nümayəndələri ilə münasibətdə bu xüsusiyyət özünü daha qabarıq şəkildə göstərir.

...Günlərin bir günü sovet mütəxəssislərinin yeni rəhbəri (o, Martirosyan soyadlı erməni idi. Moskva Yeyinti Sənaye İnstitutundan gəlmişdi) rektorluq qarşısında məsələ qaldırdı ki, institutda dərslərin başlanma və qurtarma vaxtları bizdəki kimi zənglə olsun. Yerli rəhbərlik razılaşdı, elektrik zəngləri alındı və insititutun korpuslarında quraşdırıldı. Səhər işə gəldik, zəng

vuruldu. Tələbələr soruşdular ki, bu nə zəngdir. Başa saldıq ki, bu zəng dərsin başlandığını bildirir, əlli dəqiqədən sonra isə dərsin qurtardığını xəbər verəcək. Tələbələr təəccüblə dedilər:

– Məgər bizim şüurumuz və saatımız yoxdurmu? Biz şüurlu insanlarıq. Zəng şüursuzlar üçündür.

Tələbələr dərsə girmədilər və tələbə komitəsi bir həftəlik tətil elan etdi ki, bütün zəngləri söküb çıxardılar.

...Bir dəfə bizimkilər belə qərara gəldilər ki, iməcilik keçirsinlər. Bu məqsədlə istirahət günü hamımız instituta yığışdıq. Vətəndə olduğu kimi otaqları, iş yerlərini təmizlədik. Ertəsi gün etiraz əlaməti olaraq tələbələr dərsə girmədilər. Tələbləri də bu oldu: "Bizə xidmətçi müəllimlər yox, centlimen müəllimlər lazımdır".

Həmin il şəhər rəhbərliyi bizim kontrakt rəhbərliyinin təşəbbüsü ilə ümumşəhər iməcliyi keçirməyi qərarlaşdırdı. Ümumşəhər iməcliyində yalnız şəhər vətəndaşları iştirak edirdilər. Dəstə ilə şəhər ətrafına çıxdıq. Üç mindən artıq ağac əkdik. Sonradan öyrəndik ki, ağaclara su verməyib, yandırıblar.

Əlcəzairlilər öz şəxsiyyətlərinə çox hörmət edəndirlər. Əgər bir tələbənin hissiyyatına azacıq belə toxunsan, o səninlə hətta düşmən kəsilə bilər. Bir dəfə bizim riyaziyyatçılardan birisi bir tələbəni lövhəyə çağırıb, ondan hansı teoreminsə isbatını yazmağı tələb edir. Tələbə necə lazımdırsa, həmin teoremin isbatını lövhəyə yazır. Müəllim izahatını soruşduqda isə cavab verə bilmir. Müəllim elə zənn edir ki, tələbə lövhəyə yazdıqlarını hardansa köçürmüşdür. Ona görə də lövhəni sildirir və həmin tələbədən tələb edir ki, teoremin isbatını yenidən lövhəyə yazsın. Tələbə teoremin isbatını yenidən lövhəyə yazır və müəllimi təhqir edib (tabaşiri onun üstünə ataraq), auditoriyadan çıxır. Sonradan həmin müəllim o tələbənin oxuduğu qrupda dərs deyə bilmədi. Sadəcə olaraq bütün tələbə kollektivi onu boykot etdi.

Auditoriyada tələbələr sərbəst oturmağı sevirlər. Əgər ilk gündən müəllim tələbkar olsa, onda o, tələbələrin oturuşuna

müəyyən "düzəliş" edə bilər. Vay o haldan ki, əvvəldən auditoriyanı boş buraxsın. Məncə bu sərbəst oturuşla əlcəzairli tələbələr özlərini fransız həmyaşıdlarına bənzədirlər. Bir dəfə bizim müəllimlərdən biri tələbəsinin sərbəst oturuşuna "düzəliş" vermək üçün ona deyir ki, bura bax, elə oturmusan ki, sanki öz evindəsən. Tələbə nə cavab versə yaxşıdır?: "Cənab, mən öz evimdəyəm, siz öz evinizdə deyilsiniz".

Bumerdes gənclik şəhəri olsa da, orada nisbətən yaşlılar da yaşayırlar. Bunlar əsasən ali məktəblərin işçiləri, ticarətçilər, habelə məişət xidmətçiləridirlər.

Şəhərdə bir dövlət mağazası (buna Unipri deyirlər – sabit qiymətli mağaza), bir kooperativ mağaza (buna Suk-əl-Fəllah deyirlər, burada şeylərin qiyməti dövlət mağazasına nisbətən baha olur), 20-dən artıq isə xüsusi mağaza vardır. Xüsusi mağazalarda malların qiyməti kooperativ mağazalardakından da bahadır. Bu o demək deyildir ki, xüsusi mağaza sahibləri satdıqları mallara istədikləri qiymətləri qoya bilərlər. Bu mağazalardakı qiymətlərə Dövlət tərəfindən nəzarət olunur. Xüsusi mağazalardakı malların qiyməti dövlət mağazalarındakı qiymətin 5%-indən baha ola bilməz.

Şəhərdə bazar da vardır. Bazarla bağlı bir hadisə məncə oxucular üçün maraqlı olar.

İstirahət günü ailəmizlə birlikdə bazara getdik. Əlcəzairin bir sıra şəhərlərində bazarlar səyyaridirlər. Xüsusi maşınlarla tacirlər şəhər kənarındakı meydana öz mallarını çıxarırlar. Bu meydan bazar üçün ayrılmışdır. Bazarda alver səhər saat 6-dan günorta 12-yə kimi davam edir. Burada həm ərzaq, həm sənaye, həm də təsərrüfat malları satılır. Sonra onlar malları yığışdırıb evlərinə dağılışırlar. Bumerdesdə bu bazar həftədə üç dəfə yığışır. Yerdə qalan günləri həmin tacirlər öz mallarını başqa şəhərlərə aparırlar. Bu üç gündən biri istirahət, yəni cümə gününə düşürdü. Biz mütəxəssislər yalnız istirahət günü bazara gedə bilərdik (bu bizim sovet rəhbərliyinin sərəncamı idi). Ona görə də biz bir həftəlik bazarlıq edirdik. Iki zənbil şey

aldıq, üçüncü qabımızı doldurmağa başladıq. Bazarda çox tünlük olduğundan uşaqların da əllərindən tutmuşduq ki, itməsinlər. Beləliklə, evə qayıtdıqdan sonra məlum oldu ki, zənbilin birini yaddan çıxarıb bazarda qoymuşuq. Həyat yoldaşım təklif etdi ki, bazara qayıdım. O, hansı satıcının yanında zənbilimizi qoyduğumuzu təxminən bilirdi. Mən isə bazara qayıtmağın mənasız olduğunu ona inandırmağa çalışdım. Hava da çox isti idi. Çox söhbətdən sonra bazara qayıtmalı oldum. Dəhşətli istidə, tərin-suyun içində gəlib bazara çıxdım. Birbaşa güman etdiyimiz yerə yönəldim. Nə görsəm yaxşıdır? Zənbil olduğu kimi yerində dururdu. Qəribə də olsa, həmin gün başıma  başqa bir hadisə gəldi. Bizim klubda abunə olduğum qəzetləri alıb, yoldaşlarla bir qədər şahmat oynadım. Necə oldusa qəzetləri yaddan çıxarıb evə getdim. On dəqiqədən sonra qayıtdım və...qəzetləri yerində görmədim.

İrəlidə çəkdiyim misalla mən heç də sübut etmək istəmirəm ki, Əlcəzairdə oğrular yoxdur. Xeyir, orada oğrular da, canilər də vardır. Mənim zənbilim oğruya rast gəlsəydi, şübhəsiz ki, onu yaddan çıxardığım yerdə tapmazdım. Maraqlı orasıdır ki, mənim zənbilim o boyda izdihamın içərisində oğruya rast gəlməmişdi.

## BİZİM AİLƏ

Çox güman ki, oxucular üçün Əlcəzairdəki adət və ənənələr, əhalinin həyat və iş şəraiti, bizə münasibət və s.-lə yanaşı, orada yaşayan sovet mütəxəssislərinin, xüsusilə azərbaycanlıların həyat şəraiti, işi və istirahəti də maraqlı olar. Ona görə də mən bizim qürbətdəki həyatımız barədə onlarda az da olsa, təsəvvür yaratmaq istəyirəm.

Əlcəzairdə çoxlu sovet mütəxəssisi, o cümlədən azərbaycanlı mütəxəssislər işləyir və yaşayırlar. Bumerdes şəhərində 27 azərbaycanlı ailəsi yaşayırdı. Onların bir qismi müəllim, digər qismi isə neftçi, geoloq, tərcüməçi və başqa

sənət sahibləri idilər. Ümumiyyətlə Bumerdesdə 1000-dən artıq sovet vətəndaşı vardır. Bunlar mütəxəssislər və onların ailə üzvləri idilər. Burada başqa “növ” sovet vətəndaşlarına da rast gəlinirdi. Onlar vaxtilə ölkəmizdə təhsil almış əlcəzairli oğlanlarla ailə qurmuş qadınlardırlar. Onlardan birisi lap bizim qonşuluqda yaşayırdı...

Əlcəzairin nigah haqqında qanunu hər kişiyə üç dəfə evlənmək hüququ verir. Bir şərtlə ki, kişi həmin qadınların normal həyat şəraitinə tam təminat vermiş olsun. Həmin qonşumuz ikinci arvad almaq qərarına gəlmişdi. Rus arvadı isə buna tam etiraz edirdi (Axı bizdə rəsmi olaraq belə qanun yoxdur). Kişi birinci arvadını (rus arvadını) Fransaya gəzməyə göndərdi və ikinci arvadı aldı. Birinci arvad səfərdən qayıtdıqdan sonra çox haray-həşir qopardı, lakin nəticəsi olmadı. Bədbəxtlikdən birinci arvad heç yerdə işləmirdi. Bizim səfirliyin yaxından köməyi nəticəsində işə düzəldi və istər-istəməz ailədə yaranan yeni şəraitlə razılaşmalı oldu. Bumerdesdə digər rus qadınları da var idi ki, ərləri bizimlə bir institutda çalışır, həmin qadınların müəyyən qismi də bizimlə işləyirdilər. Hər dəfə onlarla söhbət edəndə hiss olunurdu ki, nədənsə bu qadınlar özlərini xoşbəxt göstərməyə çalışır, öz üstünlüklərini (?) büruzə verməyə cəhd göstərirdilər. Söhbət əsnasında Fransaya, İspaniyaya, ABŞ və digər kapitalist ölkələrinə səfərlərindən, bankda olan dollar hesabının üstünlüklərindən, ailələrinin firavan yaşamasından ağızdolusu danışırdılar. Gözlərinə diqqətlə fikir verəndə görürsən ki, baxışlarının dərinliyində bir kədər, bir həsrət özünə həmişəlik yuva salmışdır. Fəxrlə danışdıqları da həmin kədər və həsrətin içərisində boğularaq göz yaşlarına çevrilirdi. Bu zaman ixtiyarsız olaraq müdrik el bayatısı yada düşürdü:

Şaftalıyam, kalam mən,  
Dilim yoxdu, lalam mən;  
Eldən ayrı düşmüşəm –

Ərəb gəlinləri içərisində azərbaycanlı qızlarımız da var idi. Onlardan birisi bizim Neft və Kimya İnstitutunda oxuyan əlcəzairli oğlana ərə getmişdi. Gənc ailənin bir oğul övladı var idi. Ailədə baş verən və bizə məlum olmayan hansısa narazılığa görə bizim bakılı qızı səfirlik xəlvəti olaraq uşağı ilə birlikdə Bakıya qaçırmışdı. Həmin müddətdə onun əri Parisdə imiş. Parisdən qayıtdıqdan sonra hadisədən xəbərdar olan ər on sovet vətəndaşını öldürəcəyini bəyan etmişdi. O vaxt bizim hamımızı iclasa yığdılar və axşam saat 8-dən sonra evdən bayıra çıxmamağı tapşırdılar. Bu hadisə bizdə böyük əsəbi gərginlik yaratmışdı.

Daha bir başqa misal. Mən dərs dediyim qrupda iki "müsəlman bacı" vardı. Mənə xüsusi hörmətlə yanaşdıqlarını hiss edir, lakin səbəbini bilmişdim. Bir gün onlar birlikdə mənə yaxınlaşıb soruşdular!

-Siz doğrudanmı Bakıdansınız?

Dedim; - Bəli.

Onlar cavabında gəlinlərinin (qardaşı arvadının) bakılı olduğunu bildirdilər. Bu qızların qardaşları və gəlinləri Moskva Dövlət Universitetinin bitirdikdən sonra evləniblər. Qızlar gəlinlərinin məni görmək istədiklərini bildirdilər.

Mən görüşə razılıq verdim. Lakin həmin görüş alınmadı. Yəni həmyerlimiz gəlmədi. Mən də heç sonradan bu məsələ ilə maraqlanmadım. Sadəcə olaraq MDU-nu bitirmiş bir qızın "müsəlman bacıları" ailəsində necə yaşaması məni çox düşündürdü.

Bumerdesdə yaşayan sovet mütəxəssisləri və onların ailə üzvləri vahid bir orqanizmi xatırladırdı. İrəlidə qeyd etdiyim kimi bizim öz klubumuz, musiqi məktəbimiz, səkkizillik məktəbimiz, bədii özfəaliyyət kollektivlərimiz, güclü şahmat, voleybol, futbol, və başqa komandalarımız var idi.

Vladimirli kimyaçı V.İvanovun rəhbərlik etdiyi “Raduqa” vokal-instrumental ansamblı və Azərbaycan Dövlət Universitetinin dosenti Vahid Əliyevin rəhbərlik etdiyi “Azərbaycan təranələri” instrumental ansamblı Əlcəzairdə məşhur idi. Bu ansamblllar həm bizim milli bayramların, həm beynəlxalq bayramların, həm də əlcəzairlilərin milli bayramlarının keçirilməsində xüsusi fəaliyyət göstərirdilər.

Kişilərdən və qadınlardan təşkil edilmiş birləşmiş xor da tamaşaçıların rəğbətini qazanmışdı.

Bumerdesin bədii özfəaliyyət kollektivləri gah Sovet səfirliyində və gah da Sovet ticarət nümayəndəliyində keçirilən konsertlərdə həmişə iştirak edərək həmin mərasimlərin bəzəyi olurdular.

Bu sətirlərin müəllifi Bumerdes şəhəri üzrə Sovet kontraktlarının inzibati şurasının üzvü olub, mədəni-kütləvi işlər bölməsinə rəhbərlik edirdi; bütün mədəni-kütləvi işlərin təşkili və keçirilməsində birbaşa məsuliyyət daşıyırdı. Bizim bölmə musiqi məktəblərinin, bədii özfəaliyyət dərnəklərinin fəaliyyətinə nəzarət edir, onların il ərzində müxtəlif bayram konsertlərində iştirakına köməklik göstərirdi. Tədbirlərin hamısında bizim əlcəzairli həmkarlarımız və dostlarımız iştirak edirdilər. Əvvəllər onlar yalnız tamaşaçı kimi, sonralar isə həm də iştirakçı kimi bizim gecələrdə fəaliyyət göstərirdilər.

Yaxşı yadımdadır, konsertlərin birində ilk dəfə olaraq bizim “Azərbaycan təranələri” instrumental ansamblı çıxış edirdi. Neft və Qaz İnstitutunun 800 nəfərlik konsert salonunda (bu salon əlcəzairli dostlar üçün hədiyyə kimi bizim ölkənin hesabına tikilmişdir) iynə atsaydın, yerə düşməzdi. Ansambl C.Cahangirovun “Ana” mahnısı ilə çıxışına başladı.

Vahid müəllim muğamdan bir parça çalmağa başladıqda isə, zalda elə sakitlik vardı ki, sanki heç kəs nəfəs belə almırdı. Konsertin aparıcısı isə “Ana” şerini oxuyurdu. Zalda birdən elə alqışlar qopdu ki, bizim sevincdən bədənimiz lərzəyə gəldi. Sonra ansambl “Şələbiyyə” ərəb mahnısını çaldı. Mahnı

əvvəldən axıra kimi tamaşaçıların alqışı ilə müşayiət olundu. Konsertdən sonra əlcəzairli yoldaşlar bizə yaxınlaşır, təbrik edir və "Azərbaycan təranələri" ansamblını öz konsertlərinə dəvət edirdilər. Ansamblın müvəffəqiyyətli çıxışı bizi ilhamlandırdı və yeni-yeni musiqili ədəbi-bədii gecələr keçirməyə ruhlandırdı.

## AZƏRBAYCAN POEZİYA GECƏLƏRİ

Bir gün Vahid müəllimlə söhbət əsnasında belə qərara gəldik ki, Azərbaycan poeziya gecəsi keçirək. Şairlərimizdən S.Vurğun, B.Vahabzadə, N.Xəzri, N.Həsənzadə və başqalarının şerlərindən həm Azərbaycan və həm də rus dilində seçdik. Bundan başqa bizdə S.Vurğunun ərəb və fransız dilində tərcümə olunmuş şerləri vardı. M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun dosentləri A.Ağayev və R.Kalaşnikov da bizə kömək göstərirdilər.

Onu da qeyd edim ki, bu gecənin keçirilməsində azərbaycanlı həmyerlilərimizin heç də hamısı fəal iştirak etmirdi. Hətta tədbirin əleyhdarları da var idi. Lakin bütün bunlara baxmayaraq biz belə qərara gəldik ki, poeziya gecəsini keçirək. Şerləri Azərbaycan dilində bu sətirlərin müəllifi, digər dillərdə isə leninqradlı K.Petrova, belorus V.Basik, rostovlu E.Nikolayeva və b. oxuyurdular. Gecənin aparıcısı isə R.Kalaşnikov idi. Ssenarini bu sətirlərin müəllifi tərtib etmişdi.

Əvvəlcə M.Füzulinin məşhur "Vətənimdir" qəzəli Azərbaycan, S.Vurğunun "Azərbaycan" şeri isə rus dilində səsləndi. Səhnədə işıqlar söndürüldü. Azərbaycanın dilbər guşələrindən çəkilmiş rəngli slaydlar nümayiş etdirilməklə, R.Behbudovun ifasında "Azərbaycan" mahnısının lent yazısı səsləndirildi. Vətən həsrətli gözlər bir bulağa çevrilmişdilər. Hətta zaldan hıçqırıq səsləri də gəlirdi. Ağlayanlar qadınlar idi...

Gecə böyük müvəffəqiyyətlə keçdi. Hamı gəlib bizi öpür, qucaqlayır, təbrik edirdi. Azərbaycan Politexnik İnstitunun dosenti Tofiq Mahmudzadə mənə yaxınlaşıb dedi:

– Bundan sonrakı tədbirlərinizdə elə hesab edin ki, mən də varam və fəal iştirak etməyə hazıram.

Bir neçə gündən sonra rus yoldaşlar bizim yerli komitəyə rəsmi müraciətlə xahiş etdilər ki, "Azərbaycan poeziya gecəsi" bir də təkrar olunsun.

Gecədən sonra bizə məlum oldu ki, Azərbaycan poeziyasına və musiqisinə nəinki ərəblər və fransızlar, hətta bizimlə bir ölkədə yaşayan ruslar da yaxşı bələd deyildirlər. Bir gün bizim Politexnik İnstitutunun dosenti Telman Mahmudov gecənin iştirakçılarına yaxınlaşıb dedi:

– Çox sağ olun ki, bu gecəni keçirdiniz. Müəllimlər (söbət səfirliyin 8-illik məktəbindəki müəllimlərdən gedir) bizim Azərbaycan poeziyasına elə vurulublar ki, hətta məktəbdə bizim uşaqlarımıza münasibət dəyişibdir.

İlk müvəffəqiyyət bizi yeni bir gecə təşkil etməyə həvəsləndirdi. Belə qərara gəldik ki, Novruz bayramını keçirək. Həmin gecənin təşkili və keçirilməsində demək olar ki, bütün azərbaycanlılar iştirak etdilər. Ansamblın solistləri T.Mahmudzadə (Azərbaycan Politexnik İnstitutunun dosenti), G.Məmmədova (ixtisasca həkimdir, həyat yoldaşı F.Məmmədov Neft və Kimya İnstitutunun dosenti, bizim ansamblda pianoçu idi), S.Nəbiyev (Neft və Kimya İnstitutunun dosenti) həmin gecə üçün xüsusi konsert proqramı hazırlamışdılar. Onu da qeyd edim ki, Samid müəllim həm də bizim rəqs qrupuna rəhbərlik edirdi. Rəqs qrupuna orada çalışan mütəxəssislərin uşaqları daxil idilər. Rəqqaslar üçün milli geyimləri isə bizə Əlcəzairdəki Sovet məktəbindən vermişdilər. Vaxtilə Əlcəzairdə qastrol səfərində olan Azərbaycan rəqs ansamblı bu paltarları məktəbə bağışlamışdı.

Gecəyə olan marağı nəzərə alıb, biz belə qərara gəldik ki, buraxılışı dəvətnamə ilə edək. Gecəni aprelin 24-nə təyin etdik.

Sadəcə olaraq 21 marta hazırlıq işlərini başa çatdıra bilmədik. Şerləri oxumaq üçün K.Petrova, T.Basik, N.Belov, L.Nozadze dəvət olunmuşdular. Bunların hamısı demək olar ki, peşəkar qiraətçilər idilər. Hətta T.Basik Qomel televiziyasının diktoru idi. Şer oxuyanlar içərisində Y.Markaryan da var idi. O milliyyətcə rus, əri isə Rostov ermənisi idi. Gecənin keçirilməsinə bir neçə gün qalmış mənə dedilər ki, Yelena Markaryan məni görmək istəyir. Görüşdük. O bizim Sovet məktəbində işləyirdi. Yelena çox üzrxahlıq eyləyib bildirdi ki, xəstələnib və bizim gecədə iştirak edə bilməyəcək. Lakin o, üz-gözündən heç də xəstəyə oxşamırdı.

Mən ona:

– Hələ tədbirin keçirilməsinə çox qalır, - dedim. Bəlkə o vaxta kimi sağaldınız.

O isə ümidsizcəsinə:

– Bəlkə də - dedi.

Düzü gecənin təşkili və keçirilməsi ilə bağlı hamımız böyük həyəcan keçirirdik. Qadınlarımız şəkərbura, paxlava, şirin çörək bişirmişdilər. Səməni, şamlı xonçalar hazırlanırdı.

Dəvətnamələr paylanmış, xüsusi zövq ilə tərtib olunan elanımız da vurulmuşdu. Biz dəvətnamələri müxtəlif millətlərin nümayəndələri arasında bölüşdürmüşdük. Gecənin keçirilməsinə bir gün qalmış Yerevan Politexnik İnstitutunun dosenti M.Ayvazyan mənə yaxınlaşıb dedi:

– Vaqif, məni bağışla, sizin keçirəcəyiniz gecəyə gələ bilməyəcəyəm. Çünki 24 aprel bizim xalqın matəm günüdür. Genosid günü.

Düzü mən tarixdə belə bir günün olduğunu birinci dəfə idi ki, eşidirdim və o saat başa düşdüm ki, Y.Markayanın da "xəstələnməyi"nin səbəbi və tezliklə sağalacağına "ümidsizliyi" nədən irəli gəlirmiş.

Elə həmin gün Bumerdesdə yaşayan sovet mütəxəssislərinin rəhbəri məni öz yanına çağırdı. R.Şagiyev Ufadan gəlmişdi, milliyyətcə tatar idi.

O üzünü mənə tutub dedi:

- Mənim yanıma erməni yoldaşlar gəlmişdilər. Onlar deyirlər ki, siz bilərəkdən öz bayram şənliyinizi onların matəm gününə salmışsınız.

Mən özümü bilməzliyə vurub soruşdum:

- Söhbət hansı matəm günündən gedir:

O:

- Genosid günündən, Türk genosidindən söhbət gedir, - dedi

Mən onun düz gözlərinin içinə baxaraq:

- Rudolf Genduloviç, bizim ölkədə rəsmi olaraq qəbul edilmiş belə bir gün varmı? – soruşdum.

- Mən bilmirəm – deyə o, cavab verdi. Amma erməni yoldaşlar deyirlər ki, YUNESKO rəsmi olaraq belə bir günü qeydə alıb.

- Yox – dedim - Rudolf Genduloviç, qeyd olunmuş belə bir gün yoxdur (Ayvazyanın "bəyanatı"ndan sonra mən bununla maraqlanmışdım). İstəyirsiniz YUNESKO-ya müraciət edib soruşun. Bir də ona and içə bilərəm ki, genosid günü haqqında ilk dəfə, elə burada – Əlcəzairdə bir erməninin özündən eşitmişəm.

Şagiyev gülümsədi və çox qətiyyətlə:

- Mən sizə inanıram, - dedi. Gedin gecənizi keçirin. Orada mən də iştirak edəcəyəm.

Bayram şənliyinin başlanmasına hələ yarım saat qalmış salon ağzına qədər dolmuşdu. Qapıda duranlar üzüyumşaqlıq edib, qonaqlarla yanaşı dəvətnaməsiz gələnləri də buraxmışdılar. Mübaliğəsiz deyə bilərəm ki, salonda iynə atsaydın yerə düşməzdi.

Üzeyir bəyin məşhur "Koroğlu" uvertürasının fonoqramı səsləndi. Bu musiqi sona yetən kimi "Azərbaycan" şeri səsləndi:

... "Ayrılarmı könül candan"? –
Vurğun necə gözəl demiş!

Mənim ruhum, mənim qəlbim,
Mənim canım səndə imiş.
İndi bildim, babalarım
Candan əziz balaların
Niyə sənə qurban demiş?
Sən namusum, ləyaqətim,
Qeyrətimsən, Azərbaycan!
Tarixlərə zinət olan
Şöhrətimsən, Azərbaycan!

Milli paltarlar geymiş oğlan və qızlarımız "Vağzalı"nın həzin sədaları altında zala daxil oldular. Qızlar əllərində xonçalar, oğlanlar isə gül-çiçək dəstələri tutmuşdular. Tamaşaçılar sürəkli alqışlarla konsert iştirakçılarını qarşıladılar.

Mahnı rəqsi, şer isə nəğməni əvəz edirdi. Misralar doğma Vətənimizə, elimizə, obamıza, bayramlarımıza həsr olunmuşdu. Gecənin sonunda konsert iştirakçıları birlikdə Q.Qarayevin "Neftçilər marşı"nı ifa etdilər. Milli geyimli qızlarımız tamaşaçıları xonçalara düzülmüş şərq şirniyyatına qonaq etdilər. Konsert qurtarmışdı. Lakin ayağa qalxmış tamaşaçıların uzun sürən alqışları kəsilmək bilmirdi. Zaldan "Var olsun Azərbaycan" səsləri gəlirdi. Hamı bizi təbrik edirdi. Təbrik edənlərin arasında Şagiyev də var idi. Bəzilərimizin gözlərində sevinc yaşları parıldayırdı.

Gecənin tamaşaçıları arasında sovet vətəndaşları ilə yanaşı əlcəzairlilər və fransızlar da var idi. Əlcəzairdə işləyən bir qrup bolqar mütəxəssis də bizim şənlikdə iştirak edirdi.

Şənlik qurtaran kimi bir ərəb mənə yaxınlaşıb dedi:

– Azərbaycan dilində bircə söz də olsun belə bilmirəm (Əslində, o, düz demir. Şərikli sözlərimiz çoxdur). Ancaq sizin Azərbaycan dilində söylədiyiniz şerlərin hamısını başa düşdüm. Minnətdaram Sizə. Sağ olun.

Əlcəzairdə keçirdiyimiz və hamımızın yaddaşına həkk olan tədbirlərdən biri S.Vurğunun 80 illiyinə həsr olunmuş poeziya gecəsi idi.

Gecəyə hazırlaşarkən məlum oldu ki, bizdə rus dilində S.Vurğunun şerləri çox azdır. Bu məqsədlə ölkənin paytaxtında yerləşən mədəniyyət mərkəzinə getdik. Orada da bir şey tapa bilmədik. Bakıya məktub yazdıq və bizə bir neçə şer göndərdilər. Səhnədən asmaq üçün şairin portreti lazım idi. Özümüz rəssamlıq edəsi olduq. Epidiaskopda şairin şəklini böyüdüb vatman vərəq üzərinə saldıq, əvvəlcə karandaşla, sonra isə tuşla işləyib portreti hazırladıq. Bu dəfə qadınlarımız da gecədə fəal iştirak etmək arzusunda olduqlarını bildirdilər. Şerləri oxumaq üçün onları da cəlb etdik. Məruzəçi və şerlərin azərbaycanca ifaçısı bu sətirlərin müəllifi idi. Şerləri gürcü L.Nozadze, rus K.Petrova, belorus T.Basik, rus N.Belov və bizim azərbaycanlılar G.Məmmədova, R.Hüseynova, N.Nəbiyeva oxuyurdular. Gecənin proqramına S.Vurğunun sözlərinə yazılmış mahnıların fonoqramı da daxil edilmişdi. Gecə sona yetəndən sonra hamı bir-birini şairin yubileyi münasibətilə təbrik edirdi. Kimisi şairin portreti fonunda şəkil çəkdirir, kimisi də musiqi sədaları altında rəqs edirdi. Uşaqların da sevincinin həddi hüdudu yox idi. Bəli, böyük Azərbaycan şairinin uzaq Afrika qitəsində yubileyi əsil bayrama çevrilmişdi. Biz azərbaycanlıların isə ürəyindən yalnız bir fikir keçirdi: - Xoş gördük səni, bu qərib diyarda, sevimli şairimiz! Xoş gördük, Vətənin vurğun oğlu! Bu gün doğma torpağa, el-obaya vurğunluq, ölümün qurduğu əlçatmaz səddə baxmayaraq bizi daha da bir-birimizə yaxınlaşdırır. Sən ürəklərdəsən, əziz şairimiz, ürəklərdə! Əgər belə olmasaydı bu gün ölkə-ölkə, şəhər-şəhər gəzib dodaqlarda səslənməzdin. Sən bu gün təkcə Azərbaycanda deyil, dünyanın hər yerində varsan və var olacaqsan da!

## DOSTLUQ GÜNLƏRİ

1985-ci ilin son ayları idi. Bumerdes şəhərinin rəhbərliyi bizim inzibati şuraya rəsmi surətdə müraciət edərək, Əlcəzair – Sovet dostluğu həftəsi keçirmək fikrində olduğunu bildirdi. Təklif bəyənildi və bu barədə Sovet səfirliyinə məlumat verildi. Sovet səfirliyindən dərhal razılıq alındı. Şəhər bələdiyyə rəisinin yanında təşkilat komitəsi yaradıldı. Sovet tərəfindən mən də həmin komitəyə üzv kimi daxil edildim. Komitə üzvləri həftədə iki dəfə yığışır, müxtəlif məsələləri müzakirə edib, müvafiq qərarlar çıxarırdı. Komitənin iclasında Səfirliyin mədəniyyət və informasiya üzrə müşaviri Y.İ.Fyodorov, Sovet Mədəniyyət Mərkəzinin direktoru, beynəlxalq kitab təşkilatının Əlcəzairdəki nümayəndəsi də tez-tez iştirak edirdilər.

Həftənin proqramına bir neçə birgə konsertlər, Sovet filmlərinə baxış, sovet kitablarının satışının təşkili, habelə idman yarışları daxil idi. Zövqlə tərtib olunmuş elanlar, həftənin iştiakçıları üçün döş nişanları və s. sifariş olundu.

Dostluq həftəsinin açılışı 6 fevral 1986-cı ildə SONATRAK neft şirkətinin böyük mədəniyyət sarayında keçirildi. Əlcəzairin televiziya, radio və müxtəlif qəzetlərinin, habelə mərkəzi televiziyanın "Vremya", proqramının "İzvestiya" və "Pravda" qəzetlərinin müxbirləri də orada idilər.

Rəsmi hissədən sonra dostluq konserti başlandı. Əvvəlcə bizim bədii özfəaliyyət kollektivlərimiz çıxış etdilər. Konsertə Əlcəzair şəhərindən konservatoriyada işləyən sovet musiqiçiləri də dəvət olunmuşdu.

Sovet musiqiçilərinin, habelə bədii özfəaliyyət kollektivlərinin çıxışları çox böyük maraqla qarşılandı. Konsertdə Azərbaycan məktəbliləri Pərvanə, Sevinc və Emin "Azərbaycan" rəqsini ifa etdilər.

Konsertdən sonra Sovet mədəniyyət mərkəzinin direktoru mənə dedi ki, əgər bu konserti bir gül dəstəsinə bənzətsək, onların içərisində ən ətirlisi "Azərbaycan" rəqsi idi.

“Azərbaycan təranələri” instrumental ansamblının da çıxışları hərarətlə qarşılandı. Əlcəzairlilərdə bir xüsusiyyət var. Konsert zamanı tamaşaçı ürəyinə yatan musiqi eşitdikdə səhnənin qarşısına çıxır və rəqs edir. Bizim ansambl çıxışına başlayan kimi əlcəzairli gənclər səhnənin qarşısına çıxıb, rəqs etdilər. Hamı əl çalır, gözlər sevincdən par-par parıldayırdı.

Mənə elə gəlirdi ki, bu ansambl eyni dərəcədə həm bizim üçün, həm də əlcəzairli tamaşaçılar üçün doğmadır. Bu kollektiv hər iki xalqı daha da yaxınlaşdırır, daha da doğmalaşdırır.

Sonra əlcəzairlilər çıxış etdilər. Əlcəzairin həm folklor və həm də müasir musiqi kollektivləri konsertdə iştirak etdilər.

Səhəri günü Əlcəzair qəzetləri Bumerdesdə keçirilən Əlcəzair –Sovet dostluğu həftəsi haqqında yazılar dərc etdilər. Televiziyada isə “Xəbərlər” proqramında həmin tədbir geniş işıqlandırıldı.

İdman yarışları da, filmlərə baxış da yaxşı təsir bağışladı. Bizim şahmat komandamız Əlcəzairin milli şahmat komandası ilə görüşdə qalib gəldi. Voleybol, futbol komandalarımız haqqında da həmin sözləri deyə bilərəm.

Əlcəzairdə əsasən Amerika və Fransa filmləri nümayiş etdirilir. Arabir Misir filmləri də göstərilir. Yeri gəlmişkən qeyd edim ki, bu filmlərdən açıq-saçıqlıq, parnoqrafiyaya meyl, geniş tamaşaçı kütləsinin xoşuna gəlmir. Mən dəfələrlə Əlcəzair qəzetlərindəki yazılarda bu növ filmlərə qarşı hiddət və qəzəbi hiss etmişəm. Hətta bir qrup tamaşaçı Amerika və Misir filmlərinin ölkədə nümayiş etdirilməsini qadağan etməyi tələb edirdi. Bu filmlərin əksəriyyəti köhnə olub zorakılığı, qəddarlığı və mənəvi pozğunluğu aşılayırlar. (Təəssüflər olsun ki, indi belə filmlər bizim də ekranlara yol tapa bilmişdir). Əlbəttə həmin xüsusiyyətlər bizim filmlərə yaddır. (Söhbət yenidənqurmaya qədər yaradılan filmlərdən gedir). Ona görə də ciddi tamaşaçılar bizim filmləri rəğbətlə qarşılayırlar.

Dostluq həftəsi yekun konserti ilə başa çatdı. Şəhərin meri öz çıxışında bizə öz minnətdarlığını bildirdi və gələcəkdə də belə tədbirlərin keçirilməsini arzuladı.

O, fasilədə mənə yaxınlaşdı və soruşdu:

- Siz azərbaycanlısınızmı?

- Bəli – dedim.

- Deməli müsəlmansınız.

- Əlhəmdulillah – dedim. Siz bunu haradan bilirsiniz?

- Burada çoxlu azərbaycanlılar çalışıblar. Mən istərdim ki, əlaqələrimiz daha  sıx olsun. Bununçün yol görürəm: bizim Bumerdeslə sizin respublikanın şəhərlərindən birini qardaşlaşdırmaq.

Dərhal ürəyimdən Gəncə keçdi. Lakin təəssüflər olsun ki, müstəqilləşmənin mehi Afrika qitəsinə gəlib çıxmamışdı...

Yekun konsertdən sonra dostluq həftəsinin bir qrup təşkilatçısına fəxri fərmanlar və mükafatlar verildi. Mükafat alanlar arasında mən də var idim.

Bumerdesdə bəzən şəhər çərçivəsindən kənara çıxan görüşlər də keçirilirdi. Dostluq həftəsi xətti ilə ölkəmizi təmsil edən Qırğızıstan nümayəndələrinin qarşılanması və konsertlərinin təşkili də buna misaldır.

Belə dostluq həftələri tez-tez keçirilirdi. Əlcəzairdə yaşayan azərbaycanlıların  xoşbəxtliyindən bu tədbirlərin birində İttifaqı Azərbaycanın nümayəndələri təmsil edirdilər. Biz bu xəbəri eşidəndə uçmağa qol-qanadımız yox idi.

Axşam bütün azərbaycanlılar bir yerə toplaşdılar. Qonaqları qarşılamağı planlaşdırdıq. Nümayəndə heyətini salamlamaq mənə həvalə olundu.

Nümayəndə heyətinə Azərbaycan Ali və Orta İxtisas Təhsili naziri Q.Əliyev rəhbərlik edirdi.

Biz Bumerdesdə keçiriləcək konsert üçün də dəvətnamələr hazırladıq. Dəvətnamələrin bir hissəsini şəhər merinə göndərdik, qalan hissəsini isə kontraktlar arasında bölüşdürdük.

Konsertin başlanmasına bir neçə saat qalmış, biz ailəliklə şəhər mədəniyyət sarayına yollandıq. Uşaqlar bizdən irəlidə idilər. Uzaqdan gördüm ki, qapının ağzında bizim uşaqları kimsə saxlayır. Elə düşündüm ki, ərəb yoldaşlardır, ya valideynsiz, ya da ki, dəvətnaməsiz uşaqları içəriyə buraxmaq istəmirlər. Yeyin yeriyib oraya çatanda bir də gördüm ki, böyük oğlum Eminlə bir cavan oğlan bizə doğru gəlir. Bizə çatmasına iki-üç addım qalmış, ərəb sandığım oğlanı tanıdım. O, sevincək üstümə atıldı, qucaqlaşdıq. Bu bizim qapı qonşumuz (Bakıda) Yusif idi. Sən demə Yusif Bakıdan gələn rəqs qrupunun solisti imiş. Əlcəzairdən əvvəl onlar bir həftə Tunusdə olmuş, oradan da Əlcəzairə gəlmişdilər. Yusif bizi görüb elə kövrəlmişdi ki, sanki vətəndən uzun müddətə ayrı düşən biz yox, odur. Biz özümüzü dəyanətli, şux göstərməyə çalışırdıq. Amma Allah bilir ki, ürəyimizdə nələr çəkirdik.

...Nümayəndə heyətimiz mədəniyyət sarayına tərəf irəlilədi. Mən əlimdə gül dəstəsi onlara yaxınlaşıb, salamladım və yanımdakı yoldaşları bir-bir təqdim etdim. Nümayəndə heyətini Əlcəzairin Təhsil və İdman naziri müşayiət edirdi. Bumerdesdə işləyən azərbaycanlı A.Ağayev bizim nazirə müraciətlə dedi:

– Biz sizin yolunuzu çoxdan gözləyirdik. Azərbaycanlılar nümayəndə heyəti üçün süfrə hazırlamışdır. Xahiş edirik konsertdən sonra bizim qonağımız olasınız.

Nümayəndə heyətinin başçısı Q.Əliyev üzünü əlcəzairli həmkarına tutub:

– Mənim həmyerlilərim məni öz evlərinə dəvət edirlər – dedi. Siz buna necə baxırsınız?

Əlcəzairli nazir:

– Bizim adətimizə görə heç vaxt əziz qonaqlarımızın hərəkətləri ölkəmizdə məhdudlaşdırılmır – deyə cavab verdi.

Bizim nazir qəh-qəhə çəkib:

– Ah, siz nə gözəl diplomatsınız, ah, siz nə gözəl diplomatsınız – deyə təkrar etdi.

Sonra o, bizim hamımıza nümayəndə heyəti adından təşəkkürünü bildirdi və vaxt məhdudluğu üzündən dəvətimizi qəbul edə bilməyəcəyinə təəssüfləndi.

Konsert başlandı. Konsertin birinci hissəsində bizim artistlər, ikinci hissəsində isə əlcəzairli artistlər çıxış etdilər. Zümrüd Məmmədova, Baba Mirzəyev (Mahmudoğlu) və Nizami İsmayılovun çıxışları hərarətlə qarşılandı. Rəqs qrupunun çıxışları ağzına kimi dolu salonu yerindən oynatdı. “Xançobanı” rəqsini tamaşaçılar elə sürəkli alqışlarla qarşıladılar ki, Əlcəzairdə yaşayan azərbaycanlılar sevincdən göz yaşlarını gizlədə bilmirdilər. Ecazkar Azərbaycan musiqisi ruhumuzu qəribliyin sıxıntılarından xilas etmişdi. Hamımız fəxr edirdik ki, bu musiqiçilər bizim həmvətənlərimizdirlər. Əlcəzair televiziyası Azərbaycan artistlərinin çıxışını bütövlüklə lentə aldı.

Tər çiçək dəstələri sel kimi səhnəyə axırdı. Konsertin sonunda bizim artistlər onlarla birlikdə Əlcəzairin inqilab mahnısını oxudular. Bütün zal ayağa qalxdı. Sürəkli alqışların sədası dalğa-dalğa konsert zalından çıxıb Aralıq dənizinin sularına qarışır və Dünya okeanına çıxırdı.

Sevincimizin həddi-hüdudu yox idi. Qonaqlar avtobusa doğru yeriyir və biz də onları yola salırdıq. Birdən nümayəndə heyətinin üzvlərindən biri mənə yaxınlaşıb astaca:

- Eşitmişəm siz Nəriman müəllimlə dostsunuz – dedi.

Mən dərhal soruşdum:

- Hansı Nərimanı deyirsiniz?

O:

- Həsənzadə Nərimanı deyirəm, şair Nərimanı – dedi.

- Düz eşitmişsiniz, necə məgər?

- Bir neçə gün bundan qabaq onun həyat yoldaşı vəfat etdi. Dedim bəlkə başsağlığı göndərəsi oldunuz.

Bu bəd xəbər tamam əhvalımı korladı. Mən Nəriman müəllimin Sara xanımın xəstəliyi ilə bağlı necə əzab və sarsıntı

keçirdiyini bilirdim və bu itkinin onun üçün nə demək olduğunu yaxşı başa düşürdüm.

Yorğun halda evə çatdım. Birbaşa yazı masamın arxasına keçib, qələm-kağız götürüb yazmağa başladım: “Əziz Nəriman müəllim...”

## “SAĞ OL HƏKİM”

Əlcəzairdə həm poliklinikalar və həm də ki, xəstəxanalar dövlətə məxsusdur. Burada müalicə də pulsuzdur. Bundan əlavə ölkədə az da olsa xüsusi xəstəxana və poliklinikalar da vardır. Bu xəstəxana və poliklinikalarda xidmətin və həkimlərin səviyyəsindən asılı olaraq müalicə pulludur. Dövlət müalicə müəssisələrində işləyən həkimlər əsasən əlcəzairlilər, sovet, bolqar və bir qədər də macar mütəxəssisləridirlər. Xüsusi müalicəxanalarda isə Avropa və Amerikada təhsil almış əlcəzairli mütəxəssislər çalışırlar.

Xüsusi şəfaxanalarda xəstənin müalicəsinə sərf olunacaq vəsait barədə oxucularda müəyyən təsəvvür yaratmaq üçün onu deyim ki, ən yaxşı həkimin bir qəbulunun qiyməti 100 dinardır (Bazarda qoyun ətinin bir kiloqramı 100-120 dinardı. Bizim kafedranın laborantının aylıq əmək haqqı 1700 dinar idi).

Mən hələ pioner düşərgəsində işləyərkən Tipaza şəhərinin yaxınlığında yerləşən Hadcut şəhər xəstəxanasına getmiş və az da olsa, ora ilə tanış olmuşdum. Həmin xəstəxanada bolqar həkimlər çalışırdılar. Ora getməkdə məqsədim, ilan zəhərinə qarşı vaksina almaq idi. Belə ki, mənə qabaqcadan demişdilər ki, düşərgəmizin ərazisində çoxlu zəhərli ilanlar vardır. Bolqar həkimlər təmiz rusca danışırlar. Onlar bizi palatalarla tanış etdilər. Palatalara girən kimi ilk baxışdan adamın nəzərini orada hökm sürən səliqəsizlik, natəmizlik cəlb edir. Nədənsə bu xəstəxana mənə bir qədər bizim 20 il bundan qabaqkı kənd xəstəxanasını xatırlatdı. Xəstələr öz palatalarında çarpayıların üzərinə uzanmış, hərə öz ürəyi istəyən şeylərdən yeyirdi.

Sonra mən bolqar həkimlərin geydikləri xalatlara baxanda gördüm ki, yox, elə bu həkimlər də yerli mühitə artıq öyrəşiblər.

Vaksinaları alıb təngnəfəs xəstəxanadan çıxdım. Xoşbəxtlikdən bu vaksinalara ehtiyacımız olmadı (On bir ilan öldürdük).

İkinci dəfə yolum Lakhadariyadakı xəstəxanaya düşdü. Dəhlizlərdən keçəndə gözucu palatalara da nəzər salırdım. Gördüm ki, yox, bu xəstəxana o birisindən deyil. Hər şey öz yerində tər-təmiz və səliqəlidir.

Üçüncü dəfə isə...Bu dəfə mən artıq bir qonaq kimi yox, xəstə kimi, daha doğrusu xəstənin valideyni kimi xəstəxanaya gedirdim.

...Axşam işdən evə gələndə gördüm ki, kiçik oğlum Tərlan ağlayır. (O vaxt onun səkkiz yaşı var idi). Səbəbini soruşduqda dedilər ki, məktəb həyətində uşaqlarla oynayanda qolunu sındırıb. Mən uşağın qoluna baxdım və gördüm ki, doğrudan da biləkdən elə bil ki, sümük içəriyə keçib. Dərhal maşın axtarmağa getdim. (Orada maşın məsələsi belədir: Sovet mütəxəssislərinin müəyyən qisminin öz maşınları var idi. Əgər onlarla bir yerə gedirdinsə, hökmən benzini sən almalı idin). Bizim kafedranın əməkdaşı, Qorki Universitetinin dosenti Robert Şukinin “Reno-16” markalı köhnə bir maşını var idi. Onu tapdım. Doğrudan da Robert çox həyəcanlandı və həyat yoldaşı ilə birlikdə bizə gəldi (Biz həm də ailəvi dost idik). Fikirləşdik ki, uşağı hansı xəstəxanaya aparaq: Lakhadariya uzaq olar, yaxında Teniyaya (Bumerdesdən 27 km məsafədə) aparmaq olar, orada da Sovet həkimləri işləyirlər. Mən hətta onların bir neçəsini tanıyırdım. Çünki onları biz öz yerli komitəmiz hesabına turist yol vərəqələri ilə təmin etmişdik.

Maşını birbaşa Teniyaya sürdük. Axşam saat 9 olardı ki, biz oraya çatdıq. Darvaza və qapılar bağlanmışdı. İş elə gətirmişdi ki, Sovet həkimlərindən biri də həmin gün növbətçi düşməmişdi. Qapıçıya yaxınlaşıb xeyli dilə tutduqdan sonra

darvazanı açdırdım. Əvvəlcə xəstəni xəstəxana nəzdində olan poliklinikanın həkiminə göstərmək lazım idi. Poliklinikanın qapısını bir xeyli döydükdən sonra açdılar. Dedim:

– Cənab, kömək edin, uşağın vəziyyəti ağırdır. Heç nə demədi. Əli ilə daxil olmaq işarəsi verdi.

İçəri daxil olan kimi mən ona əhvalatı danışdım. O, çox qısa anket doldurub, bizi dərhal rentgen kabinetinə göndərdi. Rentgençi beş dəqiqə ərzində sınığı çəkdi və mənə dedi:

– Cənab, uşağın qolu sınıb, amma şükür olsun Allaha ki, sürüşməyib.

Poliklinikanın növbətçi həkimi tez göndəriş yazıb, bizi xəstəxananın növbətçi cərrahının yanına göndərdi.

Cərrahla tanış olduq. Adı Əli idi. Fransada təhsil almışdı. Üzünü oğluma tutub dedi:

– Hə, balaca müsəlman, uzan görək. Sənin əlini elə düzəldəcəyəm ki, onunla dəmiri qıra biləsən (niyə məhz dəmiri, başa düşmədim).

Uşağı cərrahiyyə stoluna uzatdılar (həkimin iki assistenti var idi), gips qoydular. Gipsi qoyan kimi təzədən rentgendən keçirdilər. Bu dəfə də o rentgenoqrama baxdı və hər şeyin yaxşı olduğunu söylədi. Sonra dedi ki, iki həftədən sonra gəlin, gipsi açaq. Yorğun-arğın evə qayıtdıq. Gecə saat 12-yə yaxın olardı. Evimizə çatanda gördüm ki, iyirmiyə yaxın kişi evimizin ətrafında gəzişir. Robert dedi:

– Vaqif, bunlar azərbaycanlılardır, sizin həmyerlilər.

Sevincdən gözlərim yaşardı. Uşağın qolunun sınmaq xəbərini eşidən bütün azərbaycanlılar bizə toplaşmışdılar. Qadınlar evdə uşaqların yanında oturub çay-çörək hazırlamış, kişilər isə evin ətrafında gəzişirdilər (belə birlik bizə necə də lazımdır!)...

İki həftədən sonra bir də rentgenə getdik və dedilər ki, hələ tezdir, gipsi açmaq olmaz. Yenə on gündən sonra gəlməyi təklif etdilər. Nəhayət həmin məqam yetişdi və gipsi açdılar. Həkim Əli üç ay müddətinə müəyyən müalicələr təyin etdi.

Biz evdə çox götür-qoy etdik ki, bu həkimə nə hədiyyə verək. (Pul təklif edə bilməzdik. Belə ki, bizim azərbaycanlı mütəxəssislərdən biri həmin xəstəxanada onun həyat yoldaşını müalicə edən həkimə pul təklif etmişdi. Həkim də onu elə utandırıb puldan imtina etmişdi ki, bizim azərbaycanlı həmkarımız uzun müddət özünə gələ bilməmişdi). Qərara gəldik ki, üzərində Zeynəb Xanlarovanın şəkli olan məcməyini ona verək. Həkim öz işini qurtarandan sonra ona yaxınlaşdım və dedim:

– Həkim, çox sağ olun. Bu kiçik hədiyyəni bizdən qəbul edin. Bu şəkil bizim məşhur müğənnimiz Zeynəb xanımın şəklidir. Bəlkə də onun haqqında eşitmisiniz.

O, verdiyim hədiyyəni əvvəlcə götürmək istəmədi və sonra nə fikirləşdisə, siyirməsindən iki nar çıxarıb, oğluma tərəf uzadaraq dedi:

– Əgər oğlunuz bu narları götürsə, mən də sizin hədiyyəni qəbul edərəm.

Bizim uşaqlar da valideynlərinin icazəsi olmadan, heç kimdən bir şey götürməzlər. Oğluma işarə vurdum ki, götür. Öz-özümə fikirləşdim ki, bunun assistentlərinə də kiçik hədiyyələr verim.

O, məcməyini düz pəncərənin üstünə qoydu və sanki mənim nə düşündüyümü hiss edirmiş kimi dedi:

– Cənab, buradakı işimiz üçün biz dövlətdən məvacib alırıq. Ondan əlavə biz nəyi götürsək haramdır. Allaha şükür ki, müsəlmansınız, haram və halalın nə olduğunu yaxşı bilirsiniz. Biz də cəhənnəmə düşmək istəmirik. Bizim mükafatımız xəstələrin "Çox sağ ol"udur.

Düzü, şok vəziyyətinə düşmüşdüm. Məcməyi verməyimə peşman olmuşdum. Özümü gözəl bir əkin sahəsinə qanqal toxumu səpən bir adam kimi hiss edirdim.

Hərarətlə görüşdük. Məni qucaqladı və ürəyimdə "əhsən belə həkimə" deyə-deyə oradan çıxdım

## BAYRAMLAR, BAYRAMLAR...

Əlcəzairlilər həm milli və həm də dini bayramları çox böyük təmtəraqla keçirirlər. Ümumiyyətlə bu ölkədə çoxlu mərasim vardır. Milli azadlıq hərəkatının başlandığı (1 noyabr 1954-cü il) və Əlcəzair xalqının istiqlaliyyət qazandığı (3 iyul 1962-ci il) günlər bu xalqın ən böyük bayramları sayılır. Həm milli, həm də dini bayramların keçirildiyi günlər ölkədə iş günü sayılmır. Əlcəzairlə bağlanan kontrakta əsasən, mütəxəssislərimiz həm Əlcəzairin, həm də bizim öz bayram günlərimizdə işləməməlidirlər. Məsələ burasındadır ki, hər iki ölkənin bayramlarını toplayanda istirahət günlərinin sayı çox alınırdı. Həm də bizim bayram günlərimizdə əlcəzairli tələbələr də işləməməli olurlar (müəllimsiz tələbə institutda nə etsin?). Ona görə də biz öz bayram günlərimizdə işləməli olurduq. Lakin neftçi və geoloqlarımız, habelə bizim Sovet məktəbimiz həm Əlcəzairin (dini bayramlardan savayı), həm də bizim ölkənin bayramlarını təntənəli surətdə qeyd edir, həmin günü istirahət edirdilər.

Əlcəzairin ən böyük bayramı ölkənin milli istiqlaliyyət qazanması gününün ildönümüdür. Bu bayram münasibətilə təntənəli iclaslar, müxtəlif idman yarışları keçirilir, konsertlər təşkil olunur. Bu konsertlərin bəziləri ailə konsertləri formasında keçirilir. Ailə konsertləri deyəndə mən elə bilirdim ki, bu konsertlərdə ailə ansamblları çıxış edirlər. Sonralar məlum oldu ki, bu belə deyildir. Tamaşaçı konsertdə ailəsi ilə iştirak edir. Başqa sözlə desək bu konsertlərə tamaşaçı tək yox, yalnız ailəsi ilə buraxılır. Məncə bu düşünülmüş tədbirdir. Axı bəzi müsəlman kişiləri arvadları ilə konsertlərə getmirlər.

Ailə konsertlərinə bizim "Raduqa" vokal-instrumental ansamblı və "Azərbaycan təranələri" instrumental ansamblını dəvət edirdilər.

Əlcəzairdə 1 May, 8 MART və Yeni il bayramları çox da böyük olmayan təntənə ilə qeyd olunur. Bu bayramların adətən

həm təşkilatçısı, həm də aparıcısı biz olurduq. Gecədə bir qayda olaraq bizim səfirin təbriki oxunur, Əlcəzair tərəfindən bir rəsmi şəxs çıxış edir və konsert başlanırdı. Bizim Bumerdesdə işlədiyimiz ilk illərdə həmin konsertlərdə yalnız bizim bədii özfəaliyyət kollektivlərimiz çıxış edirdilər. Sonralar isə əlcəzairli yoldaşları da bu işə cəlb etdik. Onların həm folklor və həm də estrada heyətləri bu konsertlərdə iştirak edirdilər.

Əlcəzairdə dini bayramlar çox böyük təntənə ilə qeyd olunur. Bu bayramların ən səciyyəvisi Məhəmməd peyğəmbərin anadan olduğu günün qeyd olunmasıdır. Bu Mövlud bayramı adlanır. Həmin gün sanki bütün ölkə qaynayır. Adamlar təzə paltarlar geyinir, paxlava və digər şirniyyat məmulatları bişirirlər. Bayram axşamı bütün evlərdə rəngbərəng şamlar yandırılır və eyvanların kənarlarına düzülür. Evlərdə ən ləziz yeməklər bişirilir. Uşaqlar isə valideynlərinin mağazalardan aldıqları kükürdlü əşyaları (pitarda) partladırlar. Son illər ölkənin prezidenti pitardaların istehsalını və satışını qadağan etmişdi. Çünkı bu təhlükəli "oyuncaq"dan nəinki balacalar, hətta onların valideynləri də istifadə etmişdilər və böyük bir anbarda yanğın baş vermişdi.

Bayram gecəsi uşaqlar səhərə kimi, dəmir qab döyürlər və əsla yatmaq mümkün olmur.

Qurban bayramı da Əlcəzairdə əlamətdar şəraitdə keçir. İmkanı olan ailələr qurban qoyunu kəsir, imkanı olmayanlar isə bazardan ət almaqla kifayətlənirlər. Kəsməmişdən qabaq qurbanlıq qoyunun başını qırmızı rəngləyir, boynuna qırmızı lent bağlayır və həyətdə bir-iki dövrə vurdurub kəsirlər. Bu qoyunun əti ən azı yeddi evə paylanmalıdır.

Ramazan ayı (orucluq) da bu ölkədə ən müqəddəs aylardan biridir. Əvvəla orucluq ayının başlanması ilə əlaqədar olaraq bütün müəssisələrdə iş rejimi dəyişir. Məsələn, deyək ki, səhər saat 8-də işə başlayan tədris müəssisələri ramazan ayında 10-da və ya $10^{30}$ –da dərsə başlayırlar. Digər müəssisə və idarələr bu

qaydada iş rejimini dəyişirlər. Ölkədə fəaliyyət göstərən müxtəlif ölkələrin diplomatik korpusları da müvafiq surətdə həmin ayda öz iş qrafiklərini dəyişməli olurlar.

Tələbələr həvəssiz, yorğun görünür və demək olar ki, işləmək istəmirlər. Aclıq və yorğunluq yəqin ki, adamın diqqətinə də pis təsir göstərir. Belə ki, ölkədə baş verən avtomobil qəzalarının çox hissəsi bu ayın payına düşür.

Tələbələr bizdən (əlbəttə müsəlman müəllimlərdən) tez-tez soruşurdular ki, biz də oruc tuturuq ya yox. Onların qəlbini qırmamaq üçün müsbət cavab verirdik.

Orucluq vaxtı biz gündüzlər yerli əhalinin gözü qarşısında nə su içir, nə  çörək yeyir nə də siqaret çəkirdik. Şübhəsiz ki, yerli adət və ənənələrə hörmət etmək lazımdır. Bunu bizdən həm də sovet səfirliyinin rəhbərliyi tələb edirdi.

Ramazan ayında Bumerdesin düz mərkəzində xüsusi estrada meydançaları qurulur. İftardan qabaq şəhərdə bir nəfər də desən belə görmək olmur. Din xadimləri televiziya vasitəsilə moizə (dini söhbət) edir, sonra azan verilir və nəhayət camaat iftara başlayır. İftardan sonra küçələrə çıxır, konsertə tamaşa edirlər. Gəzintilər başlanır. İl ərzində heç üzünü görə bilmədiyin adamları bu zaman görmək olur. Meydandakı konsertin ifaçıları Bumerdes vilayətinin bədii özfəaliyyət kollektivləridirlər. Hər axşam vilayətin bir rayonunun və ya qəsəbəsinin musiqi kollektivi çıxış etmək üçün Bumerdesə gəlir. Konsert "obaşdan" (ərəbcə imsək) deyilən vaxta kimi davam edir (bu təxminən 3-4 arasındadır), sonra camaat yeyib, yatır. Bax, beləcə bir ay davam edir.

Oruc tutanlar arasında lap balaca uşaqlardan (6-7 yaşlı) tutmuş qocalara kimi müxtəlif təbəqələrə mənsub adamlar vardır. Adamların üz-gözündən hiss olunur ki, oruc tutmayanlar da az deyildir.

Bir dəfə ramazan ayında tələbələrdən bir qrupu dərsə gəlməmişdi. Mən qrup nümayəndəsini çağırıb, danladım. Qrup

nümayəndəsinə bildirdim ki, oruc tutanda nə olar. Oruc da tutmaq lazımdır, dərsə gəlmək də.

O, məni dinlədikdən sona:

– Cənab, siz elə bilirsiniz ki, onlar oruc tuturlar – dedi. Onlar yalan deyirlər. Nə oruc tutur, nə də ki, namaz qılırlar. Orucluğu bəhanə edib dərsə gəlmirlər.

Bizim fakültənin dekanı Mövlud Şıxhi Fransada təhsil almışdı. Bir dəfə o məni kabinetinə dəvət edib qapını bağladı və dedi:

– Gəl adama bir fincan kofe içək.

Mən təəccüblə:

– Cənab Şıxhi, siz oruc tutmursunuz? – soruşdum.

O, məndən xəcalət çəkirmiş kimi:

– Cənab Nəsirov, bağışlayın məni – dedi. Mən oruc tuta bilmirəm, başım ağrıyır.

Əlcəzairdə məhərrəm ayının birinci və onuncu günlərini də bayram edirlər. Bunlar məhərrəm və aşura (aşra ərəbcə on deməkdir) bayramları adlanır. Məhərrəm ayının birinci günü Məhəmməd peyğəmbər Məkkədən Mədinəyə yola düşmüş (hicr etmiş) və on gündən sonra oraya çatmışdır (yəni aşura günü). Bu günləri əlcəzairlilər bayram edir və hicri qəməri tarixi məhərrəm ayının 1-dən başlayır.

Əlcəzairdə bir müqəddəs gün də var: 8 May. Bu bayram günü deyildir. Lakin əlcəzairlilər üçün müqəddəs bir gündür.

Bu günü bütün Əlcəzair ümumxalq matəmi günü kimi qeyd edir. 1945-ci ilin 8 mayında Setif şəhərində minlərlə (təxminən 40 minə yaxın) dinc əhali fransız müstəmləkəçilərindən vəd etdikləri istiqlaliyyəti tələb edərkən güllələnmişlər. Məsələ burasındadır ki, fransızlar əlcəzairliləri İkinci Dünya müharibəsində köməyə çağırmış və qələbə təqdirində onlara azadlıq verəcəyini vəd etmişlər. Lakin müstəmləkəçilər öz sözlərinin ağası olmamışdılar.

Hər il mayın 8-də əlcəzairlilər matəm libasını geyir, vətənlərinin azadlığı uğrunda şəhid olanları yad edir, özlərinin təbirincə desək, qara bayram keçirirlər.

Məncə burada bir haşiyə çıxmaq yerinə düşərdi.

Ümumiyyətlə mən Əlcəzairdə yaşadıqdan sonra başa düşdüm ki, fransız müstəmləkəçiləri nə qədər zülmkar imişlər. Mən elə bilirdim ki, (nədənsə heç özüm də bilmirəm) qəddarlıq, amansızlıq yalnız faşizmə xasdır.

Lakin çəkilən sənədli və bədii filmlərə baxdıqdan, müxtəlif mənbələrlə tanış olduqdan sonra əmin oldum ki, fransız müstəmləkəçiləri qəddarlıqda faşizmdən heç də geri qalmırlarmış. Əlcəzair inqilabçıları yerində güllələnməkdən tutmuş, vertolyotlardan paraşütsüz atılmağa kimi cəza tədbirlərinə məruz qalmışlar. Onlara qarşı elə cəzalar tətbiq edirlərmiş ki, bəşəriyyətin bu günə kimi o cür alçaqlıqlardan xəbəri yoxdur.

Bir qoca mənə nəql etdi ki, fransızlar Əlcəzairdə nə qədər qəşəng qızlar varmışsa, hamısını götürüb zorla aparırlarmış. Ona görə də ərəb ailəsində qız uşağı doğulan kimi valideynlər özləri onu şikəst edirlərmiş ki, müstəmləkəçilər böyüyəndə ona tamah salmasınlar.

Ata məhəbbəti, qeyrət və namus
Üz-üzə dayanıb, bax bu həyata!...
Tamahın salmasın deyə fransız,
Özü şikəst edir, qızını ata.

## BÖYÜK SƏHRA VADİSİ BOYU SƏYAHƏT

Əlcəzairdə gəzməli və görməli yerlər çoxdur. Son illər ölkənin rəhbərliyi də bu işə xüsusi diqqət yetirir. Əlcəzairə gələn turistlər müxtəlif marşrutlar üzrə səyahətə çıxa bilərlər. Səyyahları ən çox maraqlandıran ölkənin bütün ərazisi boyu “səpilən” qədim Roma xarabalıqlarıdır.

Əlcəzairdə olarkən bir neçə dəfə müxtəlif marşrutlar üzrə səfərlərə çıxmışam. Xatirimdə ən dərin iz buraxanı Böyük Səhra vadisi boyu səyahətdir. Marşrutun uzunluğu 2100 km-dir. Səyahət zamanı rast gəldiyimiz şəhərlər bir-birindən orijinal, adamlar isə bir-birindən maraqlı idilər. Səyahət zamanı bəzən adama elə gəlir ki, yuxudasan. Çünki, yalnız yuxuda tarixi keçmişə qayıtmaq mümkündür. Məhz bu növ səfərdə səyyah, sanki keçmişə baş vurur və hərdən o keçmişlə bu günün təzadlı sərhəddində durub müşahidəçi rolunu oynayır. Belə ki, səyyah bu aləmə (bu barədə ətraflı bəhs edəcəyəm) müdaxilə edə bilmir.

## SƏHRA GÖZƏLİ QARDAYA

Qurumuş Mzab çayı vadisində ərəblərin yerləşdirilməsi qeyri-adi tarixə malikdir. Ərəb mənbələrinin yazdığına görə bu VII əsrin ortalarında Osmanın ölümündən, Əlinin – "İslam şiri"nin hakimiyyətə gəlməsindən sonra baş vermişdir. Peyğəmbərin düşmənləri onun kürəkəni hakimiyyəti ələ aldıqdan sonra ona qarşı mübarizə aparmış, xaincəsinə onu öldürmüşlər. Beləliklə yeni lider – Abdulla-ibn İbad meydana çıxmış və onun tərəfdarları ibadilər adlandırılmışlar.

Omeidlər imperiyasının iflası zamanı ibadilər həm Omanda, həm Yəməndə və İranda, xüsusilə Məqrib ölkələrində (Liviya, Tunis, Əlcəzair, Mərakeş) özlərinə yaxşı tərəfdarlar tapmışlar. İbn Rüstəm Tunisdə kifayət qədər güclü dövlət yaratmış, bu dövlət dini düşmənlərin təsiri nəticəsində məhv olmamış və o, Tunisdən qərbə, Tlemsen rayonuna yerini dəyişmişdir. Bu dövlət 130 il (paytaxtı Tahert) mövcud olmuş, ərazisi Mərakeşdən Liviyaya qədər uzanmışdır. İbadilərin düşmənləri nəhayət Tahertə gəlib çıxıb, onları Səhraya sıxışdırmışlar. İbadilər Mzaba vadisində yurd salmış, burada quyular qazmış, xurma ağacları əkmiş, su anbarları tikmişlər. XIII əsrin ortalarında ibadilər yenidən hücuma məruz qaldıqda,

Mzaba vadisinin dərinliyində gizlənmişlər və bu günə kimi onları narahat edən olmamışdır.

XI əsrin birinci yarısında Mzaba vadisində beş şəhər yaradılmışdır. Bunlar Əl-Atif, Malika (Şahanə), Bunura (Parlayan), Beni-İzgen (mühitin adamları) və Qardaya (Dayya mağarası) şəhərləridir.

Əfsanəyə görə gözəl qadın olan Dayya susuzluqdan ölümcül vəziyyətə düşən ibadilərə su yerini göstərir. Bu qadın guya köçəri qəbilə tərəfindən mağarada doğum üçün qoyulmuşdur. Dayya ibadilərin şeyxi Sidi Bu Qdemaya və onun nökərinə qonaqpərvərlik göstərmiş və şeyx də ona evlənmək təklif etmişdir. Şeyx mağaranın yanında ev tikdirmiş və beləliklə Qardaya şəhərinin əsasını qoymuşdur. Dayya mağarası bu gün də durur və qadınlar oraya ziyarətə gedirlər.

Vadi məhbusluğunda qalan ibadilər demək olar ki, min illərlə özlərinin adət və ənənələrini qoruyub saxlaya bilmişlər. Bura xəlifənin seçilməsi prinsipi, təkkəbinlilik, dinin təmizliyi və adətlərə ciddi surətdə riayət etmək, dini doqmaların və ənənələrin hər şeydən üstün tutulması daxildir ki, bu da ibadilərin həyatını anadan olandan ölənə kimi nizamlayır.

Qadınların şəhəri tərk etməyə əsla ixtiyarları yoxdur. Onlar şəhərin daxilində də tək yox “müşayiətçi” ilə gəzə bilərlər. Bu qadınlar çadraya elə bürünürlər ki, yalnız bir gözləri ilə ətrafa baxırlar. Yad adamla üz-üzə gələndə ya yaxındakı tində gizlənir, ya da üzlərini divara tuturlar ki, tək gözləri belə görünməsin.

Əvvəllər qızları az qala beşikdə ərə verirlərmiş. Son zamanlar isə müasirlik ibadilərin də ailələrinə nüfuz edə bilmişdir. Lakin qadın ailədə yenə də hüquqsuzdur. Kişi evdən çıxanda qapını açarlayıb gedir...

İbadilərin ağsaqqalları çoxdan məcbur olublar ki, kişilərin şimala pul qazanmağa getmələrinə razılıq versinlər. Onların ailələri isə həmin kişiləri evlərində gözləyirlər. Bu ailələrə himayədarlığı yaxın qohumlar edirlər. Ailə başçısı evdə

olmadıqda belə, onun ailə üzvlərinin sayı arta bilər (Bizimlə səfərdə olan rus qadınları deyirdilər "nə yaxşı adətdir"). İbadilərin xurafatında deyilir ki, uşaqlar ana bətnində illərlə yata bilərlər və beləliklə ailə başçısı evdə olmadıqda belə, dünyaya gələn uşaqlara ata olmaq hüququnu saxlayır. Bizi müşayiət edən bələdçinin dediyinə görə belə hallar tez-tez olur.

Bir neçə əsr bundan əvvəl pirat Əlcəzairində hamam, dükan, çörək bişirilən yerlərin və s. əksəriyyəti ibadilərə mənsub olmuşdur. Burada çoxlu pul qazanan ibadilər öz vətənlərinə qayıtmış (hətta Əlcəzairdə ölənləri dəfn etmək üçün Mzab vadisinə gətirirlərmiş) və öz işlərini qohumlarına tapşırırlarmış. Kifayət qədər pulu olanlar yüksək hasar arxasında, xurma və meyvə ağacları kölgəsində, "yerdə cənnət", yəni yay evi tikirdilər.

Adətlərin qeyri-adiliyi, vadidəki nadir coğrafi şərait, Mzaba şəhərlərində "arxitektura möcüzəsi" yaratmağı tələb edirdi. Burada hər bir ev kub formasında olub, orada yaşayanları həm istidən, həm soyuqdan və həm də ki, özgələrin qərəzli marağından qoruyur. Evlərin bir qayda olaraq pəncərəsi yoxdur. Bu evlər 2-3 mərtəbəli olub, işıq yalnız dairə şəkilli evin mərkəzinə-həyətə düşür. Bütün şəhər kublar ehramından təşkil olunmuş və vadinin yamacında tikilmişdir. Bunda əsas məqsəd xurma ağaclarını əkmək üçün çox qiymətli olan vadidəki torpağı tutmamaqdır.

Şəhərin yuxarı hissəsində kvadrat şəkilli, konus minarəli məscid ucaldılmışdır. Aşağıda, bir qədər uzaqda bazar yerləşir ki, bura "natəmiz"lərin daxil olması qadağandır. Burada zənginlik, israfçılıq əsla hiss olunmur. Hətta məscid belə bər-bəzəksizdir.

Diqqəti cəlb edən məqsədyönlülük və bütün ansamblın harmoniyasıdır. Məhz bu keyfiyyətlər dünyanın müxtəlif ölkələrindən buraya –müasir kubizmin beşiyinə gələn müxtəlif mütəxəssisləri mat-məəttəl qoymuşdur. Qardaya əsil sənət əsəridir.

Oymaq evlər, dar küçələr
İşığa həsrət gecələr...
Tarix qoynunda gecələr
Gecələri möhtac Aya,
Səhra gözəli Qardaya!

Dam görmədim olsun uca,
Sapsarı qum həyət-baca.
Mışıl-mışıl yatır qoca;
Bənzərin var tamaşaya,
Səhra gözəli, Qardaya!

Tərəqqidən qaçan insan
Nə sadəlövh, nə mehriban.
Dincin alır burda zaman.
Hər tərəfin qumdan taya,
Səhra gözəli, Qardaya!

Su inşaatçıları Mzabın “su sistemi” ilə tanış olduqdan sonra istər-istəməz onun “dahiliyini” etiraf etməli olurlar.

Mzab Səhrada yeganə “süni” oazisdir. Yerdə qalanlarda su səthə ya çıxmış və yaxud da çıxmaqdadır. Burda “su sistemi” üç “yarımsistemdən” təşkil olunmuşdur: Dərinliyi 60 m-ə qədər olan 30000 quyular sistemi (suyu dəri vedrələrdə eşşəklər qoşulan dolamaçarxla çıxarırlar), sisternlər sistemi, su axıdıcıları və ya kanallar sistemi (bu nadir hallarda yağan yağışların suyunu yığmaqdan ötrüdür), ildə iki dəfə axan çay suyunu toplamaq üçün mürəkkəb bəndlər sistemi və s. Göründüyü kimi burada “su qanunçuluğu” olduqca ciddi və mürəkkəbdir. Lakin burada öz təcrübələrinə əsaslanıb artıq min illərdir ki, yerli əhali suya olan ehtiyaclarını ödəyir. Sözün qısası, Mzaba elə böyük, xüsusi və sonsuz dünyadır ki, onun haqqında nə qədər desən danışmaq olar.

Bu barədə söhbətimizin sonunda onu da qeyd edək ki, ibadilərin çox ciddi qanunları (onlar buna “kanun” deyirlər) vardır. Əslində bu qanunlar müxtəlif qadağalardır. Məsələn,

oyunlar oynamaq, musiqi dinləmək, siqaret çəkmək, şəkil çəkdirmək, ətriyyatdan istifadə etmək və s.qəti qadağandır. Qonşunun bəd əməlləri barədə qəbilə başçısına məlumat verməmək həmin bəd əməlləri törətməkdən də artıq cəzalandırılır.

Yaxşı yadımdadır ki, biz turistlər Qardaya bazarına daxil olmamışdan əvvəl bələdçi bizi başa saldı ki, burada yerli adamın fotoşəklini çəkmək olmaz. Əgər özünüzlə xatirə kimi buradan foto aparmaq istəyirsinizsə, onda öz yoldaşlarınızın fonunda çəkin. Yoxsa, fotoaparatlarınızı alıb qırarlar.

Mən deyilənlərin nə dərəcədə həqiqət olduğunu özüm yoxlamağı qərara aldım. Bir dükançı ilə şirin söhbətdən sonra ona birlikdə şəkil çəkdirməyi təklif etdim. O, qorxa-qorxa ətrafına baxdı və dedi:

– Bilirsinizmi, əgər mən sizinlə şəkil çəkdirsəm, onda gərək evimdən didərgin olam. Ailəm başsız qalar. Əgər siz məni öz xatirinizdə saxlamaq istəyirsinizsə, mənə diqqətlə baxın və gözlərinizdə mənim şəklimi aparın.

Bazarda siqaret satıldığını da gördüm. Lakin, deyəsən bu yalnız gəlmə adamlar üçün nəzərdə tutulmuşdur.

Burada ən ağır cəza qəbilədən qovulmaqdır. Buna yerli adamlar “terbiya” deyirlər (yəni tərbiyə).

Fransız səyyahlarının yazdığı kimi yaşlı mzabit Fransada bir neçə univermağın, ondan bir qədər cavanı isə Avropanın ən yaxşı ali məktəblərinin hətta bir yox, iki diplomuna sahib ola bilər.

## MZABADA GƏZİNTİ

Bazar meydanını (75x44m) gəzməyən turist heç vaxt Qardayanı tərk etmir. Bu meydan çoxsaylı alaqapılarla əhatə olunmuşdur və bu tağların içərisində də çoxlu sayda dükanlar vardır. Məscid şəhərin mərkəzində yerləşir. Ora birbaşa Ed-Dəllam küçə-bazarından çıxmaq olur. Əyri-üyrü yollarla düz

təpənin başına çıxmaq olur ki, burada da hündürlüyü 22 metr olan konik minarəli məscid ucaldılmışdır.

Qardayadan bir qədər şərqə Malikə şəhəri yerləşir. Onun evlərinin divarları təpədə bir qala yaradır.

Bələdçi ilə vadi şəhərlərindən biri – Beni-İzgenə səyahət etmək olar. Beni-İzgen barədə oxuculara bir qədər ətraflı məlumat vermək istəyirəm. Belə ki, bu şəhərə düşən kimi adam özünü tamamilə ayrı aləmdə hiss edir. Bu şəhər qala divarları və qüllələrlə əhatə olunmuşdur. Bələdçimiz 90 yaşlı bir qoca idi. Şəhərin girəcəyində divara fransız dilində böyük bir elan vurulmuşdu. Orada qeyd edilirdi ki, bu şəhərdə nə siqaret çəkmək, nə şəkil çəkmək, nə də ki, tək gəzmək olar (əlbəttə tək gəzmək turistlərə aiddir). Bələdçimiz deyəsən tərifi çox sevirdi (kim tərifi sevmir ki?). Şəhər haqqında ilk məlumatı verən kimi biz onu xeyli təriflədik. O isə dedi:

– Mən bu şəhərin bir nömrəli bələdçisiyəm. Bu günlər ölkənin prezidenti Şadli Bencədid bura gəlmişdi. Mən ona da bələdçilik etmişəm.

Qoca sözünü qurtarmamış əlini cibinə saldı və bir fotoşəkil çıxardı. Həmin fotoda qoca ilə prezidentin şəkli əks olunmuşdu.

Qoca bələdçi məlumat verərək bizi düz təpənin yuxarısına kimi müşayiət etdi. Məqsəd təpənin başındakı qüllədən bütöv Mzaba vadisini seyr etmək idi.

Vadidə tikilən bu beş şəhərə xas olan, küçəyə pəncərəsi olmayan evlər burada da tikililərin əsasını təşkil edir. Bir gözü ilə baxan çadralı qadınlar turistləri görən kimi gizlənirlər. Dar küçələrdən keçdikcə özünü tamam başqa bir əsrdə hiss edirsən. Arabir həyətlərdən heyvan səsləri gəlir. Bələdçi deyir:

– Heyvanlar da bu həyətlərdə saxlanılır.

Dar küçələrlə yolumuza davam edirik. Həyət qapılarından biri açılır. Üfunət bütün küçəni bürüyür.

Bələdçidən soruşuram:

– Əhalinin sağlamlığı necədir?

O cavab verir:

– Bizdə adamlar cəmisi bir dəfə xəstələnirlər. O da ölməmişdən qabaq, vəssalam. Fikirləşirəm ki, görəsən buna sanitariya və gigiyena elmi nə deyir.

Yolumuz düz Beni-İzgen bazarına gəlib çıxır. Qəribə bazardır. Alıcılar oturmuş, malları isə xüsusi dəllallar satırlar. Dəllal əlində satılan malı tutub, qiymətini tez-tez təkrar edərək qaçır və alıcıların qarşısında dövrə vurur. Alıcılar isə çay və kofe içə-içə ona tamaşa edirlər. Deyək ki, dəllal malın qiymətini 100 dinar söyləyir. Alıcılardan birisi isə həmin mala 60 dinar təklif edir. Dəllal əgər bu qiymətə razıdırsa, o saat malı həmin alıcının üstünə atır və pulunu alır. Yox əgər razı deyilsə, o öz işində, yəni qaça-qaça malın qiymətini təkrar etməkdə davam edir. Əgər həmin dəllal bir neçə dəfə dövrə vurduqdan sonra münasib müştəri tapmırsa, gətirib malı 60 dinar təklif edən müştərinin üstünə atır. Həmin müştəri o malı hökmən almalıdır. Bu həmin bazarın qanunudur. Dəllal malın birini satdıqdan sonra digərini götürür və əvvəlki kimi alıcılar qarşısında dövrə vurmağa başlayır.

Burada alver saat 12-yə yəni günorta namazına kimi davam edir. Bizim Sovet malının bu bazarda necə satılacağını gözlərimizlə görmək üçün turistlərdən biri dəllala bir taxta qaşıq bağışladı və xahiş etdi ki, onun satışını nümayiş etdirsin. Dəllal razılaşdı. İki dövrə vurduqdan sonra suvenir-qaşıq 100 dinara satıldı.

Onu da qeyd edim ki, Beni-İzgen şəhərinə axşamlar xarici turistlər buraxılmırlar.

Mzaba vadisinəki şəhərciklərdən biri də Bu-Nuradır. Bu şəhərə turist çox az gəlir. Bu-Nura qayalar üzərində tikilmiş çox gözəl bir şəhərdir. Ona bəzən qadınlar şəhəri də deyirlər. Belə ki, kişilərin çoxu pul qazanmaq üçün müxtəlif şəhərlərə gedir, qadınlar isə uşaqlarla birlikdə bu şəhərdə qalırlar. Avropalı turistlər bura bəzən "qadın monastrı" deyirlər. Biz

orada olanda nəql etdilər ki, iki avropalı kişi turist burada oğurlanmış və onları bir həftədən sonra buraxmışlar.

Qardayadan 9 km məsafədə Əl-Attif (1010-cu il) şəhərciyi yerləşir. Bu şəhərcik özünün iki məscidi ilə fərqlənir. Şəhərciyin divarları yanında məşhur Sidi-İbrahim məscidi ucaldılmışdır.

Bir günün necə keçdiyini heç hiss etmədik. Artıq axşam düşmək üzrə idi. Deməli biz, xarici turistlər hökmən mehmanxanaya qayıtmalı idik. “Qardaya” mehmanxanasına gəldik. Bu avropasayağı tikilmiş, müasir avadanlıqlarla təchiz olunmuş və çox səviyyəli xidmətə malik olan bir mehmanxanadır. Turist yoldaşlarımıza otaqları bölüşdürdükdən sonra (mən qrupun rəhbəri idim) öz otağımıza gəldik. Moskvalı dostum Volodya Şerbakovla bir nömrəyə düşdük. Küçədə 29-30 dərəcə temperatur var. (Təsəvvür edin ki, bu hələ fevral ayının ilk günləridir); otaqlarda isə kondisionerlər işləyir və ora daxil olduqda sanki cənnətə düşürsən. Azca uzandım. Buna səbəb gördüklərimin nağıla bənzəməsi idi. Sonradan isə nağıllara o qədər əlavələr olunub ki...

Dostumla balkona çıxdıq. Mzaba şəhərciklərindən şam işığına bənzər çox zəif işıq gəlirdi. Sanki axşam düşməmiş Mzaba yuxuya dalırdı və bir şəhərdə sanki müxtəlif əsrlər görüşürdülər. Mehmanxanada XX əsr, şəhər bazarında isə deyək ki, X-XI əsrlər. Mehmanxanadan şəhəri seyr edir və qəribə hisslər keçirirdik. Sanki XX əsrdən keçmiş əsrlərə baxırdıq. İstər-istəməz başımdan bu fikir keçdi: buralar qədim tarixin yuva saldığı yerlərdir.

## UARQLA ƏLCƏZAİR SƏHRASININ PAYTAXTIDIR

Uarqla şəhəri Qardayanın 190 km-liyində yerləşır. Bu şəhər Əlcəzair səhrasının paytaxtı olub, sürətlə inkişaf edən inzibati və sənaye mərkəzidir.

Biz Uarqlaya getməkdən ötrü səhər tezdən (saat 6-da) yuxudan durub, səhər yeməyini yedikdən sonra yola düşdük.

Avtobusumuz Mzabanın sənaye zonalarının, habelə aeroportunun yanından keçdikdən sonra düz yola çıxdı. Bu yol səhra boyu uzanıb heç bir yaşayış məntəqəsindən keçmir.

Uarqla şəhərinin yaranma tarixi məlum deyildir. Bircə o məlumdur ki, bu şəhər IX-X əsrlərdə ibadilər dövlərtinin tərkibində olmuşdur. Belə ki, ibadilərin son hökmdarı din düşmənlərinin qorxusundan səhraya qaçmış və Uarqlanın yanında Sədrət şəhərinin əsasını qoymuşdur. Sonralar bu şəhər öz böyüklüyü və gözəl tikililəri ilə regionda məşhurlaşmışdır. Din düşmənləri gəlib bura çıxmış, xurma ağaclarını kəsmiş, tikililəri dağıtmışlar. İbadilər Mzabaya qaçmalı olmuşlar.

Sədrət xarabalıqları qazıntı nəticəsində aşkar edilmiş və indi də durur (Uarqlanın cənubi-qərbində, ondan 13 km məsafədə). Keçmiş ibadilər (indi onlara mzambilər deyirlər) yazda bu xarabalıqları ziyarət etməyə gedirlər.

Uarqlanın görməli yerləri "köhnə şəhər" (burada əsasən zəncilər yaşayır), "köhnə bazar" və mərkəzi muzeydir. Bu muzeyin Sədrətdə tapılmış zəngin kolleksiyası var. Muzey olduqca gözəl və orijinal bir binada yerləşmişdir. Burada qədim Səhra daş alətləri və digər maraqlı əşyalar saxlanılır. Zallardan birinin palma məmulatından düzəldilmiş divarlarına fantastik naxışlar vurulmuşdur.

Uarqla ən gözəl "Səhra gülü" olan bir yer hesab olunur. Bu uzun illər ərzində səhra qumu altında müxtəlif mineralların əmələ gətirdikləri fiqurlardır ki, bu da təbii gülə bənzəyir. Buna "Səhra gülü" deyirlər. Onu da qeyd edim ki, bu "gül" Əlcəzair xalqının milli sərvəti olub, yerli qanunlara görə onu ölkə xaricinə aparmaq olmaz.

Uarqla şəhərindən bir qədər kənarda "yeni" bazarda bu "güllərdən" bəyəndiyini seçib almaq olar. (Oxucu soruşa bilər ki, əgər turist bu "gülləri" özü ilə apara bilmirsə, bəs onda niyə alır? Düzdür, "Səhra güllərinin" xalqın milli sərvəti olması barədə qanun var. Lakin gömrükxana işçiləri deyəsən bu qanunun ciddiliyinə inanmırlar və bu gülləri ölkədən

aparanlara mane olmurlar). Burada elə "güllər" vardır ki, hər birinin ağırlığı 1 tondan çox olur.

"Köhnə şəhər" yeni inzibati tikililərlə əhatə olunmuşdur. Bu tikililərdən birində Səhranın kənd təsərrüfatı institutu yerləşir. Bu institutun əsas tədqiqat obyekti xurma təsərrüfatıdır (xurmaçılıq).

1954-cü ildən başlayaraq burada çoxlu artezian quyuları qazılmışdır. Bu quyular da 900 000 xurma ağacını su ilə təmin edir.

"Köhnə şəhər"də dəvə meydanı deyilən bir yer var. Bu meydan küçə-tunellərlə əhatə olunmuş, evlərin balkonları küçənin üstündən elə birləşdirilmişdir ki, qonşuya getmək üçün küçəyə düşmək lazım gəlmir. Qapıların üstündə bəzən həmin evdə yaşayan və ərə getməyən qızların sayı da göstərilir.

Burada minarəsinin hündürlüyü 68 metr olan məscid və çoxlu inzibati binalar vardır.

Uarqladan 85 km şərq tərəfdə Əlcəzairin əsas neft hasilatı mərkəzi – Həssi-Messaud yerləşir. Burada çoxlu Sovet mütəxəssisi işləyirdi. Həssi-Messaudda gözəl bir neft muzeyi vardır. Uarqlanın şimalında isə (30 km məsafədə) Əl-Bur vadisi yerləşir. Burada nazik qum təpələri altında həddindən artıq gözəl və şəffaf "Səhra güllər"i vardır.

## TUQURT SƏHRANIN KEÇMİŞ PAYTAXTIDIR

Səhrada səyahətin bir əsas xüsusiyyəti vardır. Hər hansı bir yaşayış məntəqəsindən digərinə gedən yolda turistin müşahidə edə biləcəyi yeganə mənzərə qumlu səhralardır. Uarqladan Turquta kimi 150 km-lik yol sap-sarı qumlu səhradır. Bəs ucsuz-bucaqsız səhrada gözə dəyən nədir? Nağıllardan eşitdiyimiz, bəzən filmlərdə gördüyümüz tək-tək dəvə karvanı, yaxud içərisində xurma ağacları bitən iri yarğanlar. Avtobusumuz səhranın sinəsindən keçən asfalt yolla şütüyür. Bu yol sanki Səhra adlı bir orqanizmin şah damarıdır. Yol şüşə kimidir (Əlcəzairlilər yol çəkməyə nə xəsislik, nə də tənbəllik

edirlər. Ölkədə yol çəkənlər əsasən əcnəbilərdir). Yolsuz, səhra həyatdan məhrum ola bilər. Deyirlər ki, bərk külək əsəndə asfalt yol qum altında qalır. Fərdi səyahətə çıxanlar belə hallarda azırlar və itib-batırlar. "Əl-Mücahid" qəzetinin yazdığına görə üç il qabaq səhrada itgin düşən səyyahları indi də axtarırlar.

Avtobusun pəncərəsindən səhraya baxıram. Adama elə gəlir ki, burada əsla həyat yoxdur. Birdən uzaqdan komacıqlar görünür. Komaların yanında avtobusu saxlayırıq.

Balaca uşaqlar qum üstündə oynayırlar. Qışın oğlan çağı – fevralın ikisi olmasına baxmayaraq, burada 29 dərəcə istilik vardır. Qarşımızda ağ əbalı, başında əmmaməyə bənzər bükülü yaylıqdan papaq (əgər buna papaq demək mümkündürsə) qoymuş bir ərəb çıxdı. Salamlaşdıq. Yoldaşlarımın xahişini ona yetirdim:

- Mümkünsə, bizimlə şəkil çəkdirin.

O, ciddi görkəm alıb dedi:

- Etiraz etmirəm, hər çəkiliş üçün 10 dinar verməlisiniz.

Hiss olunurdu ki, bu kişi səyyahlarla şəkil çəkdirməkdə təcrübəsiz və biz də ona şəkil çəkdirməyi təklif edən ilk səyyahlar deyilik. Yoldaşlar ona müxtəlif suvenirlər, döş nişanları verib, pulsuz şəkil çəkdirməyin razılığını aldılar. (Onu da qeyd edim ki, xəsislikdə sovet turistləri bütün əcnəbi turistlər arasında birinci yeri tuturlar. Səbəbi barədə bizim qəzetlər az yazmayıblar.)

Komanın o tərəfində bir qadının balaca uşağı soyundurub, bədənini qumla ovuşdurduğunu gördüm. Kişiyə müraciətlə:

- O, niyə belə edir?-soruşdum.

Kişi cavabında:

- Uşağı çimizdirir - dedi

Gözlərim az qala kəlləmə çıxdı:

- Necə? Çimizdirir?

Kişi heç əhvalını pozmadan:

- Bəli, bəli çimizdirir- dedi. Bəs siz bilmirsiniz ki, burada su məsələsi problemdir. Biz özümüz də qumla çimirik.

"Çimizdirilən" uşağa yaxınlaşıb, onun bədəninə diqqətlə baxdım. Doğrudan da, qumda "çimən" bu balacanın bədəni tər-təmiz idi. Sonradan məlum oldu ki, burada qab-qacağı da qumda "yuyurlar".

Başımıza toplaşan yerli adamlarla xudahafizləşdik. Avtobusa doluşurduq ki, yoldaşlarımızdan biri qiymətli bir şey tapan adam kimi sevincək çığırdı:

- Yoldaşlar, karvan. Gəlin dəvələrlə şəklimizi çəkdirək.

Dəvə karvanı bizə yaxınlaşdı. Sarvana karvanla birlikdə şəkil çəkdirmək istədiyimizi bildirdik. Sarvan bizdən suvenirlər tələb etdi. Yenə hərə özünün çantasına "hücum" çəkdi. Döş nişanları, kiçik oyuncaqlar, açıqcalar sarvanın ətəyinə yağış kimi yağmağa başladı. Səyyahlar öz arzularına çatdıqdan sonra avtobusumuz yoluna davam etməyə başladı.

Tuqurt yolunda avtobusu ikinci dəfə xurma bağlarının (yarğanların içində) yanında saxlatdırdıq. Təsəvvür edin ki, ucu-bucağı görünməyən səhra ilə gedirsiniz. Hər tərəf qumluqdur. Birdən böyük bir yarğanın içərisində xurma ağaclarını görürsünüz. Gözlərinizə inanmırsınız. Axı bir neçə dəqiqə bundan əvvəl sizə elə gəlirdi ki, artıq bu səhrada həyat yoxdur. Birdən-birə gözlərinizə yaşıl xurma ağacları görünür. Yaşıllıq və həyat. Bu mənzərə hər 40-50 km-dən bir təkrarlanır.

Avtobusdan düşən kimi bir oğlanı xurma ağacında gördük. Salamlaşdıq. Ona turist olduğumuzu söylədim. O gülümsədi və bizim turistlərin bu yerlərə tez-tez gəldiyini qeyd etdi.

Xurma bağını gəzməyə başladıq. Məhsul artıq yığılmışdı. Bir-iki ağacda xurma görünürdü. Təsəvvür edin ki, bir saplaqdan yüzdən artıq qol asılmış və hər qolda da 20-25 ədəd xurma var idi. Xurma dərənlər əvvəlcə bütün qolları tora salır, saplağı qayçı və ya bıçaqla kəsib, ip vasitəsilə toru aşağı buraxırlar.

Bağdakı cavan oğlan bizim üçün xurma dərdi. Mən Əlcəzairdə yaşadığım müddətdə bu cür xurma görməmişdim. Çəllək formalı, tünd qara rəngli, asanlıqla qabığı soyula bilən bu xurma həddindən artıq şirindir. Onun ikisini yeyəndən sonra adam bir gün yeməkdən qalır (Görünür Şeyx Nəsrullah bu xurmadan yeyirmiş).

Öyrəndik ki, bu xurma yalnız Səhrada bitir, ona "işıq barmaqları" deyirlər və ancaq ixrac üçündür. (Mən bizim tərəflərdə də beləsini görməmişəm.)

Nəhayət avtobusumuz Tuqurta çatdı.

Tuqurt vaxtilə nəhəng çay olmuş Riq vadisində Oazislər (vahə) zəncirinin mərkəzində yerləşib, otuz minə qədər əhalisi vardır. Şəhəri bir milyon yarımdan artıq xurma ağacı əhatə etmişdir. "İşıq barmaqları" adlı bu xurmaların dörddə biri ixrac olunur.

Burada fəllahlar kooperativlər yaratmış, suyu dərinliyi 100-200 m olan artezian quyularından çıxarırlar. 1954-cü ildən başlayaraq dərinliyi 2000 m olan quyular qazmağa başlamışlar ki, oradan da demək olar ki, isti su çıxır. Bu sudan suvarma işində istifadə etmək üçün təbiidir ki, onu soyutmaq lazımdır.

İrəlidə qeyd etdiyim kimi, Tuqurt vaxtilə Səhranın paytaxtı olmuşdur. Buranın əhalisi müxtəlif məhəllələrdə yaşayan qara zəncilərin, bərbərlərin və ərəblərin qarışığından ibarətdir. Səyyahlar üçün ən maraqlı yer-Tuqurt "şahlığı" hökmdarlarının (XV-XX əsrlər) dörd məqbərəsidir. Bu şəhərin qərb hissəsində yerləşir və qeyri-adi arxitekturaya malikdir. Burada çoxlu sayda qəbirlər vardır. Qadın və kişi qəbirlərini asanlıqla ayırmaq olur. Belə ki, kişi qəbrindən iki, qadın qəbrindən isə üç daş çıxır. Bu məqbərələrdən biri "Oazis" mehmanxanasının arxa tərəfində yerləşir. Bizim gecələməli olduğumuz mehmanxana məhz "Oazis" idi. Bu XIX əsr Tuqurt sultanı Si Ben Yəhyanın məqbərəsi yaxınlığında tikilmiş, müasir avadanlıqlarla təchiz olunmuş bir mehmanxanadır. Mehmanxananın həyətində yekə bir hovuz da vardır. Arzu

edənlər çimə bilərlər. (Ümumiyyətlə Əlcəzairdəki mehmanxanaların hamısında belə hovuzlar vardır. Hovuzun ətrafına stol və stullar düzülür. Kimi hovuzda çimir, kimi kofe və ya çay içir və s.) Burda müştəriyə xüsusi diqqət və qayğını ora düşdüyün ilk andan hiss edirsən. Bizim bir qədər yorulduğumuzu hiss edən inzibatçı hamımıza elə mehmanxananın geniş foyesində əyləşməyi təklif etdi. (Adətən burada otaqları almaq üçün qrupun iki məsul nümayəndəsi inzibatçı ilə haqq-hesab aparır və açarları bölüşdürür.)

O bizə:

- Bizim tərəflər Sovet ölkəsindən gələn qonaqların xoşuna gəlirmi? –deyə müraciət etdi.

Mən:

- Bəli –dedim. Çox gözəldir.

Sonra o, soruşdu:

- Siz kofe içirsiniz, yoxsa çay?

Hər kəs öz istəyini söylədi və 60 nəfərlik turist qrupu pulsuz çay və kofe ilə təmin olundu.

Öz-özümə düşündüm ki, bəlkə bu xidmət yalnız bizə görədir. Bizdən sonra alman turistlər mehmanxanaya daxil oldular. İnzibatçı tez onlara yaxınlaşdı və eyni suallarla onlara da müraciət etdi. Bir neçə dəqiqədən sonra alman turistləri üçün də çay və kofe gətirdilər.

Hamımız bərk yorulmuşduq. Hərə öz otağına yollandı. Lakin heç kəs dincəlmək istəmədi. Məgər bu boyda gözəlliyi qoyub, yatmaqmı olardı? Yenidən Tuqurtu gəzməyə çıxdıq.

Mən irəlidə qeyd etmişdim ki, Əlcəzairin müxtəlif şəhərlərində bazar –səyyari olub, yalnız həftənin müəyyən günləri fəaliyyət göstərirlər. Bazar günləri arası müddətdə, əlbəttə xüsusi mağazalar fəaliyyət göstərir. Bazarda şeylər xüsusi mağazadakına nisbətən çox ucuzdur. Ona görə də az maaşlılar və yaxud pula çox qənaət etmək istəyənlər alış-verişi bazarda edirlər.

Əlcəzairin digər şəhərlərindən fərqli olaraq, Tuqurtda bazar hər gün fəaliyyətdədir. Bu bazarda nələr satılmır?...

Köhnə ev əşyalarından tutmuş müasir elektronikaya kimi hər şey bu bazarda satılır. Sabit qiymət yoxdur. Satıcı ilə danışıb qiyməti aşağı salmaq olar.

Bazarın ətrafında palçıqdan birmərtəbəli evlər tikilmişdir. Burada nadir hallarda daş evlərə rast gəlinir. Küçələr tağlıdır. Bu tağların altında hara istəsən gedə bilərsən. Tağlar adamı Günəşin öldürücü istisindən qoruyur.

Müxtəlif tayfalar şəhərin müxtəlif məhəllələrində yaşayırlar. Məsələn, bərbərlər əvvəllər avropalıların yaşadıqları Bolluş məhəlləsində yaşayırlar. Bu məhəllə şəhər vağzalının yanında yerləşir. Vaxtilə Uled- Nail nəslindən olan rəqqasələrin xüsusi məhəlləsi olan Bolluşda az miqdarda da olsa, yəhudilər də məskunlaşıblar.

Turist marşrutuna görə bizim növbəti dayanacağımız Əl-Ued şəhərində olmalı idi. Tuqurtdan bu şəhərə kimi 95 km-lik yoldur. Bu yol özünün qeyri-adiliyi ilə fərqlənir. Avtobusumuz nəhəng "qum dənizində" üzürdü. Burada 400 min kvadrat km-lik sahə qumla örtülmüşdür. Əl-Ued şəhərinə çatmamış hündürlüyü yüz metr olan qum təpələri görünür. Adətən bu qum təpələrinin əsasını qayalıqlar təşkil edir. Küləyin əsmə istiqamətindən və sürətindən asılı olaraq bu qayaların təpəsi də müxtəlif formalar alır. Böyük təpənin arxasındakı dərədə bir milyonçunun zəngin malikanəsi yerləşir. Deyilənlərə görə həmin milyonçu öz qonaqlarını xüsusi traktorlarda qəbul edir və yola salır. Belə ki, küləkli havada burada asfalt yol tamamilə "yoxa" çıxır.

## ƏL-UED MİN GÜMBƏZLƏR ŞƏHƏRİDİR

Əl-Ued Böyük Səhranın ən maraqlı, gəzməli və görməli şəhərlərindən biridir. Şəhər bütövlükdə qum dənizinin içərisində yerləşmişdir və evlərin xüsusi arxitekturası vardır. Geniş yarğanlarda xurma ağacları əkilmişdir. Bu qumlar

diyarının kifayət qədər əhalisi, Səhra şəraiti üçün zəngin flora və faunası vardır. Sonuncunu onunla izah edirlər ki, yer altından (təxminən 3 metrdən 20 metrə kimi dərinlikdə) yarışor, yarıiçməli su sızır. Bu su Hoqqar dağından axan məşhur Səhra çayının tör-töküntüsüdür. Burada qum içərisində çoxlu sayda zəhərli əqrəblər vardır.

Yerli adamlar qum təpələri arasındakı çökəkliyi bir qədər qazır və böyük müstəvi səthli dərə yaradırlar. Sonra burada xurma ağacları əkirlər. Bu ağacların köklərini yerə elə batırırlar ki, onların kökləri irəlidə qeyd etdiyim yeraltı su axınına çata bilsinlər. Bu olduqca orijinal və səmərəli irriqasiya üsuludur. Səhranın digər rayonlarında suyu yerdən çıxarıb bitkiləri sulayırlar. Lakin burada isə bitkinin kökünü suya batırırlar. Xurma ağacı sevir ki, onun “ayaqları” suyun, “başı” isə odun içərisində olsun. Bu ərazinin təbii şəraiti irəlidə söylədiyimiz tələbata çox uyğun gəlir. Məhz ona görə də buradakı xurma plantasiyaları öz məhsuldarlığına görə Böyük Səhrada birinci yeri tutur.

Bu torpaqda yaşayan hər bir şəxsin xurma plantasiyaları ola bilər. Bir şərtlə ki, həmin adam gərək özü bu ağacları əkmək üçün dərə qazsın.

Irriqasiya üsulunun nöqsanları da vardır. Belə ki, küləyin doldurduğu dərəni həmişə təmizləmək lazımdır. Burada elə qum qasırğası qopur ki, xurma ağaclarının kökünü qumla örtür. Əlbəttə onları təmizləmək və əvvəlki vəziyyətinə gətirmək böyük zəhmət istəyir.

Xurma ağacı çox zəhmət tələb edən, ona qayğı göstərəni incidən ağacdır. Onun tozlanma prosesi həddən artıq mürəkkəbdir. Bunu yerli adamlar əl ilə icra edirlər.

Əsli Yəməndən olan ərəblər bu qum dənizində dörd əsr bundan əvvəl yurd salmışlar. Xəstəlik və ehtiyac onları bu yerlərə gətirib çıxarmışdır. Onlar əvvəllər şimali-şərqdə, dəniz kənarında Liviyada və ya Tunisdə yaşamışlar. Lakin böyük vergilər onları Səhraya qaçmağa məcbur etmişdir. Onlar

əvvəlcə Riq çayı vadisində yerləşmişlər. Lakin burada arasıkəsilməz xəstəliklər və epidemiya onları zara gətirdiyinə görə qərara gəlmişlər ki, geri qayıtsınlar. Geri qayıdarkən təpələr arasındakı çuxurlarda çoxlu xurma ağacları görmüşlər. Yeri qazmış və çox kiçik dərinlikdən su çıxdığını müşahidə etmişlər. Beləliklə Suf oazisi meydana gəlmiş və burada əhalinin sayı artmağa başlamışdır. Hazırda bu oazisdə 500 min ədəd xurma ağacı vardır. Bu ağacların əksəriyyəti dünyada ən yaxşı xurma növü olan "işıq barmaqları"nı, yerdə qalanlar isə "Qars" növünü verir. Qeyd edək ki, bu növ xurma ağacı çox su tələb etmir və onu uzun müddət, məsələn 15 ilə kimi saxlamaq olur.

Əl-Ued şəhərinin tamamilə qeyri-adi forması vardır. Səhranın digər şəhərlərində gördüyümüz müstəvi formalı damlardan fərqli olaraq burada damlar günbəz şəklindədir. Ona görə də bu şəhərə min günbəzli şəhər deyirlər.

Suf özünün orijinal, müxtəlif formalı, həddindən artıq gözəl qum "gülləri" ("Səhra gülü" kimi) ilə məşhurdur. Bu "güllər"dən həm Əl-Ued bazarında almaq olar və həm də səyyah bu şəhərdən ayrılarkən qarşısına çıxan ilk təpənin ətəyindən bu "güllər"dən tapıb istədiyini seçə bilər. Bu səyyahın Səhradan gətirə biləcəyi ən yaxşı xatirə hədiyyəsidir. Belə ki, bu cür qips kristalları Böyük Səhradan başqa heç yerdə yaranmır.

Buranın şəhər muzeyi də çox maraqlıdır. Muzeydə "Səhra gülləri" kolleksiyası toplanmış, yerli fauna və flora, yerli sənaye məhsulları və arxeoloji tapıntılar nümayiş etdirilir. Suf oazisi Tunis sərhəddinə çox yaxın olduğundan şəhər bazarında xeyli kontrabanda malları satılır.

Yeri gəlmişkən bir neçə kəlmə kontrabanda (qaçaq) malları barədə. Əlcəzairin müxtəlif şəhərlərinin bazarlarında qaçaq mallarına rast gəlmək olur. Bu mallar əsasən Tayvanın istehsal etdiyi müxtəlif cür elektron saatları, elektron alışqanları və s.-dir. Ölkənin bazarlarında yapon maqnitofonlarına demək olar

ki, rast gəlmək olmur. Deyilənə görə qaçaq mallar müxtəlif yollarla Əlcəzairə ötürülür.

"Əl-Mücahid" qəzetində bir dəfə böyük məbləğli qaçaq malının tutulduğu barədə yazmışdılar. Bu malı necə keçirirlərmiş? Mərakeşdə malı eşşəyə yükləyib sərhəd yaxınlığında buraxıblar. Eşşək özü sərhəddi keçmiş (əlbəttə buradakı sərhəddə tikanlı məftillər yoxdur və sərhədçilər də səhrada bir yerdə durmurlar) və Əlcəzairdəki sahibigilə istiqamət almışdır. Bu zaman sərhədçilər eşşəyi yaxalamış və onun qaçaq mal apardığını müəyyən etmişlər (eşşəyə bir bax!). Əlbəttə sərhədçilər eşşəyi saxlamasaydılar, o, əvvəlcədən məşq olunmuş marşrutla əlcəzairli sahibini tapacaqdı. Lakin bu dəfə qaçaq mal aparanların hiyləsi baş tutmamışdı... Zəl-Ued şəhəri ilə vidalaşaraq, onun gözəlliyini bir daha heyran-heyran süzüb, Biskra şəhərinə üz tutduq.

## BİSKRA DA BÖYÜK SƏHRANIN QAPISIDIR

Biskra şəhəri şimalda, Əl-Ueddən 220 km məsafədə yerləşir. Bu yolun 50 km-i qum "dənizinin" içindən keçir. Sonra yol dəniz səviyyəsindən aşağı enir. Hər tərəf şoranlıqdır. Güclü yağışlardan sonra şosse bəzi yerlərdə duzlu su ilə örtülür. İsti vaxtlarda tez-tez ilğımlara rast gəlmək olur (İlğımlar, gözə görünən "göllər"dir ki, bu da mavi səmanın yerüstü isti havada əksidir).

Yol uzunu mən ətrafa baxdıqca bu duzlu səhrada özümə bir doğmalıq, bir yaxınlıq hiss edirdim. Bir anlığa mənə elə gəlirdi ki, mən nə Afrika qitəsindəyəm, nə də ki, səyahətdə. Sadəcə olaraq Bakıdan Masallıya gedirəm və avtobusumuz da Ələtlə Xələc arasındadır. Səhranın bu hissəsi Ələtlə Xələc arasındakı şoran sahəyə elə bənzəyir ki, daha deməyəsən.

Biskra şəhəri dəniz səviyyəsindən 125 metr yüksəklikdə yerləşib, 100 mindən artıq əhalisi vardır. Qumluluq dərəcəsi azdır, xurma ağaclarının sayı isə çoxdur. Qeyd edək ki, Biskra şəhəri ətrafında iki milyona kimi xurma ağacı vardır.

Qədim romalılar vaxtilə burada özlərinin Afrika mülklərini Böyük Səhradan gəlmiş köçəri bərbərlərdən qorumaq üçün Biskra qalasını tikmişlər. Sonralar bu şəhər vandallara məxsus olmuş, yüz il sonra isə ərəb sərkərdəsi Sidi Əkba Atlantik okeanına kimi getmiş və fəxrlə demişdir:

– Mən islamı dünyanın axırına gətirib çıxardım.

Geriyə dönərkən Biskra ətrafında bərbərlərlə döyüşmüşdür. Kahinin rəhbərlik etdiyi ordu ərəbləri məğlub etmiş və Sidi Əkbanı öldürmüşlər. Sidi Əkba Biskanın 17 km-də dəfn olunmuş və hazırda ərəblər onun qəbrini müqəddəs yer kimi ziyarət edirlər.

XI əsrdə Biskranın ərazisi hilalilər, Misir və Ərəbistandan gələn köçəri ərəblər tərəfindən tutulmuşdur. Hilalilər buranı darmadağın etmiş, yerli əhalini –bərbərləri dağlara qovmuş və burada ərəbləşmə aparmışlar. Sonralar bu şəhər əldən-ələ keçmiş, Əlcəzair Türk imperiyasının tərkib hissəsi olduqda, şəhər sabit dövlətə malik olmuşdur. Türk qarnizonu bu şəhərdə oazisi canlandırmağa başlamışdır. 1838-ci ildə bu şəhər Əmir Əbdül Qədirin yaratmış olduğu cavan Əlcəzair dövlətinin tərkibinə daxil edilmişdir. Bu dövlət də təpədən dırnağa kimi silahlanmışdır. Lakin Fransa müstəmləkəçilərinin təzyiqinə dözməyərək məğlubiyyətə uğramışdır.

Şəhərin vaxtilə fransızlar yaşayan hissəsində çoxlu kazarmalar vardır. Küçələrin əksəriyyəti tağlı olub, evlər sanki səkilərin üstündən asılmışdır. Bu da Günəşdən gizlənmək üçün bir vasitədir.

Biz Biskra şəhərinə çatanda artıq qaş qaralmışdı. Mehmanxanada yerlərimizi alıb, təzəcə istirahətə başlamışdıq ki, Biskrada işləyən bir qrup Sovet mütəxəssisi yanımıza gəldi (Onlar bizim bu şəhərə gələcəyimizi qabaqcadan bilirlərmiş). Hərə öz dost-tanışı ilə görüşməyə gəlmişdi. Mən bilirdim ki, Biskra Universitetində bizim Azərbaycandan da bir yoldaş işləyir. Bu bizim Politexnik İnstitutunun dosenti Nazim Ağayev idi. Gələn yoldaşlardan onu soruşdum. Dedilər ki,

tanıyırıq. Artıq iki saatdan sonra Nazim bizi tapdı. Görüşdük, öpüşdük. Nazim mənim Bumerdesli dostum Rafiqlə Əlcəzair torpağında ilk dəfə idi ki, görüşürdülər. Rafiqlə Nazim Bakıda eyni ali məktəbdə işləyirlər. Hiss olunurdu ki, Nazim bizdən də çox darıxır. Axı zarafat deyil, o, ailəsiz, tək yaşayırdı. Bəli, burada uşaqların təhsil alması üçün şərait olmadığından, analar öz övladlarını evdə qoyub buraya gələ bilmirlər. Kişilərin isə ailəsiz Böyük Səhranın "qapısı" ağzında "dayanması" həddindən artıq çətindir. Öz-özümə deyirəm:

– Bir az da döz, qardaş, döz. Məzuniyyətə az qalıb. Evdə hər şeyi unudacaqsan.

Həmyerlimizi yola saldıqdan sonra başımın ağrıdığını hiss etdim. Dərman almaq üçün əczaxanaya yollandım. Qarşıma çıxan ilk əczaxanaya girdim. Əczaçı məni görcək:

- Cənab-deyə müraciət etdi (Bu onlarda bir adətdir. Məncə bu adəti onlar fransızlardan götürmüşlər. Bu o deməkdir ki, cənab, nə istəyirsiniz?)

Mən:

- Başağrısı dərmanı verin zəhmət olmasa-dedim.

O, mənə bir dərman təklif etdi və xeyli təriflədi (Yəqin əcnəbi olduğumu hiss etmişdi). Sonra soruşdu:

- Siz əcnəbisiniz?

- Bəli-dedim.

- Hansı ölkədən gəlmişsiniz?

- Sovet ölkəsindən.

Sonra Əlcəzairdə dəfələrlə eşitdiyim sözləri bu da təkrar etdi:

- Axı siz rusa oxşamırsınız?

Mən onun bizim ölkə haqqında müəyyən məlumata malik olduğunu hiss etdim və bunu yoxlamaq üçün dedim:

- Məgər Sovet ölkəsində yaşayanların hamısı ruslardır?

- Bilirəm, bilirəm-dedi. Sizin ölkədə müxtəlif xalqlar yaşayır. Siz hansı millətdənsiniz? Təsadüfən azərbaycanlı deyilsiniz ki?

Sevincimdən az qala bu cavan oğlanı qucaqlayıb öpəm. Əlcəzairdə işlədiyim müddətdə ilk dəfə idi ki, mənim hansı millətə mənsubluğumu doğru güman edənlə rastlaşırdım. Azərbaycanı tanıyanlar çoxdur və bizim xalqa böyük hörmət bəsləyirlər. Lakin bu gənc əczaçının azərbaycanlılığımı duyması məni şok vəziyyətinə salmışdı. Hiss edirdim ki, onun məni tanıması təsadüfi deyil və onunla söhbət etmək istədim. Sən demə onun özü çox söhbətcil imiş.

Cavan oğlan mehribancasına:

- Mən, sizin Rəşid Behbudovu, Zeynəb Xanlarovanı yaxşı tanıyıram (İlahi, ilk dəfə idi ki, xarici ölkədə bizim mədəniyyət xadimlərinin adını eşidirdim. Baxmayaraq ki, bizim bəzi musiqişünaslar "filan müğənni bizi bütün dünyada tanıtdırıb, filan bəstəkar millətin üzünü filan-filan ölkələrdə ağ edibdir"deməkdən yorulmurlar) –dedi. Sizin Azərbaycan radiosunu vaxtaşırı dinləyirəm. Biskrada Azərbaycan radiosunun dostları klubu vardır.

Sonra o, balaca stəkanla suyu mənə tərəf uzadaraq:

- Alın, dərmanı için –dedi.

Mən təəccüblə:

- Nə dərman?-soruşdum.

O, gülümsəyərək:

- Bəs sizin başınız ağrımırdımı?-dedi.

Doğrudan da, axı mənim başım ağrıyırdı və məni də bu əczaxanaya nasazlıq gətirmişdi. Əziz oxucum, inanın ki, bu mənim uydurmam deyil: baş ağrım tamamilə keçmişdi.

Cibimdə Bakı mənzərələrinə dair bir - iki fotoşəkil və şəhərimizin emblemini əks etdirən döş nişanı vardı. Onları böyük məmnuniyyətlə həmin cavan oğlana hədiyyə etdim.

O, mənə dedi:

- Əgər istəsəniz, sizi Azərbaycan radiosu klubunun üzvləri ilə tanış edərəm. Onlar sizinlə söhbət etməkdən məmnun olarlar.

Təəssüflə bildirdim ki, bu mümkün deyil. Belə ki, biz səhər tezdən Biskranı tərk etməliyik. Axı mən səyyah idim. Yolumuz isə Timqad şəhərinədir.

## TİMQAD ƏN QƏDİM ROMA ŞƏHƏRİDİR

Timqada üz tutmamışdan əvvəl Sovet mütəxəssislərinin Bumerdes şəhəri üzrə ekskursiya bürosunun rəhbəri V.Morozov mənə yaxınlaşıb Timqad şəhərinə getmək marşrutunu seçməyi təklif etdi (İrəlidə qeyd etdiyim kimi mən turist qrupunun rəhbəri idim). Məsələ burasındadır ki, bu şəhərə iki marşrutla getmək olar. Bu marşrutlardan biri dağ yolu ilə Ores massivindən (burada dəniz səviyyəsindən 2328 metr hündürlükdə yerləşən Şemqa şəhəri yerləşir) keçir. Əlbəttə hava şəraiti yaxşı olduqda bu marşrut əlverişlidir. Ores şimali Afrikanın əsil əhalisi olan bərbərlərin yuvası sayılır. Onlar qədim romalıların vaxtından başlayaraq müstəmləkəçilərdən qaçmış və burada yurd salmışlar. Bərbərlər müstəmləkəçilərə qarşı dəfələrlə üsyan etmişlər. Təsadüfi deyildir ki, azadlıq müharibəsinin ilk atəşləri 1 sentyabr 1954-cü ildə Ores dağlarında açılmışdır. Burada həyat səviyyəsi çox aşağıdır. Kişilərin əksəriyyəti pul qazanmaq üçün başqa şəhərlərə gedirlər. Əlcəzair hökuməti geridə qalmış bu əyalətin inkişafı üçün tədbirlər görməkdədir. Bu barədə ölkə mətbuatı vaxtaşırı məlumatlar verir.

İkinci marşrutu turistlər pis hava şəraitində seçirlər. Bu Timqada Əl-Kantar vadisindən və Batna şəhərindən keçən yoldur. Birinci marşrutun uzunluğu 150 km, ikincininki isə, 153 km-dir. Hava şəraiti bizə birinci marşrutu seçməyə imkan verdi.

Timqad Əlcəzair torpağında yerləşən ən qədim Roma şəhəridir. Bu şəhərin əsası imperatorun əmri ilə 101-ci ildə üçüncü Avqust legionu veteranları tərəfindən qoyulmuşdur.

Şəhərin küçə və məhəllələri dəqiq həndəsi plan üzrə qurulmuşdur. Burada qədim teatr, termlər, ibadətgahlar, arkalar vardır. Şəhərin çiçəklənən dövründə əhalisi sıx olmuşdur. Dinin inkişafı zamanı donatistlərin bazasına çevrilmişdir ki, onlar da rəsmi kilsəyə qarşı mübarizə aparmışlar. Şəhərin vandal dövründə əhalisi azalmış, vizantiyalıların gəlməsi ilə isə artmışdır. Şəhərin dağılma tarixi məlum deyil. İlk qazıntı işləri 1880-ci ildən başlamış və bu günə kimi davam edir.

Bu şəhərə gələn turistlər ilk növbədə dağılmış şəhərə baxırlar. Qədim romalıların tikdirdiyi bu dağılmış şəhər ayrıca muzey kimi fəaliyyət göstərir.

Şəhər – muzeyin planı turistlərə əvvəlcədən təqdim olunur. Bu şəhərdə vaxtilə bazar, teatr, kitabxana, bağ, villalar və s. olmuşdur. 168-ci ildə tikilən teatr 3-4 min yerlik imiş. Hazırda bu teatrda tamaşa həftələri keçirilir. Hazırkı teatrın birinci beş sırası qədim romalılardan yadigardır. Yerdə qalan sıralar isə bərpa edilib.

Şəhərin mərkəzində tacir dükanları və gözəl mərmərdən hörülmüş tualet varmış. Bu tikililərin baş tərəfində şəhər senatının binası (116-cı il) yerləşmişdir. Elə buradaca böyük bir heykəl ucaldılmış və onun postamentində bu sözlər yazılmışdır: "Ov etmək, çimmək, oynamaq və gülmək – bax budur həyat". Bu dağılmış şəhərə tamaşa etdikcə tez-tez xəyala dalırsan. Hər daşın yanından ehtiyatla keçir və onlardan nəsə eşitmək istəyirsən. Düşünürsən ki, bax elə indicə bu daşlar dil açacaq, bələdçilərin demədiklərini və bilmədiklərini sənə söyləyəcəkdir. Daşlar isə susur.

Beləliklə, Böyük Səhra oazisi boyu səyahətimiz başa çatmaq üzrədir. Mən gördüklərimi bir-bir yaddaşımda yerbəyer edir, dəftərçəmə qeydlər edirəm Fikir məni yenə Böyük Səhraya aparır. Səyahət üçün həddən artıq maraqlı olan bu yerdə yaşayanları düşünürəm. Düşünürəm ki, görəsən bu camaatı burada saxlayan nədir. Axı təbiət özünün bütün amansızlıqlarını burada, məhz burada sınaqdan keçirir. Özüm-

özümə cavab verirəm: - Vətənə olan məhəbbətdir onları burada saxlayan. Torpağı daş da olsa, qum da olsa, qara da olsa, sarı da olsa, Vətən Vətəndir. O ki, qaldı təbiətin amansızlığına, gözlərim önündə bir mənzərə canlandı: bazar qarşısında camaat bir-biri ilə görüşürdü. Görüşən zaman cavan adamlar ağsaqqalların başından, ağsaqqallar isə onların əllərindən öpürdü. Düşünürəm ki, bu nə sirdir, bu nə hikmətdir. Birdən ağlıma gəlir ki:

Cavan başdan öpür, qoca əllərdən
Görən bu nə sirdir, bu nə hikmətdir?
Bir öpüş ağıla böyük ehtiram,
O biri öpüşsə gücə qiymətdir.

Bəli, Böyük Səhrada güc ilə ağılın vəhdətinə böyük ehtiyac vardır. Əks halda burada həyat olmazdı.

Xəyalların qoynunda ikən gözlərimə lap uzaqdan işıqlar dəyir. Bu işıqlar Bumerdesin işıqları idi...

## TLEMSENƏ VƏ ORANA SƏYAHƏTLƏR

Əlcəzairdə işlədiyim müddətdə, Tlemsenə və Orana səyahət etmək mənim ən böyük arzularımdan biri olmuşdur. Belə ki, bu şəhərlərdə olan həmyerlilərimiz onların orijinallığından və gözəlliyindən o qədər danışmışdılar ki, ürəyimdə dərhal bu şəhərləri görmək arzusu baş qaldırmışdı.

Onu da qeyd edim ki, Əlcəzair üzrə bizim instituta qəbul imtahanları keçirilən zona mərkəzlərindən ikisi də, bu şəhərlərdə idi.

Bumerdesdən çıxan avtobus birinci on kilometrləri yenicə tikilmiş Beynəlxalq səviyyəli şose yolu ilə gedir. Elə Bumerdesdən aralanandan 30 km sonra sol tərəfdə bizə tanış olan paytaxt aeroportu görünür. Bu Huari Bumediyən adına aeroportdur ki, Əlcəzairlə ilk tanışlıq məhz bu Aeroportdan başlanır. Aeroport 1924-cü ildə tikilib; sahəsi 1200 hektardır.

3500 və 2350 metrlik iki uçuş yoluna malik olan bu meydan ildə 3 milyon sərnişin qəbul edir.

Bumerdesdən 65 km aralıda Mitidcə düzənliyinin mərkəzində cavan Bufariq şəhəri yerləşir. Burada qəşəng bağlar, üzümlüklər vardır. Buranın üzümü xurma kimi şirindir. Mitidcə əvvəlcə dəniz körfəzi olub. Onunla Əl-Həraş da birləşmişdi. Milyon illər ərzində bu körfəz Tel dağının məhsulları ilə dolmuş və 5000 kv.m ölçülü məhsuldar düzənliyə çevrilmişdir. Fransa istilası zamanı burada həmişə üzümçülük də inkişaf etdirilmişdir. Əlcəzair azadlığa çıxdıqdan sonra Fransızlar onların yetişdirdikləri məhsulları almadıqlarına görə fəllahlar bütün üzümlükləri məhv etmişlər. Hazırda əksər fəllahlar birləşib kooperativlər yaratmışlar. Qəribə də olsa burada yolüstü “sosialist kəndləri”nə də rast gəlirdik.

Bumerdesin 98-ci km-liyində Əl-Əfruq şəhəri yerləşir. Bu şəhər dağ silsiləsinin ətəyindədir. Avtobusumuz demək olar ki, bütün Mitidcə düzənliyini keçmişdir. Arxada 6 km-lik məsafədə Muzaya şəhəri qalmışdır. Bu şəhər Əlcəzairdə özünün məşhur “Muzaya” mineral suyu ilə tanınır.

4 nömrəli Əlcəzair – Oran şosesi Cer çayı vadisi boyu dağlara qalxır. Bu yol mənə Viləş çayının kənarı ilə Masallıdan Yardımlıya gedən yolu xatırlatdı. Təkcə fərq ondadır ki, Əlcəzair-Oran şose yolunun kənarı ilə dəmir yolu da keçir. Bumerdesin 148 km-liyində 310 m hündürlükdə Hemis-Miliana şəhərciyi yerləşir. İrəlidə isə ƏXDR-in böyük çayı olan Şelif çayının vadisi görünür. Bu balaca şəhərdə şəkər zavodu, Kənd Təsərrüfatı Məhsulları Texnologiyası İnstitutu vardır. Əvvəllər burada romalılar – mallianlar yaşamışlar. Şimal tərəfdə dağ ətəyində daha böyük və gözəl şəhər olan Miliana görünür. Sonra yol 100 km uzunluğunda Şelif çayının vadisi boyunca davam edir. Bu zona 10.10.1980-ci il zəlzələsinin ən çox ziyan vurduğu  yerdir. Cənubda Uarsenis

dağ massivinin 2 km-lik hündürlüyü, şimalda isə Dəzrə dağları (1-1,5 km hündürlükdə) görünür.

217 km-likdə Ued Fodda şəhərciyi yerləşir. Şelifdən şimalda nəhəng bir su anbarı tikilmişdir. Cənubda isə 1954 və 1980-ci illərin zəlzələlərinə dözən, hündürlüyü 90 m-ə, uzunluğu isə 68 m-ə çatan bənd vardır.

235 km-də Əl-Əsnam şəhəri yerləşir. Bu şəhərə fransızlar Orleanvil adını qoymuşdular (Orleanvil fransızca Orlean şəhəri deməkdir). Zəlzələyə kimi bu böyük şəhərin əhalisi 255000 nəfərmiş. Əl-Əsnam Əlcəzair – Oran yolunun demək olar ki, tən ortasında yerləşir. Əl-Əsnam ərəbcə "büt", "səcdəgah" deməkdir. Şəhərin əsası 1843-cü ildə marşal Buja tərəfindən qoyulmuşdur.

Həmin şəhər 150000 kv.m sahəni əhatə edən Roma xarabalıqları üzərində qurulmuş və fransızlar bu yerdə axtarışlar nəticəsində mozaikalarla bəzədilmiş xristian bazilikləri (içərisi sütunlarla iki hissəyə bölünən böyük bina) tapmışlar. Bu mozaikaların tarixi imperator Konstantinin dövrünə aparır (Afrikada bu ən qədim xristian məbədidir). Yeni şəhər yavaş-yavaş böyüməyə başlayır. Yayda Şelif vadisi çox isti olur. (Temperatur orta hesabla +52$^{0}$C-dir). Orana şose və dəmir yollarının çəkilməsi, vadinin su və yerüstü sərvətlərindən istifadə, şəhərin inkişafına təkan verib. 1954-cü ildə Rixter şkalası üzrə 6,7 ballıq zəlzələ zamanı artıq bu şəhərin əhalisi 100000 nəfərdən çox idi. Fəlakət nəticəsində evlər dağılmış, minlərlə adam məhv olmuşdur. Əl-Əsnam təzədən tikilməyə başlanmış, sənayesi inkişaf etdirilmişdir. 1980-ci il zəlzələsi (Rixter şkalasında 7,2 bal) nəticəsində şəhər demək olar ki, məhv olmuşdur. Tikililərin 85%-i dağılmış və ya bərpası mümkün olmayan zədə almışdır. Rəsmi məlumata görə bu zəlzələ nəticəsində 25000 adan ölmüşdür. Təkrar titrəmələr yeni qurbanlar aparmış və nəticədə ziyan çəkənlərin sayı 300000-ni aşmışdır. Alimlər bu zəlzələni Şimali Afrikada baş verən ən dəhşətli zəlzələ sayırlar. Beynəlxalq aləmin

köməyi və Əlcəzair xalqının igidliyi sayəsində zəlzələdən bir həftə sonra yaponların köməyilə tikilmiş sement zavodu öz işinə başlamış, yığılma evlər göbələk kimi şəhərdə çoxalmağa başlamış və şəhər öz köhnə yerində yenidən ucalmışdır. Yerli alimlərdən bu şəhərdə dəhşətli zəlzələlərin baş verməsinin səbəbini soruşdum. Alimlərin fikrincə Əl-Əsnam şəhərinin bəlası orasındadır ki, bu şəhər Mərakeşdən Alpa gedən Əlcəzair, Tunis, Siciliya və İtaliyadan keçən böyük tektonik sınıq xətti üzərində yerləşir. Litosferin Böyük Səhra ilə nəhəng bloku Şimala doğru yerini dəyişir, bu zaman Əlcəzair sahillərində yerləşən digər blok deformasiyaya məruz qalır. On illərlə bu və ya digər yerdə toplanan gərginliklər Messin, Ağadir və Əl-Əsnamda zəlzələ ilə nəticələnir. Bu sınıq Bumerdesdən 100 km-lərlə uzaqdan təxminən Əl-Əsnam, Medea, Buira xətti üzrə Telə doğru uzanır. Zəlzələnin gücü Oranda 6,5, Əlcəzairdə 6,0, Bumerdesdə 5,5 bala çatmışdır.

259 km-likdə Bu-Qadir şəhəri yerləşir. Bu şəhər də 1980-ci il zəlzələsi nəticəsində dağılmışdır. Burada da Roma xarabalıqlarına rast gəlinir. Şelif çayı üzərində irriqasiya bəndi tikilmişdir.

282 km-likdə Ued-Riu şəhərciyi yerləşir. Bu şəhərciyin ətrafında 28000 hektar sahəni sulamaq üçün iki irriqasiya bəndi yaradılıb.

291 km-likdə Ciduya kəndi yerləşir. Bu balaca kəndin adamları o qədər mehriban, qonaqpərvərdirlər ki, turistlər özləri ilə apardıqları hədiyyələrin hamısını onlara vermək istəyirdilər. Bu kənd Roma şəhərciyi Kadaum Kastronun yerində salınmışdır. Çay üzərində böyük su bəndi vardır. Məhz burada Şelif çayı dənizə doğru yönəlir.

379 km-likdə Məhəmmədiyyə şəhərciyi yerləşir. Bu şəhərcik kənd təsərrüfatı rayonunun mərkəzidir. Yerli əhalinin dediyinə görə bu rayonda pambıq əkməyə bir neçə dəfə cəhdlər göstərilmişdir. Nəticə müsbət olmasa da yerli mütəxəssislər ruhdan düşməyiblər. Onlar bu torpaqda pambıq

yetişdirəcəklərinə inanır və bu sahədə işlərini davam etdirirlər. Şəhərciyin cənubunda böyük su bəndi gördük.

405 km-likdə Siq şəhəri (Tassakora-romaca) yerləşir. Əlcəzairin ən böyük bitki yağları zavodu buradadır. Siq vadisi özünün sahələri və bağları ilə Şimala-Moastahanemə və Arzevə qədər uzanır. Arzevdə ABŞ tərəfindən yaradılan, sıxılmış qaz almaq üçün dünyada ən böyük qurğu vardır. Bu şəhərdə kimya zavodu, böyük liman, neftayırma zavodu fəaliyyət göstərir.

478 km-likdə 470 m hündürlükdə Sidi-Bel Abbas şəhəri yerləşir. Onun 300000 əhalisi vardır. Universiteti 1973-cu ildən fəaliyyət göstərir. Yüngül sənaye, məişət elektronikası müəssisələri şəhər əhalisinin əsas iş yerləridir. Fransız işğalı zamanı bu şəhərdə məşhur Xarici Legionun bazası yerləşmişdir.

Bumerdesin 568 km-liyində, dəniz səviyyəsindən 800 m yüksəklikdə əhalisi 700000 olan Tlemsen şəhəri yerləşir. Bu şəhər ölkənin ən gözəl turist şəhərlərindən biri olub, çoxlu orta əsr abidələrinə malikdir.

Bu şəhərdə çoxlu su mənbələri, yumşaq iqlim, cürbəcür bitkilər vardır. Zəngin tarixi olan bu şəhər müsəlman Əlcəzairinin intellektual mərkəzidir. Tlemsenlilərə çox vaxt "intellektuallar" da deyirlər. Onlar öz şəhərlərinin tarixi ilə fəxr edirlər. Bu şəhərdə doğulub boya-başa çatanların çoxusu ƏXDR-in ruhani və dövlət idarələrində mühüm mövqelər tutmuşlar. Şəhər yavaş-yavaş sənayeləşdirilir. Telefon aparatı zavodu, inək fabriki, əczaçılıq fabriki, efir yağı kombinatı, süni liflər fabriki və s. son illərdə bu şəhərdə tikilmişdir.

Tlemsenin mənası "Su bulaqları" deməkdir. Bu yerdə vaxtilə insanlar qayaların ətəyində mağaralarda yaşamışlar. Onların əmək alətləri şəhər muzeyində saxlanılır.

Roma hökmdarları vaxtı indiki Ağadir şəhərinin (Ağadir-qaya deməkdir) yerləşdiyi təpədə Pomariya qalası tikilmişdir. Ağadir şəhərinin müsəlman əhalisi burada VIII əsrdə dağılmış

Roma qalası yerində məskunlaşmışdır. Sonradan bura bərbər tayfalarının, Kordov xilafəti vassallarının paytaxtına çevrilmişdir.

İndiki Tlesmen XI əsrin sonralarında Ağadir divarları yanında salınmışdır (Burada köçəri bərbər tayfaları yaşayıralrmış). Yeni şəhər surətlə böyümüş və Ağadirlə birləşmişdir. Bu şəhərdə ilk məscid 1082-ci ildə tikilmiş, sonradan böyüdülüb zənginləşdirilmişdir. Bu gün həmin məscidin iri zalı 1250 kv.m ölçüdə, minarəsi isə 35 m hündürlükdədir. Deyilənlərə görə məscidin yanında bərbərlərin əmiri, zianidlər nəslinin yaradıcısı, Tlemsenin hökmdarı Yaqmorasen dəfn olunmuşdur. Məhz bu əmirin dövründə Tlemsen ağlasığmaz dərəcədə çiçəklənmişdir.

Yüz ildən artıq Tlemsen Şimalla Qara Afrika arsında əlaqəçi rolunu oynayıb varlanmışdır. Şəhərdə xalçaçılıq, dəmirdöymə, tikmə, taxta emalı alətləri geniş yayılmışdır. Burada toxunan xalçaların 95%-i Avropaya göndərilir. Qurani-Kərimi saxlamaq üçün mücrülər məhz bu şəhərdə düzəldilir. Əhalinin əksəriyyəti savadlı olub, məscidlərdə və mədrəsələrdə təhsil almışdır.

Telemsenin var-dövləti qonşularını qıcıqlandırmışdır. Mərakeşli Fesa sultanı Yaqub bir neçə müvəffəqiyyətsiz həmlədən sonra XIII əsrin sonunda çox böyük qoşunla bu şəhərə hücuma keçmiş, onun divarlarını canlı mühasirəyə almışdır. Mühasirə doqquz il davam etmişdir. Sultan elə buradaca yeni şəhəri – Mənsurahi (tərcüməsi "Qələbə" deməkdir) tikdirmişdir. Şəhərdə böyük saray və məscid inşa etdirmişdir. Səhranın karvanları artıq Mənsurahiyə gələrmiş. Tlemsenin sağ qalan azsaylı döyüşçüləri son və ümidsiz döyüşə hazırlaşdığı vaxt Fes sultanı Vannada öz qulu tərəfindən öldürülür. Tacdan ötrü narahat olan sultanın varisləri mühasirəni dağıdıb Fesə qaçırlar. Tlemsen rahat nəfəs alır. Lakin bu uzun çəkmir. 30 il sonra amansız qonşular tərəfindən bu şəhər zəbt olunur. Mənsurahi şəhərini onlar yenidən

qurmağa başlayırlar. Lakin bu şəhər Tlemsenlə rəqabətə girə bilmir və bir neçə on illərdən sonra baxımsız qalır. Indi Mənsurahi şəhərində məscid, saray, qala divarları və qüllələrinin xarabalıqları qalmışdır.

Kordov xilafəti (İspaniya) ilə ticarət əlaqələri zəiflədikcə Tlemsen özünün əhəmiyyətini itirməyə başlamışdır. İspanlar Oran şəhərini zəbt etdikdən sonra Tlemsen onların vassalına çevrilmişdir.

Tlemsenlilər "Barbaros" ləqəbli dəniz quldurı Arudhun köməyi ilə İspaniyadan azad olmağa çalışmışlar. Pirat qısa müddətdə Tlemsenə sahib olmuş, onu bura dəvət edənləri edam etmiş və tezliklə özü də ispanlar tərəfindən öldürülmüşdür. Sonra Oran Əlcəzairdən gələn türk dəstələri tərəfindən blokadaya alınmışdır. Türklərin bu şəhərdə inzibati orqanları yaradılmış, tezliklə şəhərdə türkə ərə getmiş tlemsenli qadınların dünyaya gətirdikləri yeni nəsil sürətlə artmağa başlamışdır. Üç yüz illik türk hökmranlığı nəticəsində şəhərdə etnik tərkib nəzərə çarpacaq dərəcədə dəyişmişdir.

Fransızlar bu şəhərdə "fəaliyyətə" mərkəzi meydan yaratmaq üçün ən gözəl məscidlərdən birini sökməklə başlamışdır. Fransız işğalı zamanı bu şəhər Əlcəzair millətçiliyinin mərkəzinə çevrilmiş, ƏXDR-in rəhbərləri, inqilabi mühit bu şəhərdə yetişmişdir. 1962-ci ildə bu şəhərdə Əhməd Benbella öz hökumətini formalaşdırmış, 1970-ci ildə isə Bumediyən Mərakeşlə sərhəd münasibətlərini nizamlamaq barədə müqaviləni imzalamışdır.

Tlemsendə ilk növbədə mərkəzi meydanda yerləşən böyük məscidə, sonra isə Sidi-Bel-Həsən məscidinin içərisində yerləşən şəhər muzeyinə səyahət etmək etmək və Qədim şəhərə baxmaq lazımdır. Bu şəhər dar küçələri və küçələrdə isə saysız-hesabsız dükanları ilə zəngindir.

Şəhərin əsas mağazaları Müstəqillik küçəsində yerləşir. Bu küçədən qərbdə əl sənəti nümunələri sərgisi və satışı səhərdən

axşama kimi davam edir. Buradakı suvenirlər demək olar ki, əvəzedilməzdir.

Şəhər muzeyi ikimərtəbəlidir. Birinci mərtəbədə müsəlman kolleksiyaları –mozaika, taxta kəsmələri, daşlar üzərində yazılar və s., ikinci mərtəbədə isə geologiya və botanika kolleksiyaları nümayiş etdirilir. Muzeyin həyətində Mənsurahi məscidinin iki sütunu saxlanılır. Sütunların üzərində latınca yazılar vardır.

Şəhərin qərbində XII əsr divarlarının xarabalıqları və böyük, (2000 kv.m) hazırda susuz hovuz vardır. Bu hovuz 1318-ci ildə suvarma və yaxud da sultanın hərəmlərinin kütləvi çimməsi məqsədilə tikilmişdir. Rəvayətə görə bu hovuzda Arudh onu Tlemseni ispanlardan azad etməyə çağıran tac varislərini və onların qohumlarını boğmuşdur.

Tlemsenə gələnlər hökmən Sidi Bumediyən məscidinə gedirlər. Bu məşhur, müqəddəs müsəlman adamı Bərcayi universitetindən Fesə gedən zaman Tlemsendə vəfat etmiş, şəhərin 2 km-liyində dəfn olunmuşdur. Məhəmməd Bukaruba Oranda fransız işğalçılarına qarşı silahlı mübarizəni təşkil edərək ona başçılıq etmiş, sonralar ölkənin prezidenti seçilmiş və hamıya Huari Bumediyən kimi tanınmışdır.

Şəhərin cənubunda, ondan 3 km məsafədə Mənsurahi şəhərinin xarabalıqlarına səyahət çox maraqlıdır, 40 m-lik yarıuçulmuş məscid minarəsi (məscidin ölçüsü 6000 kv.m) çox gözəldir. Əfsanəyə görə bu minarənin yoxa çıxmış aşağı hissəsini bir yəhudi tikmişdir.

Tlemsen və Mənsurahiyə tamaşa etdikdən sonra avtobusumuz Tafna çayının vadisi boyu Orana istiqamətləndi.

Bu yolun üstündə Hepnaya şəhərciyi (11 km), Remşi şəhəri (27 km) Lin Temuşet şəhərciyi (76 km), Əl-Məllah kəndi (89 km) yerləşir. Quldur Arudh Əl-Məllah kəndində öldürülmüşdür. Tlemsendən qaçarkən onu izləmişlər. O, təqibçilərin başını qatmaq üçün Tlemsen xəzinəsindən

götürdüyü qızıl pulu yola səpirmiş. Lakin qızıl pul da quldurU ölüm cəzasından xilas edə bilməmişdir.

Tlemsendən 146 km məsafədə Əlcəzairin ikinci şəhəri, onun qərb paytaxtı, Oran yerləşir. Oranın əhalisi 700000-dən artıqdır. Burada liman, universitet və xeyli yeni tikililər vardır. Oran Universitetində öz yerlilərimizdən də işləyənlər var idi.

Qədim zamanlarda bu şəhərin yerində insanlar mağaralarda yaşamışlar. Romalıların buranı zəbt etməmələrinin səbəbi çox güman ki, dalğalardan gizlənən təbii limanın cəmi 2 hektar sahəyə malikliyi, şimal və şərq küləklərinin çox təhlükəli olmasıdır.

Orandan Qərbdə Əlcəzairin şimal sahilində ən gözəl liman olan Mərs Əl-Kəbir yerləşir. Hal-hazırda burada hərbi dəniz bazası yerləşir. Oranın əsası 937-ci ildə bərbər tayfaları (Digər mənbələrə görə Əndəluz dənizçiləri) tərəfindən Murcaca dağ massivi ətəyində yaşayış məntəqəsi kimi qoyulmuşdur. Əvvəlcə bu şəhərə elə də böyük əhəmiyyət verilməmişdir. Ancaq sonralar Tlemsen böyüdükcə, Oran müsəlman İspaniyası ilə ticarət etməkdə liman rolunu oynamağa başlamışdır. Yaxşı havalarda yüklər Oranda, pis havalarda isə Mərs Əl-Kəbirdə boşaldılırmış.

Avropadan cəmisi 90 mil məsafədə yerləşən Oran 1509-cu ildə ispanların əlinə keçmişdi. İspanlar bu vaxt quldurluqdan əl çəkib Şimali Afrikada möhkəmlənmək qərarına gəlmişdilər. İspanlar 1790-cı ilə kimi orada qalmış, 1790-cı ilin faciəli zəlzələsindən sonra şəhər dağılmış, mindən artıq adam tələf olmuşdur. Nəhayət əhali buranı tərk etmişdir. Boşalmış şəhəri türklər yəhudilərlə doldurmuşlar. Onlar özlərinin 40 illik idarəetmə dövründə ispan əsirlərini satmaqla əldə etdikləri pulların hesabına böyük bir məscid tikmiş və istehkamları təzələmişlər.

Oranı və qərb limanını fransızlar ələ keçirərək orada hərbi dəniz bazası yaratmışlar. Bu şəhərin əhalisi uzun müddət 4000–i aşmamışdır. Onun 3000-i yəhudu imiş.

Fransız müstəmləkəçiləri torpaq sahələrindən geniş istifadəyə başladıqda Oran sürətlə böyüməyə başlamışdır. Hazırda o, Avropa tipli böyük bir şəhərdir. Bu şəhər fransızların Böyük Səhraya nüfuz etmələri üçün baza rolunu oynamışdır.

Əlcəzair xalqı milli istiqlaliyyətə nail olduqdan sonra Oranı 300000 fransız tərk etmişdir. Beləliklə, Oran “ölü” şəhərə çevrilmişdir. Qısa müddətdə bu “ölü” şəhər yenidən canlanmış, Arzevdə Oranın sənaye zonası yaradılmışdır.

Oranın dəniz limanı ildə 3 milyon ton yük qəbul edir. Bu liman öz gücünə görə ölkədə ikinci yeri tutur. 1980-ci ilin qasırğası onu dağıtmış, bir neçə gəmini batırmışdır. Hazırda liman yenidən qurulur.

Səyahət zamanı biz günün yarısını şəhərlə tanışlığa sərf etdik. Səyahətə 1847-ci ildə əsası qoyulmuş İbn-Badi bağından başladıq. Bu bağ limanın və köhnə şəhərin üzərində ucalan qalanın (Bu qala “Yeni saray” adlanır) divarları yanında yerləşir. “Saray” divarlarının qərb hissəsindəki üç qüllənin 500 illik tarixi vardır. Bu qüllələrin və böyük məscidin yanından keçərək birbaşa mərkəzi 1 noyabr meydanına çıxırsan. Meydanda bağça, fəvvarə, teatr (1906), şəhərin bələdiyyə idarəsi (1888-ci il) və böyük mehmanxana vardır. Bu meydandan iki əsas ticarət küçəsi cənuba və şərqə doğru uzanır. Bağça və bağlarda kəsişən küçələrin demək olar ki, hamısında mağazalar vardır. Mağazalar hündür evlərin (burada hətta 24 mərtəbəli evlər vardır) birinci mərtəbəsində yerləşir. Bu mənada indi Bakıdakı komisyon mağazalar mənə Oranda gördüyüm mağazaları xatırladır.

Mərkəzi meydandan vağzala doğru uzanan Əmir Əbdül Qadir küçəsi yanında böyük Sakre Kör (Fransızca “Müqəddəs ürək” deməkdir, belə bir kilsə Parisdə də var) kilsəsi neovizit üslubunda tikilmişdir. Bu kilsədən 300 m cənubda Əlcəzairin ən böyük muzeyi yerləşir. Muzeyin birinci mərtəbəsində əmək alətləri nümayiş etdirilir. Muzeydəki heykəltəraşlıq, təsviri

incəsənət əsərləri içərisində XVII – XIX əsr Avropa və Fransa sənətkarlarının da əsərləri vardır. Etnoqrafiya zalında Əlcəzair, Tunis, Mərakeş, ümumiyyətlə Afrika xalqlarının silah və məişət alətləri nümayiş etdirilir. Oranın böyük kitabxanası bu zalda yerləşir. Şəhərdə çoxlu gözəl tikililər var: vağzal, məscidlər, kilsə, sinaqoq. Axşam Murcaca dağına qalxmaq və şəhərə tamaşa etmək olduqca maraqlıdır. Dağdan şəhərin və limanın ecazkar gözəlliyi aydın görünür. Dağın təpəsində kilsə və qalaça tikilmişdir.

Murcaca dağından şəhərə tamaşa etdikdən sonra avtobusumuz Bumerdesə doğru hərəkət etdi.

## ƏLVİDA, YAD SAHİL!...

Hamımız səbirsizliklə bu günü, dörd qürbət ilin son gününü gözləyirdik. Şeylərimizi yığışdırmış, aeroporta gedən avtobusu gözləyirdik.

Bir gün əvvəl ailəliklə həmişə gəzintiyə çıxdığımız yerlərə baş çəkdik. Aralıq dənizinin sahilinə gəldik. Həmişə bu dənizin sahilinə gələndə və ona tamaşa edəndə Xəzəri düşünürdük. Aralıq dənizi ilə söhbət edir və Xəzəri ondan soruşurduq...

Dənizə xırda pullar salıb, evə sarı döndük. Bir azca getdikdən sonra çevrilib geri baxdıq və:

– Əlvida, yad sahil! – dedik və dərhal gözlərimiz önündə bizim Xəzər canlandı. İxtiyarsız olaraq dodaqlarımdan: Salam, doğma sahil sözləri qopdu.

Evimizdə çoxlu qonaqlarımız var idi. Ərəb qonşularımız, azərbaycanlı və rus dostlarımız bizimlə xudahafizləşməyə gəlmişdilər. Adətən Vətənə yola düşənlər evlərində çay dəstgahı düzəldir. Biz də həmin ənənəni pozmadıq. Çay dəstgahı təşkil etdik. Kafedramızın laborantı Əhməd də bizə gəlmişdi. O, mənimlə qucaqlaşaraq dedi:

- Cənab Nəsirov, sizsiz darıxacağıq.

Gözləri yaşardı. Düzü mən də kövrəldim. Doğrudan da zarafat iş deyil. Mən dörd il Əhmədlə çiyin-çiyinə bir kafedrada işləmişdim. Bir də bizim tərəflərdə deyildiyi kimi, “dörd il bir igid ömrüdür”.

Özümü ələ alıb dedim:

- Əhməd, darıxma. O qədər buraya mənim kimilər gəlib, gedib ki... Hamısını unutmusan, məni də unudacaqsan.

O, etiraz edərək:

- Yox – dedi. Hamısını unutmamışam və unutmayacağam da.

Avtobuslara doluşduq. Bizim reysdəki sərnişinlərin hamısı evə həmişəlik qayıdanlar olduğundan, şeylərimizin bir hissəsini təyyarə qəbul edə bilmədi.

Əlcəzair “Huari Bumediyən” adına təyyarə meydanından Əlcəzair – Praqa – Moskva marşrutu ilə uçan “Boinq 747” markalı təyyarə səhər tezdən havaya qalxdı. Yumşaq kürsüdə yerimi rahatlayıb gözlərimi yumdum. Beynimdən sürətlə bir fikir keçdi: “qürbətdə keçən dörd il sona yetdi”. Evə çatmağa, dostlarla, qohumlarla, el-oba ilə görüşməyə tələsdim. Gələcək görüşün şirinliyindən məst oldum:

Sizinlə görüşə, ay əzizlərim,
Şirin söhbət ilə, sözlə gəlirəm.
Qət edib həsrəti qucan yolları,
Səmadan açılan izlə gəlirəm.
Ayrılıq girsə də gündə yüz dona,
Bu günlər yetirrəm onu mən sona,
Yolumu gözləyən ay əziz ana,
Bir az da səbr eylə, gözlə, gəlirəm.
Mənə arxa olan Ana Vətənim,
İlhamıma qanad, çölüm, çəmənim,
Sizinlə görüşə, ay elim mənim,
Açıq alın ilə, üzlə gəlirəm.

Bu 1987-ci ilin iyul ayı idi. Bu həmin iyul ayı idi ki, Əlcəzairin paytaxtında ərəb dünyasının liderləri toplaşaraq, Fələstin problemini müzakirə edirdilər. Düşmən qüvvələrinin təcavüzündən ehtiyat edən Əlcəzair hökuməti öz hərbi qüvvələrini müdafiəyə hazır vəziyyətə gətirmişdi.

Bu Çernobıl qəzasının baş verdiyi il, haqqında çox eşitdiyimiz və ab-havasını orada duymadığımız yenidənqurmanın ikinci ili idi.

## SALAM, VƏTƏN!

Təyyarəmiz səhər saat 9-da Moskvanın “Şeremetyevo-2” təyyarə meydanında yerə endi. Sərhədçilərlə işimizi qurtar-

dıqdan sonra  yüklərimizi alıb, kömrükxanaya doğru yönəldik. Kömrükxana işçisinin ilk sualı bu oldu:

- Dollarınız vardırmı?

Cavab verdim ki, yoxdur. O, mənim həyat yoldaşıma müraciətlə təkrar soruşdu:

- Sizdə dollar varmı?

Həyat yoldaşımı mən qabaqladım:

- Axı sizə dedim ki, dollarımız yoxdur.

O, isə hirslə (nədənsə adam xaricdən evə qayıdanda ona elə gəlir ki, hamı sevinib, xoş gəldin deyəcək):

- Mən sizdən soruşmuram – dedi. Yoldaşınızdan soruşuram.

Mən:

- Siz bilmirsiniz ki, biz qafqazlılarda pul qadınlarda yox, kişilərdə olur – dedim.

Deyəsən möhkəm hirslənmişdi.

- Neçə quran aparırsınız – deyə soruşdu.

- İkisini – dedim.

- Açın, göstərin.

Mən tez bloknotumu açıb baxdım ki, quranlar 2 nömrəli çamadandadır. Çamadanı açdıq və quranları orada tapmadıq. Bütün çamadan və qutuları ələk-vələk etdik, lakin quran tapılmadı ki, tapılmadı.

Sonra lap yazıq görkəm alıb soruşdu:

- Axı quran haradadır?

Mən:

- Sizsiniz gömrükxana işçisi – dedim. Axtardığınızı siz tapmalısınız. Biz onları bax bu çamadanda qoymuşduq. İndi haradadır, deyə bilmərəm.

Digər gömrükxana işçisi qutuların birindən "Fizika" dərsliyini götürüb, həmkarına sataşdı:

- Bura bax, quranı tapmışam.

O, sevincək əlini atdı ki, kitabı alsın. Quran olmadığını görəndə pərt oldu. Axtarış bir nəticə verməyəndən sonra:

Belə hesab edin ki, sizinki gətirdi – dedi. Yığışdırın şeylərinizi. Mən şeylərimi yığışdıra-yığışdıra:

- Quran qaçaq malı deyil, yoldaş – dedim. Bunu unutmayın.

Yolda həyat yoldaşımı danladım ki, quranları yaddan çıxarıb Bumerdesdə qoyub. Elə hirslənmişdim ki, "Univerisitet" mehmanxanası qarşısında taksidən düşəndə içərisində bütün sənədlərimiz olan çantanı yaddan çıxarıb orda qoymuşdum. Buna baxmayaraq bizə mehmanxanada yer verdilər. Mehmanxana nömrəsinə girən kimi axtarışa başladıq və möcüzə baş verdi: Quranların hər ikisi 2 nömrəli çamadanda idi.Bir qədər rahatladım. Axı mən bu quranları anam və bacıma aparırdım.Onlara söz vermişdim. Sonralar bir din xadiminin dediyi kimi islamın müqəddəs kitabları kafirlərin (gömrükçülərin) gözünə görünməmişdi. Bəli, bu doğrudan da əsil möcüzə idi.

Elə yarımsaat keçməmişdi ki, moskvalı dostum Valera gəlib bizi tapdı. Məni çox pərişan gördü. Belə ki, "Qurani-kərim"i tapsam da sənədlərimi itirmişdim. Bu mənə çox baha başa gələcəkdi. Mən hətta işimdən məhrum ola bilərdim.

Valera ilə görüşəndən sonra o mənə dedi:

-Vaqif aşağıda hollda bir nəfər səni soruşurdu. Rus idi.

Mən dərhal dostumla birgə aşağı düşdüm.

Məni axtaran taksi sürücüsü idi.

O mənə:

-Bağışlayın sizdən sonra bir müştəri düşdü , onu şəhərin o biri başına aparmalı oldum. Ona görə sizin çantanı bir qədər gec gətirdim. Çırxarıb bir iyirmi beşlik ona verdim. O isə on beş manat qaytarıb dedi:

-Mənim zəhmət haqqım on manatdır.Artığı lazım deyil.

Moskvada olduğumuz bir həftə ərzində heç burada da yenidənqurmanın ab-havasını duymadıq. Yalnız küçələrdə sərxoş halda yatanların sayı kəskin surətdə azalmışdı.

***Haşiyə.***Moskvada olduğumuz zaman rast gəldiyimiz bir hadisəni də qeyd etmək istiyirəm. Dostum Tofiq Mahmudzadə

ilə mənə"Qaz-24-10" almaq üçün "Avtomobil" mağazasına getdik. Elə oradaca bir sürücü ilə müqavilə bağlayıb (sürücü həmin mağazanın işçisi olub, həmin müqavilə əsasında maşınları alıcıların istədiyi yerə aparırlar və onlara "pereqonşik"lər deyirlər) parkda mənimüçün maşın "seçdik". "Volqa"nın sənədləri elə tez və asan tərtib olunurdu ki, adam gözlərinə inanmırdı.

Avtomobili mehmanxananın qarşısında saxladıq və otaqda bu hadisəni qeyd etməyə başladıq. Bu zaman qapı döyüldü və birisi otağa daxil oldu. Erməni idi. Ona da araq süzüb, yeməyə dəvət etdik. O, avtomobili haradan və necə aldığımızı soruşdu və özünün də bu arzuda olduğunu söylədi. Mən ona xarici ölkədə işlədiyimi və bu maşını valyuta ilə aldığımı dedim. O isə:

- Deməli, sıravı sovet adamı bu maşından ala bilməz-dedi.

Mən isə:

- Bu dedikləriniz mənə aid deyil, bunun üçün müvafiq təşkilatlar var. Müraciət edin.

Elə hirslə ayağa qalxdı ki... Heç süfrədəkilərə əlini uzatmadan otağı tərk elədi. Bu məkrli erməni, xeyirxah, açıq ürəkli azərbaycan mahiyyəti idi ki, üz-üzə dayanmışdı.

O vaxt biz sadəlövhlüyümüzdən belə şeylərə çox diqqət vermirdik

...Hamımız Bakıya can atırdıq. Nəhayət gözlədiyimiz gün gəlib çatdı. TU-154 tipli təyyarə ilə paytaxta uçduq. Bələdçi doğma şəhərə çatdığımızı elan edəndə ürəyimiz elə döyünürdü ki, az qalırdı yerindən çıxsın. Pilləkənləri təyyarəyə yaxınlaşdırmaq sanki bir il çəkdi. Nəhayət hava gəmisindən çıxıb, dərindən Bakının havasını udduq. Pilləkənlə yerə düşən kimi hamımız diz çöküb torpağı öpdük. Əlcəzairdə yazdığım bu sətirləri dodaqlarımda pıçıltı tək səsləndirirdim:

Eşqin çıxar hər həsrətin qəsdinə,
Qurban olum soyuğuna, istinə.
Mən səmaya atılmış bir daş təki

Düşəcəyəm yenə sinən üstünə...

***Bumerdes – Bakı***
***1987 – 88***

# PYESLƏR

## YENƏ DƏ QATARDA
(İsi Məlikzadənin xatirəsinə)

İŞTİRAK EDİRLƏR:

ƏSƏD - təsərrüfat başçısı, 50-55 yaşında,
ŞİROĞLAN - onun müavini, 60 yaşında,
BABALI - təsərrüfatın mühasibi, 50 yaşında,
ƏHMƏDOV - 40-45 yaşlarında ucaboy, enlikürək kişi
KAMAL - Əsədgilin kəndçisi, 55 yaşında
QATAR bələdçisi, 45 yaşında.

*Hadisə qatarda baş verir.*

*Üç dost, üç yoldaş, eyni zamanda bir təsərrüfat rəhbərləri -Əsəd, Şiroğlan və Babalı qonşu rayonun dəmir yol stansiyasında Bakıya gedən qatara minirlər. Qatarın yola düşməsinə hələ yarım saat var. Dostlar kupeyə daxil olub şeylərini yerbəyer edirlər.*

ŞİROĞLAN (saatına baxaraq) - Hələ qatarın yola düşməsinə yarım saat var. Bəlkə başlayasız adama əlli-əlli (öz boğazına çırtma vurur).

ƏSƏD- Allah eləsin bizimki bu dəfə gətirsin, kupedə üçümüz olaq. Bakıyacan Babalının goplarına nə qulaq asarıq!

BABALI - Gopu özün eləyirsən. Mənim söylədiklərim həmişə həqiqət olur. Amma o sözünə varam ki, kupeyə kənar adam gəlməsin. Əks halda kefimizi pozacaq.

ƏSƏD - A kişi, keçən dəfə mən sizsiz gedəndə kupeyə biri düşmüşdü, düz Bakıyacan xoruldadı. Pah atonnan, bizə bir ot yoldurdu ki, gəl görəsən!

BABALI (süfrə açaraq) - İnşallah özümüz olarıq. Gəlin oturaq.

ŞİROĞLAN (süfrənin düzəldilməsində Babalıya kömək edərək) - Ə, başlayın, sonra gələn olar, kefinizə soğan doğrayar.

BABALI (iki stəkana araq süzərək) - Şiroğlan, bəlkə sən də bir əlli vurasan? Sən öl, kənddə heç kəsə deməri k.

ŞİROĞLAN (bir az incik kimi) - Dəlisən, nəsən?! Sən bilirsən ki, mən dindar adamam. Heç vaxt içki içməmişəm, içmirəm və içməyəcəyəm də. Mən kənd camaatının qınağından yox, Allahımdan qorxuram. Bildinmi? Bir də mənə belə təkliflər etmə!

ƏSƏD (Şiroğlana müraciətlə) - Ay xaloğlu, sənin bu meydən, məzədən xəbərin yox, cən canın bizim içməyimizi belə balet eləməkdə marağın nədir?

ŞİROĞLAN (hər ikisinə baxaraq gülə-gülə) - Düzünü desəm, incimə zsiniz?

ƏSƏD (gülümsəyərək) - Yox, xaloğlu canı incimərik, söylə.

ŞİROĞLAN - Siz ki, içirsiz bu arağı, sonra başlayırsız meymun kimi oynaşmağa. Bax mənim ondan xoşum gəlir. Ha, ha. (Gülür).

*Sonra həm Əsəd, həm də Babalı ona qoşularaq qəh-qəhə çəkib gülürlər.*

ƏSƏD (gülməkdən yaşarmış gözlərini silərək) - Ə, xaloğlu, sən öl, sənə yazığım gəlir. Sənin bu dünyanın ləzzətindən xəbərin yoxdur. Gözüvü dikmisən o biri dünyaya. Ay rəhmətliyin oğlu, nağdını qoyub nisyə dalınca niyə qaçırsan? (Gülməkdə davam edir).

ŞİROĞLAN - Xaloğlu canı mənim də sənə yazığım gəlir. O biri dünyada cəhənnəmdə yanacaqsan. Çəkəcəklər məhşər ayağına, bax onda göz yaşı tökəcəksən!

*Üçü də bir-birinə qoşulub gülürlər.*

ƏSƏD (özünü gülməkdən zorla saxlayaraq) - Ay yazıq xaloğlu! Ə, avamsan ey, avam.

ŞİROĞLAN (gülə-gülə) - Xaloğlu, amma içki içməyinizə baxmayaraq bir işinizdən xoşum gəlir. Arağı stəkanlara elə dəqiq süzürsünüz ki, sanki menzurkada ölçübsən. Öz aramızdı, molla olsaydı öz payını bir qədər artıq eləyərdi. Ha, ha...

*Yenə gülüşürlər. Bu zaman kupenin qapısı açılır. Kostyumlu, qalstuklu, əlində diplomat portfel olan bir kişi qapıda görünür. Kupedəkilərlə salamlaşır.*

ƏSƏD, ŞİROĞLAN, BABALI (üçü birlikdə) - Əleyküməsalam!

ƏSƏD (nəzakətlə) - Buyurun, buyurun. Çörək yeyin bizimlə.

ƏHMƏDOV (bir qədər quru) - Çox sağ olun, ehtiyacım yoxdur.

*Keçib üç yoldaşdan birinin yanında oturur və pəncərədən bayıra baxır. Üç dost bir qədər ciddi görkəm alır. Bu zaman qatar yola düşür.*

ŞİROĞLAN - Allah, Məhəmməd, ya Əli!

*Əhmədov tərs-tərs bir ona baxır, bir də boşalmış araq butulkalarına. Sonra qalxıb kupedən çıxır.*

ŞİROĞLAN (astadan) - Belə baxıram bura adamı deyil.

BABALI - Sən öl, bu böyük adama oxşayır. Nə kefimizi pozdu?! Düşünürdüm ki, Bakıyacan deyib, gülüb kefə baxacağıq. Bu zalım oğlu kefimizə doğrudan da soğan doğradı.

ƏSƏD - Mən bilən bu Bakıdan gələn yoxlamadı. Özü də deyəsən Prezident aparatındandır. Zalım oğlunun sifətindən zəhər tökülür.

ŞİROĞLAN (bir qədər narahatlıqla) - Ola bilər. Görünür bu rayonda yoxlama aparmağa gəlibmiş. Əcəb işə düşmədik. (Başını bulayır).

*Əhmədov yenidən kupeyə daxil olur.*

ƏHMƏDOV (bir qədər təkəbbürlə) - Hə, deməli Bakıya gedirik. (Hər üçünün üzünə diqqətlə nəzər salaraq) Amma bu rayonun adamına oxşamırsınız.

ƏSƏD (nəzakətlə) - Bəli, düz buyurursunuz. Qonşu rayondanıq. Sadəcə olaraq burda qatara minmək bizim üçün daha rahatdır, nəinki öz rayonumuzdakı stansiyada. Ona görə gəldik elə burda minək qatara.

*Bu zaman qatar bələdçisi qapıda görünür.*

BƏLƏDÇİ - Bağışlayın, sizə çay gətirimmi?

ŞİROĞLAN (hamını qabaqlayaraq) - Gətirin, dörd stəkan.

*Bələdçi gedir.*

ƏHMƏDOV (təmkinlə) - Yaxşı, çox yaxşı. Gəlin bir tanış olaq. Mən Əhmədovam. Hamı mənə belə müraciət eləyir.

ƏSƏD - Mənim adım Əsəddir. (Sonra yoldaşlarını bir-bir təqdim edir). Bax bu yoldaş Şiroğlan, o birisi isə Babalıdır.

ƏHMƏDOV - Çox gözəl, çox gözəl. (Bir qədər təkəbbürlə) Yəqin kənd təsərrüfatı ilə məşğulsunuz.

ƏSƏD - Bəli mən təsərrüfat başçısıyam, Şiroğlan mənim müavinim, Babalı isə mühasibimdir.

ƏHMƏDOV (gülümsəyərək) - Belə de, belə de. Çox gözəl, çox gözəl. Deməli əl-ələ verib (süfrəyə işarə edərək) təsərrüfatı dağıdırıq.

ŞİROĞLAN (özünü saxlaya bilməyib) – Yox, yox! Siz nə danışırsınız? Biz təmiz adamlarıq.

ƏHMƏDOV (gülümsəyərək) - Təmiz? Biz hamımız təmizik. Kim öz ayranına turş deyər? Bir də təmizlik anlayışı nisbi anlayışdır. Kstati, siz Eynşteyni taniyırsız? Onun nisbilik nəzəriyyəsindən xəbəriniz varmı?

ŞİROĞLAN (qorxa-qorxa) - Vallah, biz Gəncədə oxuyanda deyəsən axı onun adını eşitmişəm.

ƏHMƏDOV (bir qədər amiranə) - Yox, cənab Şiroğlan müəllim! Alimin təkcə adını eşitmək yox, onun kəşflərini öyrənmək lazımdır. Kstati, siz aqranomsunuz. Deyə bilərsinizmi Lısenko nələr etmişdir. (Şiroğlan nəsə demək istəyir, Əhmədov ona imkan vermir). Yox, deyə bilməzsiz! Çünki hamı diplom əldə etmək istəyir. Heç kəs savadlanmaq,

yaxşı bir mütəxəssis olmaq istəmir. Budur bəlamız! (Ayağa qalxıb kupedən çıxır).

*Bu zaman qatar bələdçisi dörd stəkan çay gətirir.*

BƏLƏDÇİ - Ay kişilər, sizin kupe yoldaşınız nə isə gözümə hirsli dəydi. Kimdir o?

ƏSƏD ( astadan) - Hər kimdisə böyük adama oxşayır. Zalım oğlu elə bil elm dəryasıdır. Eynşteyndən tutmuş Lısenkoya qədər xırdaladı bizimçün bu cənab Əhmədov.

BƏLƏDÇİ - Familiyası Əhmədovdur?

ƏSƏD - Bəli, Əhmədov. Bu sənə bir şey demir?

BƏLƏDÇİ (başını bulayaraq) - Xeyir! (Kupedən çıxarkən Əhmədovla üz-üzə gəlir və ehtiramla).Cənab Əhmədov sizin çayınızı gətirmişəm. Başqa bir şey lazım deyil ki?

ƏHMƏDOV (kupeyə daxil olaraq) - Yox, çox sağ ol! (Üzünü Əsədə tutaraq) sizin bir icra başçınız vardı, Məmmədov. O necə adam idi?

ƏSƏD - Çox yaxşı adam idi. Bizim rayon üçün çox işlər gördü. Xüsusilə rayon mərkəzinin yenidən qurulması onun adıyla bağlıdır.

ƏHMƏDOV - Bəs Əkbərov?

ŞİROĞLAN (tələsik) - O da yaxşı adam idi. Həddindən ziyadə xeyirxah bir kişi idi. Maldarlığı rayonda o inkişaf etdirdi.

ƏHMƏDOV (kupedə var-gəl edərək) - Yaxşı indiki icra başçınız Osmanov necə, o da yaxşı adamdı?

ƏSƏD - Əlbəttə, biz ondan çox razıyıq.

ƏHMƏDOV (səsini bir qədər ucaldaraq) - Əlbəttə razı qalacaqsınız da. Qızıl kimi təsərrüfatı ələ keçirib, yavaş-yavaş əridirsiniz özünüzçün.

BABALI (təmkinlə) - Cənab Əhmədov, biz namuslu adamlarıq.

ƏHMƏDOV (bir qədər yumşaqcasına) - Mən demədim ki, uzaq olsun, siz namussuzsunuz. Məgər namuslu adamın ağzı yoxdur?

ŞİROĞLAN (kənara) - Əcəb işə düşmədik. Allah mərdimazarın evini yıxsın. Bu hardan calandı bizə?

ƏHMƏDOV - Kstati, yatmaq istəsəniz mənə baxmayın, yata bilərsiniz. Mənim yerim yuxarıdadır. Amma xoruldamayın ha...(Gülür)

ŞİROĞLAN - Cənab Əhmədov, siz nə danışırsınız? Sizin kimi bir alicənab insan yuxarıda yatsın, bu ola bilməz. Babalı cavan oğlandı, o yatar yuxarıda. (Sonra astadan Əsəd və Babalıya) Görürsünüz tülkülüyünü? Özü yuxarı yerə bilet alıb ki, kupedəkilər onun kimliyini bilməsinlər.

ƏHMƏDOV (sanki onun fikrini duyurmuş kimi) - Bakıya gedişim qəfil olduğundan bileti elə bu gün almışam. Aşağı yerlərə bilet yox idi. (Yenə kupedən çıxır).

ƏSƏD - Ə, sizin canınız üçün mən bu Əhmədovu hardasa görmüşəm. Lap mənə tanış gəlir.

ŞİROĞLAN - Əsəd, bir iki yüz də vur, sən öl, o sənin gözündə qohumlarından birinə çevriləcək, ha, ha...(Gülür).

ƏSƏD (hirslə) - Ə, boş-boş hırıldama! Ola bilsin mən onu Nazirlər Kabinetində görmüşəm. Axı mən bir dəfə orada yığıncaqda olmuşam. Vallah yaman şirin gəlir mənə.

BABALI - Əsəd, biz rayonun butun icra başçılarını təriflədik. Bəlkə onlardan biri elə onun düşmənidir?

ƏSƏD (hirslə) - Bizə nə?! Bəlkə elə dostudur. Pisləyərsən, işləri korlayarsan. Nəyimizə gərək!

ŞİROĞLAN (onun sözünü kəsərək) - Biz Gəncədə oxuyanda...

ƏSƏD (onu danışmağa qoymur) - Ə, Şiroğlan, mən ölüm saxla! Bunu yüz dəfə demisən. Siz Gəncədə oxuyanda sizin bir tələbə yoldaşınız restoranda tanımadığı, təsadüfi bir adamla bir stolun arxasında oturur. Yeyib, içirlər və həmin adam sənin tələbə yoldaşından nə işlə məşğul olduğunu soruşur. Sənin dostun da deyir ki, tələbədir. Onda həmin adam bir müəllim barədə ondan soruşur. Sənin tələbə yoldaşın da həmin müəllimi o ki, var pisləyir. Bu müəllim də kim olsa yaxşıdır? Həmin

adamın doğmaca qardaşı! Nəticədə sənin tələbə yoldaşın imtahandan kəsilir. (Şiroğlana tərəf çevrilərək) Bunu danışmaq istəyirdin? Allah evini yıxmasın, sən ki, bunu bizə ən azı yüz dəfə danışmısan.

ŞİROĞLAN - Sən öl, Əsəd, sən məndən yaxşı danışdın ki! Elə bil Gəncədə mən yox, sən oxuyubsan, hi, hi...(astaca gülür).

*Kupeyə sakitlik şökür. Qatarın təkərlərinin səsi eşidilir*. Kupenin qarşısından onların həmkəndliləri Kamal keçir. Kamalın gözü onlara sataşır və o, kupeyə daxil olur.

BABALI ( özünü itirmiş kimi) - Kamal, sən burda neyləyirsən?

KAMAL (bir qədər şən) - Axşamınız xeyir! (Üzünü Babalıya tutaraq) Səninki lap Məşədi İbadın işinə döndü. Mən adaxlıbazlığa gəlmişəm. Bəs siz neyləyirsiz burda? (Gülür). Ə, nə quzu kimi oturmusunuz? Heç özünüzə oxşamırsınız. Ə, Babalı olmaya yanacağınız qurtarıb, ə?! Bu saat təşkil edərəm. (Əl atıb qoltuq cibindən bir araq çıxarır). Bu saat vaqon-bufetdən almışam.

BABALI (barmağını dodaqlarına toxundurub) - Ə, sus! İndi bizi zibilə salacaqsan. (Lap astadan) Kamal, işə düşmüşük. Bu zalım oğlu Əhmədov hardan ilişdi bizə, bilmirik?!

KAMAL - Əhmədov kimdi, ə?!

ŞİROĞLAN (onun ağzını əlləri ilə tutaraq) - Ə, yavaş demədim sənə? (Sonra tamburda duran Əhmədovu ona göstərir). Odur ey, dayanıb kupenin ağzında.

KAMAL (sakit-sakit) - Yaxşı nə olsun dayanıb?! Qoy dayansın da. Əhmədov kimdi, filənkəsov kimdi, ay kişi işində ol. (Butulkanı açır).

ƏSƏD - Kamal, sən öl, bütün icra başçılarını tanıyır. Belə zənn edirəm yuxarıdan-aparatdan gəlib, rayonları yoxlayandı.

KAMAL - Stəkanları bəri qoyun, (stola baxaraq) deyəsən heç stəkanlarınız çatmır.

ƏSƏD - Yox əşi, var, Əhmədovun çay stəkanından istifadə etmək olar.

ŞİROĞLAN - A kişi, dəyməyin onun çayına. Bəlkə onun ayrı məqsədi var. Biz Gəncədə oxuyanda...

ƏSƏD (onun sözünü kəsərək) - Şiroğlan, mən ölüm saxla. Siz Gəncədə oxuyanda sizin bir tələbə yoldaşınız varmış və o, çayı bumbuz soyuq olmasaymış, içməzmiş. Bunu demək istəyirdin?

ŞİROĞLAN-Ə,sən öl,elə bil Gəncədə mən yox elə bu (Əsədi göstərir) oxuyubmuş. (Astadan gülür).

ƏSƏD - Əşi Şiroğlanın, stəkanını götür.

ŞİROĞLAN (öz stəkanını əlinə götürərək) - Yox, sən öləsən verə bilmərəm. Stəkanım murdar olar.

ƏSƏD - Ay Şiroğlan, camaat bütün murdarları spirtlə təmizə çıxarır. Sən ona murdar deyirsən?

ŞİROĞLAN - Camaat çox qələtlər eləyir, onun mənə nə dəxli?

KAMAL - Eybi yoxdur, Babalı sən başla, mən də tamamlayaram.

BABALI (etiraz edərər) - Yox qardaş, yalnız səndən sonra.

*Kamalla Əsəd içirlər. Sonra Kamal öz stəkanına araq süzüb Babalının qarşısına qoyur.*

BABALI - Kamal müəllim, sağ ol, sənin sağlığına! (İçir).

*Bu zaman Əhmədov kupenin qapısında görünür.*

ƏHMƏDOV - Kstati, sizin o “Şəfəq”kəndində qızıl “onluq”pul kəsən vardı. Necə oldu onun axırı?

ŞİROĞLAN (astadan) - Bizdən söz almaq istəyir hərif. Görürsünüz?

ƏSƏD (cox ehtiyatla) - Hə, belə bir iş deyəsən olub. O kənd bizdən xeyli aralıdır. Məncə qızıl pul kəsəni həbs etdilər. Vallah bizim elə işlərdən xəbərimiz olmaz.

ƏHMƏDOV (bir qədər istehzalı) - Əlbəttə, xəbəriniz olmaz. Bütün aləm danışir ki, o pul kəsən bu zonanın bütün vəzifəli adamlarını, təsərrüfatları yeyib –dağıdanları qızıl

əşyaları ilə təmin edib. Siz də deyirsiniz ki, xəbəriniz yoxdur. (Üzünü Əsədə tərəf çevirərək) - Bəs siz təsərrüfat başçısı deyilsiniz?

ŞİROĞLAN (astadan) - Pah atonnan, nə dəqiq bilir!

BABALI (hirslə) - Nəyi dəqiq bilir? Qızıl pul kəsənlə alverə girmisən, qızıl alıbsan, yoxsa satıbsan, biz bilmirik?

KAMAL (dərhal ayağa qalxaraq) - Yaxşı, sağ olun, mən getdim. Bizim kupedəki uşaqlar məndən narahat olarlar. Çoxdan çıxmışam. (Sonra Əhmədova müraciətlə) Bağışlayın, narahat etdim. Salamat qalın(çıxır).

*Əhmədov da onun arxasınca kupedən çıxır.*

BABALI - Ə, Kamal nə yaman qorxdu.

ƏSƏD - Niyə də qorxmasın? Kamalın həmin pul kəsənlə birbaşa əlaqəsi vardı. Qızıl onluqları əridənlərdən biri də elə Kamal idi də. Bir ildə imarəti hansı pulla tikdi? Özünə fermanı hansı pulla yaratdı? Qatarda getməyinə baxma, o iki inomarkanı hansı pula aldı?

BABALI - Nə eyləyib özü bilər, bir də Allahı.

ƏSƏD - Əlbəttə, özü bilər. Mən sadəcə olaraq onun narahatçılığının səbəbini deyirəm.

ŞİROĞLAN (astadan gülərək) - Sən öl, lap güllə kimi çıxdı kupedən. Biz Gəncədə oxuyanda...

ƏSƏD (onun sözünü kəsərək) - Saxla, əşi saxla. Siz Gəncədə oxuyanda bir tələbə yoldaşınız olub. Yataqxanadakı otaqda bir balaca tünlük olanda aradan çıxırmış.

ŞİROĞLAN - Pah atonnan, elə bil Gəncədə mən yox, elə bu (Əsədə işarə ilə)oxuyubmuş. (Astadan gülür, o biri iki dost da ona qoşulur).

*Babalı narazı şəkildə bir kupenin qapısına tərəf, bir də yarımçıq araq butulkasına baxır. Əsəd başını bulayır. Əhmədov yenə kupenin qapısı ağzında görünür.*

ƏHMƏDOV - Kstati, sizin rayonda Bəyalı kəndi var. Bax orada inək oğurluğu məsələsi necə oldu?

ŞİROĞLAN (tələsik) - Tutdular, oğruları tutdular. (Sonra astadan dostlarına) Əşi bu hər şeyi bilir. Yəqin prokurorluq işçisidir.

ƏHMƏDOV - Hə, (pauza). Kstati, gecələr xəlvəti şəxsi obyektlərdə oğurluq edib, sonra həmin obyekləri yandıran var idi e, onunçün qəti imkan tədbiri görülüb. Deyəsən (başına barmağı ilə işarə edir) ondan imiş.

ƏSƏD (o da barmağı ilə başına işarə edir) - Ondan olsaydı camaatın malını oğurlayıb mülkünə niyə od vuvrdu. Elə özünə od vurardı da. Bir də ki, dəlini dama basmazlar ki.

ƏHMƏDOV - Mən demədim o, yüz faiz dəlidir. Şübhəsiz ki, müvafiq orqanlar bunu araşdıracaqlar.

BABALI (kənara) - Şübhəniz olmasın, mən ölüm, bu prokurorluq işçisidir ki, var.

ŞİROĞLAN - Qardaşlar, yamanca işə düşmüşük. Biz Gəncədə oxuyanda...

ƏSƏD (onun sözünü kəsərək) - Sən Allah, bir dayan, bunu da eşitmişik, söyləyim?

ŞİROĞLAN (sakitcə) - Yox, ehtiyac yoxdur. Özüm sizə söyləmişəm də.

Əhmədov kupenin qarşısında var-gəl edir. Kupenin qapısı açıqdır.

ƏSƏD (astadan) - Mən ölüm, burda Əlinin yeri nə görünür! Əli burda olsaydı bu Əhmədovu yuyub çəpərdən asardı.

BABALI - Əşi, sən də Əlini çox şişirtmə. Başdan ayağa gopdur. Lap elə olaydı burda, nə edərdi ki?

ŞİROĞLAN (kənara) - Gopçu gopçunu bəyənməz. Bu da (Babalıya işarə edir) onun kimi gopçudur axı. Atalar yaxşı deyib ki, iki qoçun başı bir qazanda qaynamaz!

ƏSƏD - Yox, Babalı elə demə, o respublikanın bütün “bərk gedənlərini”tanıyır. Böyük-böyük adamların çoxu onunla dostluq edir. (Danışığına ara verir). Bəlkə elə bu Əhmədov onun tanışı çıxardı.

BABALI - Əşi o, hamısını gop eyləyir, heç elə bir fərli-başlı tanıdığı adam da yoxdur. Sadəcə olaraq yalandan şişirdir. Bir dəfə avtobusda başımıza oyun açdı. Eşitmisiz?

ƏSƏD - Danış eşidək də.

ŞİROĞLAN (qımışaraq) - Hə, hə, Babalı sən canın söylə həmin əhvalatı. Qoy bir az əhvalımız düzəlsin. Baxmayaraq ki, mən o əhvalatı səndən bir neçə dəfə eşitmişəm. Əsəd eşitməyib. Bir də eşitsə nə olar ki? Sən o hadisəni hər dəfə bir cür danışırsan. Danışdıqlarının heç biri o birinə uyğun gəlmir. Həmin əhvalatı eşitmiş olsaydı belə, indi danışacağın onunçün təzə olacaqdı. Hi, hi...(gülür).

BABALI (ciddi görkəm alaraq) - Əşi avtobusla kəndə gəlirdim. Kamalla Əli də mənimlə idilər. Qonşu rayondan birisi yanımda oturmuşdu. Tanış olduq, şirin söhbətə girişdik. Qonşu rayonlu bizim kənddən çoxlu adam tanıyırdı. Əli də ondan geri qalmamaq üçün onun rayonundan olan bir dostunun adını çəkdi. Lap çoxdan Cabir müəllimlə dostluq etdiyini soylədi. Səfalı kəndinə çatar-çatmaz qonşu rayonlu kişi avtobusu saxlatdı. O, avtobusdan düşməzdən əvvəl bizdən xahiş etdi ki, Həsənə, Kərimə, Əkbərə ondan salam söyləyək. Bizim Əli də eləmə tənbəllik, ondan xahiş etdi ki, Cabir müəllimə salam söyləsin. Qonşu rayonlu kişi geri çevrilərək: ”Əşi Cabir müəllim mən özüməm də” deyib avtobusdan düşdü və heç geri də baxmadı. Bizim isə gülməkdən az qaldı qarnımız cırıla. Əli isə kəndəcən heç ağzını açmadı, ha, ha...(Birlikdə gülürlər).

*Əhmədov kupeyə daxil olur və Əsədin yanında oturur.*

ƏHMƏDOV (yarımçıq araq butulkasına baxaraq) - Deyəsən axı zakuskanız qurtardı. Bunu (arağa işarə ilə) sona yetirə bilmədiniz.

ƏSƏD - Yox, yox, biz içən deyilik. Elə, belə...

ƏHMƏDOV (gülümsəyərək) - A kişilər,nə danışırsınız? Kstati, mən öz kliyentlərimi əla tanıyıram. (Diplomat portfeli açıb oradan bir neçə mandarin və limon çıxarıb stolun üstünə

qoyur). Kstati, əla mandarin və limonlardır. Vurun bununla (arağa işarə edir).

ŞİROĞLAN - Əcəb gözəl mandarin və limonlardır. Yəqin bazardan alıbsınız.

ƏHMƏDOV (təəccüblə) - Niyə bazardan? İcra Hakimiyyətinin bağındandır.

ŞİROĞLAN (kənara) - Dedim də, böyük adamdır, inanmadız!

ƏHMƏDOV (sözünə davam edərək) - Mən İcra hakimiyyətinin bufetində işləyirəm. Bufetçiyəm. Sizin rayonun bütün İcra başçılarına xidmət etmişəm. Hamısını beş barmağım kimi tanıyıram. Qonşu rayonlardan xəbərlər, söhbətlər də ilk dəfə bizim bufetə gəlib çatır. Vallah zonanın informasiya mərkəzidir.

ƏSƏD (dərindən nəfəs alaraq) - Belə de, əşi bayaqdan deyirəm ki, mən bu yoldaşı hardasa görmüşəm, inanmırlar.

ŞİROĞLAN - Əşi, Allah səni saxlasın, cənab Əhmədov! Bayaqdan ürəyimizi yemişik ki...

BABALI (stəkanlara araq süzərək) - Gəlin bu badələri içək tanışlığımızın sağlığına! Oyunun olsun, cənab Əhmədov!

S O N

## BIR ELMI – TƏDQIQAT SEKTORUNDA
(Bir pərdə üç şəkildə pyes)

İŞTİRAK EDƏNLƏR :

Atazadə - sektor müdiri,
Mahmud müəllim - sektorun qocaman əməkdaşı,
Rafiq - gənc elmlər doktoru, laboratoriya rəhbəri,
Səməd, Aliyə - sektorun elmi əməkdaşları,
Natiq - sektor mudirinin aspirantı,
Lalə - katibə

### BİRİNCİ ŞƏKİL

*Sektor müdirinin qəbul otağı. Qəbul otağında sektorun ağsaqqal əməkdaşı Mahmud müəllim və bir neçə digər əməkdaş oradadır. Rafiq daxil olur.*

RAFİQ - Salam!

MAHMUD müəllim və LALƏ birlikdə - Salam!

RAFİQ (Laləyə) - Müdir yerindədirmi?

LALƏ - Bəli. Amma bərk məşğuldur. (Müdirin otağına işarə ilə) Yanında kənardan qonaq var. Tapşırıb ki, yanına heç kimi buraxmayım. (Sonra Mahmud müəllimə işarə ilə) Mahmud müəllim də onu gözləyir. Nə üçünsə bilmlrəm, o sizi görmək istəyirdi. Mümkünsə, bir az gözləyin.

RAFİQ - Yaxşı gözləyərəm. (Üzünü Mahmud müəllimə tutaraq) Mahmud müəllim necəsiniz? Evdə-eşikdə nə var, nə yox? İşləriniz necə gedir?

MAHMUD müəllim - Yaxşıdır oğul, çox sağ ol! Bəs siz necəsiniz? Bizim sektorun mühitinə alışa bilirsinizmi?

RAFİQ (gülümsəyərək) - Alışıram Mahmud müəllim, yavaş-yavaş alışıram.

MAHMUD müəllim (üzünü Laləyə tərəf tutaraq) - İndiki kimi yadımdadır. Rafiq universitetdə mənim tələbəm olanda bap-balaca oğlan idi. Amma çox yaxşı oxuyurdu. Əgər səhv eləmirəmsə, o vaxt Rafiq ən yaxşı tələbə elmi işlərinin müsabiqəsində birinci dərəcəli diplomu almışdı. (Üzünü Rafiqə tutaraq) Elə idimi, Rafiq?

RAFİQ (utancaqlıqla) - Bəli, Mahmud müəllim.

Mahmud müəllim - İndi maşallah görürsənmi, Rafiq necə böyük alim və igid  oğlan olub. (Bir qədər sükutdan sonra) Biz də ki, qocalırıq.

RAFİQ - Xeyir Mahmud müəllim, siz o qədər də dəyişməmisiniz. Azca saçlarınız ağarıb. (Zarafata salaraq) Saçın ağarmasının da Məşədi İbad demişkən qocalığa əsla dəlaləti yoxdur.

MAHMUD müəllim - Eh oğul, Məşədi İbad sözdür də deyib. Elə dəlaləti var, elə dəlaləti var gəl görəsən. Yadınızdadırmı, siz zavodda istehsalat təcrübəsində olanda az qalmışdı bədbəxt hadisə baş versin. O tələbənin adı nə idi? (Yadına salmaq üçün əli ilə alnını ovuşdurur)

RAFİQ - Onun adı Həsən idi, Mahmud müəllim. İndi ali məktəb müəllimidir. Bu yaxınlarda namizədlik dissertasiyası müdafiə eləyib.

MAHMUD müəllim - Hə düz geyirsən, Həsən idi onun adı. Xatırlayırsanmı, onu qucağıma alıb odun içərisindən necə çıxadım?

RAFİQ - Lap yaxşı yadımdadır.

MAHMUD müəllim - Hanı o güc, indi məndə qalıbmı? Məgər bu qocalığın birinci əlaməti deyilmi?

RAFİQ - Sizin fiziki gücünüz qismən azalsa da, mənəvi gücünüz xeyli artmışdır. Siz indi dünyada tanınmış alimsiniz. Əsil alim heç vaxt qocalmır və ölmür. Alimin fiziki kəm-kəsirini elmi dəyərləri kompensə edir. Bax buna görə də Mahmud müəllim, siz qocalıqdan çox-çox uzaqsınız.

MAHMUD müəllim (nəsə yadına düşür) – Rafiq, sizin qrupda bir oğlan var idi. Ucaboy, cüssəli oğlan. Səhv etmirəmsə adı Kərim idi. Bilmirsən indi o, haradadır?

RAFİQ - Kərim indi akademiyada şöbə müdiridir. Tələbəlik vaxtı boylarımız çox fərqli olduğundan tələbə yoldaşlarımız bizi görən kimi Ştepsel və Tarapunka gəldi, deyirdilər. Yaxşı yadımdadır, bir dəfə Kərimlə Universitetin yeməkxanasına gedəndə sizinlə rastlaşdıq. Hara getdiyimizi soruşdunuz. Utandığımızdan cavab verə bilmədik. Siz bildiniz ki, yeməkxanaya gedirik. Onunçün də mənə dediniz ki, Rafiq, bala, qocalar yeyirlər ölməmək üçün, balacalar isə böyümək üçün. Elə ye, böyüyəsən!

MAHMUD müəllim (gülərək)- Hə, hə yadımdadır. O vaxt sən doğrudan da balaca idin. Eşitdiyimə görə hələ bir dəfə rektor səni universitetin koridorunda gördükdən sonra növbətçi müəllimdən soruşub ki, bu uşağı buraya kim buraxıb. Növbətçi müəllim də özünü gülməkdən saxlaya bilməyib şaqqanaq çəkib və deyib ki, professor bu oğlan bizim universitetin ikinci kurs tələbəsidir.

*Üçü də birlikdə gülürlər.*

RAFİQ (söhbətin mövzusunu dəyişərək) - Mahmud müəllim, şöbənizdə nə yeniliklər var? İşləriniz necə gedir?

MAHMUD müəllim - Hər şey öz qaydasındadır. Kənardan maneçilik olmasa (müdirin otağına işarə edir), işlərimiz pis olmaz. Əsas problemimiz vaxtdır. Vaxt çatmır ki, çatmır. Sizə bayaq deyəndə ki, qocalmışam, etiraz edirdiniz. (Gülümsəyir). Bizim bir yoldaş var, o deyir ki, insan qocaldıqca onun ücün vaxt sürətlə keçir. Səbəbini də yaşlandıqca ölümün insana daha yaxın olması ilə izah edir.

RAFİQ (etiraz edərək) - Xeyir, məncə bu belə deyil! İnsan yaşa dolduqca həyatı daha dərindən dərk edir, daha yaxşı başa düşür. Ona görə də həyat onunçün daha maraqlı olur. İnsan da ki, maraqlı işlə məşğul olduqda vaxt sürətlə keçər.

MAHMUD müəllim (gülə-gülə) - Qoy siz deyən kimi olsun!

*Bu zaman müdirin otağının qapısı açılır və oradan bir nəfər çıxır.*

MAHMUD müəllim (ayağa qalxaraq) - Mən bircə dəqiqəliyə. Ola bisin ki, sizin söhbətiniz uzun çəksin.

RAFİQ - Buyurun, buyurun Mahmud müəllim. Siz narahat olmayın. Mən gözləyəcəyəm.

*Mahmud müəllim müdirin otağına daxil olur.*

RAFİQ (Laləyə) - Siz bilmirsiniz, Məmməd müəllim məni nə üçün görmək istəyirmiş?

LALƏ (çiyinlərini çəkərək) - Vallah bilmirəm. Ancaq onu bilirəm ki, sizin məqaləni və onun sənədlərini özündə saxladı. Sonra da mənə tapşırdı ki, sizi çağırım.

RAFİQ - Bəs ekspertiza aktına qol çəkmədi?

LALƏ (bir qədər tərəddüdlə) - Məncə yox.

RAFIQ - Axı niyə ?

LALƏ (çiyinlərini çəkərık) - Mən hardan bilim? Bunu onun özündən soruşun. Məgər o mənə hesabat verir?

RAFİQ ( bir qədər əsəbi ) - Qəribə işdir. Ekspertlərin hamısı akta qol çəkir, bir bundan (müdirin kabinetinə doğru əlini uzadır) başqa.

*Bu zaman Mahmud müəllim müdirin kabinetindən çıxır.*

MAHMUD müəllim (Rafiqə) - Hə oğul, o sizi gözləyir.

RAFİQ (içəri daxil olaraq) - Sabahınız xeyir, Məmməd Cəliloviç!

ATAZADƏ (başını ctolu üzərindəki vərəqlərə baxmaqdan qaldırmadan) - Salam. Oturun. (Bir qədər sükutdan sonra başını qaldıraraq sualedici nəzərlərlə Rafiqə baxır) Yaxşı, Rafiq müəllim, bu nə işdir? Siz xaricdə təhsil almış və işləmiş adamsınız. Çox yaxşı bilirsiniz ki, orda əmək intizamı necədir. Sizin əməkdaşlarınız işə yaxşı davam etmirlər. Siz özünüz isə ayrı aləmsiniz. Günlərlə Sizi işdə tapmaq olmur.

RAFİQ - Məmməd müəllim, mənim...

ATAZADƏ (onun sözünü kəsərək) - Məmməd müəllim yox, Mamed Cəliloviç.

RAFİQ (bir qədər əsəbi) - Olsun. Mamed Cəliloviç, mənim laboratoriyamda mənim özüm də daxil olmaqla beş işçi çalışır. Aliyə və Səməd sizin zavodda qoyduğunuz təcrübənin gedişinə nəzarət edir, Arif məzuniyyətdədir. Natiqdən də nə vaxt soruşursan hardasan, deyir ki, Mamed Cəliloviç məni filan yerə göndərmişdi, filan işi görürəm. Mən özümsə, bütün günü ya laboratoriyada oluram, ya da ki, kitabxanada.

ATAZADƏ – Xeyir, sizin əsas vaxtınız laboratoriyada keçməlidir.

RAFİQ - Mamed Cəliloviç, məşhur bir fizik olub, Kavendiş. Yəqin Siz də onu yaxşı tanıyırsınız. O, səhər, günorta və axşam laboratoriyaya gələndə öz aspirantını işləyən görür və hirslənirək bütün günü işləyirsə, bəs nə vaxt düşündüyünü soruşur. Öyrətmək olmasın Mamed Cəliloviç, nəzəri biliklərsiz təcrübi nəticələrin effekti çox az olur. Bəlkə də heç olmur.

ATAZADƏ (bir qədər istehza ilə) - Öyrətməyinə öyrətdin. Ancaq Siz heç kitabxanada da olmursuz axı. Əşi, kitabxanaya neçə dəfə Sizin ardınızca adam göndərmişəm, vicdan haqqı, Sizi tapa bilməyiblər. Belə iş olar?!

RAFİQ (təmkinlə) - Mən bizim sektorun kitabxanasında yox, mərkəzi elmi-texniki kitabxanada işləyirəm.

ATAZADƏ (bir qədər kinayə ilə) - Deməli, bizim kitabxana Sizin üçün yaramır, hə?

RAFİQ (sakit tərzdə) - Niyə? Sadəcə olaraq elə ədəbiyyat vardır ki, mən onu bizim kitabxanada tapa bilmirəm, Mərkəzi elmi-texniki kitabxanada tapıram.

ATAZADƏ - Yox, belə olmaz! Kitabxanaya getmək üçün ayrı vaxt seçin. Bu nə deməkdir? Müdiriyyət istədiyi vaxt öz işçisini tapa bilmir. Əmək intizamına hamımız riayət etməliyik. Hecə olur, mən bütün günü bu kabinetdən bayıra çıxmıram, işçilərim isə iş vaxtında şəhəri gəzir.

RAFİQ - Əvvəla, mən əmək intizamını heç vaxt pozmamışam. İkncisi, kitabxanaya getməyə ayrı vaxt seçin deyəndə Siz nəyi nəzərdə tutursunuz? Üçüncüsü, Sizə kabinetiniz xoş gəlir və ordan çıxmırsınızsa, o Sizin öz işinizdir. Sadəcə bir həqiqət var ki, elmi kəşflər kabinetlərdə deyil, laboratoriya ilə kitabxananın vəhdətində baş verir.

ATAZADƏ (bir qədər yumşalır) - Yaxşı gəl mübahisə açmayaq. Qaldı, Natiqə, o, mənim aspirantımdır və mənim sərəncamımdadır. Onunla işin olmasın. (daha aşağı tonla) Hə, Sizin məqaləyə baxdım. Onun üzərində bir az işləmək lazımdır. Bir də ki, məqaləni yazanda işlədiyiniz müəssisənin adını gözləmək lazımdır. Çalışmaq lazımdır ki, bəzi etik qaydalara əməl olunsun.

RAFİQ (həyəcanlı) - Siz nə danışırsınız? Mən Sizi başa düşə bilmirəm. Mən bu sektorun adını həmişə uca tutmuşam və etik qaydalardan heç vaxt kənara çıxmamışam. Siz nə əsasla belə danışırsınız?

ATAZADƏ (gülümsəyərək) - Yaxşı, yaxşı, əsəbiləşməkdən danışmamışıq. Götür bu məqaləni bir qədər işlə. Mən qeydlər etmişəm. Onları nəzərə almaq lazımdır (məqaləni stolun üstü ilə ona doğru itələyir).

RAFİQ (əsəbi halda məqaləni götürür) - Yaxşı, mən başa düşmürəm...

ATAZADƏ (onun sözünü kəsərək) - Bu olmadı, bu olmadı Rafiq müəllim. Gedin öz otağınıza, səliqə ilə məqaləni nəzərdən keçirin.

RAFİQ ( hirslə otaqdan çıxaraq) - Yaxşı, sağ olun.

ATAZADƏ (arxasınca) - Bura bax, o Natiqi yanıma göndər.

RAFİQ (geriyə dönərək) - Tapsam, hökmən.(Qapıda Laləyə) Lalə xanım, sağ olun.

LALƏ (gülümsəyərək) - Xoş gəldiniz.

*Rafiqin laboratoriyası. Cihazlar arasında beş stol qoyulmuşdur. Stollardan birinin arxasında Natiq oturmuşdur. Rafiq otağa daxil olur.*

RAFİQ (Natiqə) - Rəhbərin səni çağırır.

NATİQ (irişə-irişə) - Xeyir ola, görəsən nə üçün məni çağırır. (Rafiqə tərəf) Sizə bir söz demədi?

RAFİQ (sərt şəkildə) - Xeyir.

*Natiq çıxır. Rafiq öz masasının arxasına keçir və əlində tutduğu məqaləni nəzərdən keçirir. Bu zaman Aliyə və Səməd otağa daxil olurlar.*

HƏR İKİSİ BİRLİKDƏ - Salam, Rafiq müəllim!

RAFİQ - Salam, salam. Nə xəbərlə gəlmisiniz? İşlər necə gedir?

ALİYƏ - Hələ ki, bir şey yoxdur.

SƏMƏD -Hər şey əvvəlki kimidir. Şəxsən mən, bu işdən müsbət nəticə gözləmirəm. (sonra Rafiqin üzünə diqqətlə baxaraq) Mənə bax, qanın qaradır deyəsən. Sənə nə olub? Əgər zavodda qoyulan təcrübələrin dərdini çəkirsənsə, sizi bilmirəm, şəxsən mən, bu işdən müsbət nəticə gözləmirəm.

RAFİQ (məqaləni ona göstərərək) - Buyur bax, feyziyyab ol. Müdirimiz ekspertiza aktına qol çəkmir. Özü də mənə deyir ki, sektorumuzun adını gözləmək lazımdır. Nə bilim etik qaydalara riayət etmək lazımdır.

SƏMƏD (bərkdən gülərək) - Ha, ha, ha. Əşi sən bunu birinci dəfədir eşidirsən? Deməli, o, indiyə kimi sənə böyük güzəşt edirmiş. Şans veribmiş ki, özünü göstərəsən.

RAFİQ (təəccüblə) - Necə yəni birinci dəfə? Necə yəni şans? Mən heç nə başa düşə bilmirəm. Siz nə deyirsiniz? Bir məni başa salın.

SƏMƏD (halını pozmadan) - Burda başa düşməli bir şey yoxdur. O indiyə kimi sənə imkan verib ki, məqaləni ya tək özün və yaxud da birgə işlədiyin yoldaşlarla çap etdirəsən. Çünki aldığınız nəticələrə elm aləminin necə reaksiya verəcəyini bilmirdi. İndi sənin elmi işlərinə dünyadan müsbət

reaksiya gələndən sonra məqalələrinə müəllif kimi onun da adını yazmalısan, özü də birinci. Yoxsa bizim sektorun ənənələrini pozmuş olarsan. Bizim sektordan gedən bütün sanballı əsərlərin birinci müəllifi məhz Mamed Cəliloviçdir. Onun sənə, sektorun adını, etik qaydaları gözləmək lazımdır, deməsi, məhz buna işarədir.

RAFİQ - Belə de. Mən də deyirəm o, niyə müəlliflərin adları altından qırmızı xətt çəkib. Məsələ indi mənə aydın olur. (Kiçik pauzadan sonra) Yox, dostlar! Mən onun adını heç vaxt özüm işlədiyim məqalədə yazmayacağam. Niyə də yazmalıyam? Hansı əməyinə görə? Hansı diqqətinə görə? Zəhmətə qalsa, otağımızı süpürən Kübra xalanın məqalənin ərsəyə gəlməsində zəhməti onunkundan böyükdür. Onun adını yazsam, onda gərək Kübra xalanın da adını yazam. Çünki, cihazların təmiz saxlanmasında onun böyük zəhməti var. Məhz dəqiq nəticələr təmiz cihazlarda alınır.

SƏMƏD (böyük əminliklə) - Rafiq müəllim, şefin adını məqaləyə yazmasan, özü də birinci, məqalən çapa getməyəcək.

RAFİQ (hirslə) - Axı niyə?

SƏMƏD (yenə sakitcəsinə) - Niyəsini sənə başa saldıq.

RAFİQ - Qəribə işdir.

ALİYƏ - Bu sektorda qəribə işlər çoxdur. Sən onları hələ sonra görəcəksən. Gec gəlib, çox tez öyrənmək istəyirsən, nədir?

RAFİQ (çiyinlərini çəkərək) - Mən heç nə anlamadım. Mənə hər şey qaranlıq qaldı.

ALİYƏ - Rafiq müəllim, darıxma, bir azdan hər şeyi başa düşəcəksən.

Bu zaman Natiq otağa daxil olur.

NATİQ - Rafiq müəllim, Mamed Cəliloviç Sizi çağırır.

RAFİQ (təəccüblə) - Mən ki, indi onun yanındaydım.

SƏMƏD - Rafiq müəllim bundan da ötrü narahat olma. Bizim sektorda belə şeylər də tez-tez olur. Lazım gəlsə müdirimiz bir gündə adamı yüz dəfə çağıtdırar. Bunun üçün

narahat olma. Əsas məsələ odur ki, o indi səni nə üçün cağırır. Bax bunun üçün narahat olmağa dəyər. (rişxəndlə) Görünür nə isə fövqəladə hadisə baş verib.

*Rafiq çıxır. Müdirin otağı. Rafiq içəriyə daxil olur.*

RAFİQ - Mamed Cəliloviç, məni çağırmısınız?

ATAZADƏ - Bəli, bəli buyurun, oturun. Bayaq sizə bəzi şeyləri deməliydim, yadımdan çıxdı. Vicdan haqqı, qoyurlar ki, adamın huşu başında qalsın. O qədər iş var ki, lap başımı itirmişəm.

RAFIQ - Buyurun, eşidirəm Sizi.

ATAZADƏ (həddindən mülayim şəkildə) - Bu nə rəsmiyyətdir, Rafiq bəy? Əyləşin, Sizinlə bir balaca iş barəsində məsləhətləşmək istəyirəm.

RAFİQ - Axı Siz mənə iş tapşırdınız. Mən indi onunla məşğulam.

ATAZADƏ (bir az da mülayim şəkildə) - A kişi, buranın böyüyü mən deyiləm? İcazə verirəm Sizə bu gün bu sektorda əlinizi ağdan qaraya vurmayın. Buna mənim hüququm yoxdur bəyəm? Vicdan haqqı var.

RAFİQ - Axı...

ATAZADƏ (onun sözünü kəsərək) - Rafiq müəllim, mən bilmirəm Siz məni necə tanıyırsınız, amma onu deyim ki, arada bir əsəbiləşsəm də, amma çox sadə adamam. Nəyə lazımdır bu rəsmiyyət? Vicdan haqqı...Biz bir müəssisədə işləyirik. İkimiz də alimik. Düzdür sən məndən xeyli cavansan. Biri-birilə rəsmi davranış bizə yaraşmaz.

RAFİQ - Mən axı ayrı söz demədim. İstəyirəm ki, Siz öz sözünüzü deyəsiniz, mən də gedib öz işimlə məşğul olum. Mən bekar durmağa öyrənməmişəm.

ATAZADƏ - Yox, yox, bu olmadı. Deməli biz hamımız boş-bekar dururuq, hə? (kənara). Bu demokratiya gəncləri gör necə korladı ey. Qərbin təhsili bunları lap yoldan çıxardıb. (masasının böyründəki zəngi basır və katibə Lalə otağa daxil olur). Ay qız Lalə, bizə iki stəkan pürrəngi çay gətir. (Lalə

çıxır) Sənin bir fransız dostun var e, nədir adı...Vicdan haqqı yaddaşımı itirmişəm tamam. Nədir o, Bakıya beynəlxalq konfransa gəlmişdi e...

RAFİQ (bir qədər təlaşla) - Anri Svarkı deyirsiniz? Nə olub ki, ona?

*(Lalə çayları gətirir)*

ATAZADƏ - Əşi ona heç nə olmayıb? Çay dedim o yadıma düşdü. O, da mənim elmi rəhbərim Nikolayev kimi bizim çayı çox sevir. Mən burdakı məclislərdə hiss etdim. Nikolayev də bizim çayın vurğunu idi. Həmişə deyirdi ki, Azərbaycan çayını içəndə bütün yorğunluğum canımdan çıxır. Bizim yeməklərdən də ən çox sevdiyi balıq kababı idi. Moskvada həmişə onunla görüşəndə Bakı səfərindən danışırdı. Bakının görməli yerlərindən danışırdı. Sonra da balıq kababından xüsusi həvəslə danışırdı. Bir dəfə dedim ki, ay professor, gəl o kababdan elə Moskvada, sənin balkonunda bişirim səninçün, razı olmadı. Çox sadə kişi idi.

*(Rafiq yerində narahat qurcalanır)*

ATAZADƏ - Bura bax, Rafiq müəllim, sənin o Svarkla əlaqən necədir?

RAFİQ - Pis deyil. İnternet əlaqəmiz demək olar ki, daimidir.

ATAZADƏ - Bəlkə səni komandiravat eləyim gedib dostunla görüşəsən. Parisi gəzəsən, tələbəlik illərini xatırlayasan.

RAFİQ - Belə səfərin məqsədi olmalıdır. Məqsədsiz belə səfər, həddən artıq harınlıq olar.

ATAZADƏ - Məqsəd də var, sponsor da.

RAFİQ - Nədir məqsəd?

ATAZADƏ (kiçik pauzadan sonra) - Bilirsən, Natiq öz elmi işini artıq tamamlayıb. Mən istəyirəm ki, onun dissertasiyasını sən oxuyasan və ona yaxşı bir rəy yazasan. Sonra ikinizi də ezam edək Fransaya dostunun yanına, ordan da

bir neçə rəy gətirəsiz. Darıxıb-zad eyləmə, Natiq çox yaxşı bir sponsor tapıb. Səfəriniz yüksək səviyyədə maliyyələşəcək.

RAFİQ - Mamed Cəliloviç...

ATAZADƏ (onun sözünü kəsərək) - Əşi bu rəsmiyyətçilik kimə lazımdır. Biz həmkarıq, iş yoldaşıyıq. Mənə Mamed müəllim desən də kifayət edər.

RAFİQ (onun dediklərinə fikir vermədən) - Mamed Cəliloviç, mən o dissertasiyanı artıq oxumuşam. Və mən özüm istəyirdim ki, bu işlə bağlı Sizinlə söhbət edim. Mən belə hesab edirəm ki, Natiqin apardığı təcrübələrin nəticələri, yumşaq desək, dəqiq deyildir. O, öz təcrübi nəticələrini nəzəriyyəyə süni surətdə uyğunlaşdırmışdır. Daha doğrusu onun təcrübi nəticələri nəzəriyyədən alınan nəticələrə tabe etdirilmişdir. Mən hesab edirəm geniş müzakirəyə çıxarılmazdan əvvəl dissertasiya laboratoriyada müzakirə olunmalıdır.

ATAZADƏ (az qala çığıraraq) - Necə?! Siz deyirsiniz ki, Natiqin aldığı nəticələr saxtadır?

RAFİQ (çox sakit şəkildə) - Mən qəti olmasa da, belə fikirdəyəm.

ATAZADƏ - Siz həddinizi aşırsınız, Rafiq Əliyeviç! Bəli, siz həddinizi aşırsınız. Siz mənim aspirantımın apardığı elmi işə şübhə ilə yanaşırsınız..

RAFİQ (təmkinini pozmadan) - Mən təkcə Sizin aspirantın aldığı təcrübi nəticələrə deyil, həm də Sizin arxalandığınız nəzəriyyəyə şübhə ilə yanaşıram.

ATAZADƏ (hirslə əlini stoluna vuraraq) - Bəsdir! Siz lap ağ etdiniz. Vicdan haqqı... Siz dünya şöhrətli Şterenberqin nəzəriyyəsinə şübhə edirsiniz?

RAFİQ - Mən Şterenberqin böyük alim olmasına əsla şübhə etmirəm. Lakin...

ATAZADƏ ( onun sözünü kəsərək) - Gəl hələ bir buna da şübdə elə!

RAFİQ (sözünə davam edərək) - Lakin onun mayelər haqqında verdiyi nəzəriyyə sadəcə olaraq təcrübi nəticələrə

uyğun gəlmir. Belə hesab edirəm ki, bu nəzəriyyə qurularkən bir sıra mühüm faktorlar nəzərə alınmamışdır.

ATAZADƏ (hirslə) - Siz çox mənəm-mənəm deyirsiniz. Axı Siz kimsiniz?

RAFİQ (sakit və bir qədər istehzalı) - Mən? Mən Sizin rəhbərlik etdiyiniz elmi sektorun əməkdaşı.

ATAZADƏ (hirslə) - Bəsdir, bəsdir mənim əsəblərimdə oynadız. (Hirslə gülərək) Ha, ha.. bir buna bax Şterenberqə nöqsan tutur.

RAFİQ - Mamed Cəliloviç, mənə belə gəlir ki, Siz çox yaxşı bilirsiniz ki, 20-ci əsrə kimi atom bölünməz hesab olunurdu. Sonra nə oldu? Sonra məlum oldu ki, atom özü də elementar hissəciklərdən təşkil olunub. Axı vaxtilə atomun bölünməzliyini dahi alimlər də söyləmişdilər. Şterenberqin nəzəriyyəsi də onun kimi. Məlumunuz olsun ki, biz Ariflə həmin nəzəriyyənin nöqsanlı olduğunu sübut etmişik və yeni nəzəriyyə vermişik.

ATAZADƏ (istehza dolu təəccüblə) - Belə de, belə de. A kişi mus-mus deyincə Mustafa de də. De ki, Natiqin təcrübi nəticələri mənim nəzəriyyəmə uyğun gəlmir. Bəlkə elə əsərinizi Nobel mükafatına təqdim edəsiniz.

RAFİQ (təmkinlə) - Səbr edin. Məqamı çatanda o da olacaq. Niyə ingilis, alman, fransız, nə bilim daha hansı alimlər o mükafatı ala bilsin, bizimkisə yox. Bizim nəyimiz əksikdir onlardan? Bir də, mən bilən mübahisəyə artıq ehtiyac yoxdur. Biz öz elmi işimizi Londonda keçiriləcək Beynəlxalq simpoziuma təqdim etmişik. Son sözü simpozium iştirakçıları söyləyəcəklər. Qaldı ki, Natiqin dissertasiyasına, (pauzadan sonra) o iş müdafiəyə buraxıla bilməz. Bu mənim şəxsi fikrimdir. etirazınız varsa, qoyun şöbədə müzakirəyə, vəssalam!

ATAZADƏ (hirsl) - Siz nə qədər etikasız adamsınız! Mən o işi dəfələrlə...

RAFİQ (onun sözünü kəsərək) - Mamed Cəliloviç, xahiş edirəm təhqirə keçməyin!

ATAZADƏ - A kişi, Siz bayaqdan məni təhqir edirsiniz, özünüz də deyirsiniz ki, təhqirə keçmə. Mən o işi dəfələrlə oxumuşam, düzəlişlər etmişəm. Zavodda tətbiqinə başlayıblar. Siz isə deyirsiniz ki...

RAFİQ (onun sözünü kəsərək) - Məncə burda əsəbiləşməli bir şey yoxdur. Bu elmdir, Mamed Cəliloviç, elm! Zavodda tətbiqə də başlaya bilərlər. o necə təşkil olunur onu da bilirik. Amma mən tam əminəm ki, həmin tətbiqdən heç bir şey çıxmayacaq. Səməd və Aliyənin müşahidələri də bunu təsdiqləyir. Qaldı ki, Natiqin dissertasiyasına, bir daha təkrar edirəm, buyurun müzakirəsini təşkil edin, yoldaşlar da öz rəylərini bildirsinlər. Nə vaxta kimi bu sektordan elmi işlər xəlvəti aradan çıxacaq?

ATAZADƏ (bir qədər yumşalaraq) - Əşi, yoldaşlar kimdir? Öz aramızdır bu problemdən mənim və sənin kimi başı çıxan var?

RAFİQ - Siz nahaq elə deyirsiniz. Bizdə yaxşı mütəxəssislər çoxdur.

ATAZADƏ (kinayə ilə) - Məsələn (Rafiqin üzünə baxır).

RAFİQ - Məsələn, Arif. Verin qoy oxusun. O, bu işə faydalı düzəlişlər edə bilər. Mən belə hesab edirəm ki, dissertasiya fundamental surətdə yenidən işlənməlidir.

ATAZADƏ (qəzəblə) - Sən kimə deyirsən verək dissertasiyanı oxusun, Arifə? Adə, mən onu heç adam yerinə qoymuram. Yekəbaşın biridir. İndi öz aspirantımın dissertasiyasını ona oxutdurum?

RAFİQ - Siz camaatı nahaqdan təhqir edirsiniz. Hərənin öz şəxsiyyəti, mənliyi var. Qadı ki, Arifin mütəxəssisliyinə, o bizim sektorun ən aparıcı alimlərindəndir.

ATAZADƏ - Bura baxın, indi də öz dostunuzu, əməkdaşınızı mənim gözümə soxursunuz. Qoy o, hələ öz doktorluğunun dərdinə qalsın. Mən onu müdafiə etməyə

qoymayacağam. Onun işində çoxlu qüsurlar var, qoy düzəltsin, sonra baxarıq. Mənim verdiyim tapşırıqları yerinə yetirsin.

RAFİQ - Sizin verdiyiniz tapşırıqlar, etdiyiniz qeydlərlə mən də tanışam. Onların Arifin dissertasiyasına əsla dəxli yoxdur. Bir də ki, onun müdafiəsinin qarşısını məncə, heç kim ala bilməz.

ATAZADƏ - Necə yəni heç kim ala bilməz! Mən bu müəssisənin rəhbəriyəm. Mən nə deyirəmsə, o da olmalıdır. Siz məni yaxşı tanımırsınız. Mən elə ilanam ki, çaldığım heç zaman sağalmaz.

RAFİQ (sakit tərzdə) - Bilirsiniz, Arif artıq müdafiə edib, özü də Kiyev universitetində. Qayıdanda təbrik edərsiniz.

ATAZADƏ (az qala bağırır) - Necə? Necə? Mənim xəbərim olmadan mənim işçim dissertasiya müdafiə edir? Mənim başımın üstündən iş görürsünüz? (Zəngi basıb katibəsini çağırır). Lalə, ay qız o elmi katibi yanıma çağır. (Lalə çıxır). Onun nə ixtiyarı vardır ki, mənsiz müdafiə şurasına müraciət etsin.

RAFİQ (yenə sakit şəkildə) - Əvvəla, elmi katibi bura çağırmağa dəyməz. Çünki Sizin elmi rəhbəriniz Nikolayev Azərbaycan Ali Attestasiya komissiyasına müraciət edib, onun elmi nüfuzunu əsas götürən bu komissiya da burada ixtisas üzrə kifayət qədər mütəxəssis olmadığını nəzərə alıb, Arifin işini Kiyev universitetinə göndərdi. İkincisi də odur ki, belə hallar sovet vaxtında da olurdu da. Nə qədər incidilmiş, sıxışdırılmış gənc mütəxəssis Moskva, Kiyev, Düşənbə, nə bilim daha haralarda müdafiə edirdi. İndi də üz tutmuşuq qərbə.

ATAZADƏ (bir qədər yumşaq tonda) - Deməli, Nikolayev deyirsiniz də. Belə de, belə de. Bütün bu işlərin təşkilatçısı Sizsiniz yoldaş Həsənov, bəli, Siz.

RAFİQ (sakit tonda) - Mamed Cəliloviç, burda əsəbiləşməli heç bir şey yoxdur. Bütün dünya bilir ki, mayelər fizikası sahəsində güclü məktəblərdən biri də Kiyevdədir. Bir

Azərbaycan türkü gedib həmin məktəbdə doktorluq dissertasiyası müdafiə edirsə, biz buna sevinməliyik. Bir də ki, Nikolayev Sizin elmi rəhbəriniz olub, mənim yox.

ATAZADƏ (hirsli) - Deməli, indi məni ələ salırsınız, hə?

RAFİQ (halını pozmadan) - Niyə ələ salıram? Düz sözümdür.

ATAZADƏ - Ona kim icazə verib, Kiyevə getsin?

RAFİQ - Heç kim. Özü gedib.

ATAZADƏ (səsinin tonunu yenə qaldırır) - Məgər o, özbaşınadır? Siz onu bu sektora gətirdiniz. Mən Sizə hörmət edib, onu işə götürdüm. İndi də o, özbaşına  işdən qaçıb, hara istəyir gedir, eləmi? (Özü-özünə). Vicdan haqqı mən belə şey görməmişəm.

RAFİQ - İşdən qaçmaq niyə? Siz sadəcə unutmusunuz. Axı Siz özünüz ona, öz hesabına bir aylıq məzuniyyət vermisiniz. O da bu məzuniyyətdən öz dissertasiyasının müdafiəsi üçün istifadə edib, vəssalam.

*Bu zaman elmi katib qapını açır və otağa daxil olmaq istəyir.*

ELMİ KATİB - Mamed Cəliloviç olarmı?

ATAZADƏ (hirslə) - Siz artıq lazım deyilsiz. (Üzünü Rafiqə tərəf tutaraq) Siz də gedə bilərsiniz.

RAFİQ (çıxaraq) - Yaxşı, sağ olun.

*Atazadə kreslosuna söykənərək başını arxadan əlləri arasına alıb tavana baxaraq fikrə gedir.*

PƏRDƏ

## İKİNCİ  ŞƏKİL

*Rafiqin laboratoriyası. Aliyə və Natiq oradadır.*

NATİQ - Aliyə, nə oldu, xeyir işiniz nə vaxta qaldı?

ALİYƏ (gülümsəyərək) - Görək də. Rafiq deyir ki, simpoziumdan qayıdandan sonra bu məsələ ilə məşğul olacaq.

NATİQ (bic-bic gülümsəyərək) - Bunun işi lap ağdır. Eşitdiyimə görə əvvəllər deyirmiş ki, namizədliyimi müdafiə edib, sonra evlənəcəyəm. Sonra da deyirmiş doktorluqdan sonra. İndi də deyir ki, qoy simpoziumdan qayıdım sonra. Simpoziumlar, konfranslar nə çox. (sonra Aliyənin gözlərinin içinə düz baxaraq) Bəlkə Rafiq müəllim evlənməyini laboratoriyanın qarşıdakı beş illik iş planına daxil edib.

ALİYƏ (ciddi reaksiya vermir) - Ola bilsin. Özü bilər.

NATİQ - Ola bilsin, özü bilər deyəndə sən hələ toy eləməmiş bütün hüquqları ona vermisən?

ALİYƏ - Hüquq deyəndə, hər ailədə kişinin kişi yeri, qadının da qadın yeri var. Hərə öz işilə məşğul olsa, yaxşıdır.

NATİQ - Kaş mənim də sənin kimi bir nişanlım olaydı.

ALİYƏ - Axtarsan taparsan.

NATİQ - Necə, haradan tapım?

ALİYƏ (əlini müdirin qapısına doğru uzadaraq) - Odey, Lalə. Nəyi pisdir. Kukla kimi qızdır, al da.

NATİQ - Sənin Rafiqin qoyur ki? Bir ağaca çıxıb min budağı silkələyir.

ALİYƏ (bir qədər sakit) - Sən bununla nə demək istəyirsən?

NATİQ - Heç, elə-belə dedim.

ALİYƏ (təkidlə) - Natiq oxu atıb, yayını gizlətmə. Sözlü adama oxşayırsan, sözünü de.

NATİQ (guya utanır) - Vallah heç bilmirəm necə deyim. O gün sənin Rafiqini Lalə ilə elə vəziyyətdə görüblər ki...Utanıram deməyə.

ALİYƏ (sərt şəkildə) - Böhtan söyləmə, günahdır.

NATİQ - Böhtan niyə söyləyirəm. Allaha şükür ki, müasir texnika elə inkişaf edib ki, boş söz-söhbətə ehtiyac qalmır. (cibindən bir fotoşəkil çıxarır və Aliyəyə doğru uzadaraq) Al bax, ləzzət al.

ALİYƏ ( fotoya diqqətlə baxır və hirslə) - Bu nədir? Bunu sənə kim verib? Bu elə adi şantaj da ola bilər.

NATİQ (çox təmkinlə) - İndi deyirsən ki, gedim arayış gətirim ki, şəkil qurama deyil. Bunu mənə qonşu laboratoriyadan adının açıqlanmasını istəməyən birisi verib. Dedi al bax və ver nişanlısına. Nə qədər gec deyil, işini bilsin. Sən də mənə deyirsən ki, get Lalə ilə...

ALİYƏ (onun sözünü kəsir və sanki özü-özünə) - Yox, yox. Bu ola bilnməz. Mənim sevdiyim, tanıdığım Rafiq belə hərəkət edə bilməz!

NATİQ (sırtıqcasına) - Mən nə deyirəm. İnanmırsan, inanma. Ancaq fakt faktlığında qalır. Bu arvad dedi-qodusu deyil a... Bu sənəddir, müasir texnikadır.

*Bu zaman Səməd otağa daxil olur və Aliyəni pərt görür.*

SƏMƏD (üzünü Aliyəyə tərəf tutaraq) - Aliyə, sənə nə olub?

ALİYƏ (Natiqin verdiyi fotonu stolun üstündəki sənədlərin arasında gizlədərək) - Heç nə.

SƏMƏD (təkidlə) - Yenə də.

ALİYƏ - Dedim heç nə də!

SƏMƏD (sakitcə) - Heç nə deyirsən, olsun heç nə də (öz işi ilə məşğul olur)

*Rafiqin otağa daxil olduğunu görən Natiq tez oranı tərk edir. Rafiq otaqdakılarla salamlaşır.*

SƏMƏD - Rafiq, o səni niyə çağırmışdı?

RAFİQ - Heç, deyir Natiqin dissertasiyasını oxu, sonra da bir yaxşı rəy yaz. Hələ azmış, deyir ki, xaricdəki dostlarından da bir neçə müsbət rəy al. Hələ bizimçün sponsor da tapıb Fransaya göndərir.

SƏMƏD - Maraqlı səfərdir. Mən olsaydım razılaşardım. Sən necə razı oldunmu?

RAFİQ - Sən necə başa düşürsən mən buna razı ola bilərəmmi?

SƏMƏD (gülərək) - Mən səninlə zarafat edirəm. Əlbəttə, bilirəm ki, sən bu saxtakarlığa getməzsən.

RAFİQ - Bax mən də qəti şəkildə yox dedim.

ALİYƏ (bir az incik şəkildə) - Sən bizim laboratoriyanın taleyini təhlükə altında qoymusan.

RAFİQ - Bu məsələnin laboratoriyanın taleyinə nə dəxli var. Yenə də Natiqin taleyinə desəydin bunu başa düşərdim.

ALİYƏ (üzünü Səmədə tutaraq) - Onda qoy Səməd desin.

SƏMƏD – Eh, Rafiq müəllim, Siz hələ... Mən çox üzr istəyirəm, çox şeyləri bilmirsiniz. Bax bu işin acığına o bizim laboratoriyanı ləğv eliyə bilər. Bizim hər birimizi ayrı-ayrı laboratoriya və ya qruplara salar və beləliklə "əlvida problem"! Halbuki, bu problemin həllinə hər birimiz kifayət qədər zəhmət və ömür sərf etmişik. Bir də axı bizi pərən-pərən salmaq onun ürəyincədir. O gün Laləyə deyib ki, bəs Rafiq Səmədlə Aliyəni mənə qarşı qoyur. Sən yeri düşdükcə onların, ümumiyyətlə bütün sektor əməkdaşlarının söhbətlərinə nəzarət elə. Məndən kim nə danışsa, gətir mənə xəbər ver. Bu sahədə Natiq də ki, öz yerindədi.

RAFİQ - Bəs Lalə nə fikirdə olub?

SƏMƏD - Lalə onun dediklərini demək olar ki, bütün sektora yayıb. İndi hamı ondan danışır.

ALİYƏ (kinayə ilə söhbətə qarışır) - Lalənin nə fikirdə olduğunu sən bizdən yaxşı bilərsən.

RAFİQ (təəccüblə) - Niyə mən?

ALİYƏ (sənədlərin arasında gizlətdiyi fotonu ona tərəf uzadaraq) - Bax buna görə.

RAFİQ (fotonu əlinə alıb təəccüblə baxır və qəh-qəhlə) - Bu nədir? Bunu sənə kim verib?

ALİYƏ (hirslə) - Səninçün nə fərqi var, kimdən almışam. Fakt odur ki, bu foto var.

*Səməd yaxınlaşıb təacüblə fotoşəkilə baxır və çiyinlərini çəkir.*

SƏMƏD - Rafiq müəllim, bu şəkil hardan çıxdı ortalığa? Mən də bayaqdan düşünürəm ki, bu qızın qanı niyə qaradır. Neçə dəfə soruşdumsa, mənə cavab vermədi. Deməli, qanqaraçılığın səbəbi bu imiş.

RAFİQ (təmkinini pozmadan) - Bu şəkilin tarixçəsini sizə söyləyim. Yadınızdadırsa, mən simpoziumla bağlı Atazadənin qəbulunda olanda xeyli gözləməli olmuşdum. Qəbul otağında da çoxlu adamlar var idi. O vaxt hirslənib qəbula girmədən geri qayıtdım. Bax, həmin gün simpoziumla bağlı bütün sənədlərimi itirdim. Əgər yadınızdadırsa, laboratoriyanı da ələk-vələk etdik, amma sənədlər tapılmadı. Bu hadisə məni özümdən elə çıxarmışdı ki, az qala ərizə yazıb, buranı tərk edəcəkdim. Elə bu məqsədlə də Atazadənin yanına getdim. Qəbul otağına girən kimi Lalə mənə simpoziumla bağlı bütün sənədləri qovluq şəklində mənə doğru uzadaraq dedi ki, bəs bu qovluq onun stolu üzərindəki digər sənədlərin arasında imiş. Düzü, mən elə sevindim ki, gözlənilmədən onun alnından öpdüm. (Bir qədər fikirləşərək) Dayan, dayan. Səhv etmirəmsə Natiq də orda idi. Əlində telefonunu oynadırdı. (Üzünü Aliyəyə tutaraq) Bu fotoşəkili sənə Natiq verdi, eləmi?

*Aliyə dinmir və gözlərindən yaş axıdır.*

RAFİQ (bir qədər səsinin tonunu qaldırır) - Səninləyəm, bunu sənə Natiqmi verdi?

*Aliyə başı ilə təsdiqləyir.*

RAFİQ - Ax əclaf! Elmdəki intriqalarını, əclaflığını indi də insanların həyatına köçürmək istəyir. Eybi yox, baxarıq. (sonra Aliyəyə) Ay qız, sən bu fotodan görmürsən ki, biz müdirin qəbul otağındayıq. Məgər sən bilmirsən ki, o qıza mənim bir bacı kimi hörmətim var. (fotonu göstərir) Sən görmürsən ki, mən onun alnından öpürəm. Bir də əgər aramızda etibar yoxdursa...

SƏMƏD (onun sözünü kəsir) - Dayan, dayan! Zilə keçmə. Bizim rəqiblərimiz də bunu istəyir. Aranı vurmaq, işi pozmaq.

ALİYƏ (bir peşman kimi) - Bu fotodan görünmür sən onu necə öpürsən, üzündən yoxsa alnından.

RAFİQ - Xahiş edəydin Natiq bir az aydın çəkəydi. Həm də komentari ilə.

*Öz dediyi sözə gülür, Səməd də ona qoşulur. Aliyə isə azca gülümsəyir.*

RAFİQ - Qadın ki, qadın. Şeytan onu ən əziz adamına qarşı asanlıqla qaldıra bilir.

ALİYƏ (ikibaşlı) - Şeytan təkcə qadınları yox, kişiləri də yoldan çıxarır.

RAFİQ (gülümsəyərək) - Fakt odur ki, şeytan bu gün səni yoldan çıxarmışdı.

SƏMƏD - Mənə belə gəlir ki, bugünkü hadisədə şeytan rolunu bizim müdir oynayır.

RAFİQ - Yəni o, belə alçaqlığa da əl atar?

SƏMƏD (gülə-gülə) - Təcrübə göstərir ki, atır, Rafiq müəllim, atır.

RAFİQ (fikrə gedərək, alnını ovuşdurur) – Düz deyirsiniz, ondan hər nə desən gözləmək olar. Mən ona deyəndə ki, Arif Kiyevdə müdafiə edib, az qaldı bağrı çatlasın. Sanki bu həmin Mamed Cəliloviç deyil ki, məclislərdə gənclərdən, onların elmdə atdığı uğurlardan elə danışır ki, deyirsən bu işlərə sevinən birinci adam elə bunun özüdür. Hələ müdafiədən sonrakı banketlərdəki çıxışlarını demirəm.

SƏMƏD - Əşi, sən onun masabəyiliyini görməmisən. Azərbaycanlı gənclərə göstərdiyi qayğılardan elə danışır ki, tanımayan, bələd olmayan deyir ki, kaş bunun yanında işləyəydim.

ALİYƏ - O gün Tahirin müdafiəsindən sonra banketində elə tostlar deyirdi, elə tostlar deyirdi, gəl görəsən. Belə babamız Nizami olub, Babək olub, nə bilim Koroğlu olub. Belə ənənələrimiz, belə adətlərimiz. Özü də içdikcə araqdan, ağzı lap aşa gəlir. Onun özündən soruşan yoxdur ki, ay Atazadə, babalarına min rəhmət! Özündən danış. Babalardan sonra sən neyləmisən? On ildir bu elmi sektorda işləyirsən və həmin müddətdə on aspirantın olub. De görüm, onlardan hansı birini bir kənara çıxara bilmisən? Kimi diplom sahibi etmisən? Sənin aspirantlarından indiyədək müdafiə edən olubmu? Yaxşı,

bacarmırsan, yekə-yekə xalqım, xalqım deyirsən, niyə onun balalarını avara qoyursan? Niyə bacarmadığın işdən yapışırsan?

SƏMƏD (Aliyəni göstərərək) - Bizim ikimizi də avara qoydu zalım oğlu. Aspirantura müddətində mənim mövzumu dörd dəfə, Aliyəninkini isə üç dəfə dəyişdi. Yenə bir şey çıxmadı ki, çıxmadı. Aliyə onu düz deyir ki, bu adam yalnız özünü başqalarına göstərməklə, ibarəli cümlələr işlətməklə məşğuldur. İndi də görür ki, bir balaca işlərimiz qaydasına düşmək istəyir, buna da maneçilik törədir. Elə bil Allah bunu mərdimazarçılıq üçün yaradıb.(bir qədər ara verərək) Təəssüflər olsun ki, atazadələrin sayı cəmiyyətimizdə az deyil.

RAFİQ (sınayıcı nəzərlərlə hər ikisinə baxaraq) - Yaxşı siz nə deyirsiniz, mən Natiqin işinə müsbət rəy yazıb, Avropanı da bu işə cəlb edim?

ALİYƏ və SƏMƏD (birlikdə) - Xeyir! Xeyir!

SƏMƏD - Biz razı olmarıq ki, layiq olmayan işə müsbət rəy yazasınız. Qoy nə bacarırsa, bizə qarşı etsin. İslanmışın yağışdan nə qorxusu.

RAFİQ (Natiqin masasına işarə ilə)- Bəs bu özü hara getdi?

ALİYƏ-Bəs görmədin səni görən kimi otaqdan necə çıxdı? O bildi ki, mən foto əhvalatını açıqlayacağam. Ona görə də tez aradan çıxdı.

RAFİQ - Mənə belə gəlir ki, onda heç bir təqsir yoxdur. Onu çəkə bilmədiyi yük altına salıblar. Bir də ki, ilana zəhər verən koramal var. Hə isə...

SƏMƏD (söhbətin mövzusunu dəyişir) - Yaxşı, Rafiq müəllim, Siz simpoziuma nə vaxt gedirsiniz?

RAFİQ - İki gündən sonra yola düşməliyəm. Ancaq mənə belə gəlir ki, Atazadə ciddi maneçilik törədəcək.

SƏMƏD (bir qədər təəccüblü) - O, Sizə nə maneçilik törədə bilər ki?

RAFİQ- Məsələn, simpoziuma getməyə icazə verməz.

SƏMƏD- Siz ona ərizə ilə müraciət etmisiz?

RAFİQ-Etmişəm, ancaq hələ ki, bir reaksiya yoxdur.

SƏMƏD-Müraciətinizi dəftərxana vasitəsilə etmisinizmi?

RAFİQ- Dəftərxana vasitəsiylə niyə? Ərizə yazdım, aparıb stolunun üstünə qoydum. Vəssalam.

SƏMƏD- Ay qardaş, o elə adamdır ki, üzünə durub deyər ki, ərizə-filan görməmişəm.

RAFİQ- Belə getsə, öz hesabıma simpoziuma gedəsi olacağam.

ALİYƏ- Bəs iş? Axı işdən icazən olmalıdır. Onsuz da o bizi gözümçıxdıya salıb.

SƏMƏD - Əşi, nə olacaq? Bir həftəliyə bülleten götürüb, gedər.

RAFİQ- Sən nə danışırsan? Məni indi Atazadənin gözündə saxtakar edirsən. (gülür) Birdən ürəyinə toxunar, zarafat edirəm. Mən siz deyən kimi ərizəni dəftərxanada qeydiyyatdan keçirməsəm də, simpoziumun sənədlərinin və dəvətnamənin surətini çıxarıb, rəsmi surətdə ona göndərmişəm. Bir ərizə də yerli komitəyə həmin sənədlərin surətilə birlikdə təqdim etmişəm. Yəni yerli komitəni də bu işdən xəbərdar etmişəm. Çıxıb gedəcəyəm. Qayıdandan sonra məsələni ayırd edərik.

SƏMƏD – Əşi işimizə-gücümüzə bax e... Başqa ölkə alimləri arzu edir ki, belə bir nüfuzlu məclisdə onların da bir nümayəndəsi iştirak etsin. Bizlərdən də birisi ora hətta şəxsi dəvət olunur, digəri isə onun qarşısında sipər çəkir ki, gedə bilməsin. Bu düşüncə ilə biz çox uzağa gedə bilərikmi? (özü cavab verir) Məncə yox.

ALİYƏ (Rafiqə) - Bəs Arif? Axı o da səninlə getməli idi.

RAFİQ - Onun mənim kimi problemi yoxdur. Çünki, o, məzuniyyətdədir və səfər xərclərini ödəmək üçün sponsoru da var. Arif Kiyevdən birbaşa Fransaya uçacaq və biz onunla Strasburqda görüşəcəyik.

SƏMƏD - Bəs sən necə? Sənin yol xərclərini kim çəkəcək? Öz hesabına getsən, yəqin bir neçə ay ac qalmalısan.

RAFİQ (arxayınlıqla) - Narahat olma, Səməd. Mənim məktəb yoldaşlarımın bir çoxu ali təhsil aldıqdan sonra iş tapmadılar və indi onların hamısı Binə ticarət mərkəzində alver edir. Hərəsinin maşallah, üç dörd yerdə evi, bir neçə maşını və çoxlu da pulu var. Onlardan biri mənə sponsorluq edir. Özü də deyir ki, uşaqlıqdan arzum elmlə məşğul olmaq idi, mənə qismət olmadı. Heç olmasa, sən məşğul ol. Arada məni də bir yada sal.

SƏMƏD - Sağ ol, belə ticarətçi!

RAFİQ - Ticarətçi yox, komersant. (gülürlər)

PƏRDƏ

## ÜÇÜNCÜ ŞƏKİL

*Sektor müdirinin otağı. Bütün laboratoriya rəhbərləri bura yığışıb. Rafiqin laboratoriyasının bütün əməkdaşları dəvət olunub. Səməd və Natiq də burdadır.*

ATAZADƏ (əda ilə)- Cənablar və xanımlar! Həmkarlarımız! Sizi bura yığmaqda məqsəd birdir. Sektorumuzun laboratoriya rəhbəri Rafiq Həsənovun özbaşınalıqlarının müzakirəsi. Mən bura meskomu da dəvət eləmişəm. Axı əmək intizamını qorumaq birbaşa onun işidir. Bu Rafiq nə rəhbərlik qanır, nə də ki, iş. Vicdan haqqı kefi istəyəndə işə gəlir, istəməyəndə gəlmir. Bax budur bu adam bir həftədir ki, işdə yoxdur. Soruşuram: hardadır?

NATİQ (yerindən) - Kefində!

ATAZADƏ ( otağındakılara göz gəzdirərək) - Doğru deyir, kefindədi. Hara getdiyi məlum deyil. Balam, bu sektora gəldi-gəlmədi, vicdan haqqı bütün işlərimizi pozdu. Təriflədik ki, cavan doktordu, nə bilim filandı, çıxartdıq başımıza. İndi də ipini yığa bilmirik.

SƏMƏD ( özünü saxlaya bilmir)- Siz ki, yaxşı bilirsiniz, o Strasburqa Simpoziuma gedib.

ATAZADƏ (hirslə) - Mən hələ sənə söz verməmişəm.

SƏMƏD (ona fikir verməyərək ayağa qalxır) - Mamed Cəliloviç, Siz bizdən soruşursunuz ki, Rafiq müəllim hardadır. Mən də onun laboratoriyasının əməkdaşı kimi Sizə məlumat verirəm ki, o, Fransanın Strasburq şəhərində Beynəlxalq Simpoziumdadır. bizim bildiyimizə görə bu barədə o, Sizə rəsmi məlumat verib. Siz isə ona Simpoziuma getməyə icazə verməmisiniz. Simpoziumda iştirak etməyi vacib saydığından o, Sizin razılığınız olmadan ora getdi və bax işdən çıxmaq barədə ərizəsini mənə verdi. Mən də fürsətdən istifadə edib, bu ərizəyə özümünkünü də əlavə edib, Sizə təqdim edirəm. Laboratoriyanın o biri əməkdaşları nə qərar qəbul edəcəklər, bu onların öz işləridir. Yəqin ki, Ariflə Aliyənin də ərizələri hazırdır (ərizələri Atazadənin stolu üzərinə qoyur).

ATAZADƏ - Aidə, bunun dilinə bax, danışığına bax! A bala Rafiq səni nə tez demaqoq elədi. Pah atonnan. Bu dilsiz bir uşaq idi. İndi gör necə dil-dil ötür. (oturanlara) Aydın oldu, lazım gəlsə hamısını işdən qovacam, laboratoriyanı bağlayacam.

MAHMUD müəllim (dözə bilməyib ayağa qalxır) - Bura baxın, cənab müdir, bura sizin şəxsi obyektinizdi, yoxsa nədir? Bağlayacam, qovacam. Siz burda oturan alimləri nə hesab edirsiniz? Sizi və sizin elmdə çəkinizi bu insanlar çox yaxşı bilir. Hansı yolla bu vəzifəni tutmusunuz, onu da yaxşı bilirlər. Başımıza da bəlalar, bilib, danışmamaqdan irəli gəlir. Siz Rafiqi nə hesab edirsiniz və bayaqdan onun ünvanına hədyanlar söyləyirsiniz? O bilirsiniznmi kimdir? O sizin kimi dayısına söykənən birisi yox, Azərbaycan elminin sabahıdır, gözüdür! Səhərdən yığmısınız camaatı bura. Mən də düşünürdüm ki, görəsən nə vacib məsələ var. (onu yamsılayaraq) Rafiq hardadır? Rafiqin harda olduğunu bütün Respublika bilir, Siz bilmirsiz? Onda bura nə rəhbərlik edirsiniz? İşin qızğın vaxtı camaatı işindən-gücündən edirsiniz? Budur Sizin elmi təşkilatçılığınız?

*Bu zaman Lalə hövlank otağa daxil olur.*

LALƏ- Mamed Cəliloviç, zavoddan mühəndis gəlib, təcili Sizi görmək istəyir. Deyir ki, Sizin təcrübi bazada ağır qəza baş verib. Milisdən də müstəntiq gəlib, deyir ki, ölən və xəsarət alanlar var. Sizinlə təcili görüşmək istəyir.

SƏMƏD (Natiqə)- Bax bu da sənin işinin tətbiqi. İndi kef elə özünçün

ATAZADƏ (bir qədər özünü itirir)- Yaxşı, de bir az gözləsinlər.(sonra üzünü Mahmud müəllimə tutaraq) Mahmud müəllim, Siz bilirsiniz ki, mənim Sizə böyük hörmətim var. Bu nə senzurasız sözlərdir, deyirsiz?

MAHMUD müəllim (əsəbi şəkildə)- Düz deyirsiniz! Dediklərim Sizin senzuradan, sektorda yaratdığınız agenturadan keçməyib.

ATAZADƏ – Siz nə danışırsınız? Nə senzura, nə agentura?

MAHMUD müəllim (təmkinlə)- Senzura haqda özünüz dediniz, agenturanız barədə isə bütün kollektiv bilir. Kim kimi izləməli, kim kimin danışdıqlarını Sizə çatdırmalı, nə isə. Bunu hamı bilir.

ATAZADƏ (zorla gülümsəyərək)- Ay yoldaşlar. Mən bunları birinci dəfədir eşidirəm. Bəlkə kimsə mənim adımdan belə ləyaqətsiz işləri təşkil edib, mən bilmirəm.

MAHMUD müəllim (yenə təmkinlə)- Əgər belədirsə, onda Siz burda niyə oturmusunuz (onun kreslosuna işarə edir)? Bir müəssisə rəhbərinin ki, müəssisəsində baş verənlərdən xəbəri yoxdursa, onda o, nə rəhbərdir?

ATAZADƏ (amiranə)- Bilirsiniz, Mahmud müəllim, mənim Sizə çox böyük hörmətim var. Vicdan haqqı. Amma burda dedikləriniz məhkəməlikdir. Verərəm Sizi məhkəməyə.

MAHMUD müəllim (yenə təmkinlə)- Böyük məmuniyyətlə Sizinlə məhkəmədə çəkişərəm. Bax o zaman baxarıq.

*Lalə yenidən otağa daxil olur.*

LALƏ- Mamed Cəliloviç, onlar Sizi təcili görmək istəyirlər. Deyirlər ki, gözləyə bilmirlər.

*Atazadənin tamam rəngi qaçır, ürəyini tutur. Otaqdakılar mənalı-mənalı bir-birinin üzünə baxırlar. Natiq öz yerində narahatcasına qurcalanır.*

ATAZADƏ (Natiqə)- Natiq, işin müəllifi kimi sən onlarla söhbət elə, mən də bu yığıncaqdan sonra söhbətə qatılaram.

*Natiq qorxa-qorxa otaqdan çıxır.*

MAHMUD müəllim (yanındakına)- Bax bu da oldu qurbanlıq quzu. Atazadə ideyalarının fədakar qurbanlığı.

ATAZADƏ (xeyli yumşaq şəkildə)- Hə, məsələ nə yerdə qaldı? Bəli, mən ona necə şərait yaratmışam. O isə işdən çıxmaq haqda ərizə göndərib mənə. (ərizəyə baxaraq) Özü də gör nə yazır. Yazır ki, elmi iş aparmağa normal şərait olmadığından işdən çıxır. Vicdan haqqı mən belə ədalətsizlik, insafsızlıq görməmişəm. Əşi, səninçün biz nələr etməmişik...

*İndi o, elə danışır, sanki bir neçə dəqiqə əvvəl od püskürən sektor müdiri deyil. Bu zaman Aliyə qapıda görünür.*

ALİYƏ –Mamed Cəliloviç, olarmı?

ATAZADƏ (sanki yuxudan ayılır)- Ay qız, sən hardan gəldin? Niyə iclasa gecikirsən? Vicdan haqqı bu xarabada bir nizam-intizam yarada bilmədik də.

MAHMUD müəllim (yanındakına)- Onu düz deyir ki, buranı xaraba qoyub.

ALİYƏ- Üzr istəyirəm, Mamed Cəliloviç, gecikməyimin səbəbi var.

ATAZADƏ- Yaxşı keç görək. (üzünü otaqdakılara tutaraq) Fikriniz nədir? Qoy əvvəlcə laboratoriyasının əməkdaşları öz fikirlərini söyləsin.

MAHMUD müəllim (yanındakına)- Bu başqalarının əliylə Rafiqdən qisas almaq istəyir. Simpoziuma o gedib, bu getməyib. İlanı Seyid Əhmədin əliylə tutmaq deyirlər buna.

ATAZADƏ – Səməd bayaqdan yerində dinc otura bilmirdin. İndi dur bizə situasiyanı aydınlaşdır. Sən işdən çıxmaq üçün niyə ərizə yazmısan? Sənin də elmi iş aparmağa şəraitin yoxdur?

SƏMƏD- Əvvəla, bizim laboratoriyadan burda biz ikimizik, Aliyə və mən. Aliyə şübhəsiz ki, öz fikrini söyləyəcək. İkincisi, mən öz fikrimi bayaq dedim. Siz özünüz çox yaxşı bilirsiniz ki, Rafiq müəllim Beynəlxalq Simpoziuma hazırlaşırdı. O, həm Sizə və həm də yerli komitəyə ərizə ilə müraciət edib. (üzünü yerli komitə sədrinə yutaraq) Axı o Sizə rəsmi müraciət edib, siz niyə danışmırsınız? (Atazadəyə) Mamed Cəliloviç, o bu günü qabaqcadan görürdü və ona görə də ərizə və digər sənədləri şəxsən Sizə dəftərxana vasitəsilə göndərmişdi. (üzünü oturanlara tutaraq). Yoldaşlar, Rafiq müəllim Respublikamızda yeganə alimdir ki, Simpoziumdan şəxsi dəvət alıb və məruzəsi plenar iclasının proqramına salınıb. Həqiqi elmlə məşğul olanlar bunun nə demək olduğunu çox yaxşı bilirlər. Rafiq müəllim bizim millətimizin, Respublikamızın adını çox-çox uzaqlarda tanıdır və ucaldır.

ATAZADƏ- Sən özündən danış, özündən. Sən niyə ərizə yazmısan işdən çıxmağa?

SƏMƏD- Səmimi desəm, mən elmi-tədqiqat işinin nə olduğunu, onun mahiyyətini Rafiq müəllimlə işləməklə anladım. Kortəbii tədqiqatların səmərəsizliyini başa düşdüm. Mən qərara gəlmişəm ki, Rafiq müəllim harda olsa, həyatımın sonuna kimi onunla birlikdə çalışacağam. Çünki o, mənə tədqiqatın fəlsəfəsini anlatdı.

ATAZADƏ- Deməli, bizimlə birgə işdən bir şey götürə bilmədin. Əgər belədirsə, bu sənin öz günahındır.

SƏMƏD (kinayə ilə)- Niyə, götürdüm. Xəbərçilik, yalançılıq, yaltaqlıq, saxtakarlıq nə bilim daha nə. Sizin aspirantların içərisində mən də olmaqla hələ bir nəfərinin müdafiə edə bilməməsi çıxardığım mühüm nəticələrdəndir. Aspirantura müddətində mənim dörd dəfə mövzumu dəyişdiniz. Məşhur pedaqoqlardan biri deyir ki, müəllim üçün qaranlıq olan bilik sahəsi şagird üçün zülmətdir. Mən sonra başa düşdüm ki, verdiyi mövzunun hardan başlayıb harda qutaracağını elmi rəhbər aspirant işə başlamamışdan əvvəl bilməli imiş. Nə isə

olan olub, keçən keçib. Siz soruşdunuz, mən də cavab verdim. Bir də onu deyim ki, çox təəssüflər olsun ki, bu sektorda aparılan elmi işlərin nəticələrinin tətbiqləri dövlətimizə maddi ziyan vurmaqla, həm də insan tələfatına səbəb olur. Bunlardan növbətisi də Natiqin işidir.

*Hamı duruxub qalır. Müdir təlaş içərisindədir. Aliyə ayağa qalxır.*

ALİYƏ (həyəcanlı)- Yoldaşlar, mənə indi aydın oldu ki, bura niyə yığışmışıq. İ-nin ustünə nöqtə qoymaq üçün bugünkü qəzetlərdə dərc olunmuş məlumatı sizə oxuyum ( qəzeti açır və oxuyur). Frans-Press informasiya agentliyinə istinadən AzərTac Strasburqdan xəbər verir: Bu günün sensasiyası Simpoziumda gənc Azərbaycan alimi Rafiq Həsənovun məruzəsi olmuşdur. O, mayelər üçün işlədiyi yeni nəzəriyyəni simpozium iştirakçılarının müzakirəsinə vermişdir. Əvvəlki nəzəriyyənin müəllifi prof.Şterenberq demişdir: gənc Həsənovun verdiyi nəzəriyyədə mənim vaxtilə nəzərdən qaçırdığım bir sıra amillər öz əksini tapmışdır və fundamental bir nəzəriyyə alınmışdır. Bu böyük elmi qələbədir. Mən gənc azərbaycanlı alim, doktor Həsənovu bu böyük qələbə münasibətilə təbrik edirəm.

MAHMUD müəllim (ayağa qalxaraq)- Gəlin biz də Rafiq müəllimi təbrik edək, yoldaşlar!

*Hamı ayağa qalxıb əl çalır. Atazadə stolunun siyirməsində dərman çıxarıb qəbul edir. Mahmud müəllim sevinc göz yaşlarını silir. Lalə qapını açıb təəccüblə baxır və tez qapını örtür.*

Aliyə (sevincək)- Mənim bugünkü iclasa gecikməyimin səbəbi də bu idi. Qəzetlər bu gün bizim kioska gec gətirildi. Onu gözləyirdim. Axı mən bu xəbəri dünən radiodan eşitmişdim.

SƏMƏD (Aliyəyə) - Bu iclasa gecikməkdə böyük bir şey itirməmisən.

MAHMUD müəllim (amiranə şəkildə)- Ayıbdır Məmməd müəllim, ayıbdır.

SƏMƏD (astadan rişxəndlə) - Məmməd müəllim yox, Mamed Cəliloviç.

MAHMUD müəllim (sözünə davam edir)- Bu insanları işindən ayırıb vaxtını alırsınız, həm də mənəviyyata sığmayan yalan məlumatlar verirsiniz. Siz bu kiçik kollektivdə laboratoriyanı laboratoriyaya, qrupu qrupa qarşı qoyub parçala idarə et üsulu ilə işləyirsiniz. Sektora rəhbərlik etdiyiniz vaxtdan kollektivi daima gərgin vəziyyətdə saxlamağa çalışmısınız. Lakin buna nail ola bilməmisiniz. Bu düzgün metod deyil, elmi müəssisə rəhbərinə, elm adamına yaraşan iş deyil. Özünüz də danışanda qeyrətdən, həqiqətdən, millətdən dəm vurursunuz. Addımbaşı vicdana and içirsiniz. Bir şair çox yaxşı deyib:

Xalq malını yeyənlərin,
Yad paltarı geyənlərin,
Vicdandan çox deyənlərin
Birində vicdan görmədim.

Gedin, Sizi polisdən və zavoddan gələnlər gözləyirlər. Bizim rəyimizi bilmək istəyirdin: biz Sizinlə işləmək istəmirik!

PƏRDƏ

S O N

# PUBLİSİSTİKA

## Mənalı ömürdən məqamlar

20 dekabr 1934-cü ildə Tovuz rayonunun Almalıtava kəndində Qəzənfər kişinin ailəsində bir oğlan uşağı dünyaya gəldi. Adını Yusif qoydular. Balaca Yusif dil açan vaxtdan ətrafdakıları sual yağışına tutmağa başladı:

"Nə üçün gecə və gündüz olur? Yayda nədən isti, qışda soyuq olur?" və s. Həmin suallar balaca Yusifi Ağbaşlar kənd 7 illik məktəbə gətirib çıxardı. Ədəbiyyat müəllimi Cahangir müəllim ədəbiyyatı, fizika-riyaziyyat müəllimi Dəmir müəllim isə tədris etdiyi fənləri ona sevdirməyə çalışırdı. Dəmir müəllim bu "mübarizə"də qalib gəldi. Belə ki, 7 illik məktəbi bitirən zaman yeniyetmə Yusif fizika-riyaziyyat müəllimi olmaq qərarına gəldi. Yusif sənədlərini yaşadığı yerə daha yaxın olan Gəncə Pedaqoji Texnikumuna verdi. 7 illik təhsili əla qiymətlərlə bitirdiyindən texnikuma imtahansız qəbul edildi.

1954-cü ildə texnikumu da əla qiymətlərlə bitirən gənc Yusif sənədlərini V.İ.Lenin adına APİ-nin fizika-riyaziyyat fakültəsinə verdi və həmin ildə ora imtahansız daxil oldu. 1959-cu ildə Pedaqoji İnstitutu adlı təqaüdlə - Stalin təqaüdilə bitirərək Elmi Şuranın qərarı ilə institutda saxlanıldı. İnstitutda təhsil alarkən onun elmə marağı bir qədər də gücləndi və bu işdə professor A.Muxtarov ona xüsusi kömək göstərirdi. O zaman APİ fizikləri, başda professor A.Abbaszadə olmaqla, mayelər fizikası problemləri ilə məşğul idilər. Lakin gənc Yusif Respublikada yenicə tədqiq olunmağa başlayan yarımkeçirici maddələrlə işləməyi arzulayırdı. Həmin arzu da onu mərhum akademik Həsən Abdullayevin yanına – Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutuna gətirib çıxardı. Akademik H.Abdullayevlə söhbətdən dərhal sonra o, Fizika İnstitutuna işə qəbul olundu və əmək fəaliyyətinə kiçik elmi işçi vəzifəsindən başlayaraq 6 aydan sonra, yəni 1960-cı ildə institutun aspiranturasına daxil oldu. Gənc Yusifin elmə

olan böyük həvəsini nəzərə alaraq akademik H.Abdullayev onu bir qrup gənc aspirantla Moskva şəhərinə ezam etdi. Fizika İnstitutundan ona professor V.İ.İverenovanın yanına getmək məsləhət bilinmişdi. Lakin professor A.İ.Kitayqorodskinin 1959-cu ildə çap olunan "Rentgenquruluş təhlili" kitabı sanki onu ofsunlamışdı. Yusif kristal quruluşunu öyrənmək, kristolloqrafiya problemləri ilə məşğul olmaq arzusunda idi. Məhz buna görə də SSRİ Elmlər Akademiyasının Elementüzvü Birləşmələr İnstitutuna gələrək professor A.İ.Kitayqorodskini tapdı. Professorun rəhbərliyi altında paradixlorbenzolda polimorf çevrilmələrin mexanizmini araşdırmağa başladı və nəticədə elmə o vaxta qədər məlum olmayan bir sıra kəşflər etdi. O, ilk dəfə olaraq paradixlorbenzolda quruluş çevrilmələrinin monokristal-monokristal tipini müşahidə və müəyyən etdi. Başqa sözlə desək, bir monokristalın daxilində başqa quruluşlu monokristal yetişdirdi. Professor İ.A.Kitayqorodski özünün "Fizika mənim peşəmdir" kitabında yazır: "Mən məzuniyyətə getməzdən əvvəl aspirantım Yusifi yanıma çağırıb dedim ki, sənin dissertasiya işin başa çatıb. Bircə bərk cisimlərdə molekulyar proseslərin sürətinin təkrar təcrübələr zamanı kiçildiyini göstərmək qalır. Mən özüm də buna əmin idim. Belə ki, həmin proses nəticəsində Yusifin kristalları xarab olurdu. Məzuniyyətdən qayıtdıqdan sonra Yusifə yaxınlaşıb nəticələri göstərməsini istədim. Qrafiklərə baxanda əvvəlcə onun nəyisə qarışdırdığını sandım. Çünki Yusif aldığı nəticələrə görə bu sürət maksimumdan keçirdi. Doğrudan da sən demə bərk cisimlərdə molekulyar proseslərin sürəti əvvəlcə artır, sonra kiçilir. Yusif yeni hadisə kəşf etmişdi." Yusif Əsədovun isə belə kəşfləri çoxdur. Sonralar onun öz şagirdləri ilə birlikdə müəyyən etdiyi ritmik, pilləli, elastiki, dendrit böyümələr, kristallarda polimorf çevrilmələrin sürətinin ossilyasiyası belə kəşflərdəndir.

Y.Əsədov 1964-cü ildə Azərbaycan Dövlət Universitetində "Paradixlorbenzolda polimorf çevrilmələr" adlı namizədlik

dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, professor A.Kitayqordskinin cidd-cəhdlərinə və təkliflərinə baxmayaraq, Moskvada qalmayıb, işləmək üçün yenidən doğma Fizika İnstitutuna qayıtdı. Molekulyar kristallarda tədqiqat aparan Y.Əsədov Fizika İnstitutunda artıq bu institutun profilinə uyğun olaraq öz gələcək tədqiqat işinin planını qurmalı idi. Belə də oldu. O, bir qrup yarımkeçirici maddələrdə və onların mürəkkəb birləşmələrində quruluş çevrilmələrinin mexanizminin araşdırılması ilə məşğul olmağa başladı. İlk dəfə olaraq qırmızı monoklin selenin daxilində heksaqonal selenin dendrit böyüməsini kəşf etdi. Yarımkeçirici birləşmələrdə kristal böyüməsinin mexanizminin araşdırılması bir neçə aspirant və dissertantın tədqiqat mövzusu oldu. Və bu tədqiqatçılar müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etdilər. Yusif müəllim isə 1973-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının Fizika İnstitutunda yenicə yaradılan "Quruluş və quruluş çevrilmələri" laboratoriyasına rəhbərlik etməyə başladı. O, 1979-cu ildə Azərbaycan Dövlət Universitetində "Qeyri-metal kristallarda polimorf keçid prosesində kristal böyüməsinin morfologiyası və kinetikasının tədqiqi" adlı doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etdi. Doktorluq dissertasiyası müdafiəsindən sonra Yusif müəllimin elmi fəaliyyətinin məhsuldar dövrünün yeni mərhələsi başlandı. Onun laboratoriyasında Cu-Te, Cu-S, Cu-Se, Ag-S, Ag-Se sistem birləşmələrinin monokristallarında quruluş çevrilmələrinin xarakterinin, onun mexanizminin araşdırılmasına başlanıldı. Onun elmi əsərlərini elmi-tədqiqatlar baxımından qabaqcıl ölkələrin – ABŞ, İngiltərə, Fransa, Yaponiya və başqa ölkələrin elmi mərkəzlərində tanıyır və bu əsərlərə istinad edirlər. 1985-ci ildə Y.Əsədov Nyu-York Elmlər Akademiyasının üzvü seçildi, 1990-cı ildə isə ABŞ Biblioqrafiya İnstitutu tərəfindən dünyanın 5000 adamı siyahısına daxil edildi.

Yusif müəllimin əsərləri (200-dən artıq) müxtəlif ölkələrin elmi jurnallarında və məcmuələrində çap olunmuşdur. 1988-ci ildə professor elmi adını alan Y.Əsədov 30-dan artıq Beynəlxalq konfransın iştirakçısı olmuş və həmin konfranslarda müxtəlif məruzələrlə çıxış etmişdir. Y.Əsədov Soros mükafatı laureatıdır.

Y.Əsədov 1993-cü ildə quruluş tədqiqatları sahəsindəki işlərinə görə Beynəlxalq Elm Fondunun qrantını almışdır. Onun 28 yarımkeçirici kristalda aldığı rentgendifraksiya tədqiqatlarının nəticələri ABŞ-ın Beynəlxalq Difraksiya Mərkəzində qeydə alınmış və ona sertifikat verilmişdir. Professor Y.Əsədov iki doktorluq dissertasiyasının məsləhətçisi olmuş, 16 elmlər namizədinə rəhbərlik etmişdir. Bu sətirlərin müəllifi də onun yetirmələri sırasındadır.

O, "Kristalloqrafiya və kristallofizika" ixtisası üzrə müdafiə şurasının sədr müavini olmaqla elmi kadrların yetişdirilməsində müstəsna rol oynamışdır.

Yusif müəllim elmi fəaliyyətlə yanaşı, pedaqoji işlə də məşğul olur. O, müxtəlif ali məktəblərdə dövlət imtahan komissiyasının sədri olmuş, qardaş Türkiyənin Qaradəniz Texniki Universitetinin müəllimlərinə "Rentgenquruluş təhlili"ndən mühazirələr oxumuşdur. O, həm də elmin təşkilatçısı kimi də fəaliyyət göstərir. Belə ki, Yusif müəllim Beynəlxalq Kristalloqrafiya Cəmiyyəti Fizika problemləri üzrə Koordinasiya Şurasının, AMEA-nın Fizika və Astronomiya üzrə Koordinasiya Şurasının üzvüdür. Uzun müddət Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın Ekspert Şurasının üzvü olmuşdur.

73 yaşlı professor Y.Əsədovun həyatda müəllifi olduğu şah əsərlər isə onun övladlarıdır. Oğlu Fuad, fizika-riyaziyyat elmləri namizədi, qızlarından Fəridə tibb elmləri namizədi, Səbinə isə fizikdir. Ailədə isə babanın ən qiymətli var-dövləti – altı nəvəsi böyüyür.

Bir də Yusif müəllimin elm yolunda inamla irəliləməsində ömür-gün yoldaşı Solmaz xanımın müstəsna rolu olmuşdur. Solmaz xanım ailəsinin bütün çətinliklərinə dözəcəyinə (elm axı cəfasız olmur!) Yusif müəllimi əmin etdikdən sonra o, bu yolu keçmək qərarına gəlmişdi.

O, bu gün də inamla çalışır, işləyir, qoyduğu problemi həll etməklə məşğuldur. Arada bir rəssamlıqla da məşğul olur. Bu da onun hobbisidir. Ürəkdən can atdığı yer isə laboratoriyasıdır. Axı orada onu doktorant və aspirantları gözləyir. İrəlidə isə neçə-neçə namizədlik və doktorluq işləri var.

Uğur olsun Yusif müəllim!

## Böyük müəllim, istedadlı təhsil təşkilatçısı

Onu Boradigah onbirillik məktəbinə direktor vəzifəsinə təyin edəndə çox cavan idi, otuz üç yaşı vardı. Lakin gənc olmasına baxmayaraq çox təcrübəli idi. Hələ 21 yaşında ikən həmin məktəbdə direktor müavini vəzifəsində çalışmışdı. O, məktəbə direktor təyin olunandan sonra ora yeni nəfəs, ab-hava gətirdi. Mən o zaman doqquzuncu sinifdə oxuyurdum. İndi həvəslə danışdığımız məktəb islahatlarını, şagird-müəllim münasibətlərində demokratiya cücərtilərini məhz o, direktor təyin olunduqdan sonra məktəbimizə gətirdi. Söhbət Masallı rayonu Boradigah qəsəbəsi 1 saylı orta məktəbin direktoru, ali kateqoriyalı dil-ədəbiyyat müəllimi, Respublikanın Əməkdar müəllimi Nəriman Muxtar oğlu Hüseynovdan gedir.

Nəriman müəllim 1 iyul 1928-ci ildə anadan olmuş, 1945-ci ildə orta məktəbi bitirmişdir. Sanki müəllim doğulmuşdur. Orta məktəbin 10-cu sinfində oxuyarkən ikinci növbədə birinci sinif şagirdlərinə dərs deyirdi. Ona görə də orta məktəb məzunu olan gənc Nəriman demək olar ki, özünün gələcək yolunu, peşəsini seçmişdi.

Əlbəttə, o, məktəbi bitirən ili II Dünya Savaşı yenicə bitmişdi və ölkəmizdə müxtəlif peşə sahiblərinə, o cümlədən müəllimlərə də böyük ehtiyac vardı. Lakin kənd təsərrüfatını inkişaf etdirmədən o vaxt baş verən kütləvi aclığın qarşısını almaq olmazdı. Məhz buna görə Masallı rayon Partiya Komitəsinin o vaxtkı II katibi Zəfər Məmmədov orta məktəbin 1945-ci il buraxılışının məzunlarını bir yerə toplayıb, onlara kənd təsərrüfatı sahəsində təhsil almağı tövsiyə etdi. Lakin gənc Nərimanın atası Muxtar kişinin fikri başqa cür idi. O, oğlunun katiblə görüşündən aldığı təəssüratı bölüşdükdən sonra dedi: “Oğlum, bizim bu gün maddiyatdan çox, saf, təmiz mənəviyyata ehtiyacımız var. Dəhşətli müharibə dövründə mənəvi cəhətdən sarsılmış insanları təhsillə, maarifləndirməklə ayağa qaldırmaq olar. Mən səni müəllim görmək istəyirəm”.

Onsuz da gənc Nəriman öz seçimini etmişdi. Lakin atasının dediyi sözlər onda seçiminin düzlüyünə inamı bir qədər də gücləndirdi və bu inam onu keçmiş V.İ.Lenin adına APİ-nin (indiki ADPU) dil-ədəbiyyat fakültəsinə gətirib çıxardı. Təhsil illərində akademiklər H.Araslı, M.Mehdizadə, Ə.Dəmirçizadə, professorlar Ə.Sultanlı, Ə.Seyidov və başqa elm nəhənglərindən bəhrələnən gənc Nəriman təhsilini başa vurduqdan sonra doğma kəndinə qayıdaraq gənc nəslin təlim-tərbiyəsilə məşğul olmağa başladı. İnstitutu bitirmək ərəfəsində dilçi-alim Zeynal Hacızadə rektorluq qarşısında onun institutda saxlanması barədə vəsatət qaldırmışdı (o vaxtlar ayrı-ayrı müəllimlər belə vəsatət qaldırmaq hüququna malik idilər). Lakin gənc Nəriman həmin vəsatətlə bağlı öz müəlliminə belə demişdi: “Mən kəndə getməliyəm. Orada mənə daha çox ehtiyac var. Həm də qoca ata, anam, dörd kiçik qardaşım və dörd kiçik bacım məni gözləyir”. Beləliklə, N.Hüseynov Masallıya ilk ali təhsilli müəllim kimi qayıtdı.

1949-cu ildə Nəriman müəllim Boradigah kənd orta məktəbinə tədris işləri üzrə direktor müavini vəzifəsinə təyin olundu. O zaman həmin məktəbin direktoru vəzifəsində Azərbaycanın azsaylı ziyalıları arasında böyük nüfuz sahibi olan Rəfi Həsənov çalışırdı. O, xəstələndikdən sonra direktor vəzifəsi müvəqqəti olaraq Nəriman müəllimə həvalə olundu. RXMŞ-in müdiri onu direktor təyin etmək istədikdə isə, Nəriman müəllim gənc və təcrübəsiz olduğunu əsas gətirərək bu vəzifədən imtina etdi. Nəhayət 1961-ci ildə onu həmin məktəbə direktor vəzifəsinə təyin etdilər və hal-hazıra kimi o, bu vəzifədə çalışır.

Nəriman müəllim məktəb direktoru təyin olunduqdan sonra irəlidə qeyd etdiyim kimi məktəbə yeni nəfəs gətirdi. O, məktəbdə zəngin fənn kabinet və laboratoriyaları, idman qurğuları yaradılmasına, dərslərin kabinet sistemi ilə keçirilməsinə nail oldu. Ayrı-ayrı dərnəklər, idman bölmələri fəaliyyətə başladı. Şagird təşkilatı gücləndirildi, şagird özünü

idarəetmə təşkilatının rolu yüksəldildi. Şagirdlər müxtəlif fənn olimpiadalarında, bədii özfəaliyyət festivallarında uğurlar qazanmağa başladılar. İdmançı şagirdlər müxtəlif idman növləri üzrə rayon və respublika birinciliklərinin iştirakçısı və qalibləri oldular.

Nəriman müəllim bacarıqlı, savadlı və peşəkar müəllim kollektivi yaratmağa nail oldu. Məhz bunun sayəsində məktəbin onlarca məzunu təhsildə qazandıqları müvəffəqiyyətlərə görə qızıl və gümüş medallarla təltif olunub Respublikamızın müxtəlif ali təhsil müəssisələrinə daxil oldular. Məktəbin bugünkü kollektivi demək olar ki, Nəriman müəllimin keçmiş şagirdlərindən ibarətdir. Bunun səbəbi şübhəsiz ki, onun müəllimlik peşəsini öz şagirdlərinə sevdirə bilməsidir. O, öz zəhmətinin bəhrəsini görür. Şagirdləri onunla çiyin-çiyinə gənc nəslin təlim və tərbiyəsilə məşğuldurlar.

Nəriman müəllim nəinki müəllimlik peşəsini, həm də tədris etdiyi dil-ədəbiyyat fənnini də şagirdlərinə sevdirə bilmişdir. Məhz bunun nəticəsidir ki, məktəbin 15-dən artıq məzunu onun peşəsini seçərək dil-ədəbiyyat müəllimi ixtisasına yiyələnmişlər. Bunlar B.Həsənov, A.Cavadov, M.Kazımov, N.Ağayev, B.Məmmədov və başqalarıdır. Onlar Nəriman müəllimlə çiyin-çiyinə 1 saylı və eləcə də 2 saylı Boradigah orta məktəblərində çalışırlar (Sonradan Boradigah onbirillik məktəbi bazasında iki orta məktəb yaradıldı. N.Hüseynov hazırda 1 saylı məktəbin direktorudur). N.Hüseynovun iş təcrübəsi Respublikamızda nümunəvi iş təcrübəsi kimi təbliğ olunmuş və yayılmışdır. "Bakinskiy raboçiy", "Azərbaycan müəllimi", "Qala", "Axtarış" və başqa qəzetlər onun haqqında müxtəlif məqalələr dərc edərək pedaqoji iş üsulunu bütün Respublikaya yaydılar. Jurnalist-publisist M.Novruzov "Müəllim əməyinin izi" (Bakı 2000) adlı kitabında yazır: "Adı nəinki Masallıda, bütün Respublikamızda yaxşı tanınan zəngin tarixi və özünəməxsus ənənələri olan Boradigah 1 saylı orta məktəbinin qazandığı şöhrət və uğurlarında 38 il bu tədris

ocağına rəhbərlik edən Nəriman Hüseynovun böyük əməyi vardır. O, direktorluğa sıravi müəllimlikdən qətrə-qətrə, damla-damla təcrübə toplayaraq, idarəetmə elminin sirlərinə yiyələnə-yiyələnə, adamların psixologiyasına bələd ola-ola gəlmişdir".

Nəriman müəllim məktəb direktoru işlədiyi müddətdə 5000-dən artıq şagird məktəbi bitirmişdir. Həmin dövrdə ayrı-ayrı fənlərin öyrənilməsində xüsusi müvəffəqiyyətlərə görə 310 şagird fəxri fərman və diplomlarla təltif olunmuşdur. O, böyük alimlər ordusunun ilk müəllimi olmişdur. Azərbaycan MEA-nın müxbir üzvü M.Tağıyev, texnika elmləri doktoru İ.Babayev, hüquq elmləri doktoru A.Kişiyev, biologiya elmləri doktoru M.Fətullayev, tibb elmləri doktoru E.Babayev, filologiya elmləri doktoru Y.Babayev, fizika-riyaziyyat elmləri namizədləri F.Məmmədov, G.Aslanlı və onlarca başqaları onun şagirdləri olmuşlar. Bu sətirlərin müəllifi də onların sırasındadır. Orta məktəbin I-IV sinif şagirdləri üçün yazılmış riyazıyyat dərsliyinin müəlliflərindən biri V.Məmmədov da məhz onun şagirdlərindəndir.

N.Hüseynov Azərbaycan müəllimlərinin üç qurultayının (1976, 1987, 1998-ci illər) nümayəndəsidir. Onun müəllimliyi, pedaqoji kollektivə rəhbərlik təcrübəsi Respublikamızın bütün gənc müəllimləri və məktəb direktorları üçün örnək, sözün əsl mənasında bir universitetdir. Məncə, Nəriman müəllimin həyat və iş təcrübəsini öyrənmək və geniş yaymaq, Azərbaycan maarifinin yalnız inkişafına xidmət edər. Bu maarif fədaisinin ziyası hələ çox güclüdür. Ondan faydalanmaq gərəkdir.

Azərbaycan maarifçiliyinin canlı salnaməsi olan N.Hüseynovun 5 övladı, 14 nəvəsi və 7 nəticəsi vardır. O, inamla ömrünün səkkizinci onluğunu tamamlayıb, doqquzuncu onluğu xırdalamağa doğru irəliləyir. Onun uğurları yetərincədir. Mən bu yolda ona can sağlığı arzulayıram!

## Görkəmli alim

Onun adı çəkiləndə tanıyanların üzündə xoş ifadəylə yanaşı, dərin təəssüf dolu hüzn də sezilir. Axı yaxınları – ailəsi, bacı-qardaşları, dost və tanışlar onu vaxtsız itirmişdilər. O, gözəl oğul, istəkli ər, qayğıkeş ata, mehriban qardaş, istiqanlı qohum, sədaqətli dost idi. O, görkəmli alim-pedaqoq, ölkəmizdə təhsilin bilicisi və təşkilatçılarından idi.

21 sentyabr 1940-cı ildə Cəbrayıl rayonunun Əfəndilər kəndində dünyaya göz açmışdı Rafiq Şamil oğlu Yəhyayev. Bu həmin Əfəndilər kəndidir ki, dünya şöhrətli riyaziyyatçı Əşrəf Hüseynova da doğma ocaq olmuşdur. Rafiq elə Əşrəf müəllimin bacısı oğlu idi. Atalar yaxşı deyib ki, "Qoç igid dayısına oxşayar". Bu atalar misalı R.Yəhyayevin taleyində öz təsdiqini tapdı.

Əfəndilər kəndinin təbiətinin füsunkar gözəlliyini Tanrı sanki Rafiqin xasiyyətinə köçürmüşdü. İnsanları sevmək, onlara qayğı ilə yanaşmaq, düzlük və saflıq, millətə, Vətənə və dosta sədaqət onun qanında, canında idi. O, öz ətrafına, adına uyğun rəfiq-dost idi. Onun dünyaya gəlişi ailəyə - Şamil kişiyə, Şahlıq xanıma böyük sevinc və xoşbəxtlik gətirmişdir. Rafiq ailədə ikinci övlad olsa da, Şamil kişi sonralar onu övladlarının böyüyü, ağsaqqalı kimi gördü. Rafiq də öz növbəsində qardaşları Faiq, Vahid və Zahidi, bacısı Xalidəni canından artıq sevərək əzizlədi, qayğılarına qaldı.

Onun tale yolu Şükürbəyli kənd orta məktəbindən başladı. Həmin məktəbi 1957-ci ildə əla qiymətlərlə bitirib həmin ildəcə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil oldu və oranı da 1962-ci ildə böyük uğurla bitirdi. Həmin uğur onu M.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına aparıb çıxardı. Moskva mühiti, böyük Sovet alimləri ilə ünsiyyət onun dünyagörüşündə böyük bir inqilab etdi. Dünyada məşhur nəzəriyyəçi professor A.A.Sokolovun rəhbərlik etdiyi nəzəri fizika kafedrasında

aspirant olan gənc Rafiq ciddi elmi-tədqiqat işlərilə məşğul olmağa başladı. Professor A.Sokolov və B.Kərimovun bilavasitə rəhbərliyi altında dissertasiya işi icra edən R.Yəhyayev elementar zərrəciklərin elektromaqnit və zəif qarşılıqlı təsirlə sərtlənən proseslərin tədqiqi problemi üzərində işləyərkən bir çox prosesin differensial və tam kəsiklərini hesablamış, onların xarakterik xüsusiyyətlərini öyrənmiş və təcrübədə yoxlamaq üçün birbaşa reseptlər təklif etmişdir.

Xüsusi halda o, leptonların protondan elastiki və qeyri-elastiki səpilmə proseslərini neytrino və anti neytrinonun elektrondan səpilmə proseslərini və bu kimi maraqlı, təcrübədə yoxlanıla bilən və ona görə də dünya alimlərinin diqqətini cəlb edən nəticələr almışdır.

R.Yəhyayev 1965-ci ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

Alimlik dərəcəsini aldıqdan sonra o, Bakıya qayıtmış və bir müddət Azərbaycan EA Şamaxı Astrofizika rəsədxanasında elmi işçi kimi çalışmışdır. Rəsədxanada işlədiyi müddətdə Moskva Universitetində qazandığı biliyi ali məktəblərdə yetişən gənc mütəxəssislərlə bölüşmək, öz biliyini gələcək nəsilə estafet kimi ötürmək arzusu onu rahat buraxmırdı. Məhz buna görə də o, 1967-ci ildə müsabiqə yolu ilə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) ümumi fizika və astronomiya kafedrasına baş müəllim vəzifəsinə seçildi. İnstitutda işlədiyi müddətdə tələbələrlə yorulmadan işləyərək yenilikçi müəllim adını qazanmışdı. Mən əminəm ki, o vaxt tələbələrə “sevimli müəllimləriniz kimdir?” sualı ilə müraciət olunsaydı, onlar sevimli müəllimləri sırasında Rafiq müəllimin də adını çəkərdi. Onu institutun tələbə-müəllim kollektivi çox sevirdi. Məhz buna görə də APİ-nin o vaxtki rəhbərliyi Rafiq müəllimi yenicə açılmış hazırlıq şöbəsinə müdir vəzifəsinə təyin etdi. Rafiq müəllim hazırlıq şöbəsinin fundamentini qoyaraq, ali məktəb hazırlıq şöbələri arasında birinci yerə çıxardı. Hazırlıq

şöbəsində işlədiyi dövrdə onun təvazökarlıq, düzlük, mənəvi saflıq kimi keyfiyyətləri daha qabarıq şəkildə özünü göstərməyə başladı.

Hazırlıq şöbəsində pedaqoji fəaliyyətlə yanaşı, Rafiq müəllimi elmi iş daha çox cəlb edirdi. Onun Moskvada başladığı tədqiqat işlərini davam etdirmək, həmin işlərlə Azərbaycan tələbələrini tanış etmək lazım idi. Ona görə də R.Yəhyayev institut rəhbərliyi qarşısında APİ-də nəzəri fizika kafedrası yaradılması təklifini irəli sürüb, əsaslandırdı. Onun ciddi cəhdi boşa çıxmadı, institutda nəzəri fizika kafedrası yaradıldı və onun ilk müdiri də dosent R.Yəhyayev seçildi. Həmin vaxtdan başlayaraq o, tələbələr üçün dərslik, dərs vəsaitləri, müəllimlər üçün metodiki göstərişlər yazmağa başladı. Rafiq müəllim 20-yə yaxın dərslik və dərs vəsaitinin, 50-yə yaxın elmi əsərin müəllifidir. Onun əsərləri keçmiş SSRİ-nin və dünyanın ən nüfuzlu jurnallarında çap olunmuşdur. Onun yazdığı "Kvant mexanikasına giriş", "Kvant mexanikasından metodiki göstəriş", "Nisbilik nəzəriyyəsinin elementləri", "Bionika", "Mikroaləmin sirləri" və b. adlı kitabları bu gün də tələbələrin istifadəsindədir.

R.Yəhyayevin parlaq elmi pedaqoji fəaliyyəti Respublika Ali və orta ixtisas təhsili nazirliyinin (indiki Təhsil Nazirliyi) diqqətindən yayınmadı. 1986-cı ildə o, Naxçıvan Dövlət Pedaqoji institutuna (indiki Naxçıvan Dövlət Universiteti) tədris işləri üzrə prorektor vəzifəsinə təyin olundu. Naxçıvanda da Rafiq müəllim institut kollektivinin, eləcə də Naxçıvan camaatının hörmətini qazandı. O, Naxçıvan Ali Məclisinə deputat seçildi. SSRİ Ali Attestasiya Komissiyası isə ona doktorluq dissertasiyası müdafiə etmədən professor adını verdi. Naxçıvan pedaqoji institutunun o vaxtkı rektoru, professor İ.Cəfərov və professor R.Yəhyayevin birgə səyi nəticəsində NPİ, Naxçıvan Universitetinə çevrildi. Bu çevrilmə başqa ali məktəblərdə olduğu kimi formal xarakter daşımırdı. Belə ki, yeni universitetdə yeni şöbələr, müxtəlif ixtisaslar üzrə

fakültələr açıldı. Naxçıvan ziyalıları bu iki Azərbaycan ziyalısının, aliminin o vaxtkı fəaliyyətini məmnunluqla indi də xatırlayırlar.

1990-cı ildə R.Yəhyayev Azərbaycan Təhsil Nazirliyinin ali təhsil idarəsinə baş inspektor vəzifəsinə köçürüldü. Qısa aradan sonra professor R.Yəhyayev həmin idarənin rəisi təyin edildi.

Azərbaycan ali təhsil sisteminə dərindən bələd olan R.Yəhyayev nazirlik üçün, bu idarə üçün bir tapıntı idi. Lakin amansız əcəl bu gözəl alimə, mahir pedaqoqa, hər şeydən əvvəl işıqlı insana bu vəzifədə öz istedadını göstərməyə macal vermədi. 27 noyabr 1992-ci ildə vaxtsız əcəl onu əzizlərindən, dostlarından, sevimli peşəsi və tələbələrindən amansızcasına ayırdı. İlin payız fəslində dünyaya gələn qiymətli dostumuz Rafiq elə payızda da bu dünyanı tərk etdi.

Mən də elə o vaxtdan ürəyimin ağrısını dost itkisindən inləyən misralara köçürdüm:

...Çəkinərdi səndən yolun azanlar,
Əyri yaza-yaza düzü pozanlar;
İşığına toplaşardı insanlar –
Çoxlarını gətirirdin “dinə”, sən.

Düz sözünü söyləyərdin birbaşa,
Haqq yolunda girişərdin savaşa;
Arxa idin daim qohum-qardaşa,
Dostlar üçün önə çıxan sinə, sən.

Zalım əcəl elə öz işindədir
Pisi qoyub, yaxşının peşindədir;
Dirilər var, Vallah ölü gündədir,
Yaşayırsan ürəklərdə yenə, sən...

**Allah sənə rəhmət eləsin, əzizim!**

## NURLU İNSAN

Ölümündən sonra onun haqqında yazmaq, şirin xatirələri dilə gətirmək mənim üçün çox ağırdır. Ömrümdə ağlıma gəlməzdi ki, mən onun haqqında onsuz xatirə yazacağam, onu son mənzilə yola salacağam. Şairlər diyarında dünyaya göz açıb avtomatika və telemexanika sahəsində dünyada tanınmış alim oldu. Dinimizin peyğəmbəri Həzrəti Məhəmməd qədər, cəmisi 63 il yaşadı. Şərəfli bir ömür sürdü.

Söhbət texnika elmləri doktoru, professor, əməkdar elm xadimi, Lütfizadə adına Beynəlxalq Müasir Elmlər Akademiyasının həqiqi üzvi İsa Mədəd oğlu Abdullayevdən gedir.

İ.Abdullayev 1945-ci ilin 12 aprelində Qazax rayonunda dünyaya gəlmişdi. O, orta məktəbi qızıl medalla, M.Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki ADNA ) fərqlənmə diplomu ilə bitirdikdən sonra İnstitut Elmi Şurasının qərarı ilə aspiranturada saxlanıldı. O, 1973-cü ildə namizədlik, 1992-ci ildə isə müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etdi. 1963-cü ildə keçmiş M. Kalinin adına “Teleaparatura və avtomatika cihazları” zavodunda çilingər kimi əmək fəaliyyətinə başlayan İ.Abdullayevin 1969-cu ildən bütün həyatı Azərbaycan Neft Akademiyası ilə bağlı olmuşdur. Neft Akademiyasında həmişə sayılıb seçilən alimlərdən olan İsa müəllim 1991-1996-cı illərdə “Avtomatika, telemexanika və elektronika” kafedrasına, 1993-2003-cü illərdə “İstehsalat proseslərinin avtomatlaşdırılması” fakültəsinə rəhbərlik etmiş, 2003-cü ildən ömrünün sonuna kimi “Biotexniki və tibbi cihazlar” kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Çox böyük alim, milli sərvətimiz idi İsa müəllim. O, kompüter texnikasının informasiya-ölçmə vasitələrində geniş tətbiqi və bunun əsasında müasir ölçmə-hesablama sistemlərinin yaradılması sahəsində ilk tədqiqat aparan alimlərimizdən idi. İ.Abdullayevin apardığı elmi-tədqiqat işləri

həmişə xarici ölkə alimlərinin diqqət mərkəzində olmuşdur. Onun 1979-1980-ci tədris ilində ABŞ-ın Pensilvaniya Universitetinə, 1986-1987-ci tədris ilində isə Çin Xalq Respublikasının Xarbin Texniki Universitetinə ezam olunması da məhz bu maraqla bağlı idi. Xarici ölkə alimləri ilə birgə təcrübələr İsa müəllimin elmi-tədqiqat fəaliyyətini bir qədər də gücləndirmiş, elmi işlərin səmərəliliyini yüksəltmişdir. Onun nəzəri elmi nəticələri informasiya-ölçmə sistemlərinin optimallaşdırılması, siqnalların rəqəmli emalı, ölçmə informasiyasının təshihedici süzülməsi, sənaye sınaqlarının və elmi eksperimentin avtomatlaşdırılması, diskret istehsalda məhsulun keyfiyyətinə nəzarət və diaqnostika istiqamətlərini əhatə edir. İ.Abdullayev çap olunmuş 130 elmi əsərin, o cümlədən üç monoqrafiya, 50 məqalə, 48 məruzə, 26 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir. 12 əsəri ingilis dilinə tərcümə olunub çap edilmişdir. Sahənin tanınmış alimləri onun əsərlərinə istinad edir, İ.Abdullayevdən sitatlar gətirirdilər.

İ.Abdullayev böyük bir elmi məktəb yaratmışdır. Onun rəhbərliyi altında 21 elmlər namizədi hazırlanmışdır. Onun elm qarşısında xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş və 2000-ci ildə Ölkə Prezidentinin fərmanı ilə "Əməkdar Elm xadimi" fəxri adına layiq görülmüşdür.

İ.Abdullayev ustad müəllim idi. Azərbaycan və rus dillərində tələbələrə ixtisas fənlərindən mühazirələr oxuyan İsa müəllim 2000-ci ildə ABŞ-ın Corgiya Univerisitetində ixtisas artırma kurslarını keçdikdən sonra ingilis dilində də mühazirələr oxumağa başladı. İstər kafedra müdiri, istərsə də fakültə dekanı vəzifələrində çalışanda o, tələbələrinin xüsusi qayğısına qalırdı. Yaxşı yadımdadır, bir dəfə dekanlıqda, onun otağında oturmuşduq. Qrup nümayəndəsi gəldi. Nə danışdılar, fikir vermədim. Sonra İsa müəllimin qrup nümayəndəsinə pul verdiyini gördüm və zarafatla: Sizdə başqa instiutlardan fərqli olaraq deyəsən tələbə müəllimdən rüşvət alır - dedim. O isə mənə belə cavab verdi: "Yox qadan alım, bu oğlanın qrupunda

bir tələbə var, imtahandan kəsildiyinə görə valideynləri ona pul göndərmir. Mən özüm pul təklif etsəm də, o tələbə götürmədi. Qrup nümayəndəsi vasitəsilə verirəm ki, qoy elə bilsin ki, bu pulu yoldaşları təşkil ediblər. Neyləyim. Acından öləsi deyil ki, bu uşaq. Gərək çalışıb bu semestr imtahanları yaxşı versin ki, valideynləri də onunla barışsınlar". O istedadlı tələbələrə daima qayğı göstərir, onları nəzarətə götürüb elmə yönəldirdi və yaxşı bilirdi millətin xoşbəxt gələcəyi elmin inkişafı ilə birbaşa bağlıdır. Bax belə qayğıkeş, mehriban, tələbələrin sevimlisi idi İsa müəllim!

Poeziyanı-Sabiri, Cavidi yaman sevirdi. Onlardan tez-tez sitatlar gətirirdi. Sabir yaradıcılığına demək olar ki, əməlli-başlı bələd idi. Bir dəfə bunun nə səbəbdən olduğunu soruşdum. Sən demə onun dayısı mərhum filoloq, professor M.Məmmədov M.Ə.Sabirin "Hophopnamə" sini tərtib edib çap etdirərkən mətbəədə yığılan şerlərin bir hissəsinin korrekturasını gənc İsa edərmiş. O vaxt o, Neft və Kimya instutunun tələbəsi imiş. İti zəkaya, güclü yaddaşa malik olan bu gənc həm də həmin şeirləri əzbərləyirmiş. İ.Abdullayev S.Vurğundan, O.Sarivəllidən və başqa şairlərdən o qədər şeirlər əzbərdən bilirdi ki ....

O, sözün əsl mənasında hərtərəfli inkişaf etmiş, ensiklopedik biliyə malik bir insan idi. Hansı mövzuda söhbət açılırdısa da, orda İsa müəllimin sözü vardı.

İ.Abdullayev çox gözəl insan idi. Sözün əsl mənasında insan! O, bir vaxt Neft və Kimya institut kimi nüfuzlu ali məktəbin partiya komitəsinin katibi vəzifəsində işlədi. Sovet dövründə həmin vəzifəni tutan şəxs ali məktəbdə rektordan sonra ikinci şəxs demək idi. Biz dostlar, qonşular, tanışlar İsa müəllimin bu vəzifə ilə bağlı insanlığında əsla dəyişiklik hiss etmədik. Elə əvvəlki İsa idi. Axşamlar qonşularla birlikdə həyətə yığışar, söhbət edər, domino və ya nərd oynayardıq. Böyüklüyü qədər də sadə idi İsa müəllim. Bir kəsin ürəyinə toxunub qəlbini qırmazdı. Millətini, xalqını sevən idi. Məhz

onun iştirakı ilə biz xarici ölkələrdə işləmiş Azərbaycan mütəxəssislərinin "Körpü" cəmiyyətini yaratdıq və sonra həmin cəmiyyət Dünya azərbaycanlılarının "Körpü" cəmiyyətinə çevrildi. İsa müəllim həmin cəmiyyətin vitse-prezidenti idi. O, dünya azərbaycanlılarının birliyi, həmrəyliyi uğrunda yorulmadan çalışan əsil vətəndaş-alim idi.

Xarici ölkələrin birində cərrahi əməliyyat olunduqdan sonra məhəllədə görüşdük. Hal-əhvalını soruşdum. Cavabında dedi ki, məsələ çox ciddidir. "Cərrah əməliyyatdan əvvəl oğlumla görüşmək istədi. Mən isə ona dedim ki, doktor, mən həyatın hər üzünü görmüşəm və bu dünyanın sonunu da bilir və qəbul edirəm. Oğlum hələ uşaqdır, onunla yox, mənimlə açıq danışın, qoy oğlum bilməsin. Həkim mənə hər şeyi dedi. Mən bütün məsuliyyəti öz üzərimə götürüb cərrahi əməliyyata getdim. Allah kərimdir". Bu İsa müəllimin sözləri idi. Ölümün üstünə kişi kimi cəsarətlə gedən təbiətən zərif, bu dəmir iradəli, qorxmaz insan böyük düşüncə, əməl sahibi idi.

Deyirlər ki, ölümündən bir qədər əvvəl bağ evində halı xarab olubmuş. Həyat yoldaşı Aişə xanım və qızı Aygün onun bu vəziyyətini görüb hay-haray salmağa başlayıblar. İsa danışmağa halı olmadığından barmağını dodaqlarına yaxınlaşdırıb "susun" işarəsini verib. Bununla o, qonşuları narahat etməməyi ailəsindən istəyib. Bəli o, ölüm ayağında belə heç kəsi narahat etməyə razı olmayan böyük bir insan idi.

Həyatda öz sözü, öz mövqeyi, elmdə öz izi, öz məktəbi olan prof. İ.Abdullayev insanlığı qədər alim, alimliyi qədər insan idi. Onun alimliyi insanlığını, insanlığı isə alimliyini tamamlayırdı.

İnsan ömrü bir səfər, həyat isə əvvəli, axırı görünməyən uzun bir yoldur. İsa müəllim bu yolda öz səfərini şərəflə, ləyaqətlə başa vurdu. Bu dünyada övladlarına müqəddəs and yeri, şagirdlərə elm məbədi və çoxlu əsərlər, özünə isə "rəhmət"lə yad edilən abidə qoyub getdi.

Azərbaycanın dilbər guşələrindən olan Qazax torpağı bəşəriyyətə çox dahilər, mənəviyyatımızın səmasına çox ulduzlar bəxş etmişdir. Məncə əziz dostum İsa Abdullayev həmin ulduzlar arasında öz parlaqlığı ilə seçilir və Azərbaycan elmi dünyaya öz töhfələrini verdikcə həmin ulduzun parlaqlığı gün-gündən artacaqdır.

# AĞIR İTGİ

Yaşasaydı bu il altmış yaşı tamam olacaqdı. Lakin vaxtsız əcəl buna imkan vermədi. Düz bir il bundan əvvəl, əlli doqquz yaşında  xalqımızın alim-vətəndaş oğlu Şakir Ağabəy oğlu Məmmədov qıflətən dünyasını dəyişdi. O, 1947-ci ilin 10 sentyabrında Masallı rayonunun Xıl kəndində kolxozçu ailəsində dünyaya göz açmışdı. Hələ körpə ikən atasını itirən Şakir yetimliklə baş-başa qalaraq həyatın bütün çətimğnliklərini öz zərif uşaq çiyinlərində daşımalı olmuşdu. Böyük qardaşı, Xıl kənd məktəbinin ilk ali təhsilli məzunu Əfruz müəllim onun əllərindən tutaraq büdrəməkdən qorumuş, ona atalıq qayğısı göstərmişdi.

Şakir orta məktəbi qızıl medalla bitirib V.L.Lenin adına APİ-nin (indiki ADPU) riyaziyyat fakültəsinə daxil olmuş, və 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirərək fakültə elmi şurasının qərarı ilə institutda saxlanmışdı. Elmə böyük maraq və həvəs onu daima öz üzərində işləməyə sövq edib, nəticədə institutun aspiranturasına gətirib çıxardı. Tanınmış alim, prof. Ə.M.Məmmədovun rəhbərliyi altında namizədlik dissertasiyası üzərində işləməyə başladı. Prof. Ə.Məmmədov həmin illəri belə xatırlayır: "Mən Şakirə dərs demişdim. Hələ tələbə ikən onun riyazi təfəkkürünü və məntiqini duyub ona tələbə elmi cəmiyyətinin xətti ilə elmi iş verdim və o, konfranslarda çıxışlar edərək çox böyük uğurlar qazandı. Sonra mən bu işi bir qədər də genişləndirib ona dissertasiya mövzusu kimi işləməyi məsləhət gördüm. Dissertasiyanın mövzusu belə idi: "Jevrey tipli funksiyalar sinifləri üçün kvadratur və interpolyasiya düsturlarının qurulması və onların inteqral tənliklərin həllinə tədbiqi". Bu problem ilk dəfə Şakirin dissertasiyasında tədqiq olunmuş və onun aldığı nəticələr bütün dünya riyaziyyatçıları tərəfindən qəbul edilmişdi.

Doğrudan da Ş.Məmədov 1983-ci ildə Kiyev Dövlət Universitetində namizədlik dissertasiyası müdafiə edərkən

onun rəsmi opponentləri-Ukrayna EA-nın M.Qluşkov adına Kibernetika İnstitutunun baş elmi işçisi, fizika-riyaziyyat elmləri doktoru, professor B.K.Zaderko, M.Lomonosov adına MDU-nun dosenti Y.M.Jileykin, habelə dissertasiya müdafiə şurasının üzvləri, akademik İ.İ.Lyaşko, Kiyev universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru A.M.Bobko alınan nəticələri yüksək qiymətləndirmiş, dissertasiya müəllifinə həmin elmi axtarışları davam etdirməyi təkidlə tövsiyə etmişlər. O, bu tövsiyələrə laqeyd yanaşmadı, elmi fəaliyyətini müvəffəqiyyətlə davam etdirərək 30-dan artıq elmi əsərini keçmiş SSRİ-nin elmi məcmuələrində, xarici ölkə elmi jurnallarında çap etdirmişdi. Şakir müəllim aldığı elmi nəticələri alim həmkarları ilə müzakirə etməyi, fikir mübadiləsi aparmağı çox yüksək qiymətləndirirdi. Məhz buna gğrə də müxtəlif səpkili elmi konfrans, seminar və simpoziumlarda iştirak edirdi. Onun aldığı elmi nəticələr Kiyev, Sverdlovsk və başqa şəhərlərdə keçirilən konfranslarda yüksək qiymətləndirilmişdi, Şakir müəllim doktorluq dissertasiyası kimi yeni bir fundamental əsər ərsəyə gətirməyi planlaşdırırdı. Ona görə də o, ADPU-nun elmi şurasında doktorluq dissertasiyası mövzusunu təsdiq etdirmişdi.

O, təkcə alim kimi deyil, həm də gözəl bir müəllim kimi fəaliyyət göstərərək tələbə və müəllim kollektivi tərəfindən sevilirdi. Şakir müəllim 1987-ci ildən ADPU-nun riyaziyyat fakültəsinin dekan müavini, 1996-cı ildən isə həmin fakültənin dekanı vəzifəsində çalışdı. Onun fakültə dekanı vəzifəsinə seçilməsi fakültəyə yeni ab-hava, yaradıcılıq həvəsi gətirdi. Riyaziyyat fakültəsi tələbələri müxtəlif səviyyəli olimpiada və yarışlarda iştirak edərək qalib çıxırdılar. Fakültə elmi şurasının, müəllimlərinin fəaliyyətində bir canlanma əmələ gəlmişdi. O, fakültə dekanı kimi özünün yeni bir keyfiyyətini-təlim və tərbiyənin gözəl təşkilatçısı keyfiyyətini üzə çıxardı. Şakir müəllim fakültə dekanı olarkən belə elmi , elmi-metodiki fəaliyyətini davam etdirirdi. O, tələbələr üçün 10-a yaxın

dərslik və dərs vəsaiti hazırlamışdı. Təhsilin təşkili sahəsində fəaliyyətini gün-gündən genişləndirirdi. O, Tələbə Qəbulu üzrə Dövlət komissiyasının riyaziyyat seminarının rəhbəri kimi riyaziyyatdan test tapşırıqlərının tərtibi və seçilməsində müstəsna fəaliyyət göstərirdi.

Şakir müəllim işıqlı bir insan, əsil ziyalı idi. O, nəinki işlədiyi kollektivdə, eyni zamanda onu tanıyan bütün insanlar, dostları arasınnda böyük hörmətə malik insan idi. Təsadüfi deyildi ki, yaşından asılı olmayaraq bütün dostları ona "Dadaş", yəni "Böyük qardaş" deyə müraciət edirdilər. Bu işıqlı insan öz ziyası ilə gənclərimizin yolunu işıqlandırır, onları Vətənə, millətimizə məhəbbət və sədaqət ruhunda tərbiyə edirdi. O, bütün insanları birliyə, milli maraqlarımız xatirinə əl-ələ verib ümumi düşmənimizə qarşı mübarizə aprmağa çağırırdı. O, Vətənini, millətini, insanları çox sevirdi.

Artıq bir ildir ki, Şakir müəllim aramızda yoxdur. Dünyasını dəyişsə də, ünvan dəyişməyib. Əvvəlki kimi onun ünvanı yaxınlarının, dostlarının, sevimli tələbələrinin, onu tanıyan hər bir şəxsin ürəyindədir.

## MƏNALI ÖMÜR, İŞIQLI İNSAN

Hələ orta məktəbdə oxuyarkən yoldaşları onun balaca boyuna işarə vuraraq zarafatla deyirdilər ki, çox balacasan, səni instituta qəbul etməzlər. Lakin 1957-ci ilin payızında ("cücəni payızda sayırlar"- deyib atalar) məlum oldu ki, onun oxuduğu məktəbin məzunları arasından ali məktəbə qəbul olunan yeganə adam elə o olmuşdur.

Söhbət fizika-riyaziyyat elmləri doktoru, professor, görkəmli nəzəriyyəçi-fizik alim İsgəndər Həsən oğlu Cəfərovdan gedir. O, 1940-cı ilin dekabr ayının 30-da İmişli rayonunun Əlipənahlı kəndində anadan olmuşdur. Uşaqlığında yay fəslini yaylaqlarda (ermənilərin «Cermuk» adlandırdıqları «İstisu» dağlarındakı Murad Təpəsi, Layla Bulağı, Qiblə Bulağı, Qırx Bulaq, eləcə də Laçın-Kəlbəcər dağlarındakı Çal Bayır, Dəli Dağ, Lilpar, Pəri Çınqılı və s.), qış fəslini qışlaqlarda (Mil-Muğan düzləri, Kür və Araz ovalıqları) keçirərək, köçəri həyat yaşayan balaca İsgəndərin zehni qabiliyyətinin formalaşmasında və inkişafında gəzdiyi yerlərin füsunkar təbiəti xüsusi rol oynamışdır. 1951-ci ildə ailəsi oturaq həyata başladıqda, müəllimlərin onunla kiçik müsahibəsindən sonra onu birbaşa Sərxanlı kənd orta məktəbinin 5-ci sinfinə qəbul edirlər. 1957-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinun (hazırkı BDU-nun) fizika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. Universitetdə oxuyarkən müəllimləri bu balacaboy, arıq cüssəli oğlanın iti düşüncəsinə, məntiqi mühakimələrinə, geniş fantaziyasına heyran qalmışdılar. İsgəndərin istedadı və qabiliyyəti onun gələcək yolunu artıq müəyyən etmişdi. O, nəzəriyyəçi fizik olacaqdı! 1962-ci ildə BDU-nun Fizika fakültəsini fərqlənmə diplomu ilə bitirən İsgəndəri universitetdə saxlayırlar və elə həmin il o, dünya ali təhsil müəssisələrinin flaqmanlarından olan M.V.Lomonosov adına Moskva

Dövlət Universitetinun (MDU-nun) aspiranturasina daxil olur. MDU-nun Nəzəri Fizika kafedrasının müdiri, böyük nəzəriyyəçi alim, professor A.Sokolovun rəhbərliyi altında elmi axtarışlarına başlayan İ.Cəfərovun tədqiqat obyekti yüksək enerjilər fizikası, xüsusi halda, elementar zərrəciklərin zəif və elektromaqnit qarşılıqlı təsirlərinin öyrənilməsi olmuşdur. Uğurlu tədqiqat işləri tezliklə öz bəhrəsini vermiş və o, 1966-ci ildə MDU-da namizədlik, 1979-cu ildə isə doktorluq dissertasiyaları müdafiə etmişdir. Yeri gəlmişkən qeyd edək ki, İ. H. Cəfərovun namizədlik dissertasiyası üzrə opponent olan məşhur fizik D. D. İvanenkonun (V. Heyzenberqdən asılı olmadan atom nüvəsinin proton-neytron modelini irəli sürmüş dünya şöhrətli alim) müdafiə zamanı qeyd etdiyi aşağıdakı fikir diqqəti cəlb etməyə bilməz: «Mən kafedra seminarlarından İsgəndər Cəfərovu yaxşı tanıyıram. Hesab edirəm ki, o, elementar zərrəciklər və sahə nəzəriyyəsinin ən aktual problemləri üzrə sərbəst mövzu qoymaq, həll etmək və eləcə də bu məsələlərlə məşğul olmaq istəyən gənc tədqiqatçılara rəhbərlik etmək qabiliyyətinə malik yetkin alimdir». İ. H. Cəfərovun doktorluq dissertasiyası haqqında rəyində isə Rusiya EA P. N. Lebedev adına Fizika İnstitutu Nəzəri Fizika bölməsinin müdiri, Nobel mükafatı laureatı, Rusiya EA-nın akademiki V. L. Qinzburq belə qeyd etmişdir: «İsgəndər Cəfərovun elmi nəticələri elementar zərrəciklər fizikasının inkişafına mühüm töhfədir. Onlar universitetlərdə keçilən xüsusi kurslara, eləcə də dərsliklərə daxil edilməyə layiqdir». Eləcə də opponentlərindən biri M. V. Lomonosov adına MDU-nun Kvant nəzəriyyəsi və yüksək enerjilər fizikası kafedrasının professoru, məşhur nəzəriyyəçi-fizik V. İ. Qriqoryev İsgəndər müəllimi və onun doktorluq dissertasiyasını bütövlükdə belə qiymətləndirmişdir: «O, sözsüz, elementar zərrəciklər fizikası sahəsində işləyən həm nəzəriyyəçilər, həm də təcrübəçilər üçün çox faydalı olacaq aktual, dərin və orijinal əsərdir. Bu tamamilə təbiidir, çünki İsgəndər

Cəfərov elementar zərrəciklər fizikası sahəsində işləyən mütəxəssislər arasında artıq geniş tanınmış yüksək ixtisaslı alimdir».

Prof. İ.Cəfərov elementar zərrəciklər nəzəriyyəsi sahəsində öz məktəbini yaratmış, bir sıra namizədlik dissertasiyalarına rəhbərlik, doktorluq dissertasiyalarına isə məsləhətçi olmuşdur. Onun aldığı elmi nəticələr ölkəmizin hüdudlarından çox-çox uzaqlarda görkəmli alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Hər hansı bir alimin elmi nəticələrinə digər alimin istinad etməsi birinci üçün ən yüksək elmi göstəricidir. İ.H.Cəfərovun elmi işlərinə elm nəhəngləri – Rusiya EA-nın akademikləri L.Okun, B. Pontekorvo (dahi Enriko Ferminin tələbəsi), V.Faynberq, yapon alimləri T.Kinoşita, H.Terazava və başqaları istinad edərək onun aldığı nəticələrin sanballı və mühüm olduğunu göstərmişlər.

O, əmək fəaliyyətinə 1966-cə ildə Azərbaycan Politexnik İnstitutunda (indiki AzTU-da) başlasa da, elmə olan həvəsi, əsasını qoyduğu elmi nəzəriyyəni sona çatdırmaq istəyi onu rahat buraxmamış, bu ali məktəbdə uzun müddət işləməsinə imkan verməmişdir. İki ildən sonra, yəni 1969-cu ilin əvvəllərində o, Azərbaycan EA Fizika İnstitutuna baş elmi işçi vəzifəsinə keçmiş və 1978-ci ildən 1985-ci ilə kimi həmin institutun Nüvə Fizikası laboratoriyasına rəhbərlik etmişdir. İ.Cəfərovun gəlməsilə Nüvə Fizikası laboratoriyasında elmi-tədqiqat işləri yeni vüsət almış, elementar zərrəciklərin zəif qarşılıqlı təsirləri sahəsində yeni, perspektiv istiqamət yaranmış və uğurla inkişaf etmişdir. Onun rəhbərliyi və bilavasitə iştirakı ilə laboratoriya əməkdaşlarının aldıqları elmi nəticələr uzun müddət (1978-1985-ci illərdə) SSRİ EA-nın, eləcə də mütəmadi olaraq Azərbaycan EA-nın ilin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir.

Mən burada qarşıma professor İsgəndər Cəfərovun dərin və çoxşaxəli elmi yaradıcılığını şərh etmək məqsədi

qoymamışam, qəzet məqaləsində bunu etmək heç mümkün də deyildir. Lakin onun elmi yaradıcılığının, necə deyərlər, iki anı barədə bildiklərimi məmuniyyətlə qeyd etmək istərdim.

Dördfermionlu lokal zəif qarşılıqlı təsir halında spinorların yerdəyişmə qaydasını müəyyən edən məşhur Pauli-Firts münasibətini qeyri-lokal qarşılıqlı təsir halına ümumiləşdirməklə, İ.Cəfərov vacib münasibət tapmış və onun köməyilə göstərmişdir ki, zəif qarşılıqlı təsirin bir zərrəciklə mübadilə sxeminin məşhur Şvinger (Nobel mükafatı laureatı) və Tanıkava-Vatanabe modelləri ilə yanaşı daha bir variantı da mümkündür; o, həmin modeli qurmuş və ətraflı tədqiq etmişdir; qeyd edək ki, Avstriya fiziki H. Zinql lokal qarşılıqlı təsir halı üçün olan Pauli-Firts münasibətini qeyri-lokal qarşılıqlı təsir halına səhvən tətbiq edərək, belə nəticəyə gəlmişdir ki, zəif qarşılıqlı təsirin bir zərrəciklə mübadilə sxeminin üçüncü variantı Şvinger modelinə ekvivalentdır və heç bir yeni nəticəyə gətirə bilməz. İ. H. Cəfərov bu nəticənin səhv olduğunu göstərmiş və riyazi əsaslarla onu təkzib etmişdir.

İ.H. Cəfərovun elmi tədqiqatının əsas qayəsini elektromaqnit və zəif qarşılıqlı təsirlərin vahid nəzəriyyəsi üzrə işlər təşkil edir. O, zərrəciklərin elektrozəif qarşılıqlı təsirlərinin vahid nəzəriyyəsinin bir sıra variantını irəli sürmüşdür. Bu nəzəriyyələrdən biri mütəxəssislər arasında xüsusi maraq doğurmuşdur: məlumdur ki, leptonların elektrozəif qarşılıqlı təsirlərinin vahid Vaynberq-Salam modeli ikikomponentli neytrino sxemi üzrə qurulmuşdur. Bundan fərqli olaraq, İ. H. Cəfərov leptonların vahid elektrozəif qarşılıqlı təsir nəzəriyyəsini dördkomponentli neytrino sxemi üzrə yaratmışdır. Maraqlıdır ki, bu nəzəriyyə elə yeni, incə effektlərə gətirir ki, onların təcrübədə öyrənilməsi bu gün də həll edilməmiş qalan vacib bir məsələyə işıq salardı: təbiətdə neytrino sxemlərindən hansı – ikikomponentli, yoxsa dördkomponentli sxem – daha realdır? Akademik B.

Pontekorvo İ. H. Cəfərovun bu nəzəriyyəsini yüksək qiymətləndirmiş, eləcə də MDU nəzdində akademik N. N. Boqolyubov adına Mikroaləmin Nəzəri Problemləri İnstitutunun direktoru, MDU-nun professoru O. A. Xrustalyov İ. H. Cəfərovun dördkomponentli neytrino sxemi əsasında irəli sürdüyü nəzəriyyədən bəhs edərək demişdir: «İsgəndər Cəfərovun bu nəticələri çox mühüm və prinsipial olub, leptonların həqiqi sxeminin müəyyən edilməsi probleminin həlli yolunda yeni istiqamət açır. İsgəndər Cəfərovun elmi nəticələri elementar zərrəciklərin zəif qarşılıqlı təsirlərinin təbiəti və quruluşu haqqında biliklərimizi nəzərəçarpacaq dərəcədə dərinləşdirir və genişləndirir».

İ.Cəfərov qaynayan enerjisinin bir hissəsini də Naxçıvanda Pedaqoji İnstitutunun çiçəklənməsinə sərf etmişdir. O, 1985-ci ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunun (NaxDPİ-nin) rektoru vəzifəsinə təyin olunmuşdur. Bundan sonra institutda yeni fakültələr, laboratoriyalar, ixtisaslar meydana gəlməyə başladı, ən əsası, institut nəzdində Elmi hissə yaradıldı. Professor İ.Cəfərovun apardığı bu ciddi islahatlar və təhsilin məzmununda köklü dəyişikliklər nəticəsində NaxDPİ universitet səviyyəsinə qaldırıldı. Ailə vəziyyəti ilə əlaqədar olaraq o, öz arzusu ilə rektor vəzifəsindən istefa verdi. Çoxları inanmasa da mən dəqiq bilirəm, məhz öz davamlı xahişi ilə o, rektorluqdan azad edildi (məncə, hələlik İ.Cəfərov ilk rektordur ki, öz xahişi və ciddi təkidilə vəzifəsini tərk etmişdir).

1990-cı ildə ADPU-da Fizika fakültəsinin dekanı vəzifəsinə seçilən İ.Cəfərovun istedadının yeni keyfiyyəti üzə çıxdı. Tələbələrlə birbaşa kontaktda olan dekan İ.Cəfərov özünü bacarıqlı pedaqoq, həssas müəllim, qayğıkeş ata, yeri gələndə tələbələrin səmimi dostu, sirdaşı kimi göstərməyə başladı. O vaxt dekanlıqda onunla birlikdə işlədiyimdən, onun çoxlu müsbət xüsusiyyətlərinin, qətiyyətli və müstəqil

hərəkətlərinin şahidi olmuşam. Yaxşı yadımdadır, 20 Yanvar hadisələri yenicə baş vermişdi. Həmin vaxt İ.Cəfərov fakültə əmakdaşlarını toplayıb iclas keçirdi və hamımıza partiya biletindən imtina etməyi təklif etdi.

İsgəndər müəllim istedadlı nəzəriyyəçi-fizik olmaqla bərabər, deyərdim ki, həm də Azərbaycan dilinin kamil bilicisidir. Onun qurduğu cümlələrdə inanmıram ki, hər hansı bir filoloq qüsur tapa bilsin. Mən özüm bunun dəfələrlə şahidiyəm. O, yazdiğın hər sözə, hər cümləyə öz əsaslı iradını bildirməyə qadir olan alimdır. İstedadlar elə belə də olurlar! İsgəndər müəllimlə işləmək həm asan, həm də çətindir. Asandır ona görə ki, o, öz işini dəqiq bilir və onunla birlikdə çalışanı səhv etməyə qoymur. Çətindir ona görə ki, hamıya qarşı çox tələbkardır. Bir sənədin fakültədən çıxması və ya məqalənin nəşrə getməsi üçün onu dəfələrlə oxuyub yoxlamalıdır.

Tələbələrin taleyi ilə bağlı hansı məsələ müzakirə olunurdusa, İsgəndər müəllim həmin məsələni hökmən tələbənin xeyrinə həll edirdi. Fakültəmizdə həmin ənənə bu gün də davam edir.

Səhhətilə bağlı İsgəndər müəllim dekan vəzifəsindən də imtina edəsi oldu və 1995-ci ildən ADPU-nun Nəzəri Fizika kafedrasının müdiri vəzifəsində çalışır.

Prof. İ.Cəfərovun təhsil sistemində çalışması birbaşa tələbələrin, ümumilikdə təhsilin xeyrinə işlədi. Məhz o, ali məktəblərdə işlədiyi müddətdə bir neçə dərslik, dərs vəsaiti, elmi-kütləvi kitablar yazdı. Onun "Elementar zərrəciklər fizikasının əsasları" adlı dərsliyi ölkəmizin universitetlərinin fizika fakültələri tələbələri üçün çox əhəmiyyətli olub, bu sahədə yazılan ilk kitabdır. Onun elmin kütləviləşdirilməsi istiqamətində görülən işləri də xüsusi önəm daşıyir. İsgəndər müəllimin yazdığı elmi-kütləvi kitablar məhz bu məqsədə xidmət edir. Nisbilik nəzəriyyəsinin mühüm nəticələrindən olan kütlənin sürətdən asılılığı düsturunun

uzun müddət düzgün təfsir olunmaması Azərbaycan dilində ilk dəfə İsgəndər müəllimin geniş oxucu kütləsi üçün nəzərdə tutduğu "Doğrudanmı kütlə sürətdən asılıdır və doğrudanmı enerji olan yerdə həmişə kütlə də vardır?" kitabçasında ətraflı əsaslandırılmışdır.

Dünyanın elm və texnikanın sürətlə inkişaf etdiyi bir sıra ölkələrinin (Rusiya, ABŞ, Almaniya, İngiltərə və s.) mötəbər dövri elmi jurnallarında, toplularında və digər məcmuələrində 160-dan çox elmi əsərin, eləcə də ana dilində nəşr olunan 8 kitabın müəllifi olan İ.Cəfərov 70 yaşının kandarında olsa da, bu gün də tükənməz enerji və gənclik həvəsi ilə çalışır, elmi axtarışlar aparır, mühazirələr oxuyur, kitablar yazır.

Mən, əziz dostum – görkəmli nəzəriyyəçi-fizik, istedadlı müəllim, gözəl insan, Azərbaycan Dövlət Pedaqoji Universiteti Nəzəri fizika kafedrasının müdiri, professor İsgəndər Həsən oğlu Cəfərovu 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona möhkəm cansağlığı, tükənməz elmi və pedaqoji fəaliyyətində yeni-yeni uğurlar arzulayıram!

# KİTABIN İÇİNDƏKİLƏR

İlk nəşrə ön söz ....................................................................3
Yaradıcı şəxsiyyəti və bədii kamilliyin mümkünlüyü ..............5
Müəllifdən.........................................................................13
Ömrün qürbət payı ..........................................................14

**Pyeslər**
Yenə də qatarda...............................................................110
Bir elmi-tədqiqat sektorunda...............................................122

**Publisistika**
Mənalı ömürdən məqamlar ...................................................152
Böyük müəllim, istedadlı təhsil təşkilatçısı. ........................157
Görkəmli alim ....................................................................161
Nurlu insan........................................................................165
Ağır itgi ............................................................................170
Mənalı ömür, işıqlı insan ....................................................173

| | |
| --- | --- |
| *Nəşriyyatın direktoru:* | *Hüseyn Hacıyev* |
| *Texniki redaktor:* | *Raya Əliyeva* |
| *Dizayn:* | *Müşfiq Hacıyev* |
| *Cildçi:* | *Azad Həmzəyev* |
| *Montajçı:* | *Elmira İsmayılova* |

---

*Çapa imzalanmış 21.06.2011-ci il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi 11,5*
*Sifariş 207, sayı 200, qiyməti sərbəst*
*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyov küçəsi, 34*
*Tel: 493-74-10*